# AZƏRBAYCAN DİLİ 5

dövlət dili

METODİK VƏSAİT



Rafiq İsmayılov
Ülkər Nurullayeva
Reyhan Həbibli

Ümumi təhsil müəssisələrinin **5**-ci sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(dövlət dili)*

fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
trm@arti.edu.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

## MÜNDƏRİCAT

GİRİŞ ................................................................................................ 3-6

I BÖLMƏ. FƏRD VƏ TOPLUM
1-ci fəsil. Zəhmətkeşlik ........................................................................ 14-21
2-ci fəsil. Mərhəmət ........................................................................... 22-29
3-cü fəsil. Fədakarlıq ........................................................................... 30-38
Ümumiləşdirici təkrar ..........................................................................39-40
Kiçik summativ qiymətləndirmə ......................................................... 40

II BÖLMƏ. NİYƏ BELƏ DEYİRİK?
1-ci fəsil. Rəmzləşmiş adlar ................................................................ 43-50
2-ci fəsil. Rəvayətli ifadələr ................................................................. 51-60
3-cü fəsil. Çin səddi .............................................................................. 61-66
Ümumiləşdirici təkrar ..........................................................................67-68
Kiçik summativ qiymətləndirmə ......................................................... 68

III BÖLMƏ. BALACA QƏHRƏMANLAR
1-ci fəsil. Hüququ pozulmuşlar............................................................ 71-78
2-ci fəsil. Dostluq naminə .................................................................... 79-87
3-cü fəsil. Balaca səfillər....................................................................... 88-95
Ümumiləşdirici təkrar ........................................................................... 96
Kiçik summativ qiymətləndirmə .......................................................... 97

IV BÖLMƏ. TARİXİ ABİDƏLƏR
1-ci fəsil. Qalalar .................................................................................. 101-109
2-ci fəsil. Tarixi körpülər ...................................................................... 110-116
3-cü fəsil. Məbədlər ............................................................................. 117-125
Ümumiləşdirici təkrar ........................................................................... 126-127
Kiçik summativ qiymətləndirmə .......................................................... 127

V BÖLMƏ. SÜNİ İNTELLEKT VƏ ROBOTLAR
1-ci fəsil. Süni intellekt ........................................................................ 130-135
2-ci fəsil. Robot texnikası ..................................................................... 136-142
3-cü fəsil. Süni intellektlə gələcəyə doğru .......................................... 143-151
Ümumiləşdirici təkrar ........................................................................... 152-153
Kiçik summativ qiymətləndirmə .......................................................... 153

VI BÖLMƏ. AÇILMAMIŞ SİRLƏR
1-ci fəsil. Nəhənglərin sirri ................................................................... 157-164
2-ci fəsil. Qədim dövrün abidələri ........................................................ 165-174
3-cü fəsil. Yadplanetlilər........................................................................ 175-181
Ümumiləşdirici təkrar ........................................................................... 182-183
Kiçik summativ qiymətləndirmə .......................................................... 183

# GİRİŞ

## 1. Orta ümumi təhsilin əvvəlində şagirdlərin nitq bacarıqları və dil bilgiləri

Tədrisin səmərəliliyini təmin etmək üçün hər bir təhsil mərhələsinin əvvəlində şagirdlərin müvafiq fənn üzrə bilik və bacarıq səviyyələrinə bələd olmaq vacibdir. İbtidai təhsil pilləsində şagirdlər Azərbaycan dili (dövlət dili) fənni üzrə aşağıdakı bilik və bacarıqlara yiyələnirlər.

### Dinləmə

Şagird:

- Müxtəlif tipli bədii və qeyri-bədii mətnləri dinləyərkən vacib məqamları qeyd edir, mətnin məzmunu ilə bağlı sualları cavablandırır;
- Müxtəlif tipli bədii və qeyri-bədii mətnləri dinləyərkən vacib məqamları qeyd edir;
- Müzakirə və ya debat zamanı tərəflərin mövqelərinə adekvat reaksiya verir.

### Danışma

Şagird:

- Oxuduğu və ya dinlədiyi mətnləri nəql edir;
- Müxtəlif mövzular üzrə dialoqa girir, fikrini əsaslandırır;
- Araşdırdığı mövzu üzrə kiçik təqdimatlar edir;
- Qrafik və ya verbal-qrafik (şəkil, sxem, cədvəl) informasiyanı şərh edərkən rabitəli nitq nümayiş etdirir.

### Oxu

Şagird:

- Oxuduğu mətndəki məlumatları mənimsəyir və sualları cavablandırır;
- Kontekstdən çıxış edərək tanış olmadığı sözlərin mənasını müəyyən edir;
- Mətnin müxtəlif hissələrini əlaqələndirməklə nəticələr çıxarır;
- Bədii mətndəki obrazları təhlil edir, ideyanı müəyyənləşdirir;
- Qeyri-bədii mətndəki əsas faktları və fikirləri müəyyənləşdirir.

### Yazı

Şagird:

- Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır;
- Fikir və duyğularını müxtəlif yazı formalarında (məktub, esse, hekayə və s.) əks etdirir;
- Söz və şəkilçilərin yazılışında sadə orfoqrafiya normalarına riayət edir;
- Cümlələrin yazılışında qrammatik qaydalara əməl edir.

Qeyd etmək lazımdır ki, Azərbaycan dili (dövlət dili) fənnində dil qaydaları ayrıca məzmun xətti təşkil etmir. Bununla belə, Yazı məzmun xəttində bir sıra standartlar dil qaydalarının tətbiqini tələb edir. Bu baxımdan, dərslikdə Azərbaycan dilinin fonetik, leksik, qrammatik qanunauyğunluqları və bu qanunauyğunluqlardan doğan bir sıra qaydalar tədris olunur. Sözsüz ki, müvafiq dilçilik anlayışlarını mənimsətmədən həmin qaydaları tədris etmək mümkün olmaz. Ona görə də ibtidai təhsil səviyyəsində şagirdlərə aşağıdakı terminlər mənimsədilir. 5-ci sinifdən etibarən müəllimlər tədris prosesində bu terminlərdən istifadə edə bilərlər.

ahəng qanunu
bağlayıcı
çoxmənalı söz
cümlə üzvü
defis
dodaqlanan sait
dodaqlanmayan sait
durğu işarələri
əlifba
əmr cümləsi
əsas nitq hissələri
feil
feili birləşmə
heca
həqiqi məna
xəbər
incə sait
isim
işarə əvəzliyi
köməkçi nitq hissələri
məcazi məna
miqdar sayı
mübtəda
mürəkkəb cümlə
mürəkkəb söz
nəqli cümlə
nida cümləsi
nöqtə
qalın sait
sait
samit
kök və şəkilçi
şəxs əvəzliyi
sifət
sıra sayı
söz birləşməsi
sual cümləsi
sual əvəzliyi
ümumi və xüsusi isimlər
vergül
zərf

İbtidai təhsil səviyyəsində sadə orfoqrafiya qaydaları tədris olunur. Çox zaman sözlərin tələffüz forması yazıda tez-tez təsadüf olunan səhv yazılış kimi təqdim olunur. Lakin bu mərhələdə orfoepiya normaları tədrisin, eləcə də qiymətləndirmənin məqsədinə çevrilmir.

## 2. Dərslik komponentləri

Təqdim olunan dərslik komplekti məzmun standartlarının reallaşdırılması baxımından bir-birini tamamlayan üç kitabdan ibarətdir: dərslik, iş dəftəri və metodik vəsait.

Dil tədrisinin əsas məzmununu təşkil edən informasiya materialı – oxu üçün mətnlər, vizual materiallar, nitq bacarıqlarının inkişafı üçün zəruri dil qaydaları və tapşırıqlar dərslikdə verilir. Digər komponentlər dərsliyin məzmunu ilə bağlıdır.

Metodik vəsait dərslik komplektinin vacib komponentlərindən biridir. Müəllim üçün nəzərdə tutulmuş bu vəsaitdə məzmun standartları açıqlanır, mətnlərin oxunması üçün üsul və strategiyalar təklif olunur, hər bir dərs üzrə təlim nəticələri göstərilir, diferensial təlim yolları, əlavə resurslar və s. haqqında məlumat verilir.

İş dəftəri mənimsədilən bilik və bacarıqların tətbiqi üçün nəzərdə tutulmuş çalışmalardan ibarətdir.

## 3. Dərsliyin məzmun-struktur konsepsiyası

**Tədris vahidləri**. 5-ci sinifdə Azərbaycan dilinin (dövlət dili kimi) tədrisinin 6 mərhələdə keçilməsi nəzərdə tutulur. Dərslik komplektində bu mərhələlər ayrı-ayrı bölmələr (tədris vahidləri) şəklində təqdim olunmuşdur. Hər yarımil üçün 3 bölmə nəzərdə tutulmuşdur.

**Bölmənin strukturu**. Hər bir bölmə üç fəsil və ümumiləşdirici təkrardan ibarətdir.

Ümumiləşdirici təkrar dərsində müvafiq bölmədə mənimsədilmiş dil qaydalarının tətbiqi üzrə çalışmalar yerinə yetirilir.

**Fəslin strukturu**. Dərslikdə ən kiçik məzmun vahidi fəsildir. O, bir neçə dərsi (3-4) əhatə edir.

Fəsildə müəyyən mövzu zəminində müxtəlif nitq bacarıqlarının inkişafı üçün materiallar verilir. Bu materiallar oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri üzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır. Ona görə də dərsliyin məzmun-struktur vahidləri haqqında danışarkən bir dərsin deyil, fəsli təşkil edən bir neçə dərsin mərhələlərindən danışmaq lazım gəlir. Bu struktur hər bir fəsildə müxtəlif məzmun xətlərinə aid standartların taksonomiyanın səviyyələrinə uyğun reallaşdırılmasına imkan yaradır.

Fəsillərin strukturu aşağıdakı kimidir:

**Oxu**. Şagirdlər mətni oxuyur, mövzu üzrə yeni məlumat əldə edirlər; bu zaman müxtəlif oxu strategiyaları tətbiq olunur: növbəli oxu, istiqamətləndirilmiş oxu, qruplarla oxu və s. Bu mərhələdə mətndə ayrı-ayrı cümlə və abzaslardakı faktoloji informasiyanın mənimsənilməsi yoxlanılır, həmçinin yeni sözlərin izahı üzrə iş aparılır.

↓

**Şərhetmə və analiz**. Bu mərhələdə mətn ümumi məzmun səviyyəsində qavranılır. Belə ki, şagird mətnin ayrı-ayrı hissələrini əlaqələndirməklə nəticələr çıxarır, obrazlar haqqında fikir yürüdür, əsas fikri və mətndə onu dəstəkləyən fakt və hadisələri şərh edir.

↓

**Özünüifadə**. Əldə etdikləri məlumat və ya ideya ətrafında danışır (müzakirə, debat), yazır (təqdimat, esse), dinlədiklərini oxuduqları ilə müqayisə edirlər.

↓

**Ədəbi dil normalarına uyğun yazı**. Hər fəsildə yazı bacarığının inkişafı üçün praktiki əhəmiyyət daşıyan müəyyən dil qaydası mənimsədilir. Möhkəmləndirici tapşırıqlardan sonra şagirdlər həmin qaydanı yazıda tətbiq edirlər.

# 3. MƏZMUN XƏTLƏRİNİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ BÖLGÜSÜ

| Fəsil | Oxu | Dinləmə | Danışma |
|---|---|---|---|
| **1-ci bölmə. Fərd və toplum** | | | |
| 1 | Zəhmətkeşlik | Qazanılmış manat | |
| 2 | Mərhəmət | Hekayənin davamı | |
| 3 | Fədakarlıq | Əsl yoldaş | |
| 1-ci bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları) | | | |
| **2-ci bölmə. Niyə belə deyirik?** | | | |
| 1 | Rəmzləşmiş adlar | | |
| 2 | Rəvayətli ifadələr | Söz dəyirmandakıdır | |
| 3 | Çin səddi | | |
| 2-ci bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları) | | | |
| **3-cü bölmə. Balaca qəhrəmanlar** | | | |
| 1 | Hüququ pozulmuşlar | Kozetta | |
| 2 | Dostluq naminə | Tom və Bekki mağarada | |
| 3 | Balaca səfillər | Şahzadə və dilənçi | Nəqletmə (mətnin davamı) |
| 3-cü bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları) | | | |
| **4-cü bölmə. Tarixi abidələr** | | | |
| 1 | Qalalar | | |
| 2 | Tarixi körpülər | Körpüləri yandırmaq | Məlumat vərəqi əsasında danışma |
| 3 | Məbədlər | Səksən gün dünya ətrafında | |
| 4-cü bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları) | | | |
| **5-ci bölmə. Süni intellekt və robotlar** | | | |
| 1 | Süni intellekt | | |
| 2 | Robot texnikası | Müasir dronlar | |
| 3 | Süni intellektlə gələcəyə doğru | Uzaq planetin sirri | |
| 5-ci bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları) | | | |
| **6-cı bölmə. Açılmamış sirlər** | | | |
| 1 | Nəhənglərin sirri | | Təqdimat |
| 2 | Qədim dövrün abidələri | Ebru sənəti | Nəqletmə |
| 3 | Yadplanetlilər | Hekayənin davamı | |
| 6-cı bölmə üzrə ümumiləşdirici təkrar (Oxu və dil qaydaları) | | | |

| Yazı | Dil qaydaları | Dərs |
|---|---|---|
| | | |
| | Saitlərin növləri. Saitlərin yazılışı (ə-a, u-ü ...) | 5 |
| | Qoşasaitli sözlərin yazılışı | 5 |
| Hekayə | Ahəng qanunu. Şəkilçilərin variantları | 5 |
| | | 1 |
| | | |
| | Sözün sətirdən sətrə keçirilməsi | 5 |
| | Leksik və qrammatik şəkilçilər. Sözün başlanğıc forması | 5 |
| Qız qalası haqqında reklam vərəqi | Qoşa samitlə bitən təkhecalı sözlər | 4 |
| | | 1 |
| | | |
| Annotasiya | Samitlərin növləri | 6 |
| | "K" samitinin tələffüzü. K-y əvəzlənməsi | 4 |
| Şahzadə və dilənçi. İfadə yazı | "Q" samitinin tələffüzü. Q-ğ əvəzlənməsi | 5 |
| | | 1 |
| | | |
| Reklam vərəqi | Sözün quruluşca növləri | 6 |
| Məlumat vərəqi əsasında yazı | Mürəkkəb sözlərin yazılışı | 4 |
| | Sözün leksik və qrammatik mənası. Əsas və köməkçi nitq hissələri | 5 |
| | | 1 |
| | | |
| | İsim. Toplu isimlər | 5 |
| | İsmin hal şəkilçiləri | 4 |
| Divar qəzeti | İsmin mənsubiyyətə görə dəyişməsi | 5 |
| | | 1 |
| | | |
| | Söz birləşmələri | 5 |
| | Cümlə üzvləri: mübtəda, xəbər | 5 |
| Hekayə "Yadplanetli ilə görüş" | Cümlədə söz sırası. Məqsəd və intonasiya | 4 |
| | | 1 |

# 4. Məzmun standartları və təlim nəticələri

## 1.1. Dinləmə
## 1. Dinləyib-anlama
**Şagird:**
### 1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.
**1.1.1. Dinlədiyi mətnin məzmununu anladığını nümayiş etdirir.**
• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir.
• Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir.
• Dinlədiyi sadə fikrin mahiyyətini müəyyən edir.

**1.1.2. Dinlədiyi fikirləri şərh edir.**
• Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir.
• Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir.
• Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir.

## 2. Danışma
**Şagird:**
### 2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.
**2.1.1. Şifahi nitqində sadə fonetik, leksik, qrammatik normalara riayət edir.**
• Sözlərdə sait və samitlərin tələffüzü ilə bağlı orfoepik normalara riayət edir.
• Nitqində yeni öyrəndiyi söz və söz birləşmələrindən istifadə edir.
• Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir.
• Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır.

**2.1.2. Oxuduğu, dinlədiyi və müşahidə etdiyi hadisə və varlıqlar haqqında danışır.**
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır.
• Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır.
• Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir.

**2.1.3. Aldığı məlumatlar əsasında rabitəli mətn qurub danışır.**
• Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir.
• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır.
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir.
• Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir.

**2.1.4. Dialoq zamanı fikirlərə münasibət bildirir.**
• Dialoq zamanı fikirlərini rabitəli şəkildə çatdırır.
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür.
• Sualı cavablandırarkən fikrini əsaslandırır.

## 3. Oxu
**Şagird:**
### 3.1. Mətni mənimsədiyini nümayiş etdirir.
**3.1.1. Mətnləri düzgün və ifadəli oxuyur.**
• Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir.

**3.1.2. Mətndə rast gəldiyi yeni sözlərin mənasını müəyyən edir.**
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir.
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir.
• Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir.
• Sözləri ümumi mənalarına görə qruplaşdırır.

**3.1.3. Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir.**
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir.
• Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir.

**3.1.4. Mətnin müxtəlif hissələrini əlaqələndirməklə məzmununu şərh edir.**
• Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir.
• Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir.
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir.
• Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir.

**3.1.5. Mətni məzmun-struktur və dil-üslub baxımından təhlil edir.**
• Mətnin tərkib hissələrini müəyyən edir.
• Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir.
• Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür.
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir.
• Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir.
• Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir.
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir.
• Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir.

## 4. Yazı

**Şagird:**

### 4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.

**4.1.1. Topladığı məlumatları, fikir və duyğularını yazıda əks etdirir.**
• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir.
• Verbal informasiyanı qeyri-verbal şəkildə (və ya əksinə) ifadə edir.
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır.
• Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır.
• Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat və s.) yazır.
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır.
• Məqsədə uyğun olaraq sadə əməli yazı (annotasiya) yazır.

**4.1.2. Yazıda orfoqrafiya və punktuasiya normalarına riayət edir.**
• Sözlərin bitişik, ayrı və defislə yazılış qaydalarına riayət edir.
• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir.
• Məqsəd və intonasiyadan asılı olaraq cümlə sonunda uyğun durğu işarələrindən (nöqtə, üç nöqtə, sual işarəsi, nida işarəsi) istifadə edir.

• Həm ümumi, həm də xüsusi isim kimi işənən sözlərin yerindən asılı olaraq böyük, yoxsa kiçik hərflə yazıldığını müəyyənlşdirir.
• Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır.

**4.1.3. Yazıda fikrini aydın ifadə etmək üçün qrammatik qaydalara əməl edir.**
• Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik xüsusiyyətlərini izah edir.
• Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir.
• Sintaktik vahidlərin (söz birləşməsi, cümlə) konstruksiyasını və semantik xüsusiyyətlərini izah edir.
• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.3).
• Feilin inkar şəkilçisindən düzgün istifadə edir.
• Yazarkən cümlədə söz sırasına əməl edir.
• Söz birləşmələri və cümlələrin yazılışında sadə qrammatik normalara əməl edir.
• Söz tərkibindəki morfemlərin (-gah, -pərəst) semantikasından çıxış edərək sözün mənasını müəyyən edir.

Bölmə **1** **FƏRD VƏ TOPLUM**

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Zəhmətkeşlik** | | | | | |
| 1 | Qurucu | Oxu. Oxuyub-qavrama | 8-10 | 3 | 14 |
| 2 | Qurucu | Oxuyub-qavrama | 10-11 | 4 | 15 |
| 3 | Qazanılmış manat | Dinləmə. Danışma | 12 | 5 | 17 |
| 4 | Saitlərin növləri | Yazı | 13 | 6 | 20 |
| 2-ci fəsil. **Mərhəmət** | | | | | |
| 5 | Bir boşqab sıyıq | Oxu. Oxuyub-qavrama | 14-16 | 7 | 21 |
| 6 | Bir boşqab sıyıq | Danışma | 17 | 8 | 24 |
| 7 | Bir boşqab sıyıq | Dinləmə | 18 | 9 | 25 |
| 8 | Dialoq | Yazı | 19 | – | 27 |
| 9 | Qoşasaitli sözlərin yazılışı | Yazı | 20 | 10 | 28 |
| 3-cü fəsil. **Fədakarlıq** | | | | | |
| 10 | Əsl yoldaş | Dinləmə | 21 | 11 | 30 |
| 11 | Səxavətli ağac | Oxu | 22-24 | 12 | 32 |
| 12 | Səxavətli ağac | Oxuyub-qavrama | 25 | 13 | 34 |
| 13 | Səxavətli ağac | Yazı | 25 | – | 36 |
| 14 | Ahəng qanunu | Yazı | 26 | 14 | 37 |
| 15 | Ümumiləşdirici təkrar | | 27 | 15-16 | 39 |

# GİRİŞ DƏRSİ

**Təlim nəticələri:**
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir (st. 2.1.3).
- Verbal informasiyanı qeyri-verbal şəkildə (və ya əksinə) ifadə edir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** İlk dərs günü olduğunu nəzərə alaraq şagirdlərin tədris ilində istifadə edəcəkləri Azərbaycan dili dərsliyi ilə tanışlığı vacibdir. Müəllim şagirdlərin diqqətini dərsliyin mündəricat səhifəsinə yönəldir. Şagirdlər dərsliyi vərəqləyərək bölmələrin adlarını oxuyur, onların diqqətini çəkən mövzu, şəkillər haqqında ilkin təəssüratlarını danışırlar. Dərsliyin ilk bölməsinin adı müzakirə edilir. Şagirdlər "fərd" və "toplum" sözlərinin mənalarını izah edərək bu mövzuda bildiklərini danışırlar.

**Danışma**
**Dərslik, səh. 6**

**a.** Məlumatlarla tanış olun və tapşırıqları yerinə yetirin.

Tapşırıqda dünyanın ən zəngin insanlarından biri, Microsoft şirkətinin banisi və sahibi Bill Geytsin tövsiyələri təqdim edilib. Müəllim əvvəlcə şagirdlərin diqqətini həmin açar sözlərə cəlb edir. Bu anlayışlar haqqında şagirdlərin fikirləri dinlənilir. Müəllim şagirdləri danışma fəaliyyətinə cəlb etmək üçün yönəldici suallar verir:
- Dərs ilinin ilk günləridir. Siz bu tədris ilində qarşınıza hansı məqsədləri qoymusunuz?
- Məqsədə çatmaq üçün nə etmək lazımdır?
- Sizcə, uğur əldə etməyəndə geri çəkilmək, yoxsa davam etmək lazımdır? Nə üçün belə düşünürsünüz?

**Müəllimin nəzərinə!** Bu tapşırıq şagirdlərin mövzu ilə bağlı mülahizələrini bildirmək bacarığı ilə yanaşı, söz ehtiyatının inkişafına da yönəlmişdir. Açar sözlərin mənası şagirdlərə izah edilir. Onlar bu sözləri cümlədə işlədərək mənasını anladıqlarını sübut edir, daha sonra "əzmkar" sözünün izahını Bill Geytsin tövsiyələri ilə əlaqələndirirlər.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Əzmkar insanlar uğur qazanmaq üçün mübarizə aparırlar. Uğur əldə etməyəndə geri çəkilmirlər. Təslim olmur, yenidən cəhd edirlər.

Bill Geytsin təqdim edilmiş fikirlərinə münasibət bildirirlər:
- Gileylənmək əvəzinə, səhvlərinizdən dərs çıxarmağı bacarın.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Uğurun bir sirri səhvini anlamaq, yenidən düzgün qərarlar verməkdədir.
- Komanda ilə işləyərkən uğur qazanmaq daha asandır.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Uğur qazanmaq üçün əməkdaşlıq etməyi bacarmaq lazımdır. Məsələn, qrup işləri zamanı əməkdaşlıq etməyi bacaran qruplar tapşırığı daha tez və daha keyfiyyətli yerinə yetirir.

**Təqdimat**
**Dərslik, səh. 6**

**b.** "Həyatdakı idealım" mövzusunda təqdimat hazırlayın.

Şagirdlər "Həyatdakı idealım" mövzusunda təqdimat hazırlayırlar. Hazırlaşmaq üçün şagirdlərə müəyyən vaxt verilir. İlk növbədə şagirdlər "ideal" sözünü izah edirlər. Daha sonra tapşırıqda verilmiş təlimata uyğun şifahi təqdimat hazırlayıb sinfə təqdim edirlər. Tapşırıq rabitəli nitq söyləmək və təqdimetmə bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda verilmiş sualları da cavablandırmaqla həyatdakı idealları haqqında şifahi təqdimat hazırlayırlar. Sinifdə bir neçə şagirdin təqdimat etməsi üçün vaxt ayrılır.

**Dərslik, səh. 7**

**c.** Diaqrama əsasən suallara cavab verin.

Tapşırıq şagirdlərin qrafik məlumatları verbal məlumatlara çevirərək şərh etmək bacarığının inkişafına yönəlib. Bu tapşırıq növbəti "ç" tapşırığının asanlıqla yerinə yetirilməsinə təkan verir.

Cavab:

1. Diaqramdakı məlumatlar V$^a$ sinfinin "Uğurun sirri" haqqında fikirlərini əks etdirir.
2. Diaqramdakı sütunlar uğura səbəb olan xüsusiyyətləri əks etdirir.
3. Şagirdlərin çoxu zəhmətkeş insanların daha çox uğur qazandığını düşünürlər.

4-cü sualın cavabı müxtəlif ola bilər.

**Yazı**

**Dərslik, səh. 7**

**ç.** Aşağıdakı cümləleri davam etdirin. Diaqramdakı məlumatları əks etdirən bir neçə cümlə yazın.

V$^a$ sinfində "Uğurun sirri" mövzusunda sorğu keçirilib. Sorğuda 27 şagird iştirak edib. Şagirdlər uğur qazanmağın sirrini bacarıq, zəhmət, özünəinam, əməkdaşlıq, məsuliyyət, ünsiyyət, intellekt kimi xüsusiyyətlərdə görürlər. 27 şagirddən yeddisi uğurun sirrini bacarıqda, onu zəhmətdə, altısı özünəinamda, dördü isə əməkdaşlığı bacarmaqda görüb. Şagirdlərdən altısı məsuliyyət, ünsiyyət və intellekt kimi digər xüsusiyyətləri qeyd ediblər. Zəhmətkeşlik uğur qazanmaq üçün daha vacib xüsusiyyət kimi qeyd olunub.

**Dərslik, səh. 7**

**d.** Şəkillərə baxın. Verilmiş başlıqlara uyğun uğur hekayəsi düşünüb danışın.

**Diferensial yanaşma**

Şagirdləri dil səviyyəsinə görə qruplaşdırmaq tövsiyə edilir.

I qrup: Dil səviyyəsi yüksək olan şagirdlərdən ibarət qrup tapşırığı müstəqil şəkildə yerinə yetirir.

II qrup: Dil səviyyəsi orta olan şagirdlərdən ibarət qrupa bəzi açar ifadələr təqdim oluna bilər: vətən uğrunda, döyüş, Azərbaycan əsgəri, qələbə qazanmaq, üçrəngli bayraq, dalğalanmaq və sairə.

III qrup: Dil səviyyəsi zəif olan şagirdlərdən ibarət qrupa şəkli təsvir edən cümlələr qeyri-ardıcıl şəkildə təqdim oluna bilər. Şagirdlər isə bu cümləleri məntiqi ardıcıllıqla düzüb şəkli təsvir edirlər.

Cümlələr

Əli uşaqlıqdan rəsm çəkməyi sevirdi. Məktəbdə rəsm dərslərinə xüsusi həvəs göstərirdi. Rəna müəllimə onun bu istedadını ilk gündən hiss etmişdi. O, həmişə Əlinin çəkdiyi rəsmləri foyedə nümayiş etdirirdi. Rəna müəllimə Əliyə deyirdi:

– Əli, gərək sərgi təşkil edək. Bu gözəllikləri çox insan görməlidir.

Əli isə nədənsə tərəddüd edirdi. Biz də onu dəstəkləyirdik.

Dördüncü sinfin sonu idi. Biz ibtidai sinfi bitirirdik. Rəna müəllimədən ayrılırdıq. Bir gün Əli bizə xoş xəbər verdi. Yaxın günlərdə onun sərgisi keçiriləcəkdi. Bu xəbər hamımızı çox sevindirdi. Rəna müəllimə Əliyə baxıb fəxrlə dedi:

– Əli, özünə güvəndiyin üçün səninlə fəxr edirəm.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a (dərslik) |
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tapşırıq b (dərslik) |
| Verbal informasiyanı qeyri-verbal şəkildə və əksinə ifadə edir. | Tapşırıq c, ç, d (dərslik) |

# 1-ci fəsil
# ZƏHMƏTKEŞLİK

## 1-ci DƏRS
## Qurucu

**Təlim nəticələri:**
• Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir (st. 3.1.2).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.5).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir. Şagirdlər sözün mənasını və bu sözün onlarda yaratdığı assosiasiya haqqında danışırlar.

**Söz ehtiyatı**

**Dərslik, səh. 8**

**a.** "Qurmaq" sözünün izahlarına əsasən "qurucu" sözünün mənasını təxmin edin. Sizcə, kimləri qurucu adlandırırlar?

**Müəllimin nəzərinə!** "Qurmaq" çoxmənalı sözdür. Tapşırıqda bu sözün dörd müxtəlif mənası təqdim edilmişdir. "Qurmaq" sözünü müxtəlif mənalarda cümlədə işlətməklə şagirdlərə məna fərqini yaxşı hiss etdirmək mümkündür.

Cavab: 2. Tikmək, təsis etmək, inşa etmək. □ *Fabrik qurmaq.*

**Dərslik, səh. 8**

**b.** Aşağıdakı ifadələrin mənasını izah edin.

Tapşırıqda dövlətin qurucusu və şirkətin qurucusu ifadələri verilmişdir. Hər iki ifadədə qurucu sözü yaradan şəxs mənasında işlənmişdir.

**c.** Mətnin adına diqqət edin. Sizcə, bu mətndə nədən danışılır?

Tapşırıq şagirdlərin diqqətini əsas fikri müəyyənləşdirməyə kömək edən məqamlara yönəldir.

Cavab: Mətndə quran, yaradan, nəyi isə təsis edən, inşa edən bir şəxsdən, onun fəaliyyətindən danışıla bilər.

**Mətnlə iş.** "Qurucu" mətni müvafiq jest və mimikalardan istifadə edilməklə müxtəlif şagirdlər tərəfindən oxunur. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Dərslik, səh. 9. "Söz mücrüsü" rubrikası**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərin köməyi ilə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 10**

**ç.** Mətnə əsasən suallara cavab verin.

Suallar oxuyub-qavrama bacarığının inkişafına yönəlmişdir. Şagirdlər tapşırıqda verilmiş sualları cavablandırmaqla mətnin məzmununu faktoloji baxımdan qavradıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 10**

d. Hadisələrin ardıcıllığını müəyyən edərək "Qurucu" mətninin məzmununu danışın.

Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığı ilə yanaşı, danışma bacarığının da inkişafına yönəlmişdir.

**Müəllimin nəzərinə!** Mətni nəql edərkən şagirdlərin yeni öyrəndiyi söz və söz birləşmələrindən öz nitqində istifadə etməsini izləmək vacibdir.

Cavab: 1. Ağır iş gününün sonu. 2. Yeni oyun. 3. Uçurmaq həvəsi. 4. "Ev" qurmaq cəhdi. 5. Atanın məsləhəti. 6. Uğur qazanmağın sevinci.

**İş dəftəri, səh. 3**

a. "Qurucu" mətninə aid hekayə xəritəsini tamamla.

Bu tapşırıq müəllimə şagirdlərin həm mətnin məzmununu necə qavradıqlarını, həm də "məzmun", "ideya" anlayışlarını necə fərqləndirdiklərini yoxlamağa imkan yaradır. Mətnin məzmununu yarımbaşlıqlara uyğun yazmaq isə mətni düzgün strukturlaşdırmaq bacarığını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir. | Tapşırıq a, b (dərslik) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq c (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç (dərslik) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tapşırıq d (dərslik) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tapşırıq a (iş dəftəri) |

# 2-ci DƏRS
# Qurucu

**Təlim nəticələri:**

- Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür (st. 3.1.5).
- Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir (st. 3.1.2).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə "Qurucu" mətninin məzmununu xatırladır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 10**

a. Mətndə hansı epizodlar ataya aid aşağıdakı xüsusiyyətləri əks etdirir?

Şagirdlər mətnin müvafiq epizodlarını danışmaqla verilmiş xüsusiyyətlərin ataya aid olduğunu əsaslandırırlar. Bu tapşırıq tənqidi təfəkkürün inkişafına xidmət edir.

Cavab:

Ata qayğıkeşdir. İşdən yorğun qayıdan ata heç nəyə baxmayaraq, qızına vaxt ayırır. Onunla söhbət

edir, oyun oynayır.

Ata səbirlidir. Domino daşlarından qurduğu evi qızı dəfələrlə uçurdur. Lakin ata onun bu şıltaqlığını səbirlə izləyir.

Ata yaradıcı insandır. Hər gün oynadıqları eyni oyunlar azyaşlı qızını maraqlandırmır. Ata hər dəfə yeni oyunlar düşünür.

**Dərslik, səh. 10**

**b.** "Qızım pərt oldu, ancaq ruhdan düşmədi, inadından dönmədi" fikri qızın hansı xüsusiyyətini nümayiş etdirir?

Cavab: inadkar, əzmkar.

**İş dəftəri, səh. 4**

**a.** "Qurucu" mətnindəki əsas obrazlara aid xüsusiyyətləri seç və obraz xəritəsini tamamla.

Dərslikdəki "a" və "b" tapşırıqlarının müzakirəsi bu tapşırığın asanlıqla yerinə yetirilməsinə kömək edəcək.

**Dərslik, səh. 10**

**c.** Sizcə, Zeynəbdən sonra atası yenidən dominodan "ev" qursaydı, qızı onu da fikirləşmədən uçurardımı? Fikrinizi əsaslandırın.

Şagirdlər mətnin müxtəlif hissələrində verilmiş məlumatlara əsasən hadisələrə münasibət bildirirlər. Cavab təxminən belə ola bilər: Zeynəb domino daşlarından ev qurarkən əziyyət çəkdi. Dəfələrlə cəhd etdi. Məncə, atasının qurduğu evi uçurmağa əli gəlməzdi. Artıq bu işin zəhmətlə başa gəldiyini anlamışdı.

**Dərslik, səh. 10**

**ç.** Aşağıdakı fikri mətnin məzmunu ilə əlaqələndirib şərh edin.

Mətnin məzmununu xatırlamaq üçün tapşırıqda mətnə aid illüstrasiyalar təqdim edilmişdir.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini mətnə aid illüstrasiyalara yönəltmək tövsiyə edilir. Tapşırığın asanlıqla yerinə yetirilməsi üçün yönəldici suallarla şagirdləri istiqamətləndirmək olar:

- Birinci şəkildə Zeynəb nə edir?
- O, bir-birinin üstünə yığılmış daşları nə üçün uçurdur?
- Zeynəbin mimikalarına diqqət edin. Sizcə, o hansı hissləri keçirir?
- İkinci şəkildə Zeynəb nə edir?
- Bu şəkildə Zeynəbin mimikaları onun hansı hissi keçirdiyini nümayiş etdirir?

Şagirdlərin cavabı təxminən belə ola bilər:

*Başqasının əməyinə hörmət etmək lazımdır.*

Zəhmətkeş insanlar ətrafındakı insanların da əməyinə qiymət verir. Çünki o bütün uğurların, bütün gözəlliklərin zəhmət hesabına yarandığını anlayır. Ətrafdakıları qiymətləndirməzdən əvvəl düşünmək lazımdır: "Bunu yaratmaq üçün nə qədər əmək sərf olunub?".

*İnsanın öz əlləri ilə yaratdığı onun üçün əziz və doğma olur.*

Zeynəb domino daşlarından qurduğu evi uçurmağa icazə vermədi. Çünki bu evi zəhmətlə qurmuşdu, əmək sərf etmişdi.

**Söz ehtiyatı**

**Dərslik, səh. 11**

**d.** "Daş" sözünün mətndəki mənasını müəyyən edin. Bu sözü digər mənalarında cümlədə işlədin.

Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə yönəlib.

**Müəllimin nəzərinə!** "Daş" çoxmənalı sözdür. Tapşırıqda bu sözün üç müxtəlif mənası təqdim edilmişdir. "Daş" sözünü müxtəlif mənalarda cümlədə işlətməklə məna fərqi nümayiş etdiril-

mişdir.

Cavab: 2. Dama, nərd və başqa oyunlarda ağac, sümük və s.-dən düzəldilmiş fiqurlardan hər biri.

Tapşırığın ikinci etapında şagirdlər aşağıdakı sualı cavablandırmağa çalışırlar:

• Sizcə, “daş” sözünün hansı mənası əvvəl yaranmışdır?

Əvvəlcə şagirdlərin versiyaları dinlənilir, daha sonra müəllim düzgün cavabı söyləyir.

Cavab: Təbiətdə parçalar, yaxud böyük və kiçik kütlələr şəklində təsadüf olunan, suda həll olunmayan bərk cisim, süxur.

Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir, sözün həqiqi və məcazi mənası haqqında məlumatları şərh edir.

**Dərslik, səh. 11**

**e.** Nöqtələrin yerinə elə söz seçin ki, sifətlər məcazi mənada işlənsin.

Cavab: ağır gün, qara xəbər, şirin söz, açıq fikir.

Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasının ikinci hissəsində verilmiş şəkillərə yönəldir. Şagirdlərə aşağıdakı suallarla müraciət edərək beyin həmləsi edir:

• Sizcə qulağı ipdən asmaq olarmı? Bəs köynəyi necə?

Məcazi mənada işlənən söz birləşmələrini nümunələr gətirməklə məlumatı şərh edir.

**Dərslik, səh. 11**

**ə.** Fərqləndirilmiş sözləri “Söz mücrüsü”ndəki müvafiq frazeoloji birləşmələrlə əvəz edin.

Cavab:

1. Hər gün eyni sözləri eşitməyə **səbri çatmırdı**.
2. Uşaq **iki ayağını bir başmağa dirəmişdi**, öz dediyindən dönmürdü.
3. Babası arzuladığı velosipedi ona aldığı üçün **yerə-göyə sığmırdı**.
4. Zeynəb oynamaq istədiyi üçün atasının **başının üstünü kəsdirmişdi**.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tapşırıq a, b, c, ç (dərslik); tapşırıq a (iş dəftəri) |
| Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir. | Tapşırıq d, e, ə (dərslik) |

# 3-cü DƏRS
## Qazanılmış manat

**Təlim nəticələri:**

• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).
• Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir (1.1.2).
• Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat və s.) yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərə “Qurucu” mətninin mövzu, məzmun və ideyasını xatırladacaq suallar verir.

**Dinləmə**

**Dərslik, səh. 12**

**a.** Müəllimin oxuduğu “Qazanılmış manat” mətnini dinləyin. Mətnə əsasən cümlələri tamamlayın.

***Qazanılmış manat***

*Bir kişinin tənbəl oğlu var idi. Artıq böyüyüb yekə oğlan olmuşdu, amma bir qəpik də pul qazanmamışdı.*

*Ata artıq qocalmışdı. O, arvadını çağırdı və dedi:*

*– Bütün var-dövlətimi başqasına verəcəyəm. Oğluma isə heç nə qoymayacağam. O, tənbəldir, heç nəyə yaramır. Özü qazana bilməyən oğul ata malının da qədrini bilməz.*

*Bu sözlər anaya çox ağır gəldi. O, oğlunun tərəfini saxladı:*

*– Niyə qazana bilmir ki? Lazım olsa, qazanar.*

*Kişi öz fikrindən dönmədi:*

*– Axşama qədər, heç olmasa, bir manat qazansa, bütün var-dövlətimi ona verərəm.*

*– Yaxşı, – deyə arvadı razılaşdı.*

*Ana oğlunun yanına gedib ona bir manat verdi və başa saldı:*

*– Gündüz bir yerdə vaxtını keçir, axşam isə evə qayıdıb pulu atana ver. Ona de ki, bunu öz zəhmətinlə qazanmısan.*

*Oğlu belə də etdi. Bütün günü gəzib axşam evə qayıtdı. Pulu atasına verib şikayətləndi:*

*– Bütün günü əziyyət çəkmişəm...*

*Atası pulu alıb sobaya atdı. Oğul mat-məəttəl pulun dalınca baxdı. Amma yerindən tərpənmədi. Ata dedi:*

*– Bunu sən qazanmamısan, oğul!*

*Oğul çiynini çəkib incik halda atasından aralandı. Bir neçə gün beləcə keçdi. Oğul anasının verdiyi manatı özü qazandığını söyləyir. Ata da bu manatı ocağa atıb yandırır. Ana anlayır ki, bu yalan işə yaramayacaq. Odur ki oğluna belə deyir:*

*– Yox, oğul, biz atanı aldada bilmərik. İndi başqa çarə yoxdur. Gərək pulu özün qazanasan. Get işlə, gündə, heç olmasa, iki qəpik qazan, gətir atana ver. O sənə inanar.*

*Oğlu anasının sözünə qulaq asdı. Gedib bir həftə işlədi, bir az pul qazanıb atasına gətirdi. Atası həmin pulları da götürüb sobaya atdı:*

*– Yox, oğlum, bunları da sən qazanmamısan. Oğlu buna dözə bilmədi, sobaya tərəf atıldı, əllərini alovun içinə soxub pulları sobadan çıxardı və həyəcanla dedi:*

*– Ata, sən nə edirsən?! Bu pulları qazanmaq üçün bir həftə zəhmət çəkmişəm. Hələ də belim ağrıyır. Sən isə onları odda yandırırsan. Bu vaxt atası dedi:*

*– Bax indi inandım ki, bu pulları sən öz zəhmətinlə qazanmısan.*

Şagirdlər mətni dinləyir və tapşırığı yerinə yetirməklə məzmununu anladığını nümayiş etdirirlər.

Cavab:

1. ..., çünki fikirləşirdi ki, oğlu tənbəldir. Özü qazana bilməyən oğul ata malının da qədrini bilməz.
2. ... ki, gündüz bir yerdə vaxtını keçirsin, axşam isə evə qayıdıb pulu atasına versin.
3. ..., ona görə də pulu alıb sobaya atırdı.

**Danışma**

**Dərslik, səh. 12**

**b.** Oğlanın başına gələn hadisələri onun dilindən nəql edin. Aşağıdakı plandan istifadə edin.

Tapşırıq şagirdlərin rabitəli nitq qurmaq bacarığını inkişaf etdirir.

**Dərslik, səh. 12**

Dərslikdə təqdim edilmiş “c” və “ç” tapşırıqları şagirdlərin tənqidi təfəkkürünün inkişafına yönəlmişdir.

**c.** Oğlanın xarakterindəki əsas xüsusiyyətləri müəyyən edin. Mətndən uyğun epizodları danışmaqla fikrinizi əsaslandırın.

Cavab:

Oğlan *tənbəldir*. Artıq böyüyüb yekə oğlan olmuşdu, amma bir qəpik də pul qazanmamışdı. Bütün günü küçədə gəzir, vaxtını boş yerə keçirirdi.

Oğlan *yalançıdır*. Atasına bütün günü işlədiyini söyləyir, əslində isə heç bir iş görmürdü.

**Dərslik, səh. 12**

**ç.** Mətn boyu oğlanın xarakteri necə dəyişir? Mətnə istinad edərək fikrinizi əsaslandırın.

Cavab: Mətnin əvvəlində oğlan tənbəl, məsuliyyətsiz biri kimi təqdim edilir. Sonda isə səhvini anlayır, zəhmətin nə olduğunu öyrənir.

**Dərslik, səh. 12**

Tapşırıq şagirdlərin əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçmə və şərhetmə bacarıqlarını inkişaf etdirir.

**d.** Atanın dediyi fikri şərh edin və mətnin əsas ideyası ilə əlaqələndirin.
*Özü qazana bilməyən oğul ata malının da qədrini bilməz.*

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Zəhmət hesabına qazanılmayan var-dövlətin qədrini bilməzlər. Atadan qalan mal-mülkün hansı əziyyətlə qazanıldığını zəhmət nədir bilməyənlər anlamazlar. Qiymətini bilmədikləri üçün qorumazlar, tez bir zamanda dağıdarlar.

**Dərslik, səh. 12**

**e.** Oxuduğunuz "Qurucu" və dinlədiyiniz "Qazanılmış manat" mətnlərindəki ata obrazlarını müqayisə edin. Onların oxşar və fərqli cəhətlərini müəyyən edin.

Cavablar təxminən belə ola bilər:

Hər iki əsərdə ata övladının səhvini görür və səhvini düzəltmək üçün tərbiyəverici üsuldan istifadə edir.

**Dərslik, səh. 12**

**ə.** "Qurucu" və "Qazanılmış manat" mətnlərini mövzu, məzmun və ideya baxımından müqayisə edin.

Şagirdlər aşağı siniflərdə mövzu, məzmun, ideya anlayışları haqqında məlumat alıblar.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə mövzu, məzmun və ideyanı fərqləndirmək üçün köməkçi sualları xatırlada bilər:

1. Bu mətn nə haqdadır?
2. Bu mətndə nədən danışılır?
3. Bu mətni oxudum, nə anladım?

Cavab: "Qurucu" və "Qazanılmış manat" mətnlərinin mövzusu eynidir. Hər iki mətn zəhmətkeşlik haqqındadır. Mətnlər eyni fikri çatdırır: Zəhmətin bəhrəsi şirin olur.

**Yazı**

**İş dəftəri, səh. 5**

**a.** "Qazanılmış manat" mətni ilə bağlı rəy yaz.

Oxuduqları mətnə rəy yazmaqla şagirdlərdə tənqidi təfəkkür inkişaf edir, düzgün rəy bildirmə bacarığı formalaşır. Tapşırıq eyni zamanda yazı bacarıqlarını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|

| | |
|---|---|
| Hadisələrin səbəb-nəticəsini müəyyən edir. | Tapşırıq a (dərslik) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq b (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq c (dərslik) |
| Mətnin əsas ideyasını müəyyən edir. | Tapşırıq ç (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tapşırıq d, e (dərslik) |
| Dinlədiyi mətn haqqında rəy yazır. | Tapşırıq a (iş dəftəri) |

# 4-cü DƏRS
# Saitlərin növləri

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).
- Sözlərdə sait və samitlərin tələffüzü ilə bağlı orfoepik normalara riayət edir (st. 2.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 13**

**a.** Nöqtələrin yerinə qalın, dodaqlanan saitlər artırıb sözlər yaradın.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir. Saitlərin növləri haqqında məlumatı şərh edir.

**Dərslik, səh. 13**

**b.** Hansı sözdəki saitlər verilmiş xüsusiyyətlərə uyğundur?

Cavab: d – məzmun.

Müəllim “Bunları bilməliyik” rubrikasının ikinci hissəsindəki məlumatları şərh edir, nümunələr əsasında bəzi sözlərin səhv yazılmasının səbəbini izah edir:

Məsələn, necə yazılmalıdır: “sübut”, yoxsa “subut”? “Ü” və “u” saitlərinin ortaq xüsusiyyətlərə (dodaqlanan, qapalı) malik olması çox zaman sözün yazılışında səhvə yol açır.

**Dərslik, səh. 13**

**c.** “A” və “ə” saitlərinin ortaq xüsusiyyətlərini müəyyən edin.

Cavab: “A” və “ə” saitləri hər ikisi dodaqlanmayan, açıq saitlərdir. Nöqtələrin yerinə “ə” yazılmalıdır.

**Dərslik, səh. 13**

**ç.** “Ü” və “i” saitlərinin ortaq xüsusiyyətlərini müəyyən edin.

Cavab: “Ü” və “i” saitlərinin hər ikisi incə və qapalı saitlərdir. Nöqtələrin yerinə “i” yazılmalıdır.

**Dərslik, səh. 13**

**d.** “Ü”, yoxsa “u”?

Cavab: “Ü”.

**Dərslik, səh. 13**

**e.** “O”, yoxsa “a”?

Cavab: "O".

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin saitlərin növləri haqqında aldıqları biliklərin tətbiqi və möhkəmləndirilməsinə yönəlmişdir.

**İş dəftəri, səh. 6**

**a.** Saitləri cədvəl üzrə qruplaşdır.

Şagirdlər dərslikdə verilmiş məlumata əsasən cədvəli tamamlayırlar.

**İş dəftəri, səh. 6**

**b.** Cədvələ əsasən aşağıdakı saitlərin ortaq xüsusiyyətlərini müəyyən et.

Cavab:
"A" və "ə" – dodaqlanmayan və açıq saitlərdir.
"Ü" və "i" – incə və qapalı saitlərdir.
"Ü" və "u" – dodaqlanan və qapalı saitlərdir.

**İş dəftəri, səh. 6**

**c.** Hansı sözdəki saitlər verilmiş xüsusiyyətlərə uyğundur?

Cavab: c – budaq.

**İş dəftəri, səh. 6**

**ç.** Saitlərin növünə əsasən məntiqi ardıcıllığı davam etdir.

Cavab:
a, ı, o, u
e, ə, i, ö, ü
ı, i, u, ü
a, e, ə, o, ö
o, u, ö, ü
a, ı, e, ə, i

**İş dəftəri, səh. 6**

**d.** Səhv yazılmış sözləri seç və düzgün yaz. Həmin sözlərin iştirakı ilə cümlə qur.

Cavab: sübut, domino, zürafə, müdrik, nəqarat.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərdə saitlərin (*o – a, i – ü* və s.) yazılışı və tələffüzü qaydalarına riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 2-ci fəsil
# MƏRHƏMƏT

## 1-ci DƏRS
## Bir boşqab sıyıq

**Təlim nəticələri:**
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
• Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st. 2.1.1).
• Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür (st. 3.1.5).

**Oxu**

**Mətnlə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Bir boşqab sıyıq" mətnini səssiz oxuyurlar. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim yeni sözlərin mənasını izah etdikdən sonra mətn yenidən oxunur. Şagirdlər bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etməsinə diqqət edir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 15, "Söz mücrüsü" rubrikası.**

Müəllim şagirdlərin köməyi ilə "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını izah edir. Bundan əlavə, oxu prosesində tanış olmayan sözlər izah edilir.

**Dərslik, səh. 16**

**b.** Nöqtələrin yerinə "Söz mücrüsü"ndən uyğun gələn sözü müəyyən edin.

Cavab:
1. Qızım, yol çox sürüşkəndir, özündən *muğayat ol*.
2. İsti hava və susuzluq yolçunu *taqətdən salmışdı*.
3. Rəsul *tərəddüd edirdi*, hansı mövzuda esse yazacağına qərar verə bilmirdi.

**Dərslik, səh. 16**

**c.** Mətndən Mehri xalanın nitqinə aid cümlələri oxuyun. Sizcə, Mehri xala, doğrudanmı Elxanın qulağını dartacaqdı? Fikrinizi əsaslandırın.

Tapşırıq oxuyub-qavrama bacarığı ilə yanaşı söz ehtiyatının zənginləşdirilməsinə yönəlib.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 16**

Dərslikdəki "ç", iş dəftərindəki "a", "b", "c" tapşırıqları faktoloji qavramanı yoxlamağa xidmət edir. Şagirdlər bu tapşırıqları yerinə yetirməklə mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

**ç.** Mətnin məzmununa aid sualları cavablandırın.

**İş dəftəri, səh. 7**

**a.** "Bir boşqab sıyıq" mətninə əsasən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et.

Cavab: 1 – D; 2 – Y; 3 – Y; 4 – D; 5 – Y; 6 – D.

**İş dəftəri, səh. 7**

**b.** Mətndəki hadisələr bu məkanda baş vermir:

Cavab: b – İrkutskda.

**İş dəftəri, səh. 7**

**c.** Cümlələri mətnin məzmununa əsasən tamamla.

1. ..., çünki onların torpaqlarında müharibə idi.
2. ..., çünki ataları şəhid olmuşdu və ana ailəni təkbaşına saxlayırdı.
3. ..., bu ona daha çox çalışmaq üçün güc, qüvvət verirdi.
4. ..., artıq havalar istiləşmişdi.
5. ..., o, mehriban, gülərüz insan idi.
6. ..., Mehri xalanın sıyığın əvəzində bir şey alacağını düşündü.

**Danışma**

**Dərslik, səh. 16**

**d.** Yeni sözlərdən istifadə etməklə mətnin illüstrasiyalara uyğun epizodlarını danışın.

**Müəllimin nəzərinə!** Mətnin illüstrasiyaya uyğun epizodlarını nəql edərkən şagirdlərin yeni öyrəndiyi söz və söz birləşmələrindən nitqində istifadə etməsini izləmək vacibdir.

**Dərslik, səh. 16**

**e.** Mətnin hansı epizodlarında Mehri xalanın aşağıdakı xüsusiyyətləri əks olunur?

Şagirdlər mətnin müvafiq epizodlarını danışmaqla verilmiş xüsusiyyətlərin Mehri xalaya aid olduğunu əsaslandırırlar.

Cavab:

Mehri xala mərhəmətlidir. O, yay fəsli olmasına baxmayaraq, Elxanın satdığı yun əşyalardan aldı ki, o, evlərinə çörək pulu aparsın.

Mehri xala mehribandır. O, həmişə Elxanı görəndə mehribanlıqla hal-əhval tutardı.

Mehri xala anlayışlıdır. O, Elxana elə üsulla yardım etdi ki, Elxan inciməsin.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir. | Tapşırıq c (dərslik) |
| Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq ç (dərslik); tapşırıq a, b, c (iş dəftəri) |
| Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır. | Tapşırıq d (dərslik) |
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tapşırıq e (dərslik) |

# 2-ci DƏRS
# Bir boşqab sıyıq

**Təlim nəticələri:**
• Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
• Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə "Bir boşqab sıyıq" mətninin məzmununu xatırladır.

Yönəldici suallar:
1. Nə üçün Elxangilin ailəsi yaşayış yerlərini dəyişmişdi?
2. Elxanın ailəsi necə dolanırdı?
3. Elxan ailəsinə necə kömək edirdi?
4. Mehri xala kim idi?

**Danışma**
**Dərslik, səh. 17**

**a.** "Bir boşqab sıyıq" mətnini Elxanın dilindən nəql edin. Elxanın duyğu və düşüncələrini əks etdirməklə mətni genişləndirin.

Şagirdlər təxminən bu məzmunda əlavələr edə bilərlər:
• Doğma şəhəri haqqında fikirləri:
Kəlbəcərin hündür dağları, saf havası, sərin sulu bulaqları üçün çox darıxmışdım.
• Atasının məktubunu oxuyanda keçirdiyi hisslər:
Atamın mənə yazdığı məktubu oxuyarkən onunla üzbəüz söhbət etdiyimi düşünürdüm. Atamın mənə inamını, güvəndiyini hiss edirdim. Bu hiss mənə güc-qüvvət verirdi. Çətin anlarda köməyimə çatırdı.
• Ailəsinə qarşı münasibəti:
Anamın bizim üçün nə qədər əziyyət çəkdiyini görəndə tez böyümək istəyirdim. Mən də işləyim, çalışım. Anamın çəkdiyi yükü bir qədər azaldım.
• Mehri xala haqqında düşüncələri:
Mehri xala bu gün mənə elə bir yaxşılıq etdi ki, bunu ömür boyu unutmayacağam.
**Dərslik, səh. 17**

**b.** Sizcə, Elxan atasının yazdığı məktubu niyə cibində gəzdirirdi? Bu məktub Elxanın həyatına və xarakterinə necə təsir etdi?

Şagirdlərin cavabı təxminən belə ola bilər: Atasının yazdığı məktub ona stimul verirdi. Çətin anlarda bu məktubu oxuyur, güc-qüvvət alırdı. Atasının arzusunu yerinə yetirmək üçün çalışmağa həvəsləndirirdi.
**Dərslik, səh. 17**

**c.** Sizcə, bu mətni bitmiş hesab etmək olarmı? Fikrinizi əsaslandırın.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərin diqqətini hekayənin sonuncu cümləsinə cəlb etmək tövsiyə edilir. Müəllim şagirdlərə müraciətlə soruşur:
• Sizcə, sonuncu cümlənin sonunda nə üçün üç nöqtə qoyulub?
Üç nöqtənin funksiyalarından biri də fikrin bitmədiyini göstərməsidir.
Daha sonra şagirdlərə yönəldici suallar verilə bilər:
• Sizə Elxanın sonrakı həyatı ilə bağlı daha nə maraqlıdır?
Şagirdlərin sualları lövhədə qeyd olunur.

Dərslikdəki "ç", iş dəftərindəki "a" tapşırığı yaradıcı təfəkkürün inkişafına yönəlib. Şagirdlər mətnin

məzmununa yaradıcı yanaşaraq onu təxəyyüllərinə uyğun davam edirlər.

**Dərslik, səh. 17**

**ç.** Plana və illüstrasiyalara əsasən hadisələrin davamı ilə bağlı mətn qurun və nəql edin.

Şagirdlər əvvəlcə illüstrasiyaları nəzərdən keçirirlər. Daha sonra təxəyyülü də işə salmaqla mətnin davamını söyləyirlər.

**İş dəftəri, səh. 8**

**a.** "Bir boşqab sıyıq" mətnindən atanın Elxana yazdığı məktubla bağlı hissəni bir daha oxu. Aşağıdakı plana uyğun olaraq məktubun mətnini təxəyyülünə uyğun genişləndir.

Şagirdlər tapşırığa yaradıcı yanaşdığı üçün cavablar müxtəlif olacaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş məlumatlara uyğun olaraq mətni genişləndirir. | Tapşırıq a, ç (dərslik) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tapşırıq b, c (dərslik) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq a (iş dəftəri) |

# 3-cü DƏRS
# Bir boşqab sıyıq

**Təlim nəticələri:**
- Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).
- Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərə "Bir boşqab sıyıq" mətninin mövzu, məzmun və ideyasını xatırladacaq suallar verir.

**Dinləmə**

**Dərslik, səh. 18**

**a.** "Bir boşqab sıyıq" mətninin ikinci hissəsini dinləyin və öz variantınızla müqayisə edin.

***Bir boşqab sıyıq***
***(II hissə)***

*İstedadlı cərrah Elxan Mahmudov gənc olmasına baxmayaraq, dünyanın məşhur tibb mərkəzlərində təcrübə keçmişdi. İndi o, Bakı şəhərində özəl klinikaların birinə baş həkim təyin olunmuşdu. Elxan həkim səhər xəstələrə baş çəkdikdən sonra otağında oturub kompüterdə işləyirdi. Bu zaman köməkçisi otağa daxil olub məlumat verdi:*

*– Doktor, Goranboy rayonundan ağır vəziyyətdə bir xəstə daxil olub.*

*– Goranboydan?*

*– Bəli.*

*– Adı nədir?*

*– Mehriban...*

*– Köməkçi dəqiqləşdirmək üçün əlindəki vərəqə baxdı.*

*– Mehriban Səmədova. 58 yaşı var. İlkin diaqnoz ürək çatışmazlığıdır.*

*Elxan Mahmudov bir anlığa fikrə getdi. Sonra cəld ayağa qalxıb köməkçisinə dedi:*

*– Gedək baxaq.*

*Baş həkim çarpayıda huşsuz halda uzanmış qadına yaxınlaşıb diqqətlə ona baxdı. Əlindən tutub nəbzini yoxladı. Nəzərlərini qadının nurani çöhrəsindən çəkmədən köməkçisinə dedi:*

*– Həkimləri yığın. Xəstəni hərtərəfli müayinə edib dəqiq diaqnoz qoymaq lazımdır.*

*Bir saatdan sonra diaqnoz hazır idi. Bundan sonra doktor Mahmudov qətiyyətlə ayağa qalxdı:*

*– Əməliyyat otağını hazırlayın. Mənim xalatımı gətirin. Əməliyyatı mən özüm aparacağam. Bu zaman köməkçi baş həkimə yaxınlaşıb pıçıldadı:*

*– Doktor, bu çox bahalı əməliyyatdır. Biz xəstənin qohumları ilə əlaqə yarada bilməmişik. Bilmirik, onun əməliyyat xərclərini ödəməyə imkanı olacaqmı? Doktor Mahmudov köməkçisinə baxıb gülümsündü:*

*– Bu pasiyent artıq bütün xərcləri ödəyib.*

*– Nə vaxt? Nə qədər? – köməkçi təəccübləndi.*

*– Çox illər bundan qabaq. Bir boşqab sıyıqla...*

Şagirdlər mətni dinləyir və tapşırığı yerinə yetirməklə məzmununu anladığını nümayiş etdirirlər.

**Dərslik, səh. 18**

**b.** "Bir boşqab sıyıq" mətnində hansı epizodlar sizə təsir etdi? Mətnin həmin hissələrini danışın.

Tapşırıqla şagirdlərin diqqəti "epizod" anlayışına yönəldilir.

Müəllim "Yadda saxla" rubrikasındakı məlumatları nümunələr əsasında şərh edir.

Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərdə tənqidi təfəkkürü formalaşdırır. Belə ki, bu tapşırıqlarla onlar mətnin ideyasının açılmasında xarakterlərin rolunu izah edirlər.

**Dərslik, səh. 18**

**c.** "Bir boşqab sıyıq" mətnində hansı epizodlarda baş qəhrəmanların xarakteri açılır? Cədvəli tamamlamaqla obrazların davranışlarını mətnin ideyası ilə əlaqələndirin.

Şagirdlər obrazların aşağıdakı xüsusiyyətlərini vurğulaya bilərlər:

Elxan – çalışqan, düşüncəli, mərhəmətli, qayğıkeş və sairə.

Mehri xala – mehriban, anlayışlı və sairə.

**Dərslik, səh. 18**

**ç.** Atalar sözlərini hansı obrazın davranışı ilə əlaqələndirmək olar? Atalar sözlərini izah etməklə seçiminizi əsaslandırın.

Cavab: Atalar sözlərini Mehri xalanın davranışı ilə əlaqələndirmək mümkündür. Mehri xala Elxanın çətin günündə ona dəstək oldu. Vaxt gəldi, Elxan böyüdü, Mehri xalanın yaxşılığını heç vaxt unutmadı. Gün gəldi, Mehri xalanın çətin günündə onun etdiyi yaxşılıqlar özünə qayıtdı.

**İş dəftəri, səh. 9**

**a.** Hansı xüsusiyyətləri "Bir boşqab sıyıq" mətnindəki hər iki obraza aid etmək olar?

Cavab: a. həssas.

Elxanın xarakterinin açıldığı epizod: Elxan baxdı ki, çörək qabında cəmi üç dilim çörək qalıb. Çörəyə əl vurmayıb anasına və bacılarına saxladı. Öz-özünə düşündü: "Bir şey sataram. Puluna çörək alıb yeyərəm".

Mehri xalanın xarakterinin açıldığı epizod: İsti olmasına baxmayaraq, o, Elxanın satdığı yun corablardan birini aldı. Fikirləşdi ki, məcbur olmasa, yayın bu vaxtı yundan toxunmuş geyimlər niyə satsın ki?! Deməli, ehtiyacı var. Corabın pulunu verəndə isə qeyd etdi ki, bunu İrkutskda yaşayan qardaşı uşaqlarına göndərəcək. Ora həmişə soyuq olur.

**İş dəftəri, səh. 9**

**b.** Kriptoqramı həll et. "Bir boşqab sıyıq" mətninin əsas ideyasına uyğun atalar sözünü oxu.

Cavab: Yaxşılıq yerdə qalmaz.

• Mətnə istinad edərək bu atalar sözünün mətnin əsas ideyasını ifadə etdiyini əsaslandır.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Mehri xalanın Elxana etdiyi yaxşılıq onun özünə geri qayıdır.

**Dərslik, səh. 18**

**d.** Sizcə, müəllif mətni nəyə əsasən "Bir boşqab sıyıq" adlandırıb?

Cavab: b. Məzmunla bağlı açar sözü diqqətə çatdırır.

• Əsas obrazın xarakteri ilə əlaqələndirərək hekayənin adını dəyişin.

Tapşırığın ikinci hissəsi üçün şagirdlərin cavabı müxtəlif ola bilər, məsələn: minnətdarlıq hissi. Yaxşılıq eləyən yaxşılıq görər və sairə.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müxtəlif mətnləri mövzu, məzmun-struktur, ideya baxımından müqayisə edir. | Tapşırıq a (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir | Tapşırıq b, c (dərslik)<br>Tapşırıq a (iş dəftəri) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tapşırıq ç, d (dərslik)<br>Tapşırıq b (iş dəftəri) |

# 4-cü DƏRS
# Dialoq

**Təlim nəticələri:**

• Məqsəd və intonasiyadan asılı olaraq cümlə sonunda uyğun durğu işarələrindən (nöqtə, üç nöqtə, sual işarəsi, nida işarəsi) istifadə edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 19**

**a.** Cümlələrin "Bir boşqab sıyıq" mətnindəki hansı obrazların nitqinə aid olduğunu müəyyən edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərə dialoq haqqında biliklərini xatırladır. Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik" rubrikasına yönəldir.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları nümunələr əsasında izah edir.

**Dərslik, səh. 19**

**b.** Əməliyyatdan sonra Mehri xala ilə Elxan həkimin görüşünü, onlar arasındakı dialoqu təxəyyülünüzə görə təsvir edib yazın. Müvafiq durğu işarələrindən istifadə edin.

**Müəllimin nəzərinə!** Şagirdlər yazı fəaliyyətinə başlamazdan əvvəl tapşırığı şifahi şəkildə yerinə yetirmək tövsiyə edilir. Cütlərə Mehri xala və Elxanın nitqi haqqında düşünmək üçün vaxt verilir. Bir neçə cütlük qurduqları dialoqu şifahi təqdim edirlər. Daha sonra dialoqu yazırlar. Dialoqu rollu oxu ilə təqdim edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məqsəd və intonasiyadan asılı olaraq cümlə sonunda uyğun durğu işarələrindən (nöqtə, üç nöqtə,sual işarəsi, nida işarəsi) istifadə edir. | Tapşırıq a, b (dərslik) |

# 5-ci DƏRS
# Qoşasaitli sözlərin yazılışı

**Təlim nəticələri:**

• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 20**

**a.** Hansı sözdə saitlər yanaşı işlənmişdir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir. Qoşasaitli sözlərin yazılışı haqqında məlumatı şərh edir.

**Dərslik, səh. 20**

**b.** Cədvəldəki nümunələrə əsasən verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.

Cavab: şair, faciə, inşaat, maarif, təəccüb, stadion.

Müəllim “Yadda saxla” rubrikasındakı məlumatları şərh edir, nümunələr əsasında bəzi sözlərin səhv yazılmasının səbəbini izah edir.

Saitlə bitən sözün saitlə başlayan sözlə birləşməsi nəticəsində yaranmış mürəkkəb sözlərin yazılış qaydasını izah edir. Tələffüz zamanı birinci sözün sonundakı sait düşür.

**Dərslik, səh. 20**

**c.** Səhvləri düzəltməklə cümlələri köçürün.

1. Rasim çox mehriban və *aliaçıq* uşaqdır.
2. *Dayıoğlu* bu il universitetə qəbul olub.
3. *Səidə* saat altıda *radioda* çıxış edəcək.
4. *Zoomağazadan akvarium* balıqları üçün yem aldım.

**Dərslik, səh. 20**

**ç.** Qoşasaitli sözləri orfoqrafik normalara uyğun yazaraq cədvəl üzrə qruplaşdırın.

Cavab:

Eynicinsli qoşasaitli sözlər: inşaat, təbii, əmtəə.

Müxtəlifcinsli qoşasaitli sözlər: Nailə, müasir, fəal, kainat.

**Dərslik, səh. 20**

**d.** Dördündən biri səhv yazılmışdır:

Cavab:
1-ci sırada: maili.
2-ci sırada: təəssüf.
3-cü sırada: başıaçıq.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin qoşasaitli sözlərin yazılışı haqqında aldıqları biliklərin tətbiqi və möhkəmləndirilməsinə yönəlmişdir.

**İş dəftəri, səh. 10**

**a.** Krosvordu həll et. Tapdığın sözləri cədvəl üzrə qruplaşdır.

Cavab:
Yuxarıdan aşağı: 1 – zoopark; 2 – camaat; 4 – inşaat; 5 – saat; 8 – maaş.
Soldan sağa: 3 – emosional; 6 – şair; 7 – akvarium; 9 – fəal.

**İş dəftəri, səh. 10**

**b.** Səhv yazılmış sözləri seç və düzgün yaz.

Cavab: stadion, faciə, maneə, poema, təəccüb.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qoşasaitli sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 3-cü fəsil
# FƏDAKARLIQ

## 1-ci DƏRS
## Əsl yoldaş

**Təlim nəticələri:**
• Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).

**Mövzuya yönəltmə.** Müəllim lövhəyə "fədakarlıq", "fədakar" sözlərini yazır. Şagirdlər bu sözlərin mənasını izah edir. Şagirdlər açar sözləri izah edərkən fəslin mövzusu ilə tanış olurlar.

**Dinləmə**
Dərslik, səh. 21

a. Qeydlər götürməklə "Əsl yoldaş" mətnini dinləyin. Qeydlər əsasında mətnin qısa məzmununu danışın.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdləri qeyd götürmək haqqında təlimatlandırmaq tövsiyə edilir. Şagirdlər mətni dinləyərkən aşağıdakı məlumatlara diqqət edirlər:
• Obrazların adı
• Hadisələrin baş verdiyi məkan
• Hadisələrin ardıcıllığı

***Əsl yoldaş***

*Ənvər çoxdandır ki, velosiped almaq istəyirdi. Bu məqsədlə valideynlərinin verdiyi gündəlik xərcliyi daxıla yığırdı.*

*Artıq xeyli miqdarda pul yığmışdı. Dərs ilinin sonunda velosiped ala biləcəyini düşünəndə çox sevinirdi. Həsrətlə həmin günü gözləyirdi.*

*Məktəbdə Ənvərin Ziya adlı yaxın dostu var idi. Onunla bir parta arxasında otururdu və müəllimlərin də dediyi kimi, "aralarından su keçməzdi".*

*Dərs ilinin son günləri idi. Sinif rəhbəri şagirdləri sirkə aparacağını bildirdi. Bilet pullarını yığmağı Ziyaya tapşırdı. Ziya çox məsuliyyətli oğlan idi: bilet pulunu kimin verdiyini qeyd edir, pulları səliqə ilə üst-üstə yığır, bel çantasında gizlədirdi. Amma tətilə az müddət qalmışdı ki, Ziya içində pul olan paketi itirdi. O, pulları bel çantasına necə qoyduğunu çox yaxşı bilirdi. Sonra məktəb stadionunda futbol oynamaq üçün oğlanlarla qaçdığını və bel çantasını paltardəyişmə otağında qoyduğunu xatırladı. Ziya çantanın içindəkiləri yerə tökdü və pulu tapmaq ümidi ilə hər bir dəftərin vərəqlərini yoxladı, lakin axtarış nəticəsiz oldu. Sirrini Ənvərlə bölüşdü.*

*İndi nə edim? Uşaqlara nə cavab verəcəyəm? Bəlkə, elan verək? Yazaq ki, pul dolu paket itib...*

*Ənvər dostunun bu halına çox acıdı. Bir dəqiqə düşündü, sonra ayağa durub qətiyyətlə dedi:*

*– Məni burada gözlə, tezliklə qayıdacağam.*

*Yarım saatdan sonra Ənvər daxılı ilə qayıtdı, içindəkiləri skamyaya töküb dostundan soruşdu:*

*– Sənə nə qədər lazımdır?*

*Ziya pulları götürmək istəməsə də, Ənvər çox təkid etdi. Axırda Ziya pulları götürüb soruşdu:*

*– Bəs sən bu pulları nə üçün yığırdın?*
*– Artıq heç bir əhəmiyyəti yoxdur...*
*Axşam Ənvərin anası daxılın boş olduğunu gördü. Oğlundan soruşdu:*
*– Dözə bilmədin, həəə, xərclədin pulları?*
*– Xərclədim.*
*– Nəyə xərclədin?*
*Ənvər əhvalatı anasına danışdı.*
*Anası Ənvərin başını sığalladı:*
*– Afərin, oğlum! Əsl dost kimi davranıbsan!*
*Ertəsi gün səhər Ənvər qəribə bir səsə oyandı. O, otağından çıxanda gördü ki, atası dəhlizdə velosipedin sükanına söykənib zəngini çalır.*

Şagirdlər mətni dinləyir, dərslikdə və iş dəftərində bu mətnə aid tapşırıqları yerinə yetirməklə məzmununu anladığını nümayiş etdirirlər.

**Dərslik, səh. 21**

**b.** İllüstrasiyada təsvir edilmiş epizodlar mətnin hansı hissəsinə aiddir?

Cavab: 1 – c; 2 – b; 3 – a.

**İş dəftəri, səh. 11**

**a.** Dinlədiyin mətnə aid hekayə xəritəsini tamamla.

Şagirdlər dinlədikləri “Əsl yoldaş” mətninə aid hekayə xəritəsini tamamlamaqla bu mətni dinləyib-anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 21**

**c.** Mətnə istinad etməklə cümlələri tamamlayın.

Cavab:
1. ..., velosiped alsın.
2. ... artıq çoxdan gözlədiyi velosipedi alacaqdı.
3. ... o, bilet almaq üçün topladığı pulları itirmişdi.
4. ... dostunun halına acıdı.
5. ... övladlarının davranışını dəstəkləyirdilər.

**Dərslik, səh. 21**

**ç.** Aşağıdakı suallara cavab verməklə Ənvərə və onun valideynlərinə münasibət bildirin.

**Müəllimin nəzərinə!** Şagirdlər tapşırıqdakı sualları cavablandırmaqla yanaşı, obrazların davranışına münasibət bildirməlidirlər. Şagirdləri bu fəaliyyətə yönəltmək üçün köməkçi suallardan istifadə etmək olar:
- Nə üçün belə düşünürsən?
- Səncə, o, düzgün hərəkət etdi?
- Sən olsaydın, nə edərdin?

**Dərslik, səh. 21**

**d.** Sözün izahını oxuyun və mətnin ideyası ilə əlaqələndirin.

Tapşırıq şagirdlərdə əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçmə bacarığını formalaşdırır.

Cavab təxminən belə ola bilər: Fədakar insanlar öz mənafeyinə zidd olsa belə, başqalarına yardım edirlər. Özünü qurban verməkdən çəkinmirlər.

**Danışma**

**Dərslik, səh. 21**

**e.** Situasiyalara nümunə söyləməklə fədakarlıq haqqında danışın.

Tapşırıq şagirdlərə öyrəndiyi ifadələrdən nitq zamanı istifadə etmək imkanı yaradır.

Situasiyalara aid nümunələr:

• Canını Vətən uğrunda fəda etmək

*Qarabağ uğrunda döyüşlər gedirdi. Rəşid cəbhəyə getməyə hazırlaşırdı. Anası narahatlıqla dedi:*

*– Oğlum, bizim səndən başqa kimsəmiz yoxdur...*

*O, anasını qucaqladı:*

*– Ana, canım Vətənə fəda olsun! Təki Vətən sağ olsun!*

• Həyatını övladı üçün fəda etmək

*Elxanın atası Kəlbəcər uğrunda döyüşlərdə şəhid olmuşdu. Ailə üçün çətin günlər idi. Ana təkbaşına bir oğul və iki qız böyüdürdü. O, rayon mərkəzindəki idarələrdən birində xadiməlik edirdi. Lakin aldığı maaş uşaqların əyin-başına, yeməyinə çatmırdı. Ona görə corab, jaket toxuyur, onları sataraq ailəsini dolandırırdı.*

*Bu çətinliklərə baxmayaraq, ana övladlarını boya-başa çatdırdı. Elxan yaxşı təhsil aldı. Məşhur həkim oldu.*

• Ömrünü peşəsi üçün fəda etmək

*Böyük tənəffüs idi. Məktəbin yuxarı sinif şagirdləri həyətə toplaşmışdılar. Müəllimlərin çoxu da burada idi. Bir azdan Cəmil müəllim məktəbin qarşısındakı pilləkənlərdə göründü. Ağır-ağır addımlarla həyətə endi. Şagirdlər və müəllimlər onu hərarətlə alqışladılar. Cəmil müəllim həyəcan qarışıq qürurlu səslə dedi:*

*– Mən ömrümün 50 ilini bu məktəbdə müəllimlik etmişəm. Bu illər ərzində minlərlə şagirdə Azərbaycan dilinin gözəlliklərini öyrətməyə çalışmışam. İndi isə təqaüdə çıxıram. Doğma məktəbdən ayrılmaq o qədər də asan deyil...*

*Cəmil müəllimin səsi əsdi, sözünü davam edə bilmədi. Şagirdlər də kövrəlmişdilər. İllərini peşəsinə fəda edən müəllimləri üçün darıxacaqdılar.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq a, e (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b, c (dərslik); tapşırıq a (iş dəftəri) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq ç, d (dərslik) |

# 2-ci DƏRS
# Səxavətli ağac

**Təlim nəticələri:**

• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
• Nitqində yeni öyrəndiyi söz və söz birləşmələrindən istifadə edir (st. 2.1.1).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
• Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).

**Oxu**

**Mətnlə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində “Səxavətli ağac” mətnini səssiz oxuyurlar. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim şagirdlərin köməyi ilə yeni sözlərin mənasını izah etdikdən sonra mətn yenidən oxunur. Şagirdlər bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini

şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etməsinə diqqət edir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 22**

Müəllim oxu prosesində tanış olmayan və "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını izah edir.

**Dərslik, səh. 23**

**b.** Fərqləndirilmiş söz və ifadələri "Söz mücrüsü"ndəki qarşılığı ilə əvəz edin.

Tapşırıq şagirdlərin öyrəndikləri yeni sözlərin möhkəmləndirilməsinə yönəlib. Şagirdlər fərqləndirilmiş sözləri sinonimləri ilə əvəz edərək cümlələri tamamlayırlar.

Cavab:

1. Topladığı faktlar araşdırma üçün *işə yaradı.*
2. Ana əsgər oğlu üçün çox darıxırdı, *gözü yolda qalmışdı*.
3. Solmaz *səxavətli* qız idi, əlinə düşəni yoldaşları ilə bölüşərdi.

**Dərslik, səh. 24**

**c.** Mətnə əsasən illüstrasiyaların ardıcıllığını bərpa edin və qısa məzmunu danışın.

**Müəllimin nəzərinə!** Şagirdlərin mətnin məzmununu danışarkən öyrəndikləri yeni sözlərdən istifadə etmələri izlənilir.

Cavab: 4, 6, 2, 3, 1, 5.

İş dəftərində verilmiş "a", "b", "c" tapşırıqları faktoloji qavramanı yoxlamağa xidmət edir.

**İş dəftəri, səh. 12**

**a.** "Səxavətli ağac" mətnindəki hadisələr bu məkanda baş verir:

Cavab**:** d – meşədə.

**İş dəftəri, səh. 12**

**b.** Oğlanın istəklərini yerinə yetirmək üçün Alma ağacı nə təklif etdi? Mətnə əsasən şəkillərin ardıcıllığını bərpa et və cümlələri tamamla.

1. Oğlana əylənmək lazım idi. Alma ağacı dedi ki, almalarımı topla, sat və əylən.
2. Oğlan ev tikmək istəyirdi. Ağac dedi ki, kəs apar, özünə ev tik və xoşbəxt ol.
3. Oğlan səyahətə çıxmaq istəyirdi. Alma ağacı dedi ki, gövdəmi kəs, qayıq düzəlt, səyahətə çıx.
4. Oğlan dincəlmək istəyirdi. Alma ağacı dedi ki, qoca kötük elə buna daha çox yarayar. Gəl bura, dostum, otur və dincəl.

**İş dəftəri, səh. 12**

**c.** Mətnə istinad etməklə hadisələrin səbəbini müəyyən et.

Cavab:

Alma ağacı özünü xoşbəxt hiss edirdi, çünki oğlana kömək edə bilirdi.

Alma ağacı kədərlənirdi, çünki oğlan uzun müddət idi, onun yanına gəlmirdi.

**İş dəftəri, səh. 12**

**ç.** Oğlanın ağaca münasibəti necə idi? Mətnə əsasən cədvəli tamamla.

Tapşırıq mətndə açıq şəkildə ifadə olunmayan informasiya haqqında fikir yürütmə, sətiraltı informasiyanı şərhetmə bacarığını formalaşdırır.

Cavab:

Uşaq vaxtı: Hər gün ağacın yanına gələr, onunla oynayar, əylənərdi.

Böyüdükdən sonra: Yalnız ehtiyacı olanda, çətinliyə düşəndə ağacın yanına gəlirdi.

**Dərslik, səh. 24**

**ç.** Mətnə istinad edərək cədvəli tamamlayın.

Tapşırıq şagirdlərin mətnin tərkib hissələri və struktur elementləri ilə bağlı bilgilərini möhkəmləndirir.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərə mətnin strukturu: giriş, əsas hissə və sonluğu haqqında məlumat vermək tövsiyə edilir.

Şagirdlərin cavabları təxminən belə ola bilər:

Giriş:
- Meşədəki ağac
- Oğlanla ağacın dostluğu
- Xoşbəxt ağac

Əsas hissə:
- Oğlanın əylənmək arzusu
- Ev tikmək istəyi
- Səyahət arzusu

Sonluq:
- Oğlanın ağacın yanında dinclik tapması

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tapşırıq b (dərslik) |
| Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır. | Tapşırıq c (dərslik) |
| Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq a, b, c, ç (iş dəftəri) |
| Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və onların ekspressiv təsirini izah edir. | Tapşırıq ç (dərslik) |

# 3-cü DƏRS
# Səxavətli ağac

**Təlim nəticələri:**
- Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür (st. 3.1.5).
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə “Səxavətli ağac” mətninin məzmununu xatırladır.

**Dərslik, səh. 25**

**a.** Mətnə istinad edərək cədvəli tamamlayın. İdeyanın müəyyənləşməsində xarakterin rolunu izah edin.

Tapşırıq şagirdlərin hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən etmək bacarığını inkişaf etdirir.

Cavab:

Ağacın xarakteri: altruist, fədakar.

Epizod: Ağac oğlanın hər istəyini yerinə yetirməyə çalışır.

Oğlanın xarakteri: eqoist.

Epizod: Yalnız öz yaxşılığını düşünür. Qarşısındakının hissləri onu maraqlandırmır.

İdeya: Fədakar insan daim sevdiklərinin xoşbəxt olması üçün çalışır.

**Dərslik, səh. 25**

**b.** Sizcə, Ağacın özünü xoşbəxt hiss etməsinin səbəbi nə idi?

Tapşırıq mətndə açıq şəkildə ifadə olunmayan informasiya haqqında fikir yürütmə, sətiraltı informasiyanı şərhetmə bacarığını formalaşdırır.

Şagirdlərin cavabları müxtəlif ola bilər:

• Oğlan onun dostu idi. Dostunun hər hansı bir problemini həll edəndə özünü xoşbəxt hiss edirdi.

• Oğlana kömək edəndə sevdiyi bir insana faydalı olması onu xoşbəxt hiss etdirirdi.

**Dərslik, səh. 25**

**c.** Mətndə Ağac oğlanın hər istəyini yerinə yetirməyə çalışır. Obrazın bu xüsusiyyətinə münasibətinizi bildirin.

**Müəllimin nəzərinə!** Şagirdlərə fikirlərini ifadə etməyə yardımçı olan yönəldici suallar vermək tövsiyə edilir: Sizcə, kiminsə hər bir arzusunu yerinə yetirmək onda hansı xüsusiyyəti formalaşdırır?

**İş dəftəri, səh. 13**

**a.** "Səxavətli ağac" hekayəsində oğlana aid xüsusiyyətləri müəyyənləşdir və obraz xəritəsini tamamla.

Şagirdlər oğlanın bu xüsusiyyətlərini qeyd edə bilərlər: eqoist, düşüncəsiz, istifadəçi.

**Dərslik, səh. 25**

**ç.** İllüstrasiyaya əsasən sualı cavablandırın: Kötüyün üstündə oturan qoca, görəsən, kötüyün dibindən çıxan pöhrəyə baxaraq nə düşünür?

Tapşırıq şagirdlərin yaradıcı yanaşmasının, təxəyyüllünün inkişafına yönəlib.

Nümunə:

• Səni bu hala saldığım üçün təəssüflənirəm. Lakin kötüyündən qalxan pöhrələrin məni sevindirir. Deməli, bu, son deyil. Sən yenə də əvvəlki kimi qollu-budaqlı ağac olacaqsan.

• Bu pöhrələr tezliklə böyüyüb ağac olacaq. Mən yenə onun meyvəsindən, budaqlarından istifadə edəcəyəm.

**Dərslik, səh. 25**

**d.** Sizcə, "ağac" sözü nə üçün cümlə ortasında böyük hərflə yazılıb?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini "şəxsləndirmə" mövzusuna yönəldir. Şagirdlər aşağı siniflərdə şəxsləndirmə haqqında aldıqları məlumatlara əsasən bu sualı cavablandıra bilərlər.

Müəllim "Xatırla" rubrikasında verilmiş məlumatları şagirdlərə şərh edir.

**Dərslik, səh. 25**

**e.** Mətndən nümunələr söyləməklə ağacın şəxsləndirildiyini sübut edin.

Şagirdlərdən aşağıdakı cavablar gözlənilir:

• Ağac onun halına yandı. (Ağacın insan kimi kiməsə yazığı gəlir.)

• Alma ağacı dostunun işinə yaradığı üçün çox xoşbəxt idi. (Ağac insan kimi sevinir.)

**İş dəftəri, səh. 13**

**b.** Müəllif öz əsərini adlandırarkən nəyə istinad edib?

Cavab: Mətnin adı obrazın xarakteri ilə əlaqədardır.

**İş dəftəri, səh. 13**

**c.** Aşağıdakıları nəzərə alaraq mətni fərqli başlıqla adlandır.

1. Baş qəhrəmanların adı ilə: Oğlan və Ağac.
2. Məzmun və ya ideya ilə bağlı açar sözlə: əliaçıqlıq, comərdlik.

3. Obrazın nitqindən sitatla: “Təki sən xoşbəxt ol”, “Gəl bura, dostum” və s.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq a, b, c, ç (dərslik); tapşırıq a (iş dəftəri) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq b, c (iş dəftəri) |
| Sözlərin yazılışında orfoqrafik və qrammatik normalara əməl edir. | Tapşırıq d, e (dərslik) |

# 4-cü DƏRS
# Səxavətli ağac

**Təlim nəticələri:**
• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).
• Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə “Səxavətli ağac” mətninin mövzu, məzmun və ideyasını xatırladır.
• Hekayə nə haqdadır?
• Hekayədə nədən danışılır?
• Hekayədən hansı nəticələri çıxardınız?

**Dərslik, səh. 25**

**a.** Əsərdəki Ağac obrazını insan obrazı ilə əvəz edib təxəyyülünüzə uyğun elə bir mətn yazın ki, ideyası “Səxavətli ağac” hekayəsi ilə eyni olsun.

Yazı fəaliyyətinə başlamazdan əvvəl “beyin həmləsi” etmək tövsiyə edilir:
• Hekayədə hansı obrazlar iştirak edir?
• Ağacın əsas xüsusiyyəti necə idi? Ətrafınızda bu xüsusiyyətdə insanlar varmı?

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini növbəti tapşırıqda (b tapşırığında) verilmiş meyarlara cəlb etmək tövsiyə edilir. Şagirdlər bu meyarlarla yazıya başlamazdan əvvəl tanış olmalıdırlar ki, yazı yazarkən bu kriteriyalara əməl etsinlər.

Yazıdan əvvəl bu meyarlar müzakirə edilməlidir:
• Mətn tərkib hissələrinə (giriş, əsas hissə, sonluq) ayrılıb.
• Mətnin giriş hissəsində hadisələrin yeri, zamanı və əsas obrazlar haqqında məlumat verilib.
• Mətnin əsas hissəsində problemin yaranması və həlli öz əksini tapıb.
• Sonluq hissəsində hadisələrdən çıxardığı nəticə ifadə olunub.
• Mətn orfoqrafik normalara uyğun yazılıb.

Şagirdlər Ağac obrazını təxminən bu insan obrazları ilə əvəz edə bilərlər: ana, ata, dost və s.

**Dərslik, səh. 25**

**b.** Bir-birinizin yazısını aşağıdakı meyarlara əsasən yoxlayın.

Tapşırıq şagirdlərin özünüqiymətləndirmə bacarığının inkişafına xidmət edir. Bu bacarığa yiyələnən şagirdlər öz işlərinə tənqidi yanaşır, səhvləri daha tez müəyyən edir, obyektiv olurlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır. | Tapşırıq a (dərslik) |
| Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir. | Tapşırıq b (dərslik) |

# 5-ci DƏRS
# Ahəng qanunu

**Təlim nəticələri:**
• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 26**

**a.** Hansı sözün tərkibindəki saitlərin hamısı qalındır?

Cavab: d – çalışqan.
Şagirdlər saitlərin növləri haqqında qazandıqları biliklərdən istifadə etməklə tapşırığı yerinə yetirirlər. Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik" rubrikasına yönəldir.
Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları izah edir. Ahəng qanunu haqqında məlumat verir.
**Dərslik, səh. 26**

**b.** Sözləri ahəng qanununa uyğun qruplaşdırın. Hər sütuna daha bir söz özünüz əlavə edin.

İncə saitlərin ahəngi: *səmimi, sülhsevər, dözümlü.*
Qalın saitlərin ahəngi: *abadlıq, fayton, qohumluq.*
Ahəng qanununa tabe olmayan: *vəfalı, qayğıkeş, həssas.*
**Dərslik, səh. 26**

**c.** Sözlərdə təkrar olunan hissəni müəyyən edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini sözün kökünə yönəldir.
Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları izah edir. Sözün tərkibi haqqında məlumat verir.
**Dərslik, səh. 26**

**ç.** Verilmiş sözləri kök və şəkilçiyə ayırın.

Cavab**:** səxavət+li, gör+dü+lər, dost+luq, ev+imiz, dəniz+çi, gül+dan, mağaza+dan, qələm+lər.
**Dərslik, səh. 26**

**d.** "Oxudu" sözündəki şəkilçini müəyyən edin. Həmin şəkilçini aşağıdakı sözlərə artırın.

Cavab: "Oxudu" sözündə -dı$^4$ şəkilçisi iştirak edir; qaçdı, öyrəndi, toxudu, düşündü.
**Dərslik, səh. 26**

**e.** Nümunəyə əsasən sözdəki şəkilçilərin iki cür yazılan və ya dörd cür yazılan olduğunu müəyyənləşdirin.

dənizdən – dəniz+dan$^2$
gözləri – göz+lar$^2$+ı$^4$
babalarımızın – baba+lar$^2$+ımız$^4$+ın$^4$

yaxşılaşdı – yaxşı+laş$^2$+dı$^4$
getmək – get+maq$^2$
başlamışıq – baş+la$^2$+mış$^4$+ıq$^4$

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin ahəng qanunu, sözün tərkibi, şəkilçilərin variantları haqqında aldıqları biliklərin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 14**

**a.** Ahəng qanunu pozulmuş sözləri seç.

Cavab: fədakar, səxavətli, istifadəçi.

**İş dəftəri, səh. 14**

**b.** Qalın saitlərin ahəngi olan sözləri seç.

Cavab: duyğu, oğlan, budaq, yorğun.

**İş dəftəri, səh. 14**

**c.** İncə saitlərin ahəngi olan sözləri seç.

Cavab: gövdə, kötük, pöhrə.

**İş dəftəri, səh. 14**

**ç.** Sözləri kök və şəkilçiyə ayıraraq cədvəli doldur.

dostluq – dost+luq
gəzdilər – gəz+di+lər
döyüş – döy+üş

**İş dəftəri, səh. 14**

**d.** Uyğunluğu müəyyən et.

Cavab: meşəlik, qaçmaq, qardaşlıq, getmək, güclü, səbirli, yağlı, quyruqlu.

**İş dəftəri, səh. 14**

**e.** Nümunəyə baxaraq sxemi tamamla.

Cavab: qırxıncı, birinci, sonuncu, üçüncü, başla, gözlə, dağlar, kəndlər.

**İş dəftəri, səh. 14**

**ə.** Nümunəyə əsasən sözlərdəki şəkilçilərin iki və ya dörd cür yazıldığını müəyyənləşdir.

Cavab: -ın$^4$, -çı$^4$, -a$^2$, -ı$^4$, -dakı$^2$.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

Dərslikdə verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 27**

**1.** "Nağıl" sözündəki saitlərin oxşar xüsusiyyətlərini müəyyən edin.

Cavab: d – dodaqlanmayan, qalın.

**Dərslik, səh. 27**

**2.** Verilmiş saitlərin xüsusiyyətlərinə əsasən sıranı davam etdirin. Seçiminizi əsaslandırın.

Cavab:
a, ı, o, u (qalın saitlər)
e, ə, i, ü, ö (incə saitlər)
ö, ü, o, u (dodaqlanan saitlər)
ı, i, u, ü (qapalı saitlər)

**Dərslik, səh. 27**

**3.** Qoşasaitli sözləri orfoqrafik normalara uyğun yazaraq cədvəl üzrə qruplaşdırın.

Cavab:
Eynicinsli qoşasaitli sözlər: camaat, bədii.
Müxtəlifcinsli qoşasaitli sözlər: təbiət, maili, müalicə, mətbuat, əmioğlu.

**Dərslik, səh. 27**

**4.** Ahəng qanununa tabe olmayan sözü seçin. Seçiminizi əsaslandırın.

Cavab: e. müdafiə.
Əsaslandırma: Sözün tərkibində həm qalın, həm də incə sait var.

**Dərslik, səh. 27**

**5.** Şəkilçilərə müvafiq söz kökləri düşünüb yazın.

Cavab:
-dan² – kitabdan, dəftərdən
-çı⁴ – pambıqçı, əkinçi, traktorçu, gülçü
-da² – kitabda, evdə
-lıq⁴ – dağlıq, birlik, dostluq, güllük

**Dərslik, səh. 27**

**6.** Cümlələrdə səhv yazılmış sözləri müəyyən edin. Həmin sözləri orfoqrafik normalara uyğun yazın.

Cavab:
1. *Həşəratlar* əkinə ziyan vurublar.
2. Anam albalı *kompotu* bişirmişdi.
3. *İnşaatçılar* yeni binanın tikintisinə başlayacaqlar.
4. Şaxtalı havada *başıaçıq* gəzmə.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# Kiçik summativ qiymətləndirmə

İş dəftərinin 15-16-cı səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq 1, 2 (iş dəftəri) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tapşırıq 3, 4 (iş dəftəri) |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tapşırıq 5, 6, 7, 8, 9 (iş dəftəri) |

Bölmə **2** # NİYƏ BELƏ DEYİRİK?

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Rəmzləşmiş adlar** | | | | | |
| 1 | Poçt qutusu | Danışma. Oxu | 30-33 | 17 | 43 |
| 2 | Poçt qutusu | Danışma | 33-34 | 18 | 45 |
| 3 | Rəmzə çevrilmiş adlar | Yazı. Danışma | 34 | – | 47 |
| 4 | Sözün sətirdən sətrə keçirilməsi | Yazı | 35 | 19 | 48 |
| 2-ci fəsil. **Rəvayətli ifadələr** | | | | | |
| 6 | Çünki oldun dəyirmançı... | Danışma. Oxu | 36-39 | 20 | 51 |
| 7 | Çünki oldun dəyirmançı... | Danışma. Oxu | 39-40 | 21 | 53 |
| 8 | Bədii və qeyri-bədi mətnlər | Oxu | 40-42 | 22 | 55 |
| 9 | Gəmiləri yandırmaq | Oxu | 42 | – | 57 |
| 10 | Leksik və qrammatik şəkilçilər. Sözün başlanğıc forması | Yazı | 43 | 23 | 59 |
| 3-cü fəsil. **Çin səddi** | | | | | |
| 11 | Dünyanın ən uzun divarı | Oxu | 44-45 | 24 | 61 |
| 12 | Böyük Çin səddi | Oxu | 46-47 | 25 | 62 |
| 13 | Şəki Xan sarayı | Yazı. Danışma | 47 | 26 | 63 |
| 14 | Eynicinsli və müxtəlifcinsli qoşa samitlə bitən təkhecalı sözlər | Yazı | 48 | 27 | 65 |
| 15 | Ümumiləşdirici təkrar | | 49 | 28-29 | 67 |

# GİRİŞ DƏRSİ

**Təlim nəticələri:**
- Mətndən əsas fikri müəyyənləşdirməyə imkan verən məqamları seçir (st. 3.1.5).
- Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir (st. 2.1.3).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 28**

**a.** Mətnlərin başlıqlarını oxuyun. Sizcə, bu ifadələrdən hansı situasiyalarda istifadə edilir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

Müəllimin nəzərinə! Şagirdlərin diqqətini mətnin yarımbaşlıqları ilə yanaşı, illüstrasiyalarına da yönəltmək tövsiyə edilir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 29**

**b.** İfadələrlə onların mənalarını uyğunlaşdırın.

**Müəllimin nəzərinə!** Mətnlərin oxunmasını qruplarla iş şəklində təşkil etmək məqsədəuyğundur.

Şagirdlər 4 qrupa ayrılırlar. Hər qrup bir mətni oxuyur və sinfə nəql edir. Daha sonra onlar "b" tapşırığındakı cavablar arasından öz mətnlərinə uyğun olanı seçib fikirlərini əsaslandırırlar.

Cavab:

*Dəyirmi masa* – Danışıqlarda tərəflərin bərabərhüquqlu olduğunu bildirir.

*Bir kərə yüksələn bayraq bir daha enməz!* – Baş tutmuş hər hansı bir istəyin daimi olacağına inamı ifadə edir.

*Yalançının evi yandı, heç kim inanmadı* – Bir neçə dəfə yalan danışıb inamı itirən adamın doğru sözünə də inanılmadığını bildirir.

*Axillesin dabanı* – Hər hansı insanın zəif cəhəti haqqında deyilir.

**Dərslik, səh. 29**

**c.** Oxuduğunuz məlumatlara və əlavə biliklərinizə əsasən "Dilimizdəki məsəllər" mövzusunda təqdimat hazırlayın.

Şagirdlər "Dilimizdəki məsəllər" mövzusunda şifahi təqdimat hazırlayacaqlar. Əvvəlcə onlar tapşırıqda verilmiş təlimatla tanış olurlar. Verilmiş müəyyən vaxt ərzində dəftərlərində mövzu haqqında qeydlər aparırlar. Daha sonra təqdimat edirlər.

**Müəllimin nəzərinə!** Müəllim bu mövzu ilə bağlı şagirdlərə əlavə informasiya verə bilər. Məsələn, "Amerika açmaq", "Arabanın beşinci təkəri" və s. məsəllərin etimologiyasını açıqlaya bilər. (Mənbə: *azleks.az* onlayn lüğəti)

Diferensial yanaşma. Tapşırığı cütlərlə və yaxud qruplarla da yerinə yetirmək olar. Tapşırığı sərbəst şəkildə yerinə yetirməkdə çətinlik çəkən şagirdlər cütlərlə və yaxud qruplarla işləyə bilərlər. Cütlər və ya qruplar dil səviyyələri müxtəlif olan şagirdlərdən təşkil edilə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən əsas fikri müəyyənləşdirməyə imkan verən məqamları seçir. | Tapşırıq a, b (dərslik) |
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tapşırıq c (dərslik) |

# 1-ci fəsil
# RƏMZLƏŞMİŞ ADLAR

## 1-ci DƏRS
## Poçt qutusu

**Təlim nəticələri:**
- Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır (st. 2.1.2).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə.** "Poçt qutusu" mətnində "poçt", "poçtalyon" açar sözlərdir. Müasir dövrdə onları tədricən yeni texnologiyalar əvəz edir. Ona görə də şagirdlərin bu haqda tam təsəvvürü olmaya bilər. Bu baxımdan motivasiya xarakterli "a", "b" və "c" tapşırıqları şagirdlərin diqqətini mövzuya yönəldir. Bu tapşırıqlar eyni zamanda müasir informasiya vasitələri haqqında sual-cavab vasitəsilə danışma bacarığının inkişafına imkan verir.

**Dərslik, səh. 30**

**a.** Müasir dövrdə insanlar hansı informasiya vasitələri ilə məlumat alırlar? Şəkillərə istinad edərək ən çox müraciət etdiyiniz informasiya vasitələri haqqında danışın.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərə kütləvi informasiyalar haqqında qısa məlumat vermək tövsiyə edilir. Kütləvi informasiya vasitələrinin köməyi ilə insanlar qısa bir zamanda dünyada baş verənlər haqqında məlumat ala bilirlər. Kütləvi informasiya vasitələri dedikdə, əsasən, kitab, qəzet, jurnal və səsyazmalar, radio, kino, televiziya və internet nəzərdə tutulur. Bəzi mətnlərdə "kütləvi informasiya vasitələri" ifadəsi qısalmış formada KİV kimi yazılır.

**Dərslik, səh. 30**

**b.** Keçmişdə uzaq məsafəyə məlumat ötürmək üçün hansı vasitələrdən istifadə edirdilər?

**Müəllimin nəzərinə!** Şagirdlərə bəzi maraqlı məlumatlar vermək olar:
Qədim zamanlardan bəri insanlar uzaq məsafələrə məktublar göndərmək üçün poçt göyərçinlərindən istifadə etmişlər. Göyərçinlərin qəhrəmanlıqlar nümayiş etdirdikləri neçə-neçə hadisələr tarixdə öz əksini tapıb. Məsələn, 1942-ci ildə almanlar ingilis sualtı qayığını vururlar. Qayıq xəsarət alaraq suyun dibinə çökür. Əgər bir cüt göyərçin olmasaydı, ekipaj həlak olacaqdı. Sualtı qayıqdan kiçik kapsulalar vasitəsilə torpedo aparatı ilə quşlar buraxılır. Erkək göyərçin sudan çıxana qədər boğularaq ölsə də, dişi göyərçin havaya çıxmağa müvəffəq olur və təyin edilən ünvana özünü çatdırır. Sualtı qayığın ekipajı xilas edilir. Həmin göyərçinin şərəfinə heykəl ucaldılır.

**Dərslik, səh. 30**

**c.** Suallara cavab verməklə adi poçtla elektron poçtun oxşar və fərqli cəhətləri haqqında danışın.

Şagirdlər tapşırığı dünyagörüşlərinə əsaslanaraq yerinə yetirirlər. Bu tapşırıq şagirdlərdə müqayisə etmə və danışma bacarıqlarını inkişaf etdirir.

**Oxu və söz ehtiyatı**

**Dərslik, səh. 31**

**ç.** Sinonimlərə əsasən "Rəmzləşmiş adlar" ifadəsinin mənasını təxmin edin.

Cavab: Simvola çevrilən adlar, hər hansı anlayışı ifadə edən obraz, əsər adları.

**Mətnlə iş.** "Poçt qutusu" mətni müvafiq jest və mimikalardan istifadə edilməklə növbəli şəkildə şagirdlər tərəfindən oxunur. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Dərslik, səh. 31. "Söz mücrüsü" rubrikası**

Müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

Müəllim şagirdlərin diqqətini "Yadda saxla" rubrikasına yönəldir. Köhnəlmiş sözlər haqqında verilmiş məlumatları şərh edərək nümunələr (padşah, vəzir və s.) gətirir. "Söz mücrüsü"ndəki "yasavul" və "pristav" sözlərinin müasir dövrdə işlənmədiyini vurğulayır.

**Dərslik, səh. 32**

**d.** "Söz mücrüsü"ndən izahlara uyğun gələn sözləri seçin.

Şagirdlər kontekstdən çıxış edərək izahların uyğun gəldiyi köhnəlmiş sözləri müəyyənləşdirirlər.

Cavab: 1 – yasavul; 2 – pristav.

**Dərslik, səh. 32**

**e.** Fərqləndirilmiş söz və ifadələri "Söz mücrüsü"ndəki müvafiq frazeoloji birləşmələrlə əvəz edin.

Cavab:

1. Bələdçi turistlərə gedəcəkləri yeri xəritədə *nişan verdi*.
2. Yolçular haradan bilərdilər ki, *başlarına belə bir iş gələcək*.
3. Bu hadisədən sonra Leylanın rəfiqəsinə çox *acığı tutmuşdu*.

**Dərslik, səh. 33**

**ə.** "Dam" sözünün mətndə işləndiyi mənasını müəyyən edin. Bu sözü digər mənalarında cümlədə işlədin.

Cavab: c – həbsxana, türmə.

Mətnə aid faktoloji tapşırıqlar iş dəftərində verilmişdir. Bu tapşırıqlar oxuyub-qavrama, ümumiləşdirmə bacarığının inkişafına yönəlmişdir. Şagirdlər tapşırıqda verilmiş sualları cavablandırmaqla mətnin məzmununu nə qədər qavradıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 17**

**a.** "Poçt qutusu" mətninə əsasən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et.

Cavab: 1 – düzgün; 2 – düzgün; 3 – yanlış; 4 – yanlış; 5 – düzgün; 6 – yanlış.

**İş dəftəri, səh. 17**

**b.** Mətndəki hadisələr bu məkanda baş vermir:

Cavab: a – bağda.

**İş dəftəri, səh. 17**

**c.** Cümlələri mətnin məzmununa əsasən tamamla.

Cavab:

1. ..., aparıb poçta salsın.
2. ... bilmirdi ki, qutuya atandan sonra nə etsin.
3. ... neçə saat keçməsinə baxmayaraq gəlib çıxmırdı.
4. ..., kəndlisinə zamin olsun.
5. ... elə bildi ki, xanın məktubunu oğurlayır.

**İş dəftəri, səh. 17**

**ç.** Aşağıdakıları nəzərə alaraq mətni yenidən adlandır.

Cavab:
1. Baş qəhrəmanların adı ilə: Novruzəli və xan.
2. İdeyanı əks etdirən ifadə ilə: avamlığın nəticəsi.

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b, c (dərslik) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tapşırıq d, e (dərslik) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq ə (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq a, b, c (iş dəftəri) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tapşırıq ç (iş dəftəri) |

# 2-ci DƏRS
# Poçt qutusu

**Təlim nəticələri:**
- Nitqində yeni öyrəndiyi söz və söz birləşmələrindən istifadə edir (st. 2.1.1).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə "Poçt qutusu" mətninin məzmununu xatırladır.

**Danışma**
**Dərslik, səh. 33**

**a.** Mətnin illüstrasiyalara uyğun hissələrini müəyyən edin. Təlimata əsasən obrazlar arasındakı dialoqları səsləndirin.

Tapşırığı yerinə yetirməklə şagirdlər mətnin məzmununu necə qavradıqlarını nümayiş etdirirlər. Keçən fəsildə dialoq haqqında aldıqları bilikləri bu dərsdə də tətbiq edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlərə mətnin illüstrasiyalar hissəsini danışarkən nitqlərində öyrəndikləri yeni sözlərdən istifadə etmələri tövsiyə edilir.

**Dərslik, səh. 34**

**b.** Mətndən hansı epizodlar Novruzəliyə aid aşağıdakı xüsusiyyətləri əks etdirir?

Tapşırıq tənqidi təfəkkürün, fikrini əsaslandırma bacarığının inkişafına yönəlib.
Cavab:
Novruzəli sədaqətlidir. O hər dəfə şəhərə gələndə mütləq xanın evinə gələr, hal-əhval tutar, ona pay gətirərdi.
Novruzəli məsuliyyətlidir. Xanın tapşırığını məsuliyyətlə yerinə yetirməyə çalışırdı. Onun məktubunun itməsindən, oğurlanmasından çox narahat idi.
Novruzəli avam idi. Yetkin bir insan olmasına baxmayaraq, poçt sisteminin necə işlədiyini hələ də bilmirdi.

**İş dəftəri, səh. 18**

**a.** "Poçt qutusu" mətninin baş qəhrəmanı Novruzəliyə aid obraz xəritəsini tamamla.

Tapşırıq şagirdlərin tənqidi təfəkkürünün, eyni zamanda rəy bildirmə bacarığının inkişafına yönəlib.

**Dərslik, səh. 34**

**c.** Sizcə, Novruzəli adı nəyin rəmzinə çevrilmişdir? "Lap Novruzəlidir ki..." ifadəsinin işlənə biləcəyi bir situasiya düşünüb danışın.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Novruzəli adı "avamlığın" rəmzinə çevrilmişdi.

Situasiyaya aid nümunə:

Anam söhbət edir ki, əvvəllər maaşları xəzinədarlıqdan nağd alırdıq. Sonra bizə maaş kartları verdilər ki, daha maaşınızı kart vasitəsilə alacaqsınız.

Bir gün mən pulu nağdlaşdırmaq üçün bankomata yaxınlaşdım. Rəfiqəm də yanımda idi. Kartı bankomata daxil edib kodu yığdım. Pulun qədərini yazıb düyməni basdım. Amma bankomatdan pul çıxmadı. Bir qədər gözlədim. Nə pul çıxırdı, nə də kart. Narahat oldum. Rəfiqəmə dedim:

– Sən bankomatın qarşısında gözlə, mən tez banka gedim.

Rəfiqəm gülə-gülə cavab verdi:

– Ay Səidə, lap Novruzəlinin gününə düşdük...

Narahat olmağıma baxmayaraq, məni də gülmək tutmuşdu.

**Dərslik, səh. 34**

**ç.** Aşağıdakı fikri şərh edin və mətnin əsas ideyası ilə əlaqələndirin.

Tapşırıq şagirdlərin şərhetmə və əlaqələndirmə bacarığının inkişafına yönəlib. Şagirdlər mətndəki məlumatlardan çıxış edərək sətiraltı fikri müəyyən edirlər.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Açılan hər məktəb bir həbsxananın bağlanması deməkdir. (Viktor Hüqo)

*Savadlı insanlar az səhv edir. Davranışlarının nəticəsini əvvəlcədən düşünür. Camaatı savadlı olan cəmiyyətdə cinayətlərin sayı çox az olar.*

**İş dəftəri, səh. 18**

**b.** Cəlil Məmmədquluzadə haqqında məlumatlarla tanış ol. Onun "Poçt qutusu" hekayəsi haqqında elə annotasiya yaz ki, dostlarında bu kitabı oxumaq həvəsi yaransın.

**Müəllimin nəzərinə!** Şagirdlər IV sinifdə annotasiya haqqında məlumat alıblar. Müəllimə şagirdlərə hər hansı bir kitabın annotasiyasının nümunəsində annotasiya haqqında aldıqları bilikləri xatırlatmaq tövsiyə edilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Nitqində yeni öyrəndiyi söz və söz birləşmələrindən istifadə edir. | Tapşırıq a (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq b, c (dərslik); tapşırıq a (iş dəftəri) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tapşırıq ç (dərslik) |
| Kitab haqqında annotasiya yazır. | Tapşırıq b (iş dəftəri) |

# 3-cü DƏRS
## Rəmzə çevrilmiş adlar

**Təlim nəticələri:**
• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim Novruzəli obrazını xatırlatmaqla və yönəldici suallar vasitəsilə "Rəmzə çevrilmiş adlar" anlayışı haqqında məlumat verir.

**Dərslik, səh. 34**

**a.** Aşağıdakı obrazlar haqqında araşdırma aparın. Verilmiş plan əsasında həmin obrazlar haqqında təqdimat hazırlayın. Topladığınız məlumatları nümunəyə uyğun olaraq təqdim edin.

Tapşırıq şagirdlərin araşdırma aparma, təqdimetmə bacarıqlarını formalaşdırmağa xidmət edir.

**Müəllimin nəzərinə!** İlk mərhələdə müəllim şagirdləri qruplara ayırır. Aşağıdakı mətnləri çap edərək qruplara paylayır.

I qrup üçün material:

***Şerlok Holms***

*Şerlok Holms ingilis yazıçısı Artur Konan Doylun yaratdığı xəfiyyə obrazıdır. Oxucular bu obrazla ilk dəfə 1887-ci ildə "Al-qırmızı etüd" povestində tanış olmuşlar. Holms dolaşıq cinayət işlərinin üstünü açırdı.*

*Şerlok Holms obrazının prototipi doktor Cozef Belldir. O, tibb məktəbində Konan Doylun müəllimi olmuşdur. Holms xəstələrin diaqnozunu müəyyən etmək üçün qeyri-adi metodlardan istifadə edirdi.*

*Şerlok Holms müəmmalı cinayətlərin üstünü açan unikal xəfiyyədir. Dünya ədəbiyyatında bir çox detektiv obrazlar var. Amma onlardan heç biri Şerlok Holms qədər populyar ola bilməyib. Holms – haqqında ən çox film çəkilmiş xarakterdir. Buna görə Ginnesin rekordlar kitabına salınıb. Müşahidəçi, məntiqli, ayıq-sayıq insan haqqında danışarkən onu "Şerlok Holms" adlandırırlar.*

II qrup üçün material:

***Robinzon Kruzo***

*"Robinzon Kruzo" ingilis yazıçısı Daniel Defonun ən məşhur romanıdır. Müəllif bu əsəri 1719-cu ildə qələmə almışdır.*

*Əsərin baş qəhrəmanı Robinzon Kruzodur. Gəmi qəzasından sağ qalan Robinzon Kruzo kimsəsiz adaya düşür. O, adada 28 il tək qalır. Həm təbiət qüvvələrinə, həm də dəniz quldurlarına qarşı mübarizə aparır. Dəli olmamaq və nitq qabiliyyətini itirməmək üçün həmişə tutuquşularla söhbət edir. Zamanı dəyişik salmamaq üçün gündəlik tutur. Hər gün orada başına gələn hadisələri gündəliyinə yazır.*

*Robinzon Kruzo həyatın macəralar burulğanından daim qələbə ilə çıxan əbədi bir insan obrazıdır. Çətin anlarda iradə, dözüm nümayiş etdirən, yaradıcılıq imkanları ilə vəziyyətdən çıxa bilən insanları "Robinzon Kruzo" adlandırırlar.*

III qrup üçün material:

***Don Kixot***

*Migel de Servantes ispan yazıçısıdır. "Don Kixot" onun məşhur əsərlərindəndir.*

*Əsərin baş qəhrəmanı zadəgan Alonso Kixanodur. O, İspaniyanın kiçik bir şəhərində yaşayır. Alonso Kixano cəngavərlər haqqında romanları oxumağı çox xoşlayır. Oxuduğu romanlardan təsirlənərək özünü cəngavər hesab etməyə başlayır. O, dünya səyahətinə çıxmağa qərar verir. Yeni yerlər kəşf etmək, yeni macəralar axtarmaq, igidilik göstərərək qəhrəman olduğunu*

*dünyaya sübut etmək istəyir. Təxəllüs olaraq özünə Don Kixot adını seçir. Babasından qalan köhnə silahları götürür, qoca, arıq atına minib yola çıxır. Sanço Pansa adlı kəndlisi də ona qoşulub səyahətə çıxır. Sanço Pansa yol boyu onun köməkçisi olur.*

*Don Kixotun qəhrəmanlığı bir çoxlarının işinə mane olur. Belə ki, hərəkətləri çox zaman əks nəticə verir. Yaxşılıq etməyə çalışsa da, ətrafındakıları daim ziyana salır. Həqiqətən köməyə ehtiyacı olmayan insanlara yardım etməyə çalışan və gülünc vəziyyətə düşən insanlar haqqında belə deyirlər: "donkixotluq etmək istəyir".*

Cavab:

I qrupun məlumat vərəqi bu məzmunda ola bilər:

Şerlok Holms Artur Konan Doylun əsərlərinin qəhrəmanıdır. Şerlok Holms müəmmalı cinayətlərin üstünü açan unikal xəfiyyədir. Şerlok Holms obrazı ayıq-sayıqlığın rəmzinə çevrilib. Müşahidəçi, məntiqli, ayıq-sayıq insan haqqında danışarkən onu "Şerlok Holms" adlandırırlar.

II qrupun məlumat vərəqi bu məzmunda ola bilər:

Robinzon Kruzo Daniel Defonun "Robinzon Kruzo" əsərinin qəhrəmanıdır. O, 28 il kimsəsiz adada yaşayan mübariz insandır. Robinzon Kruzo obrazı mübarizliyin rəmzinə çevrilib. Çətin anlarda iradə, dözüm nümayiş etdirən, yaradıcılıq imkanları ilə vəziyyətdən çıxa bilən insanları "Robinzon Kruzo" adlandırırlar.

III qrupun məlumat vərəqi bu məzmunda ola bilər:

Alonso Kixano ispan yazıçısı Migel de Servantesin əsərinin qəhrəmanıdır. Alonso Kixano cəngavərlər haqqında romanlar oxuyan xəyalpərəst zadəgandır. O, lazımsız, yersiz yaxşılıqları ilə ətrafındakıları ziyana salır. Həqiqətən köməyə ehtiyacı olmayan insanlara yardım etməyə çalışan və gülünc vəziyyətə düşən insan haqqında danışarkən onu "Don Kixot" adlandırırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Sözün sətirdən sətrə keçirilməsi

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə.** Bu səhifədə təqdim edilmiş "a", "b" və "c" tapşırıqları motivasiya xarakteri daşıyır. Şagirdlər aşağı siniflərdə heca, sözlərin sətirdən sətrə keçirilməsi haqqında məlumat almışlar. Onlar bu bilgilərə əsasən tapşırıqları yerinə yetirir, mövzu haqqında biliklərini nümayiş etdirirlər.

**Dərslik, səh. 35**

**a.** Hansı sözdə hecaların sayı daha çoxdur?

Cavab: d – müayinə.

**Dərslik, səh. 35**

**b.** Hansı sözləri sətirdən sətrə keçirmək olmaz? Səbəbini izah edin.

Cavab: izah, vaxt, əmi, uşaq.

**Dərslik, səh. 35**

**c.** Sətirdən sətrə keçirmək üçün hecalara səhv ayrılmış sözləri müəyyən edib səhvləri izah edin.

| **Səhvdir** | **Belə keçirilməlidir** | **Əsaslandırma** |
|---|---|---|
| xil-as-kar | xi-las-kar | Hecalara düzgün ayrılmamışdır. |
| a-ğa | ağa | Bir saitdən ibarət hecanı sətrin sonunda saxlamaq olmur. |
| in-ək | inək | Bir saitdən ibarət hecanı sətrin sonunda saxlamaq olmur. |
| nök-ər | nö-kər | Hecalara düzgün ayrılmamışdır. |
| pri-stav | pris-tav | Hecalara düzgün ayrılmamışdır. |

Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir. Şagirdlərə sözlərin sətirdən sətrə keçirilməsi haqqında qaydaları izah edilir.

**Dərslik, səh. 35**

**ç.** Sətirdən sətrə səhv keçirilmiş sözləri müəyyən edin. Səbəbini izah edin. Səhvləri düzəldin.

<u>Cavab</u>:

1. Qardaşım **11-ci** sinifdə oxuyur. Rəqəmlə yazılan saylara artırılan şəkilçilər yeni sətrə keçirilmir.
2. Bakıdan Şamaxıya **122 km** məsafə var. Rəqəmlə yazılan miqdar sayının yanındakı ixtisarı yeni sətrə keçirmək olmaz.
3. Ədəbiyyat dərsində **M.Ə.Sabir** haqqında danışdıq. Adların bir hərfdən ibarət qısalmasını sətrin sonunda saxlamaq olmaz.

Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir. Şagirdlərə mürəkkəb sözlərin sətirdən sətrə keçirilməsi haqqında qaydalar izah edilir.

Müəllim şagirdlərə “Xatırla” rubrikasında mürəkkəb sözlər haqqında xatırlatma edir.

**Dərslik, səh. 35**

**d.** Mürəkkəb sözləri seçin və sətirdən sətrə keçirmək üçün hecalara ayırın.

<u>Cavab</u>: Məm-məd-əli, yad-el-li, gün-or-ta, Kor-oğ-lu.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 19**

**a.** Cədvəlin hər sütununa daha iki söz əlavə et.

Şagirdlərin cavabı müxtəlif ola bilər.

**İş dəftəri, səh. 19**

**b.** Hecalara səhv ayrılmış sözləri müəyyən et və qarşısında düzgün şəkildə yaz.

<u>Cavab</u>: qu-ru-cu, ti-ca-rət, qa-şıq, ko-man-dir, di-yar.

**İş dəftəri, səh. 19**

**c.** Sözləri uyğun sətirdə yaz.

<u>Cavab</u>:

*Sətirdən sətrə keçirilə bilən sözlər*: vurğu, həftə, quru, sarı, nənə.

*Sətirdən sətrə keçirilə bilməyən sözlər*: adil, ata, inam, ətək, iti, uzaq, adi, iki.

**İş dəftəri, səh. 19**

**ç.** Mürəkkəb sözləri sətirdən sətrə keçirmək üçün hecalara ayır.

<u>Cavab</u>: ya-rım-ada, yer-al-tı, dağ-üs-tü, quş-üzü-mü.

**İş dəftəri, səh. 19**

**d.** Sətirdən sətrə səhv keçirilmiş sözləri müəyyən et. Səhvləri düzəldərək qarşısında yaz.

Cavab:
1. Sinfimizin uşaqları zalda **1-ci sırada** əyləşmişdilər.
2. “Poçt qutusu” hekayəsini **C.Məmmədquluzadə** yazıb.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik və qrammatik normalara əməl edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 2-ci fəsil
# RƏVAYƏTLİ İFADƏLƏR

## 1-ci DƏRS
## Çünki oldun dəyirmançı...

**<u>Təlim nəticələri</u>:**
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 36**

**a.** Kitabın üz qabığı, adı və kitabdan verilmiş səhifələrlə tanış olun. Sizcə, bu kitab nə haqdadır? Bu məlumatlar kitabın məzmunu haqqında kifayət qədər təsəvvür yaratdımı? Fikrinizi əsaslandırın.

Tapşırıqda şagirdlərə “Koroğlu” dastanı kitabının üz qabığı, annotasiyası və bir neçə səhifəsi təqdim olunmuşdur. Şagirdlər tapşırıqdakı suallara cavab verməklə bu kitabı mütaliə etmə səbəblərini izah edirlər.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərə mütaliə haqqında məlumat vermək tövsiyə edilir: Mütaliə üçün kitab seçərkən ilk növbədə kitabla ümumi tanış oluruq. Bu zaman kitabın və müəllifin adına, üz qabığına, illüstrasiyalara və yarımbaşlıqlara diqqət edirik. Kitabın üz qabığı, müəllifin adı, illüstrasiyaların bizə ötürdüyü məlumatlara diqqət edirik. Bu mövzu haqqında bildiklərimizi xatırlayırıq. Daha nələr öyrənmək istədiyimiz haqqında düşünürük.

**Dərslik, səh. 36**

**b.** Kitabın annotasiyası ilə tanış olun. Sizcə, kitabın annotasiyasını oxumaq nə üçün vacibdir?

Şagirdlərin cavabı təxminən aşağıdakı məzmunda ola bilər:
– Kitabın məzmunu haqqında məlumat ala bilərik. Kitabın annotasiyasını oxuduqdan sonra məhz həmin kitabı oxumaq istədiyimizə qəti qərar veririk. Düzgün kitab seçimi edirik. Bu isə öz növbəsində mütaliəyə həvəsi artırır.

**Söz ehtiyatı.** Bu dərsdə təqdim edilmiş “c”, “d” və “e” tapşırıqları söz ehtiyatının zənginləşdirilməsinə xidmət edir.

**Dərslik, səh. 36**

**c.** “Dastan” sözünün izahına əsasən aşağıdakı ifadələrin mənasını təxmin edin.

Tapşırıq söz ehtiyatını zənginləşdirməyə xidmət edir.
<u>Cavab</u>:
adı dillərdə dastan olmaq – məşhurlaşmaq
dastan açmaq – hər hansı bir mövzuda çox danışmaq

**Oxu. Mətnlə iş.** “Çünki oldun dəyirmançı...” mətnini oxumaq üçün müəllim müxtəlif oxu strategiyaları tətbiq edə bilər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 37. “Söz mücrüsü” rubrikası**

Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 39**

**ç.** “Ağ gün”, “qara gün” birləşmələrindəki ağ və qara sözlərinin həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyən edin.

Cavab: “Ağ” və “qara” sözləri bu ifadələrin tərkibində məcazi mənada işlənir.

**Dərslik, səh. 39**

**d.** Mətnə əsasən “Ağ günə çıxmaq” ifadəsinin mənasını izah edin.

Cavab: Yaxşı, rahat yaşamaq.

**Dərslik, səh. 39**

**e.** Nöqtələrin yerinə “Söz mücrüsü”ndən uyğun gələn sözü yazmaqla cümlələri tamamlayın.

Cavab: 1 – mehtər; 2 – buxov; 3 – yüyən; 4 – üzəngi; 5 – gözüm su içmir; 6 – arpa.

**İş dəftəri, səh. 20**

**a.** Fərqləndirilmiş sözün kontekstə əsasən mənasını təxmin et və şəkildə uyğun yerlərə yaz.

Şagirdlər bu tapşırığı yerinə yetirməklə yeni sözləri öyrəndiklərini nümayiş etdirirlər.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 39**

**ə.** Mətnin sonunda göy rənglə verilmiş misraları oxuyun. Bu misralardakı fikri öz sözlərinizlə ifadə edin.

Cavab: Əgər dəyirmançı olmusansa, deməli, onun işini də görməlisən, yəni “dən” deyə müştəriləri çağırmalısan.

**Dərslik, səh. 39**

**f.** Sizcə, hansı situasiyalarda “Çünki oldun dəyirmançı...” ifadəsi işlənir? Bu ifadənin işlənə biləcəyi bir hadisə düşünüb nəql edin.

Tapşırıq şagirdləri öyrəndikləri söz və ifadələrin işlənmə yeri haqqında düşündürür.

Cavab: İnsanın düşdüyü qeyri-adi, xoşagəlməz vəziyyətlə barışmaqdan başqa çarəsi olmadığını bildirəndə.

Şagirdlərin danışdığı situasiyaya aid nümunə:

Anam ezamiyyətə getmişdi. Neçə gün idi ki, evdə yox idi. Adətən, ev işlərini anam edirdi. İndi isə onun gördüyü işləri mən edirdim. Axı evin böyük qızı idim. Boynuma alım ki, bu o qədər də asan deyildi. Nahar hazırlamaq, yeməkdən sonra qabları yumaq və sairə. Tez-tez anamla telefon vasitəsilə danışırdıq. Bizim üçün çox narahat idi. Amma zarafatından da geri qalmırdı:

– Hə, qızım, ev işlərini görmək ağır deyil ki?!

– Ana, boynuma alıram ki, indiyə qədər sənə kömək etmədiyim üçün utanıram. Ev işləri o qədər də asan deyilmiş...

– Eybi yoxdur, yavaş-yavaş öyrəşəcəksən. Necə deyərlər, “çünki oldun dəyirmançı, çağır gəlsin dən, Koroğlu”.

**Dərslik, səh. 39**

**g.** Mətnə əsasən aşağıdakı cümlələri tamamlayın.

Şagirdlər mətndəki məlumatları müəyyənləşdirir, bununla da mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

Cavab:

1. ..., çünki düşünürdülər ki, Koroğlunun gücü Qıratda idi.
2. ..., çünki heç kim üzbəüz döyüşdə Koroğluya bata bilməzdi.
3. ..., ona görə də onu mehtər kimi yanında saxladı.
4. ..., çünki onun zəifləməyini bəhanə gətirib atın buxovunu açdırmaq istəyirdi.

5. ... ki, onu havaya çıxardıb gəzdirsin.
6. ..., çünki Koroğlu Qıratın yüyənini Həmzəyə verdi.

**İş dəftəri, səh. 20**

**b.** "Çünki oldun dəyirmançı..." mətninə istinad edərək suallara cavab yaz.

Bu tapşırığı yerinə yetirməklə şagirdlər "Çünki oldun dəyirmançı..." mətninin məzmununu anladıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b (dərslik) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını təxmin edir. | Tapşırıq c, ç, d, e, ə, f (dərslik); tapşırıq a (iş dəftəri) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq g (dərslik); tapşırıq b (iş dəftəri) |

# 2-ci DƏRS
# Çünki oldun dəyirmançı...

**Təlim nəticələri:**
- Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).
- Nitqində yeni öyrəndiyi söz və söz birləşmələrindən istifadə edir (st. 2.1.1).

**Mövzuya yönəltmə. Danışma.** Müəllim "Çünki oldun dəyirmançı..." mətninin məzmununa uyğun frontal sorğu keçirir. Şagirdlər keçən dərs oxuduqları mətnin məzmununu xatırlayırlar.

**Dərslik, səh. 39**

**a.** Sizcə, Həmzə Qıratı qaçırdıqdan sonra Koroğlu nə edəcək? Hadisələrin davamını təxəyyülünüzə əsasən danışın.

Şagirdlərin mətnin davamı ilə bağlı fərziyyələri dinlənilir. Tapşırıq yaradıcı təfəkkürün inkişafına yönəlib. Şagirdlərə kömək məqsədilə yönəldici suallar verilə bilər:
- Sizcə, Koroğlu Həmzənin ardınca gedəcəkmi?
- Necə düşünürsünüz, Koroğlu Həmzənin yerini necə tapa bilər?

**Dinləmə**

**Dərslik, səh. 39**

**b.** "Söz dəyirmandakıdır" mətnini dinləyin, öz variantınızla müqayisə edin.

***Söz dəyirmandakıdır***

*Koroğlu Qıratı geri qaytarmaq üçün Həmzənin ardınca yola düşdü. Gəlib Toqat şəhərinə çıxdı. Burada bir qarının evində qonaq oldu. Söhbət zamanı öyrəndi ki, sabah Həmzənin toyudur. Qıratı gətirdiyi üçün paşa onu qızı ilə evləndirir.*

*Səhər açıldı. Koroğlu sazını götürüb paşanın sarayına yollandı. Baxdı ki, toy məclisidir, bəylər, paşalar hamısı bura yığışıb. Koroğlunu aşıq bilib məclisə apardılar. Hasan paşa aşıqdan soruşdu:*

*– Aşıqlar çox gəzib dolaşır. De görüm, Koroğlunu görmüsənmi?*

*Koroğlu dedi:*

*– Bəli, özünü də görmüşəm, Qıratını da.*

*Paşa lovğalandı:*

*– Qırat indi mənim tövləmdədir.*

*Koroğlunu Qıratın yanına apardılar. Qırat Koroğlunu görən kimi tanıdı. Bərkdən kişnədi. Koroğlu onun boynunu qucaqladı.*

*Hasan paşa təəccübləndi:*

*– Aşıq, bu günə kimi Qırat heç kimi yaxına buraxmırdı. Amma belə görürəm, sənə heç nə etmir. Bəlkə, onu bayıra çıxarasan, bir az hava alsın.*

*Koroğluya elə bu lazım idi. Elə Koroğlu ata minmək istəyirdi ki, Həmzə qaçıb atın üzəngisini tutdu. Yavaşca pıçıldadı:*

*– Koroğlu, söz dəyirmandakıdır.*

*Koroğlu atı bir o başa, bir bu başa sürdü. Həmzə bildi ki, Qıratın belində Koroğluya heç kim bata bilməz, odur ki qışqırdı:*

*– Ay haray! Bu atı Koroğluya kim verdi? Qoymayın, qaçdı.*

*Koroğlu Misri qılıncı çıxarıb şir kimi döyüşə atıldı. Görəndə ki, bütün yolları bağlıdır, atı çaya salıb o biri sahilə keçdi. Qıratı Çənlibelə sarı sürdü.*

Şagirdlər mətnin davamını dinləyir və öz variantları ilə müqayisə edirlər.

**Dərslik, səh. 39**

**c.** Sizcə, Həmzə Koroğlunu tanıdığı halda nə üçün onu ələ vermədi?

Şagirdlərin cavabı təxminən belə ola bilər: Həmzə Qıratı qaçıranda Koroğluya demişdi:

– Koroğlu, mənim səninlə düşmənçiliyim yoxdur. Qıratı ona görə qaçırıram ki, paşadan var-dövlət alım. Bəlkə, bir ağ günə çıxım. Bilirəm ki, axırda gəlib atını aparacaqsan. Onda üzəngini sənin üçün özüm tutacağam.

Həqiqətən də, Koroğlu Qıratın dalınca gələndə Həmzə verdiyi sözü tutdu.

**Dərslik, səh. 40**

**ç.** “Söz dəyirmandakıdır” mətninin illüstrasiyalara uyğun hissələrini nəql edin.

Tapşırıqla şagirdlərin dinlədikləri mətni necə anladıqlarını yoxlamaq mümkündür. Tapşırıq eyni zamanda şagirdlərin danışma bacarığını da inkişaf etdirir. Müəllim şagirdlərin nitqlərində “söz dəyirmandakıdır” ifadəsinin mütləq şəkildə işlənməsini izləyir.

Cavab:

*Mətnin I illüstrasiyaya aid hissəsi:*

Koroğlu anbara girib gördü ki, burada heç kim yoxdur. Aldandığını anlayıb cəld çölə çıxdı. Həmzəni Qıratın belində görəndə bərk qəzəbləndi. İstədi Misri qılıncı çəkib Həmzəyə hücum eləsin, amma bildi ki, Qırat ayağını yerdən götürsə, ona çata bilməyəcək. Həmzə dedi:

– Koroğlu, mənim səninlə düşmənçiliyim yoxdur. Qıratı ona görə qaçırıram ki, paşadan var-dövlət alım. Bəlkə, bir ağ günə çıxım. Bilirəm ki, axırda gəlib atını aparacaqsan. Onda üzəngini sənin üçün özüm tutacağam. Həmzə bunu dedi və Qıratı sürüb getdi.

*Mətnin II illüstrasiyaya aid hissəsi*:

Koroğlu Qıratın yüyənindən tutub tövlədən çıxardı. Elə ata minmək istəyirdi ki, Həmzə qaçıb atın üzəngisini tutdu. Yavaşca pıçıldadı:

– Koroğlu, söz dəyirmandakıdır.

**Dərslik, səh. 40**

**d.** Həmzə “Söz dəyirmandakıdır” deyəndə nəyi nəzərdə tuturdu?

Tapşırıq sətiraltı informasiyanın qavranılması bacarığını formalaşdırır.

Cavab:

Həmzə Koroğlunu aldadıb Qıratı qaçıranda demişdi ki, gəlib atını aparanda üzəngini sənin üçün özüm tutacağam.

**Dərslik, səh. 40**

**e.** Sizcə, hansı situasiyalarda "Söz dəyirmandakıdır" ifadəsi işlənir? Bu ifadənin işlənə biləcəyi hadisə düşünüb danışın.

Cavab: Nə vaxtsa verilən sözə işarə ediləndə "söz dəyirmandakıdır" ifadəsi işlənir.

**İş dəftəri, səh. 21**

**a.** "Çünki oldun dəyirmançı..." mətninə əsasən obraz xəritəsini tamamla.

Tapşırıq şagirdlərdə tənqidi təfəkkürü, münasibət bildirməyi öyrədir. Eyni zamanda tapşırıq mətnin ideyasının açılmasında xarakterlərin rolunun vacib olduğunu izah edir.

Cavablar təxminən belə ola bilər:

Koroğlu xalq qəhrəmanıdır. O, ömrü boyu bəylərə, paşalara qarşı mübarizə aparıb.

Koroğlu ürəyiyumşaq insandır. Həmzə özünü yazıq vəziyyətə salıb ağlaya-ağlaya kömək istəyəndə Koroğlunun ona yazığı gəldi, ona sığınacaq verdi.

Koroğlu cəsur, qorxmaz idi. O, Qıratı geri almaq üçün təkbaşına Hasan paşanın sarayına getdi.

Həmzə Hasan paşanın sarayında yaşayırdı.

Həmzə hiyləgər idi. Hiylə işlədərək Düratın buxovunun açarını əldə etdi. Qıratı qaçırtdı.

Həmzə tamahkar idi. O, var-dövlət qazanmaq üçün hər pisliyi edə bilirdi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tapşırıq b, c (dərslik) |
| Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır. | Tapşırıq ç (dərslik) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tapşırıq d, e (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq a (iş dəftəri) |

# 3-cü DƏRS
# Bədii və qeyri-bədii mətnlər

**Təlim nəticələri:**
- Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).

**Mövzuya yönəltmə. Danışma.** Müəllim "Çünki oldun dəyirmançı..." mətninin məzmununa uyğun frontal sorğu keçirir. Şagirdlər keçən dərs oxuduqları mətnin məzmununu xatırlayırlar.

**Dərslik, səh. 40**

**a.** "Çünki oldun dəyirmançı..." bədii, yoxsa qeyri-bədii mətndir? Fikrinizi əsaslandırın.

Şagirdləri istiqamətləndirmək üçün yönəldici suallardan istifadə etmək olar:

– "Çünki oldun dəyirmançı..." mətnində hansı obrazlar iştirak edirdi?

– Həmzənin davranışı sizdə hansı hissləri yaratdı?

– Koroğlu Qıratı geri alanda hansı hissləri keçirdiniz?

– Mətni oxuduqdan sonra hansı mənəvi dəyərlər haqqında düşündünüz?

Müəllim "Yadda saxla" rubrikasında verilmiş məlumatları şərh edir. İndiyə qədər oxuduqları mətnlərin nümunəsində şagirdlərə bədii və qeyri-bədii mətnlərin fərqli xüsusiyyətləri haqqında məlumat verir.

**Dərslik, səh. 40**

**b.** Mətnə istinad edərək aşağıdakı fikirləri əsaslandırın və "Çünki oldun dəyirmançı..." mətninin bədii mətn olduğunu sübut edin.

Tapşırıq şagirdlərdə bədii üsluba xas xüsusiyyətləri (məcazi mənalı sözlər, daxili monoloq və s.) müəyyənləşdirmək bacarığını formalaşdırır.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

• Hadisələr təxəyyülə əsasən təsvir edilib.

Mətndə hadisələrin baş verdiyi tarix dəqiq göstərilmir.

• Mətndəki epizodlarda obrazların xarakteri aydınlaşır.

Həmzəyə yazığı gələrək ona Çənlibeldə sığınacaq verməsi Koroğlunun ürəyiaçıq, mərhəmətli bir insan olmasını göstərir.

Min bir hiyləyə əl ataraq Koroğlunun Qıratını qaçırması Həmzənin hiyləgər biri olduğunu göstərir.

• Mətnin bir çox hissələri dialoqlardan ibarətdir.

Mətndə Hasan paşa ilə Keçəl Həmzə, Həmzə ilə Koroğlu, Hasan paşa ilə Koroğlunun dialoqları çoxdur.

• Oxucunu müəyyən dəyərlər haqqında düşünməyə istiqamətləndirir.

Mətni oxuduqdan sonra oxucu mərdlik, cəsurluq haqqında düşünür. Anlayır ki, yalanın, hiylənin üstü gec-tez açılır. Haqq-ədalət isə hər zaman qələbə qazanır.

**Dərslik, səh. 41**

**c.** Mətni oxuyun. Tapşırıqları yerinə yetirin.

Şagirdlər tapşırıqda verilmiş "Xalq qəhrəmanı" mətnini oxuyur, bədii və qeyri-bədii mətnlər haqqında aldıqları bilikləri bu mətn əsasında möhkəmləndirirlər.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini mətnin giriş, əsas və nəticə hissəsinə yönəltmək, mətnin strukturu haqqında biliklərini xatırlatmaq tövsiyə edilir.

**Dərslik, səh. 41**

**ç.** "Xalq qəhrəmanı" mətninə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu qeyd edin.

Tapşırıq faktoloji qavramanı yoxlayır.

Cavab: 1 – D;  2 – Y; 3 – Y; 4 – D; 5 – D.

**Dərslik, səh. 41**

**d.** Hansı mətndə Koroğlunun şəxsiyyəti haqqında qoyulmuş suala cavab axtarılır: "Çünki oldun dəyirmançı...", yoxsa "Xalq qəhrəmanı"? Mətndən uyğun hissəni oxuyaraq cavabınızı əsaslandırın.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini bədii və qeyri-bədii mətnlərin fərqli xüsusiyyətlərinə yönəldir.

Cavab: "Xalq qəhrəmanı" adlı mətndə Koroğlunun şəxsiyyəti haqqında faktlar var. Koroğlu XVI – XVII əsrlərdə Türkiyə və Azərbaycan ərazisində baş qaldırmış Cəlalilər hərəkatının başçılarından biri olub.

**Dərslik, səh. 41**

**e.** "Xalq qəhrəmanı" mətnində müəllif oxucunu öz fikrinə inandırmaq üçün hansı arqumentlərdən istifadə edir? Mətndən həmin hissələri oxumaqla cavabınızı əsaslandırın.

Cavab: Müəllif oxucunu öz fikrinə inandırmaq üçün tarixi mənbələrdən nümunə verib. Məsələn, Övliya Çələbi "Səyahətnamə" əsərində Cəlalilər hərəkatından danışır və bu hərəkatın başçılarından biri kimi Koroğlunun adını qeyd edir. Azərbaycan və Türkiyə ərazisində "Çənlibel" adlı qalaların möv-

cudluğunu fakt kimi qeyd edir. Koroğlu Çənlibeldə məskunlaşmışdı, həqiqətən də, Azərbaycan və Türkiyə ərazisində "Çənlibel" adlı çoxlu qalalar mövcuddur. Deməli, Koroğlu türk xalqının qəhrəmanıdır.

**Dərslik, səh. 42**

**ə.** Fikirlərin fakt, yoxsa uydurma olduğunu müəyyən edin.

Cavab: 1 – fakt; 2 – fakt; 3 – uydurma; 4 – fakt; 5 – uydurma; 6 – uydurma; 7 – fakt.

**İş dəftəri, səh. 22**

**a.** Aşağıdakı fikirlər hansı mətnə aiddir? Uyğun cavab variantını seç.

Cavab:
- Mətn müəllifin təxəyyülü əsasında yazılıb. (A)
- Mətndə Koroğlu haqqında tarixi faktlar verilib. (B)
- Müsbət və mənfi obrazlar mübarizə aparır. (A)
- Koroğlu haqqında yazılmış qeyri-bədii mətndir. (B)
- Mətn xalq qəhrəmanı Koroğlu haqqındadır. (C)
- Müəllif fikrini əsaslandırmaq üçün arqumentlərdən istifadə edir. (B)

**İş dəftəri, səh. 22**

**b.** Aşağıdakı mətni oxu. Onun qeyri-bədii mətn olduğunu əsaslandırmaq üçün aşağıdakı cədvəli tamamla.

Cavab:
- Müəllif fikrini əsaslandırır.

Möhkəm və rütubətə davamlı olduğuna görə dəmirağacdan daha çox gəmiqayırmada, telefon və elektrik dirəklərinin qurulmasında, körpülərin tikilməsində geniş istifadə olunur.

- Faktların həqiqiliyini yoxlamaq olar.

"Qırmızı kitab"ı vərəqləməklə dəmirağacın özünəməxsus və vacib xüsusiyyətlərinin olduğunu təsdiqləmək olar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və qeyri-bədii mətnlərin struktur elementləri arasındakı fərqi izah edir. | Tapşırıq a, b, d, e, ə (dərslik);<br>tapşırıq a, b (iş dəftəri) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq c (dərslik) |

# 4-cü DƏRS
# Gəmiləri yandırmaq

**Təlim nəticələri:**
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).

**Mövzuya yönəltmə. Danışma.** Müəllim şagirdlərə bu bölmədə öyrəndikləri ifadələri xatırladır. Bu məqsədlə bir neçə tapşırıq yerinə yetirmək olar.

I tapşırıq. Aşağıdakı ifadələri kartların üzərinə yazır. Şagirdlər növbə ilə üzərində ifadələr yazılmış kartlardan birini seçir və mənasını izah edirlər.
- Yalançının evi yandı, heç kim inanmadı.
- Axillesin dabanı.

• Bir kərə yüksələn bayraq bir daha enməz!
• Dəyirmi masa.
• Çünki oldun dəyirmançı...
• Söz dəyirmandakıdır.

II tapşırıq. İfadələrlə mənalarını uyğunlaşdırın.
1. Yalançının evi yandı, heç kim inanmadı.
2. Axillesin dabanı.
3. Bir kərə yüksələn bayraq bir daha enməz!
4. Dəyirmi masa.
5. Çünki oldun dəyirmançı...
6. Söz dəyirmandakıdır.
a. Danışıqlarda tərəflərin bərabərhüquqlu olduğunu bildirir.
b. Nə vaxtsa verilən sözə işarə ediləndə "Söz dəyirmandakıdır" ifadəsi işlənir.
c. Bir neçə dəfə yalan danışıb inamı itirən adamın doğru sözünə də inanılmadığını bildirir.
ç. Hər hansı insanın zəif cəhəti haqqında deyilir.
d. Baş tutmuş hər hansı bir istəyin daimi olacağına inamı ifadə edir.
e. İnsanın düşdüyü qeyri-adi, xoşagəlməz vəziyyətlə barışmaqdan başqa çarəsi olmadığını bildirən ifadə.

**Dərslik, səh. 42**

**a.** Mətni oxuyun və məzmununa əsasən suallar tərtib edin.

Tapşırıq faktoloji qavramanı yoxlayır.

**Dərslik, səh. 42**

**b.** Mətnə əsasən "Gəmiləri yandırmaq" ifadəsinin mənasını izah edin.

Tapşırıq söz ehtiyatının zənginləşdirilməsinə xidmət edir.
Cavab: Geriyə yol yoxdur, irəli getməkdən başqa yol qalmamışdır.

**Dərslik, səh. 42**

**c.** "Gəmiləri yandırmaq" ifadəsinin tarixçəsi hansı hadisələrlə bağlıdır?

Şagirdlər tapşırığı yerinə yetirməklə mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.
Cavab: 1. Troya müharibəsi
2. Ərəb sərkərdəsi İbn Ziyadın İspaniyaya hücumu

**Dərslik, səh. 42**

**ç.** Göy rənglə verilmiş cümləyə diqqət yetirin. Sizcə, sərkərdə bu sözlərlə nə demək istəyirdi?

Tapşırıq sətiraltı informasiyanı müəyyənləşdirmək bacarığını inkişaf etdirir.
Cavab: Sərkərdə döyüşçüləri qarşısında seçim qoyur: "arxanızda düşmən kimi dəniz" deyərkən dənizin də düşmən qədər amansız olduğuna, boğula biləcəklərinə işarə edir.

**Dərslik, səh. 42**

**d.** "Gəmiləri yandırmaq" mətnindən aldığınız məlumatlara əsasən "körpüləri yandırmaq" ifadəsinin mənasını təxmin edin. Təxəyyülünüzə əsasən bu ifadənin yaranma tarixçəsini düşünüb yazın.

Tapşırıq şagirdlərin yaradıcı təxəyyülünün inkişafına yönəlib.
Şagirdlərin cavabı təxminən belə ola bilər: Körpü iki sahili birləşdirir. Körpü yanarkən iki sahil arasında əlaqə kəsilir. İnsanlar keçmişi ilə, tanışları ilə əlaqəni kəsərkən "körpüləri yandırmaq" ifadəsini işlədirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tapşırıq a (dərslik) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tapşırıq b, c, ç (dərslik) |
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq d (dərslik) |

# 5-ci DƏRS
# Leksik və qrammatik şəkilçilər. Sözün başlanğıc forması

**Təlim nəticələri:**
• Leksik və qrammatik şəkilçilərin funksiyasını müəyyən edir (st. 4.2.1).

**Mövzuya yönəltmə.** Dərslikdə verilmiş "a" və "b" tapşırıqları motivasiya xarakterlidir və şagirdlərin diqqətini mövzuya yönəldir.

**Dərslik, səh. 43**

**a.** Fərqləndirilmiş sözləri kök və şəkilçiyə ayırın. Hansı sözdəki şəkilçi onun leksik mənasını dəyişdi?

Cavab: dəniz+in, dəniz+çi+ni.

"Dənizçini" sözündəki *-çi* şəkilçisi dəniz sözünə artırıldıqda sözün mənası dəyişdi.

**Dərslik, səh. 43**

**b.** Verilmiş sözləri bir cümlədə işlədin. Sözlərə artırdığınız şəkilçilərə diqqət edin. Sizcə, nə üçün cümlə qurarkən sözlərə şəkilçi artırmaq lazım gəldi?

Şagirdlərin cavabı təxminən belə ola bilər: Məktəbin futbol komandası yarışda qalib gəldi.

Cümlədə sözlər arasında əlaqə yaratmaq üçün şəkilçilərdən istifadə edilir.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları izah edir. Leksik və qrammatik şəkilçilərin funksiyalarını nümunələrlə izah edir.

**Dərslik, səh. 43**

**c.** Sözlərə leksik şəkilçilər artırmaqla yeni sözlər düzəldin.

Cavab: güldan, güllük, dostluq, dostlaş(maq), bağça, bağban.

**Dərslik, səh. 43**

**ç.** Şəkilçilər artırmaqla cümlələri tamamlayın. Əlavə etdiyiniz şəkilçilərin növünü müəyyən edin.

Cavab:

1. Bizim ev**imiz** üç**üncü** mərtəbədədir. (qrammatik, leksik)
2. Məktəbi**mizin** kitab**xana**sına yeni kitab**lar** gətiriblər. (qrammatik, leksik, qrammatik)
3. O**nun** qardaşı məşhur idman**çı**dır. (qrammatik, leksik)
4. Bağ**ça**dakı ağac**lar** çiçək**lə**yib. (leksik, qrammatik, leksik)

**Dərslik, səh. 43**

**d.** Verilmiş sözlərə qrammatik şəkilçilər artırmaqla söz birləşmələri yaradın.

Cavab: kitabın səhifəsi, gölün kənarı, maralın buynuzu, stadionda oynamaq, görüşə hazırlıq, uşağın arzusu.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları izah edir. Sözün başlanğıc forması haqqında qaydanı nümunələrlə izah edir.

**Dərslik, səh. 43**

**e.** Sözlərin kökünü və başlanğıc formasını göstərin.

| Sözün kökü | Sözün başlanğıc forması |
|---|---|
| toxu(maq) | toxucu |
| bağ | bağdakı |
| baş | başla(maq) |
| meşə | meşəlik |
| yol | yoldaş |
| yaxşı | yaxşılaş(maq) |

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin leksik və qrammatik şəkilçilər, sözlərin kökü və başlanğıc forması haqqında biliklərinin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 23**

**a.** Verilmiş sözlərə əsasən cədvəli tamamla.

Cavab:
söz: dəyirmançı; sözün kökü: dəyirman; şəkilçi: *-çı;* şəkilçinin növü: leksik
söz: ağacın; sözün kökü: ağac; şəkilçi: *-ın;* şəkilçinin növü: qrammatik
söz: otlaq; sözün kökü: ot; şəkilçi: *-laq;* şəkilçinin növü: leksik
söz: iradəli; sözün kökü: iradə; şəkilçi: *-li;* şəkilçinin növü: leksik
söz: qələmlər; sözün kökü: qələm; şəkilçi: *-lər;* şəkilçinin növü: qrammatik

**İş dəftəri, səh. 23**

**b.** Sözlərə leksik şəkilçilər artırmaqla yeni sözlər düzəlt və həmin sözləri cümlədə işlət.

Cavab: Leksik şəkilçili sözlər: çaydan, çayçı, uşaqlıq, buruq.

**İş dəftəri, səh. 23**

**c.** Sözlərin kökünü və başlanğıc formasını müəyyən et.

| Sözün kökü | Sözün başlanğıc forması |
|---|---|
| sakit | sakitləş |
| dağ | dağlıq |
| yuxu | yuxusuzluq |
| göz | gözlük |
| zəhmət | zəhmətkeşlik |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Leksik və qrammatik şəkilçiləri fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 3-cü fəsil
# ÇİN SƏDDİ

## 1-ci DƏRS
## Dünyanın ən uzun divarı

**Təlim nəticələri:**
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma**

**Müəllimin nəzərinə!** Müəllimə sinfə turistlərin daha çox səfər etdikləri ölkələr, yerlər haqqında bir neçə reklam vərəqləri gətirmək tövsiyə edilir. Şagirdlər reklam vərəqlərinə baxır və aldıqları məlumatları müzakirə edirlər. Məqsəd şagirdlərin diqqətini reklam vərəqlərinin funksiyasına yönəltməkdir. Reklam vərəqləri hansı məqsədlə hazırlanır?

**Dərslik, səh. 44**

**a.** Böyük Çin səddi haqqında mətnləri oxuyun və tapşırıqları yerinə yetirin.

Şagirdlər mətni oxuyur və tapşırıqları yerinə yetirməklə məzmununu anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 44**

**b.** "Sədd" sözünün izahına əsasən "sədd çəkmək" ifadəsinin mənasını təxmin edin.

Tapşırıq söz ehtiyatının zənginləşdirilməsinə xidmət edir.
Cavab:
Həqiqi mənada: suyun qarşısını almaq üçün betondan, sementdən və s.-dən bənd tikmək.
Məcazi mənada: hər hansı bir insanla ünsiyyəti kəsmək.

**Dərslik, səh. 44**

**c.** Sizcə, "Çin səddi" ifadəsindən hansı situasiyalarda istifadə edilir? "Elə bil Çin səddi çəkir" deyərkən Böyük divarın hansı xüsusiyyəti nəzərdə tutulur?

Tapşırıq söz ehtiyatını artırmaqla yanaşı ifadələrin işlənmə yeri haqqında təsəvvür də yaradır.
Cavab:
1. Xarici təsirdən tamamilə təcrid olunma mənasında
2. Ölçüləri çox böyük olan nə isə tikəndə

**Dərslik, səh. 45**

**ç.** "Böyük Çin səddi" haqqında reklam vərəqinə əsasən suallara cavab verin.

Şagirdlər suallara cavab verməklə mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 24**

**a.** "Çin səddi haqqında" reklam vərəqində hansı məlumatlar yoxdur?

Tapşırıq faktoloji qavramanı yoxlamağa yönəlmişdir.
Cavab: 1, 3, 5.

**İş dəftəri, səh. 24**

**b.** Reklam vərəqinə istinad etməklə cədvəli tamamla.

Cavab:
Badalinq gəzinti üçün ən uyğun yerdir, çünki şəhərə yaxın məsafədə yerləşir və rahat yolları var.
Divarın Jiankou adlanan hissəsi təcrübəli turistlər üçün uyğundur, çünki çox dik və təhlükəli yollardan keçir.

**İş dəftəri, səh. 24**

**c.** Səncə, nə üçün Çinə səyahət edən turistlər mütləq Böyük Çin səddini gəzməlidirlər? Üç səbəb yaz.

Tapşırıq faktoloji qavramanı yoxlamaqla bərabər nəticəçıxarma bacarığını da formalaşdırır. Cavablar təxminən belə ola bilər:

1. Qədim tarixə malikdir.
2. Dünyanın səkkizinci möcüzəsi sayılır.
3. Müxtəlif ərazilərdən: səhralar, çöllər, dağlardan keçir.

**İş dəftəri, səh. 24**

**ç.** Səncə, reklam vərəqində Çin səddi haqqında daha hansı məlumatlar verilə bilərdi?

Cavablar müxtəlif ola bilər. Məsələn, bura hansı marşrutla gəlmək olar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç (dərslik); tapşırıq a, b (iş dəftəri) |
| Mətndəki informasiyaları müəyyənləşdirir. | Tapşırıq c, ç (iş dəftəri) |

# 2-ci DƏRS
# Böyük Çin səddi

**Təlim nəticələri:**

- Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma.** Şagirdlər dəftərlərində BİBÖ cədvəli çəkirlər. Cədvəlin birinci sütununda Çin səddi haqqında bildiklərini qeyd edirlər. İkinci sütunda Çin səddi haqqında nə bilmək istədiklərini qeyd edirlər.

**Dərslik, səh. 46**

**a.** Mətni oxuyun və tanış olduğunuz reklam vərəqinin məzmunu ilə müqayisə edin.

Şagirdlər mətni oxuduqdan sonra BİBÖ cədvəlinin üçüncü sütununa Çin səddi haqqında öyrəndikləri yeni məlumatları qeyd edirlər. Cədvəlin birinci və üçüncü sütununda qeyd edilmiş məlumatları müqayisə edirlər.

Müəllim şagirdlərin diqqətini "Yadda saxla" rubrikasına yönəldir. Bu rubrikada olan məlumatları "Çin səddi" mətninin nümunəsində izah edir.

**Dərslik, səh. 47**

**b.** Mətnə əsasən suallara cavab verin.

**Müəllimin nəzərinə!** Şagirdlər suallara hansı yarımbaşlığa əsasən cavab verdiklərini söyləyirlər. Bununla da yarımbaşlıqların funksiyası bir daha vurğulanır.

**Dərslik, səh. 47**

**c.** Böyük Çin səddi haqqında oxuduğunuz mətnləri müqayisə edin.

Şagirdlər "Çin səddi" haqqında oxuduqları mətnləri mövzu, məzmun və struktur baxımından müqayisə edirlər.

Müəllim "Yadda saxla" rubrikasında qeyri-bədii mətnlərin müxtəlif quruluşu haqqında izahat verir. Məsələn, "Dünyanın ən uzun divarı" və "Böyük Çin səddi" mətninin hər ikisi qeyri-bədii mətn olsa da, müxtəlif quruluşa malikdir.

**İş dəftəri, səh. 25**

**a.** "Böyük Çin səddi" mətninə aid 5 sual yaz.

Şagirdlər mətnin məzmununa aid sual tərtib etməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 25**

**b.** Aşağıdakı fikirlər hansı mətnə aiddir? Uyğun cavab variantını seç.

Tapşırıq vasitəsilə şagirdlər qeyri-bədii mətnlər haqqında bildiklərini nümayiş etdirirlər.

Cavab:
- Mətn Çin səddi haqqında məlumat verir. (C)
- Mətn turistləri məlumatlandırmaq məqsədilə yazılıb. (A)
- Mətndə məlumatlar sistemli şəkildə təqdim edilib. (B)
- Mətndə dəqiq və konkret faktlara daha çox yer ayrılıb. (B)
- Mətn reklam xarakterlidir. (A)
- Çin səddi haqqında təsəvvür yaradır. (C)

**İş dəftəri, səh. 25**

**c.** Böyük Çin səddi haqqında məlumat vərəqini tamamla.

Şagirdlər Çin səddi haqqında faktoloji məlumatları necə qavradıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müxtəlif mətnləri mövzu, məzmun-struktur, ideya baxımından müqayisə edir. | Tapşırıq a, b, c (dərslik); tapşırıq b (iş dəftəri) |
| Mətnin məzmununa aid suallar tərtib edir. | Tapşırıq a (iş dəftəri) |
| Məlumat vərəqi hazırlayır. | Tapşırıq c (iş dəftəri) |

# 3-cü DƏRS
# Şəki Xan sarayı

**Təlim nəticələri:**
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma**

**Müəllimin nəzərinə!** İnternetdən istifadə etmək üçün imkanları olan siniflərdə şagirdlərə araşdırma üçün linklər təqdim edilə bilər. İnternetdən istifadə üçün imkanı olmayan siniflərə Şəki haqqında məqalələr, qəzetlər, jurnallar, informativ mətnlər təqdim edilə bilər.

**İş dəftəri, səh. 26**

**a.** Mətni oxu və tapşırıqları yerinə yetir.

Dərsə iş dəftərindəki tapşırıqla başlamaq tövsiyə edilir. Burada şagirdlər "Şəki Xan sarayı" mətnini oxuyur, tapşırıqları yerinə yetirməklə məzmununu anladıqlarını nümayiş etdirirlər. Şagirdlər Şəki Xan sarayı haqqında məlumat vərəqi hazırlayarkən bu məlumatlardan da istifadə edə bilərlər.

**İş dəftəri, səh. 26**

**b.** Verilmiş məlumata əsasən "iqamətgah" sözünün mənasını izah et.

Tapşırıq söz ehtiyatının zənginləşdirilməsinə yönəlmişdir.
Cavab: iqamət yeri, oturulan yer, məskən.

**İş dəftəri, səh. 26**

**c.** Mətnin məzmunu ilə bağlı doğru fikirləri seç.

Tapşırıq faktoloji qavramanı yoxlayır.
Cavab: 1, 3.

**İş dəftəri, səh. 26**

**ç.** "Şəki Xan sarayı" mətnini yazmaqda müəllifin əsas məqsədi nədir? Seçimini et və fikrini əsaslandır.

Tapşırıq vasitəsilə şagirdlərin bədii və qeyri-bədii mətnlər haqqında aldıqları məlumatları necə mənimsədiklərini yoxlamaq mümkündür.

Cavab: b) Saray haqqında ümumi məlumat vermək.

Mətndə sarayın inşa tarixi, quruluşu, inşa üsulu haqqında məlumat verilmişdir.

**Dərslik, səh. 47**

**a.** Şəki Xan sarayı haqqında araşdırma aparın. Əldə etdiyiniz faktlar əsasında bu saray haqqında reklam vərəqi hazırlayın.

Diferensial təlim. Bu tapşırığın qruplarla icra edilməsi məsləhət görülür. Müəllim müxtəlif dil səviyyələri olan şagirdləri bir qrupda qruplaşdırır. Daha sonra vəzifə bölgüsü aparır. Azərbaycan dilini zəif səviyyədə bilən şagirdlərə tərtibat işləri həvalə edilə bilər. Şagirdlərin diqqəti tapşırıqda təqdim edilmiş təlimata yönəldilir. Şagirdlər təlimatla tanış olurlar. Təlimatın müzakirəsindən sonra fəaliyyətə başlayırlar.

**Dərslik, səh. 47**

**b.** Bir-birinizin yazısını yoxlayın və münasibət bildirin.

Qruplar bir-bir hazırladıqları reklam vərəqini təqdim edirlər. Digər qrup üzvləri və müəllim təlimata əsasən reklam vərəqinə münasibət bildirirlər.

| Meyar | Tam | Orta | Zəif |
|---|---|---|---|
| Turistləri cəlb edən faktlar var. | | | |
| Qısa və konkret cümlələrdən istifadə edilib. | | | |
| Fotoşəkillər var. | | | |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kiçik mətnləri oxuyur və məzmununu şərh edir. | İş dəftərində təqdim edilmiş tapşırıqlar |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq a (dərslik) |
| Bir-birinin yazısını fonetik və leksik normalara əsasən yoxlayırlar. | Tapşırıq b (dərslik) |

# 4-cü DƏRS
# Eynicinsli və müxtəlifcinsli qoşa samitlə bitən təkhecalı sözlər

**<u>Təlim nəticələri</u>:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 48**

**a.** Fərqləndirilmiş sözlərin yazılışına diqqət edin. Fərqi izah edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları izah edir. Eynicinsli qoşa samitlə bitən təkhecalı sözlər haqqında məlumat verir və onların düzgün yazılışını nümayiş etdirir.

**Dərslik, səh. 48**

**b.** Nöqtələrin yerinə verilmiş sözləri düzgün yazmaqla cümlələri köçürün.

<u>Cavab</u>:

a. Səfər dəftərinə çəkdiyi **xətti** **xət**keşlə ölçdü.

b. **Sirr**ini verməyir **sir**daşa dünya. (S.Vurğun)

**Dərslik, səh. 48**

**c.** Cümlələrdə səhv yazılmış sözü müəyyən edin. Səhvləri izah edin.

<u>Cavab</u>:

*Həddsiz, fənnlər, haqqsız, tibbdə* sözlərinin kökündəki qoşa samitlərdən biri düşür. Çünki sözün kökünə samitlə başlayan şəkilçi artırılıb.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları izah edir. Müxtəlifcinsli qoşa samitlə bitən təkhecalı sözlər haqqında məlumat verir və onların düzgün yazılışını nümayiş etdirir.

**Dərslik, səh. 48**

**ç.** Cümlələrdə səhv yazılmış sözü müəyyən edin. Səhvləri izah edin.

<u>Cavab</u>:

*Hökümdar, üzür, mətin, dövür* sözləri səhv yazılmışdır.

Müxtəlifcinsli qoşa samitlə bitən təkhecalı sözlərin tələffüzündə yanaşı gələn samitlərin arasına sait artırılır.

Bu sözlər belə yazılmalıdır: hökmdar, üzr, mətn, dövr.

**Dərslik, səh. 48**

**d.** Sözün izahını oxuyun. Hansı cümlədə fərqləndirilmiş söz düzgün yazılmışdır?

<u>Cavab</u>: b. Hərbi əsirlər vətənlərinə döndülər.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin eynicinsli və müxtəlifcinsli qoşa samitlə bitən sözlər haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlmişdir.

**İş dəftəri, səh. 27**

**a.** Verilmiş sözləri nöqtələrin yerinə düzgün yazmaqla cümlələri köçür.

<u>Cavab</u>:

a. Mən Vüqarın **xətt**ini çox bəyənirəm.

b. Düz **xətt** çəkmək üçün **xət**keşdən istifadə edilir.

a. Riyaziyyat **fənn**i üzrə olimpiada keçirildi. b. Bütün **fən**lərdən yüksək qiymət almağa çalışıram.

**İş dəftəri, səh. 27**

**b.** Aşağıdakı sözlərə samitlə başlanan şəkilçi əlavə etməklə cümlədə işlət.

Şagirdlərin cavabları müxtəlif ola bilər.

**İş dəftəri, səh. 27**

**c.** Cümlələrdə səhv yazılmış sözü müəyyən et. Qaydalara istinad edərək düzgün yaz.

1 – əmr; 2 – əsr; 3 – əsir; 4 – mətin; 5 – mətn.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
• Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir (st. 3.1.5).
• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).
• Leksik və qrammatik şəkilçilərin funksiyasını müəyyən edir (st. 4.2.1).

Dərslikdə verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 49**

**1.** Hansı sözdə hecaların sayı daha çoxdur?

Cavab: d – evimizdəki.

**Dərslik, səh. 49**

**2.** Sətirdən sətrə keçirilmiş sözlərə diqqət edin. Səhvləri müəyyən edib cümlələri düzgün şəkildə yazın və düzəlişinizin doğru olduğunu əsaslandırın.

Cavab:
1. N.Gən-cə-vi
2. 10-cu
3. 2 kq
4. Uşaq-la-ra

**Dərslik, səh. 49**

**3.** Mürəkkəb sözləri seçin və sətirdən sətrə keçirmək üçün uyğun olan hecalara ayırın.

Cavab: quş-üzü-mü, yer-al-tı, uzun-boy-lu, Nov-ruz-əli, göz-ucu, soy-ad.

**Dərslik, səh. 49**

**4.** Sözləri kök və şəkilçiyə ayırın.

Cavab: gül+dan+dakı, döy+üş+çü, hiylə+gər+lik, iş+lə+mək, əmək+daş+lığ+ımız.

**Dərslik, səh. 49**

**5.** Aşağıdakı sözlərdə leksik və qrammatik şəkilçiləri fərqləndirin.

Cavab: məktəblilər, hazırladı, yaxşılıqdan, gücləndilər, maraqlıdır, duzludur, üzümçülük.

**Dərslik, səh. 49**

**6.** Verilmiş sözlərə qrammatik şəkilçilər artırmaqla söz birləşmələri yaradın.

Cavab: qızılgülün kolu, qalanın hündürlüyü, ağacın budağı, yarışa hazırlıq, xoşbəxtliyin sirri, atanın məsləhəti.

**Dərslik, səh. 49**

**7.** Sözlərin kökünü və başlanğıc formasını müəyyənləşdirin.

| Sözün kökü | Sözün başlanğıc forması |
|---|---|
| balıq | balıqçı |
| bir | birincilik |
| çox | çoxal |
| bağ | bağçadakı |
| söz | sözləş |

**Dərslik, səh. 49**

**8.** Hansı cümlədə fərqləndirilmiş söz düzgün yazılmışdır?

Cavab: 1 – a;  2 – b.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# Kiçik summativ qiymətləndirmə

İş dəftərinin 28-29-cu səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq 1, 2, 3 (iş dəftəri) |
| Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir. | Tapşırıq 4 (iş dəftəri) |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tapşırıq 5, 6, 7, 8, 9, 10 (iş dəftəri) |

Bölmə **3**

# BALACA QƏHRƏMANLAR

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Hüququ pozulmuşlar** | | | | | |
| 1 | Qaraca qız | Oxu | 52-55 | 30 | 71 |
| 2 | Qaraca qız | Oxu | 56-57 | 31 | 73 |
| 3 | Kozetta | Dinləmə | 57-58 | 32 | 75 |
| 4 | Uşaq hüquqları | Danışma | 58 | 33 | 77 |
| 5 | Samitlərin növləri | Yazı (dil qaydaları) | 59 | 34 | 78 |
| 2-ci fəsil. **Dostluq naminə** | | | | | |
| 5 | Tom özünü fəda edir | Oxu | 60-62 | 35 | 80 |
| 6 | Tom özünü fəda edir | Oxu | 63 | 36 | 81 |
| 7 | Tom və Bekki mağarada | Dinləmə | 64 | 37 | 83 |
| 8 | "K" samitinin tələffüzü. *K – Y* əvəzlənməsi | Yazı (dil qaydaları) | 65 | 38 | 86 |
| 3-cü fəsil. **Balaca səfillər** | | | | | |
| 10 | Qavroş | Oxu | 66-69 | 39 | 88 |
| 11 | Qavroş | Oxu | 69-70 | 40 | 90 |
| 12 | Şahzadə və dilənçi | Dinləmə | 70 | 41 | 91 |
| 13 | Şahzadə və dilənçi | Danışma | 71 | – | 93 |
| 14 | "Q" samitinin tələffüzü. *Q – Ğ* əvəzlənməsi | Yazı (dil qaydaları) | 72 | 42 | 94 |
| 15 | Ümumiləşdirici təkrar | | 73 | 43-44 | 96 |

# GİRİŞ DƏRSİ

**Təlim nəticələri:**
- Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır (st. 2.1.2).
- Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir (st. 3.1.1).
- Məqsədə uyğun olaraq sadə əməli yazı (annotasiya) yazır. (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma**
**Dərslik, səh. 50**

**a.** Sevdiyiniz ədəbi qəhrəmanları xatırlayın. Bu qəhrəmanların hansı xüsusiyyətlərini bəyənirsiniz?

Şagirdlər oxuduqları əsərlərdən və ya baxdıqları filmlərdən, cizgi filmlərindən çıxış edərək sevimli qəhrəmanları haqqında danışırlar. Bu zaman onların fikirlərini əsaslandırmalarına diqqət yetirilməlidir. Müəllim şagirdləri danışma fəaliyyətinə həvəsləndirmək üçün yönəldici suallar verir:
- Nə üçün məhz bu qəhrəman sizin daha çox xoşunuza gəlir?
- Bu qəhrəmanın hansı xüsusiyyətləri sizin xoşunuza gəlir?
- Bu qəhrəmanın hansı hərəkəti və ya sözləri yadınızda qalıb?
- Sevdiyiniz qəhrəmanın hansı xüsusiyyətini dəyişmək istərdiniz? Nə üçün?
- Siz hansı qəhrəmana bənzəmək istəyərdiniz? Nə üçün?

**Oxu**
**Dərslik, səh. 50**

**b.** Rollu oxu. Şəkillərə baxaraq dialoqları oxuyun.

Şagirdlər Cahid və Lalə arasındakı dialoqu təhlil edirlər. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür, oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etməsinə diqqət edir, obrazların nitqini onların emosiyalarına görə necə səsləndirmələrini müşahidə edir. Oxu prosesi başa çatdıqdan sonra rol bölgüsü aparır və dialoqu səhnələşdirir.

**Yazı**
**Dərslik, səh. 51**

**c.** Siz oxuduğunuz hansı kitabı yoldaşlarınıza tövsiyə edərdiniz? Həmin kitabın annotasiyasını yazın.

Tapşırıq şagirdlərin təqdimetmə bacarığının inkişafına imkan yaradır. Şagirdlər əvvəlki siniflərdə öyrəndikləri əsasında kitab annotasiyası yazırlar.

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Dialoji mətni səsləndirərkən obrazların nitqini fərqli səs tonu ilə oxuyur. | Tapşırıq b (dərslik) |
| Məqsədə uyğun olaraq sadə əməli yazı – annotasiya yazır. | Tapşırıq c (dərslik) |

Növbəti dərsə hazırlıq. Müəllimə tövsiyə olunur ki, növbəti dərsdə nümayiş etdirmək üçün Süleyman Sani Axundovun “Qorxulu nağıllar” kitabını, “Qaraca qız” filmindən müvafiq fraqmentləri əldə etsin.

# 1-ci fəsil
# HÜQUQU POZULMUŞLAR

## 1-ci DƏRS
## Qaraca qız

**Təlim nəticələri:**
- Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır (st. 2.1.2).
- Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir (st. 3.1.1).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə.** Müəllim Süleyman Sani Axundovun "Qorxulu nağıllar" kitabını şagirdlərə nümayiş etdirir. Onlara məlumat verir ki, bu kitab bir neçə hekayədən ibarətdir. Onlardan biri də "Qaraca qız" hekayəsidir. Bu hekayələrdə valideynlərini itirmiş uşaqların acı taleyindən söhbət açılır. Yazıçı burada həyat hadisələrini maraqlı əhvalatlarla oxuculara çatdırır, uşaqlara həyatı, insanları sevmək, xeyirxahlıq etmək kimi fikirlər aşılayır.

**Danışma**

**Dərslik, səh. 52**

**a.** Sizcə, insanlar arasında dostluq münasibətləri necə yaranır? Yaxşı dost dedikdə nə nəzərdə tutulur?

Şagirdlər dostluq haqda fikirlərini bölüşürlər. Yaxşı olar ki, tapşırığın şərtindəki ikinci sualı müəllim lövhəyə yazsın, şagirdlərin bu sualla bağlı söylədikləri fikirləri sualın altında qeyd etsin.

**Oxu. Söz ehtiyatı**

**Dərslik, səh. 52**

**Mətnlə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Qaraca qız" mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etməsinə diqqət edir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir.

Müəllim "Söz mücrüsü"ndə verilmiş söz və ifadələrin mənasını, habelə oxu prosesində rast gəldikləri tanış olmayan sözləri şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 55**

**b.** Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.

Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə yönəldilib. Şagirdlər həmin sözləri cümlələrdə nöqtələrin yerinə artıraraq bu sözlərin mənasını anladıqlarını göstərirlər.

Cavab: 1 – həmişəlik; 2 – çapər; 3 – qulluqçu; 4 – istehza; 5 – daxma.

İş dəftərindəki tapşırıqlar şagirdlərin bilik və bacarıqlarını yoxlamağa imkan yaradır.

**İş dəftəri, səh. 30**

**a.** Aşağıdakı sözlərin yaxınmənalı qarşılığını "Söz mücrüsü"ndən tap və yaz.

Bu tapşırıq da yeni sözlərin möhkəmləndirilməsinə yönəldilib.

Cavab: çəpər, qulluqçu, həmişəlik, istehza.

**Dərslik, səh. 55**

**c.** Mətnə əsasən "mürəbbiyə" sözünün mənasını təxmin edin. Kontekstdən çıxış edərək cavabınızı əsaslandırın.

Şagirdlər kontekstdən çıxış edərək sözün mənasını təxmin edirlər.

Cavab: b – tərbiyəçi.

**İş dəftəri, səh. 30**

**b.** "Qaraca qız" mətnindən verilmiş cümlələri oxu. Obrazların adlarını uyğun boşluqlara yazmaqla cümlələri köçür.

Bu tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa kömək edir.

Cavab: 1 – Ağca xanım; 2 – Qaraca qız; 3 – Mariya İvanovna; 4 – Hüseynqulu ağa; 5 – Pəricahan xanım; 6 – Piri baba.

**Dərslik, səh. 55**

**ç.** "Tele" hissəciyinin mənasına əsasən "televizor", "teleskop", "telefon" sözlərini izah edin.

Şagirdlər tapşırıqda verilmiş mənalardan çıxış edərək "televizor", "teleskop", "telefon" sözlərini izah edirlər.

Cavab:

televizor – televiziya verilişlərini və onların səsini qəbul edən cihaz

teleskop – uzağa baxmaq üçün cihaz

telefon – uzaqdakı insanlarla danışmaq üçün cihaz

**İş dəftəri, səh. 30**

**c.** Verilmiş sözləri *"tele"* hissəciyinə artıraraq müvafiq şəkillərin altında yaz.

Cavab: telekamera, teleqüllə, telefon.

Bu tapşırıqdan sonra şagirdlər "Yadda saxla" rubrikasında verilmiş məlumatla tanış olurlar. Onlar bir çox sözlərin tərkibində işlənən qədim yunan və latın mənşəli hissəciklərdən bəzilərinin mənasını öyrənirlər.

**Dərslik, səh. 55**

**d.** İzahlardan istifadə edərək verilmiş sözlərin mənalarını təxmin edin.

Şagirdlər tapşırıqda verilmiş izahlar əsasında sözlərin mənalarını təxmin edirlər.

Cavab:

avtobioqrafiya – tərcümeyi-hal; bir şəxsin öz həyatı haqqında yazdıqları

audiokitab – səsli kitab, danışan kitab, səsləndirilmiş və qeydə alınmış kitab

aerokassa – təyyarə bileti satılan kassa

**İş dəftəri, səh. 30**

**ç.** İzahlardan çıxış edərək verilmiş sözlərin mənalarını təxmin et.

Cavab:

avtoqraf – hər hansı şəxsin xatirə üçün yazdığı və ya imzaladığı nə isə (kitab, açıqca, köynək və s.)

orfoqrafiya – sözlərin düzgün yazılışını tənzimləyən vahid qaydalar sistemi

monoqrafiya – konkret mövzunu araşdıran elmi əsər

seysmoqraf – seysmik dalğaları qeydə alan cihaz

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c (dərslik); tapşırıq a, c (iş dəftəri) |

# 2-ci DƏRS
# Qaraca qız

**Təlim nəticələri:**
- Kiçik mətnləri oxuyur və məzmununu şərh edir (st. 3.1.2).
- Dialoq zamanı fikirlərini rabitəli şəkildə çatdırır (st. 2.2.3).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Oxuyub-qavrama**

**Dərslik, səh. 56**

**a.** Cümlələri mətnin məzmununa əsasən tamamlayın.

Şagirdlər tapşırıqda verilmiş cümlələri “Qaraca qız” mətninin məzmununa əsasən tamamlayırlar. Bu tapşırıq şagirdlərin səbəb-nəticə əlaqələrini necə müəyyənləşdirdiklərini yoxlamağa imkan yaradır.

Cavab:

1. Pəricahan xanım qızının Qaraca qızla dostluq etməsini istəmirdi, çünki *Ağca xanım bəy qızı idi.*
2. Pəricahan xanım xidmətçilərə yalvarırdı ki, *Ağcanın yarasını sorub ilanın zəhərini yerə töksünlər.*

**b.** Hadisələrin düzgün ardıcıllığını müəyyənləşdirin.

Tapşırıq şagirdlərin mətni necə diqqətlə oxuduqlarını müəyyən etmək məqsədi daşıyır.

Cavab: 1 – b; 2 – d; 3 – ç; 4 – a; 5 – c.

**c.** Mətnin hissələrini məzmuna uyğun yarımbaşlıqlarla adlandırın.

Şagirdlər mətni yenidən oxuyur, yarımbaşlıqlara ayırır.

**Müəllimin nəzərinə!** Yaxşı olar ki, şagirdlər mətni yarımbaşlıqlarla adlandıranda müəllim həmin yarımbaşlıqları lövhədə yazsın.

Şagirdlərin cavabı təxminən belə ola bilər: I hissə – Ağca xanımın kəndə qayıtması; II hissə – Bədbəxt hadisə; III hissə – Qaraca qızın fədakarlığı.

**ç.** Mətndə göy rənglə verilmiş cümlələri oxuyun.
- Pəricahan xanım nə üçün Ağca xanıma bu sözləri deyirdi?
- “Ağca xanım sirrin üstünü açmadı” cümləsində hansı sirdən söhbət gedir?

Cavab: 1. Pəricahan xanım Qaraca qızla Ağca xanımın münasibətini pozmağa çalışırdı, Qaraca qızı vəfasızlıqda günahlandırırdı.

2. Ağca xanım stansiyada gizlicə Qaraca qızla görüşmüşdü.

**d.** Qaraca qıza və Ağca xanıma aid xüsusiyyətləri seçin və mətnə istinad etməklə əsaslandırın.

Cavab:

| Qaraca qız | Ağca xanım | Hər ikisinə aid cəhətlər |
|---|---|---|
| qorxmaz, qayğıkeş | zəif, aciz, zərif | vəfalı, səmimi, mehriban |

**Müəllimin nəzərinə!** Müqayisə aparmaq üçün müəllim lövhədə Venn diaqramı da çəkə bilər.

**Dərslik, səh. 56**

**e. Müzakirə.** “Dost dosta tən gərək, tən olmasa, gen gərək” atalar sözünü izah edin. Bu atalar sözünü “Qaraca qız” əsərinin ideyası kimi qəbul etmək olarmı? Cavabınızı əsaslandırın.

Şagirdlər verilmiş atalar sözünü təxminən belə izah edə bilərlər: Dost dostun çətin günündə ona kömək etməlidir, dostuna sadiq olmalıdır, onun səhvlərini bağışlamağı bacarmalıdır. Dostuna qarşı ədalətli, rəhmli olmalısan.

**ə.** Aşağıdakı fikirlərdən hansını əsərin ideyası kimi qəbul etmək olar? Mətnə istinad etməklə fikrinizi əsaslandırın.

Şagirdlər öz cavablarını təxminən belə əsaslandıra bilərlər: Əsər boyu görürük ki, Qaraca qız yoxsul, kimsəsiz olduğu üçün Pəricahan xanım onu qızından uzaqlaşdırır, ondan xoşu gəlmir, pis münasibət göstərir, ona yuxarıdan aşağı baxır. Bütün bunlara baxmayaraq, təmizqəlbli Qaraca qız Pəricahan xanımın qızını – öz dostunu ölümdən qurtarır.

Cavab: b.

**Dərslik, səh. 57**

**f.** Əsərin ideyasının açılmasında əsas obrazların rolunu izah edin.

Tapşırıq şagirdlərdə məntiqi mühakimə yürütmək, təhliletmə bacarıqlarını formalaşdırmaq, habelə dosta sədaqət, iradəlilik, insanpərvərlik hisslərini inkişaf etdirmək məqsədi daşıyır.

Cavab təxminən belə ola bilər: Qaraca qız, Ağca xanım, Piri baba müsbət obrazlardır.

Müxtəlif epizodlara istinad etməklə Qaraca qızı vəfalı, fədakar, qorxmaz, xeyirxah, mehriban bir qız kimi xarakterizə etmək olar. Qaraca qız dostunun həyatını xilas edir. Bu zaman o öz həyatını, başına nə gələ biləcəyini belə düşünmür.

Ağca xanım mehriban və səmimi qızdır. Qaraca qızı da çox istəyir. Amma onun kimi cəsarətli olduğu əsərdən görünmür.

Piri baba sadəqəlbli, xeyirxah, əməksevərdir. Qaraca qız onun yanında qalır. O, Qaraca qıza öz balası kimi baxır.

Pəricahan xanım mənfi obrazdır. O, kobud, özündənrazı və lovğadır. Pəricahan xanım Qaraca qızın Ağca xanımla dostluğuna qarşı çıxır, Qaraca qızı öz uşağına yaraşdırmır. Qızını xilas etmək üçün Qaraca qızı təhlükəyə atır.

**Yazı**

**İş dəftəri, səh. 31**

**a.** Əsərdən Pəricahan xanım və Piri babanın Qaraca qıza münasibətini göstərən cümlələri yaz.

Cavab:

**Pəricahan xanım**

*Qızım, bu da dostun Qaraca qızın vəfası, gör səni necə tez yadından çıxarmışdır.*

*Qaraca qıza heç bir şey olmaz.*

*Qaraca qız, mənə yazığın gəlsin, qızımı ölməyə qoyma.*

**Piri baba**

*Onu da gördüm ki, öz balanı xilas etmək istəyirsən, amma bu kimsəsiz uşağa heç yazığın gəlmir.*

*Çəkil, sən indiyə kimi bu qızı yaxına qoymamısan, onu bəy qızına yaraşdırmamısan. İndi də mən onun bu zülm yuvasında qalmasına razı deyiləm.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tapşırıq a (dərslik) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq c (dərslik) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq e (dərslik) |
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tapşırıq ə, f (dərslik) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq a (iş dəftəri) |

# 3-cü DƏRS
# Kozetta

**Təlim nəticələri:**
- Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).
- Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
- Dinlədiyi sadə fikrin mahiyyətini müəyyən edir (st. 1.1.1).

**Müəllimin nəzərinə!** Mətni dinləməzdən əvvəl müəllimin böyük fransız yazıçısı Viktor Hüqo və onun məşhur "Səfillər" romanı haqqında şagirdlərin yaş səviyyəsinə uyğun qısa məlumat verməsi tövsiyə olunur. Şagirdlərin diqqətinə çatdırılmalıdır ki, romanda bir çox obrazlarla yanaşı, kimsəsiz uşaq obrazları da var: Kozetta, Qavroş. Müəllif romanda onların ağır həyatından bəhs edir.

**Dərslik, səh. 57**

**a.** "Kozetta" mətnini dinləyin. Mətnə əsasən Kozetta obrazını təsvir edin.

Şagirdlər mətni dinlədikdən sonra tapşırıqda verilmiş suallara uyğun olaraq Kozetta obrazı haqda öz fikirlərini irəli sürürlər.

***Kozetta***

*Yeni il axşamı idi. Tenardyenin mehmanxanasında xeyli adam vardı. Bu mehmanxananın xidmətçisi Kozetta adlı qız idi. 8 yaşlı Kozetta səhərdən axşama kimi işləyirdi. Amma ona doyunca yemək vermirdilər. Paltarları cırıq, ayağı da yalın idi. Tenardyenin arvadı onu tez-tez döyürdü. Heç kimin ona yazığı gəlmirdi.*

*Kozettanın ən çətin işi meşədəki bulaqdan su gətirmək idi. Yazıq qız uzaq meşədən ağır vedrəni çətinliklə gətirirdi. Bəzən gecələr də onu su dalınca göndərirdilər. Kozetta qaranlıqda qorxa-qorxa su daşıyırdı.*

*Bu axşam yenə də Tenardyenin arvadı onu su dalınca göndərdi. Çörək almaq üçün 20 qəpik də verdi. Kozetta böyük vedrəni götürüb meşəyə yollandı. Evlər arxada qalmışdı. Kozetta qorxudan əsirdi. Qulağına cürbəcür səslər gəlirdi.*

*Kozetta bulağa çatdı, vedrəni doldurdu. Əyiləndə pul suya düşdü. Amma Kozetta bunu hiss etmədi. Vedrə çox ağır idi, aparmaq olmurdu, soyuq su onun çılpaq ayaqlarına tökülürdü. Kozetta tez-tez dayanıb dincəlirdi.*

*Birdən kimsə vedrəni Kozettanın əlindən aldı. Kozetta çevrilib baxanda yanında 50-55 yaşlı bir kişi gördü. Kozetta onu tanımırdı. Bu, Jan Valjan idi.*

*– Bala, bu yük çox ağırdır. Qoy mən götürüm, – deyə kişi vedrəni ondan aldı.*

*Onlar birlikdə getməyə başladılar. Kişi soruşdu:*

*– Qızım, sənin anan yoxdur?*

*– Bilmirəm, məncə, yoxdur.*

*– Adın nədir?*

*– Kozetta.*

*Bu adı eşidən kimi kişi dayanıb diqqətlə ona baxdı. Sonra yoluna davam etdi.*

*– Niyə gecə vaxtı səni meşəyə göndərirlər? Başqa qulluqçu yoxdur?*

*– Yox, cənab. Tenardyenin iki qızı var. Onlar gözəl kuklaları ilə oynayırlar.*

*– Bəs sən?*

*– Bütün günü işləyirəm. Mənim heç oynamağa kuklam da yoxdur.*

*Bir azdan kəndə çatdılar. Kozetta kişiyə dedi:*

*– Cənab, artıq çatmışıq. Vedrəni ala bilərəm? Xanım görsə ki, vedrəni başqası gətirib, məni döyər.*

*Kişi vedrəni qıza verdi. Bu vaxt xanım qapıya çıxıb Kozettaya acıqlandı:*

*– Ay avara, harda itib-batmısan?*

*Kozetta kişini göstərib dedi:*
*– Bu cənab mehmanxanada qalmaq istəyir.*
*Xanım yenə qışqırdı:*
*– Bəs çörək almadın?*
*– Xanım, çörəkxana bağlı idi, – Kozetta qorxa-qorxa cavab verdi.*
*– Onda pulu qaytar.*
*Kozetta cibini axtardı, amma pul yox idi.*
*– Pulu itirmisən, yoxsa oğurlamaq istəyirsən?*
*Xanım qamçını götürüb qızı döymək istədi. Kozetta qorxudan büzüşüb gizlənməyə çalışdı.*
*Kişi dedi:*
*– Xanım, mən gördüm ki, qızın cibindən nəsə yerə düşdü.*
*O əyilib yerdə bir şey axtarmağa başladı. Sonra qalxıb xanıma dedi:*
*– Pul yerə düşmüşdü, alın, – deyə pulu xanıma uzatdı.*
*Kişi küçəyə çıxdı. Oyuncaq dükanına gedib bir kukla aldı. Mehmanxanaya qayıdıb kuklanı Kozettaya verdi:*
*– Al, bu da sənin olsun!*

**b.** Verilmiş plan və illüstrasiyalar əsasında mətnin qısa məzmununu danışın.

Şagirdlər illüstrasiya əsasında dinlədikləri mətnin qısa məzmununu danışmaqla təsviretmə bacarıqlarını inkişaf etdirirlər.

**İş dəftəri, səh. 32**

**a.** "Kozetta" dinləmə mətnində hansı məlumat yoxdur?

Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər cavabını müəyyənləşdirə bilmədikləri sualı seçməklə mətni nə qədər diqqətlə dinlədiklərini nümayiş etdirirlər.

Cavab: 3. Kozettanın valideynləri yox idi.

**b.** Hadisələrin səbəbini müəyyənləşdir və cümlələri tamamla.

Cavab:
1. Kozetta pulu itirmişdi, çünki *əyiləndə pul suya düşmüşdü*.
2. Jan Valjan qızın adını eşidən kimi diqqətlə ona baxdı, çünki *onu tanıdı*.
3. Su gətirmək üçün yalnız Kozettanı göndərirdilər, çünki *başqa qulluqçu yox idi*.
4. Xanım qamçı ilə Kozettanı döymək istədi, çünki *o, pulu itirmişdi*.

**Dərslik, səh. 58**

**c.** "Kozetta" və "Qaraca qız" mətnlərindəki obrazları müqayisə edin.

Müəllim şagirdlərin diqqətini obrazlar haqqında verilmiş məlumatlara yönəldir. Şagirdlər obrazlara aid xüsusiyyətləri mətndən müvafiq epizodları seçərək əsaslandırmalıdırlar. Çətinlik yaranarsa, müəllim şagirdlərin diqqətini müvafiq epizodlara yönəldərək düzgün cavabın alınmasına nail ola bilər.

**ç.** Bu mətnlərdə insan münasibətlərindəki hansı mənfi cəhətlər tənqid olunur?

Cavab: zalımlıq, rəhmsizlik, insanlara xor baxmaq, insan həyatını heçə saymaq.

Müəllim "Yadda saxla" rubrikasında şagirdlərin diqqətini obraz və baş qəhrəman haqda məlumata yönəldir, əsərdəki hadisələrin bunların vasitəsilə oxucuya çatdırıldığını bildirir.

**Dərslik, səh. 58**

**d.** Təxəyyülünüzə əsasən "Kozetta" mətninin davamını təxmin edin. Aşağıdakı variantlardan birini seçin.

Verilmiş variantlar əsasında şagirdlər mətni öz təxəyyüllərinə uyğun davam etdirirlər. Mətnin sonluq hissəsi şagirdlərin təxəyyülünə uyğun yazıldığından müxtəlif variantlarda ola bilər.

**İş dəftəri, səh. 32**

**c.** Aşağıdakı məlumatlar hansı mətnə aiddir?

Bu tapşırıq şagirdlərin müqayisə etmə bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda verilmiş fikirlərin oxuduqları "Qaraca qız", yoxsa dinlədikləri "Kozetta" mətninə aid olmasını müəyyənləşdirməklə hər iki mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

Cavab:

1 – B; 2 – C; 3 – A; 4 – C; 5 – A.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq a (dərslik); tapşırıq a (iş dəftəri) |
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq b (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq c (dərslik); tapşırıq c (iş dəftəri) |
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tapşırıq d (dərslik) |

# 4-cü DƏRS
# Uşaq hüquqları

**Təlim nəticələri:**
- Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır (st. 2.1.2).
- Dinlədiyi sadə fikrin mahiyyətini müəyyən edir (st. 1.1.1).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma**. Müəllim şagirdləri mövzuya yönəltmək üçün belə suallar verə bilər:

1. Sizin hansı hüquqlarınız var?
2. Sizin hüquqlarınızı kim qoruyur?
3. Uşaqların hüquqlarının qorunması nə üçün lazımdır?

**Dərslik, səh. 58**

**a.** Uşaq hüquqları haqqında nə bilirsiniz?

Həyat bilgisi fənni ilə inteqrasiya. Şagirdlər həyat bilgisi fənnində uşaq hüquqları haqqında öyrəndiklərini danışırlar. Şagirdlər bildirirlər ki, yaşamaq, təhsil almaq, fikrini bildirmək, istirahət etmək, müalicə olunmaq hər bir insanın haqqıdır. Bu, insan hüquqları adlanır. Bütün vətəndaşlar bərabər hüquqlara malikdirlər. Onların hüquqlarını dövlət qoruyur.

**Oxu**

**b.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun aşağıda verilmiş maddələri ilə tanış olun.

Şagirdlər "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun cədvəldə verilən maddələri ilə tanış olurlar.

**c.** Hər iki mətnə istinad etməklə Qaraca qız və Kozettanın hansı hüquqlarının pozulduğunu müəyyənləşdirin. Nümunələr gətirməklə fikrinizi əsaslandırın.

Cavab:

təhsil almaq, istirahət etmək, tibbi yardım almaq, azad söz demək, ailədə, öz evində yaşamaq.

Şagirdlər hər iki əsərdən nümunələr gətirməklə yuxarıda göstərilən hüquqların pozulduğunu müəyyən edirlər.

**Yazı**

**İş dəftəri, səh. 33**

**a.** İllüstrasiyalar əsasında Kozettanın hansı hüquqlarının pozulduğunu müəyyən et. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa istinad etməklə fikrini əsaslandırıb yaz.

Şagirdlər Kozettanın pozulmuş hüquqlarını "Qanun"a əsaslanaraq müəyyənləşdirirlər. Bu tapşırığı dərslikdəki "c" tapşırığının davamı və Kozetta haqqında fikirlərin sistemləşdirilməsi kimi qiymətləndirmək olar. Şagirdlər Kozetta barədə mülahizələrini əsaslandırmaqla fikirlərini yazılı şəkildə ifadə etmək bacarığını da nümayiş etdirirlər.

Cavab:

Maddə 6. *Bütün uşaqlar bərabər hüquqlara malikdirlər.*

Kozetta səhərdən axşama qədər işləyir, su daşıyır. Amma Tenardyenin qızları heç bir iş görmür, gəlinciklə oynayırlar.

Maddə 9. *Hər bir uşağın həyatı və sağlamlığının mühafizə edilməsi hüququ vardır.*

Kozettanın paltarı köhnə və cırıqdır, üşüyür. O, tez-tez xəstələnə bilər. Tenardyenin arvadı Kozettanı döyür, incidir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq c (dərslik) |
| Verilmiş şəklə uyğun söz və cümlələr yazır. | Tapşırıq a (iş dəftəri) |

# 5-ci DƏRS
# Samitlərin növləri

**Təlim nəticələri:**

• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**. Şagirdlər aşağı siniflərdən səslərlə tanışdırlar. Bu dərsdə şagirdlərin həmin mövzu üzrə bilik və bacarıqları təkrar olunur. Müəllim öyrədilən mövzunu yada salmaq üçün lövhədə bütün samitləri yazır və şagirdləri fəaliyyətə cəlb edir. Şagirdlər kar və cingiltili samitləri müəyyən etdikcə müəllim lövhədə samitləri qruplaşdırır.

**Dərslik, səh. 59**

**a.** "Xəstə", "rəfiqə", "narahat", "qəmgin" sözlərində hansı samitlər işlənib?

Şagirdlər aşağı siniflərdə samitlər haqqında aldıqları bilgilərə əsasən tapşırıqda verilmiş sözləri şərh edirlər. Məsələn: "Samitlərin kar və cingiltili növləri var. "Xəstə" sözündə kar samitlər işlənib" və s. Onlar hər sözdə hansı samitin işlənməsini müəyyən edirlər.

**b.** Aşağıdakı sözlərin yazılışında hansı səhvə yol verilib?

Şagirdlər *kənt, hopbanmaq, bitgi, çəkiç* sözlərinin düzgün yazılışını, habelə kar və cingiltili samitlər arasındakı uyğunluğu müəyyənləşdirirlər.

Cavab: p – b; t – d; ç – c; k – g.

“Bunları bilməliyik” rubrikasında samitlərin növləri göstərilir. Müəllim şagirdlərə kar və cingiltili samitlər haqqında məlumat verir.

**Dərslik, səh. 59**

**c.** Kar və cingiltili samitli sözləri cədvəlin uyğun yerlərinə yazın.

Cavab:

| **Kar samitli sözlər** | **Cingiltili samitli sözlər** |
|---|---|
| test | nərgiz |
| sakit | jurnal |
| pişik | qələm |

**İş dəftəri, səh. 34**

**a.** Səhv yazılmış sözləri düzgün yaz.

Cavab: 1 – usta, çəkic; 2 – kitablar; 3 – buludlar; 4 – zəng.

**b.** Samitlərin növlərinə görə hər sırada dörd sözdən biri fərqlidir:

Tapşırıq şagirdlərin samitlərin növləri haqqında biliklərini tətbiq etməyə, eyni zamanda məntiqi təfəkkürünün inkişafına şərait yaradır. Şagirdlər hər sırada fərqli olan sözü müəyyən edir və seçimlərini əsaslandırırlar. Bu zaman fikrini düzgün çatdırma, əsaslandırma kimi bacarıqlar da formalaşır.

Cavab:
1-ci sıra: müəllim
2-ci sıra: kişi
3-cü sıra: taxta
4-cü sıra: dəniz

**Dərslik, səh. 59**

Müəllim şagirdlərin diqqətini “Yadda saxla” rubrikasına yönəldir və burada verilmiş transkripsiya anlayışını izah edir.

**ç.** Tələffüz forması verilmiş sözləri orfoqrafik normalara uyğun yazın.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə bir çox orfoqrafiya qaydaları ilə tanış olublar.

Cavab:
[şabalıt] – şabalıd, [hətda] – hətta, [dik'qət] – diqqət, [ipəx'] – ipək, [fişənk] – fişəng, [hopbammax] – hoppanmaq, [kəsgin] – kəskin, [cavap] – cavab

**İş dəftəri, səh. 34**

**c.** Buraxılmış səhvləri düzəltməklə cümlələri yenidən yaz.

Cavab:
Səhv yazılmış sözlər: çıqqıltı, qutab, dörd, təşkil, Səttar, tappıldatdı, rəng, külək.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| **Meyarlar** | **Materiallar** |
|---|---|
| Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 2-ci fəsil
# DOSTLUQ NAMİNƏ

## 1-ci DƏRS
## Tom özünü fəda edir

**Təlim nəticələri:**
• Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
• Dialoq zamanı fikirlərini rabitəli şəkildə çatdırır (st. 2.1.4).
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə**. Mətni oxumazdan əvvəl müəllim şagirdlərə belə bir sual verə bilər:
– Sinfə yeni şagird gələrkən onunla necə münasibət qurursunuz?
Şagirdlərin fikirlərini dinlədikdən sonra müəllim onların diqqətinə çatdırır ki, bu əsər Amerika yazıçısı Mark Tvenin "Tom Soyerin macəraları" romanından bir parçadır.

**Oxu. Danışma**
**Dərslik, səh. 60**

a. **Qruplarla iş.** Qruplara bölünərək mətnin hissələrini oxuyun.
• Oxuduğunuz hissəni uyğun başlıqla adlandırın və onun məzmununa dair üç sual hazırlayın.
• Həmin hissəni nəql edin və suallarınızı dinləyicilərə yönəldin.
• Yoldaşlarınızın cavablarına reaksiya verin.

**Mətnlə iş. "Ziqzaq" oxu.** Tapşırığın qruplarla iş formasında aparılması şagirdlərin əməkdaşlıq şəraitində biliklərini tətbiq etmək, analiz etmək kimi mühüm bacarıqlarının inkişafına təkan verir. Mətn "Ziqzaq" metodu ilə oxunur. Şagirdlər qruplara bölünürlər. Qrup üzvləri mətnin müvafiq hissəsini oxuyur və mətnin hər hissəsi ilə bağlı tapşırıqları yerinə yetirirlər. Hər qrup öz nömrəsinə uyğun hissəni oxuduqdan sonra onun məzmunu ilə bağlı suallar hazırlayır. Hər hissəyə başlıq verilir. Başlıqlar belə ola bilər: 1. Tom və Bekkinin münasibəti. 2. Alfredin intiqamı. 3. Bekkinin xəcaləti. 4. Tomun cəzalanması.

Hər hissəyə uyğun suallar təxminən belə ola bilər:

1-ci hissə

1. Alfredin sevincinin səbəbi nə idi? 2. Tom niyə hirslənirdi? 3. Nə üçün Alfredlə oturmaq Bekkini darıxdırdı?

2-ci hissə

1. Alfred niyə Tomun kitabına mürəkkəb tökdü? 2. Bekkinin hərəkəti barədə nə düşünürsünüz? 3. Tom və Bekki niyə barışmadılar?

3-cü hissə

1. Müəllim Dobbins hansı kitabı oxuyurdu? 2. Anatomiya nə deməkdir? 3. Bekki niyə ağladı?

4-cü hissə

1. Nə üçün Bekki müəllim Dobbinsə həqiqəti söyləmədi? 2. Tom niyə Bekkini müdafiə etdi? 3. Tomun bu hərəkətini necə qiymətləndirirsiniz?

Mətn bütün şagirdlərə aydın olduqdan sonra bir, yaxud iki nəfər tərəfindən nəql edilir. Mətnin tam qavranıldığını yoxlamaq məqsədilə qrup üzvləri dinləyicilərə suallar verirlər.

Müəllim uşaqlardan anatomiya elminin nədən bəhs etdiyini soruşur və onların fikirlərini yeni məlumatlarla zənginləşdirir.

Şagirdlər "Söz mücrüsü" rubrikasında verilmiş söz və ifadələrin mənasını öyrənirlər.

**Dərslik, səh. 60**

**b.** Uyğunluğu müəyyən edin.

Mətnin 1-ci hissəsi oxunduqdan sonra şagirdlər həmin hissədə fərqləndirilmiş ifadələrin mənasını müəyyən edirlər.

Cavab: 1 – ç; 2 – a; 3 – b; 4 – c.

**Söz ehtiyatı**

**Dərslik, səh. 61**

**c.** Mətndə "mürəkkəb" sözü hansı mənada işlənib?

Mətnin 2-ci hissəsi oxunduqdan sonra şagirdlər kontekstə uyğun olaraq "mürəkkəb" sözünün hansı mənada işləndiyini tapırlar.

Cavab: b. Yazı yazmaq üçün rəngli maye – boya.

**İş dəftəri, səh. 35**

**b.** "Bütün uşaqların *ağzı açıla qaldı*" cümləsində fərqləndirilmiş ifadə nə deməkdir?

Cavab: a – təəccüblənmək.

**c.** Cümlələri mətnin məzmununa əsasən tamamla.

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır. Eyni zamanda analiz etmə bacarığını inkişaf etdirir. Şagirdlər mətndə əks olunan hadisələri bir-biri ilə əlaqələndirir, hadisələrin səbəbini müəyyən edirlər.

Cavab:

1. Tom Alfredlə Bekkiyə baxıb hirslənirdi, çünki *Bekki ona əhəmiyyət vermirdi*.
2. Bekki Alfredlə ona görə söhbət edirdi ki, *Tom hirslənsin*.
3. Bekki pəncərədən Alfredin hərəkətini gördü, amma *Toma demədi*.
4. Kitab səhifəsinin cırıldığını görən Bekki ağlamağa başladı, çünki *caza almaqdan qorxdu*.
5. Tom günahı boynuna götürdü ki, *Bekki cəzalanmasın*.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq a (dərslik) |
| Tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur. | Tapşırıq a (dərslik) |
| Sözləri ümumi mənalarına görə qruplaşdırır. | Tapşırıq b, c (dərslik); tapşırıq b (iş dəftəri) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tapşırıq c (iş dəftəri) |

# 2-ci DƏRS
# Tom özünü fəda edir

**Təlim nəticələri:**
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim "Tom özünü fəda edir" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– Mətndə nə barədə danışılırdı?

– Mətndə əsas qəhrəmanlar kimdir?

**Oxuyub-qavrama**

**Dərslik, səh. 63**

**a.** Hadisələrin düzgün ardıcıllığını müəyyənləşdirin.

Bu tapşırıq şagirdlərin mətndəki hadisələrin ardıcıllığını müəyyənləşdirmək bacarığının və şifahi nitqinin inkişafına yönəlib. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını yoxlamaq məqsədi daşıyır.

Cavab: 1 – ç; 2 – b; 3 – d; 4 – c; 5 – a.

**b.** Hansı fikir doğrudur?

Cavab: c. Bekki Tomun üzr istəməsini qəbul etmədi.

**c.** Mətnin sonuncu cümləsinə diqqət yetirin. Sizcə, Tomu qapıda kim gözləyəcəkdi?

Cavab: a. Bekki.

**ç. Qruplarla iş.** Mətnə əsasən obrazlar xəritəsi tərtib edin.

Şagirdlər üç qrupa bölünürlər, Tom, Bekki və Alfredin obraz xəritəsini tərtib etməklə onları səciyyələndirirlər. Tapşırıq şagirdlərdə obrazlar xəritəsinin hazırlanması bacarığının möhkəmləndirilməsinə xidmət edir.

Toma aid obraz xəritəsi təxminən belə ola bilər:

Obrazın təqdimatı: Tom məktəblidir. Çox dəcəl oğlandır.

Xarakteri: cəsarətli, mübariz, fədakar.

Əsaslandırma: Tom kitabdakı mürəkkəb ləkəsinə görə cəzalanır. Günahı olmasa da, heç kəsdən şübhələnmir və cəzasını qəbul edir. O, sinif yoldaşı Bekkinin günahını da boynuna götürür və onun yerinə cəza alır, qorxub geri çəkilmir.

Hissləri: Bekkidən xoşu gəlir. Həm də bir dost kimi onu müdafiə edir.

Obraza münasibətim: Cəzalanmasına baxmayaraq, fikrindən dönmür. Bekki bəzən ona pis davransa da, cəsarətlə özünü onun üçün fəda edir.

**d.** Mətndəki əsas fikir nədən ibarətdir? Uyğun epizodları qeyd etməklə fikirlərinizi əsaslandırın.

Bu tapşırıq şagirdlərin mətni necə qavradıqlarını nümayiş etdirir.

Cavab: İnsanın öz dostu üçün fədakarlıq edə bilməsi.

**e.** Sizcə, Bekki nə üçün Alfredin hərəkətini Toma söyləmədi? Siz onun yerinə olsaydınız, bunu Toma xəbər verərdinizmi?

Cavab: Bekki fikirləşdi ki, qoy Tomla Alfred özləri münasibətlərini aydınlaşdırsınlar. Bu məsələyə qarışmaq lazım deyil.

**ə.** Mətnin əvvəlində deyilir: "... Günlərin bir günü Bekki ilə Tom bir-birindən küsdülər". Sizcə, onların küsməsinə nə səbəb oldu?
Təxəyyülünüzə uyğun situasiya düşünüb mətnin bu hissəsini genişləndirib yazın.

Şagirdlər Tom və Bekki ilə bağlı hadisələri, onların xarakterinə aid cəhətləri xatırlayaraq situasiya düşünüb yazırlar.

**Yazı**

**İş dəftəri, səh. 36**

**a.** "Tom özünü fəda edir" mətni ilə bağlı rəy yaz.

Şagirdlər oxuduqları mətnə rəy yazmaqla oxuyub-qavrama və sərbəst yazı bacarıqlarını inkişaf etdirirlər. Şagirdlər mətn haqqında fikirlərini rəydə əks etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tapşırıq a (dərslik) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tapşırıq c (dərslik) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tapşırıq d (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq e (dərslik) |
| Verilmiş məlumatlara uyğun olaraq mətni genişləndirir. | Tapşırıq ə (dərslik) |
| Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (açıqca, məktub, təəssürat) yazır. | Tapşırıq a (iş dəftəri) |

# 3-cü DƏRS
# Tom və Bekki mağarada

**Təlim nəticələri:**
- Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır (st. 2.1.2).
- Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir.((1.1.2).
- Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
- Dinlədiyi sadə fikrin mahiyyətini müəyyən edir (st. 1.1.1).

**Mövzuya yönəltmə.** Müəllim keçən dərsdə oxunmuş "Tom özünü fəda edir" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir:

– Tom, Bekki və Alfred arasında münasibət necə idi?
– Sinifdə hansı hadisələr baş vermişdi?
– “Tom özünü fəda edir?” cümləsini necə izah edə bilərsiniz?

**Dərslik, səh. 64**

**a.** Sizcə, Tomun fədakar hərəkətindən sonra Tom və Bekkinin münasibətləri necə davam edəcək?

Mətni dinləməzdən əvvəl şagirdlər oxuduqları mətnin davamı ilə bağlı öz təxəyyüllərinə uyğun fikirlər səsləndirirlər.

Daha sonra müəllim “stalaktit” və “mil” sözlərinin izahını şagirdlərin diqqətinə çatdırır.

**Dinləmə**

**Dərslik, səh. 64**

**b.** Qeyd götürməklə “Tom və Bekki mağarada” mətnini dinləyin. Götürdüyünüz qeydləri yarımbaşlıqlar altında qruplaşdırın.

Bu tapşırığı yerinə yetirməzdən əvvəl müəllim şagirdlərin diqqətini “Qeyd götürmə” üzrə tövsiyələrə yönəldir. Tapşırıq oxuyub qavrama, mətnin məzmunu, strukturu üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir. Eyni zamanda şagirdlərdə təhliletmə və qruplaşdırma bacarıqlarını inkişaf etdirir.

Şagirdlərə tapşırılır ki, mətndəki əsas məqamları qeyd etsinlər və yarımbaşlıqların altında yazsınlar.

***Tom və Bekki mağarada***

*Tom və Bekki dəstə ilə birlikdə mağaranın qaranlıq dəhlizlərini gəzirdilər. Buranın sirli, sehrli, qeyri-adi görkəmi uşaqları heyrətə salmışdı. Sonra söhbət edə-edə uşaqlardan uzaqlaşdılar. Elə bir yerə çatdılar ki, burada qayanın üstündən tökülən balaca bir çay şəlalə əmələ gətirmişdi. Şəlalədən o tərəfdə darısqal keçid Tomun diqqətini cəlb etdi. Orada təbiətin daşlardan yarat-*

*dığı pilləkən var idi. Həmin an Tomda macəraçılıq həvəsi oyandı. O, Bekkini də həvəsləndirdi.*

*Uşaqlar həmin pilləkənlərlə xəlvət kahalara qədər endilər. Burada tavandan aşağıya doğru uzanan yoğun stalaktitlər* gördülər. Onların arasından yüzlərlə yarasa bir-birinə sarmaşıb yumaq kimi sallanmışdı. İşıqdan narahat olmuş yarasalar yerlərindən qopub Tomun əlindəki şama tərəf şığıdı.*

*Tom yarasaların təhlükəli olduğunu bilirdi. Tez Bekkinin əlindən yapışıb dəhlizlərdən birinə tərəf çəkdi. Yarasalar onları uzun müddət qovdular. Amma uşaqlar canlarını birtəhər qurtara bildilər.*

*Bir azdan uşaqlar yeraltı gölə rast gəldilər. Tom gölün sahillərini tədqiq etmək xəyalına düşdü. Bekki narahat oldu:*

*– Tom, biz lap çoxdandır ki, heç kəsin səsini eşitmirik.*

*– Əlbəttə, Bekki, geri qayıtsaq, yaxşı olar.*

*– Tom, sən yolu tapa biləcəksənmi?*

*– Yarasalar olmasaydı, mən yolu tapa bilərdim. Qorxuram, vurub şamları söndürərlər, işimiz lap xarab olar. Gəl başqa yolla gedək ki, onlarla rastlaşmayaq. Onlar bir dəhlizə girdilər, uzun müddət dinməzcə getdilər. Lakin mağaradan çıxmaq üçün yolu tapa bilmədilər. Tom çaşıb qalmışdı. Bekki isə ağlayırdı:*

*– Tom, yarasalar olsa da, gərək həmin yolla qayıdaydıq.*

*Uşaqlar gəldikləri yola tərəf qayıtmaq istədilər. Amma məlum oldu ki, geriyə də yolu itiriblər. Bekki daha da həyəcanlandı. O, yerə çöküb acı-acı ağladı:*

*– Tom, biz azmışıq. Bu dəhşətli mağaradan bir daha çıxa bilməyəcəyik! Axı nə üçün başqalarından ayrıldıq?*

*Tom da özünü danlayırdı.*

*Nəhayət, uşaqlar özlərini toplayıb ayağa qalxdılar. Heç bir yerdə dayanmadan elə hey gedirdilər. Bir bulağa rast gəldilər. Bir az su içdilər. Tom dedi:*

*– Bilirsənmi, Bekki, biz burada qalmalıyıq, çünki burada içməli su var. Həm də şam qurtarır, bu, axırıncıdır.*

*– Tom, yəqin, yox olduğumuzdan xəbər tutub bizi axtaracaqlar.*

*– Bəs necə, əlbəttə, Bekki.*

*Budur, sonuncu şam da əriyib qurtardı. Bekki dizlərini qucaqlayıb oturmuşdu. Tom isə çıxış yolu düşünürdü. Birdən Tomun ağlına parlaq bir fikir gəldi. O, cibində gəzdirdiyi ipi çıxartdı. İpin bir ucunu qayanın çıxıntısına bağladı. Əlini ora-bura sürtə-sürtə və ipi aça-aça irəlilədi. İki dəhlizdən keçib üçüncüsünə buruldu. Ancaq ip qurtardığından geri qayıtmaq istədi. Elə bu an gündüz işığına bənzəyən bir parıltı gördü. O, ipi buraxıb işığa tərəf süründü. Deşikdən başını bayıra çıxartdı. Qarşıda doğma Missisipi çayı axırdı.*

*Tom geri qayıdıb bu şad xəbəri Bekkiyə çatdırdı. Uşaqlar mağaradan çıxıb çayın sahilinə endilər. Yaxınlıqdan keçən balıqçılar onları qayığa mindirdilər. Uşaqlar mağarada azdıqlarını söyləyəndə balıqçılar təəccübləndilər:*

*– Siz nə danışırsınız? Mağara buradan beş mil* aralıda, çayın yuxarısındadır. Bu qədər yolu necə qət etmisiniz? Evlərinə çatanda aydın oldu ki, dostları, müəllimləri, hətta polislər hələ də mağarada Tom ilə Bekkini axtarırlar. Axı heç kimin ağlına gəlməzdi ki, bu iki uşaq əsrlərdir burada yerləşən tarixi bir mağaradan yeni çıxış yolu kəşf edəcək.*

**Danışma**

**Dərslik, səh. 64**

**c.** Götürdüyünüz qeydlərə və aşağıdakı illüstrasiyalara əsasən “Tom və Bekki mağarada” mətnini nəql edin.

Şagirdlər götürdükləri qeydlər və şəkillər əsasında mətni nəql edirlər. Tapşırıq şagirdlərin qrafik informasiyanı anlamaq bacarığını inkişaf etdirir.

**Dinləyib-qavrama**

**İş dəftəri, səh. 37**

**a.** "Tom və Bekki mağarada" dinləmə mətninə aid suallara cavab ver.

Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyənləşdirmək məqsədi daşıyır. Şagirdlər mətn əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə dinlədiklərini nümayiş etdirirlər.

Cavab:

1. Mağaranın içində çoxlu yarasa vardı.
2. Dəstədən ayrıldığı üçün Tom özünü danlayırdı.
3. Tom ipi qayanın çıxıntısına bağlayıb yol axtarmağa başladı.
4. Tom mağaranın çıxışını tapdı. Balıqçılar onları evə gətirdilər.

**Dərslik, səh. 64**

**ç.** "Tom və Bekki mağarada" mətnini dinlədikdən sonra bu iki obrazın xarakterinə hansı xüsusiyyətləri əlavə etmək olar?

Tapşırıq şagirdlərin xarakterizə etmək, nəticə çıxarmaq bacarıqlarının inkişafına yönəlib. Şagirdlər Tom və Bekkinin davranışlarından nəticə çıxararaq bu obrazları xarakterizə edirlər.

Cavab:

Toma aid xüsusiyyətlər: ağıllı, həssas, etibarlı, nikbin.

Bekkiyə aid xüsusiyyətlər: bədbin, cəsarətsiz, qorxaq.

**Dinləyib-qavrama. Yazı**

**İş dəftəri, səh. 37**

**b.** Dinləmə mətninə əsasən cədvəli tamamla.

Şagirdlərdən mətnin məzmununa aid səbəb-nəticə cədvəlini tamamlamaq tələb olunur. Bu tapşırıq anlama və yazı bacarıqlarını möhkəmləndirmək üçündür.

Cavab:

| Səbəb | Nəticə |
|---|---|
| Tom və Bekkinin başı söhbətə qarışdı. | Onlar dəstədən uzaqlaşdılar. |
| Darısqal keçiddə daş pilləkən Tomun diqqətini cəlb etdi. | Tomda macəraçılıq həvəsi oyandı. |
| Yarasalar onlara hücum etdi. | Uşaqlar yolu itirdilər. |
| Tomun əlindəki şam yanıb qurtardı. | Uşaqlar yola davam edə bilmədilər. |
| Uşaqlar qədim mağaranın yeni çıxış yolunu tapmışdılar. | Balıqçılar təəccübləndilər. |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əşya və hadisələrə öz münasibətini bildirir. | Tapşırıq a (dərslik) |
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tapşırıq b (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq a (iş dəftəri) |
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq c (dərslik) |
| Dinlədiyi və bildiyi məlumatları müqayisə edib nəticə çıxarır. | Tapşırıq b, ç (dərslik); tapşırıq b (iş dəftəri) |

# 4-cü DƏRS
# "K" samitinin tələffüzü. K – Y əvəzlənməsi

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə.** Dərsin ilk tapşırığı vasitəsilə şagirdləri mövzuya yönəltmək olar.

**Dərslik, səh. 65**

**a.** Aşağıdakı sözlərdə "k" samitinin tələffüzünü müəyyən edin.

Şagirdlər tapşırıqda verilmiş sözləri ucadan səsləndirirlər. Müəllim onların diqqətini "k" samitinin səslənməsinə yönəldir. "K" hərfinin sözlərin tərkibində səslənməsi belədir:

blok – [k']
çiçək – [x']
tikinti – [k]

"K" hərfinin ifadə etdiyi səslər haqqında müəyyən təsəvvür yarandıqdan sonra "Bunları bilməliyik" rubrikası üzərində iş aparılır.

**Bunları bilməliyik. "K" samitinin tələffüzü.** Təqdim edilən dil qaydası "k" hərfinin işləndiyi sözlərin tələffüzü haqqındadır. "K" samitinin müxtəlif sözlərdə [k], [k'], [g], [x'] kimi səslənməsi şagirdlərin nəzərinə çatdırılır.

Növbəti tapşırıqlar qazanılmış biliklərin tətbiqi və möhkəmləndirilməsi ilə bağlıdır. Məqsəd "k" hərfinin tələffüzü və yazılışını öyrətməkdir.

**b.** Verilmiş sözləri tələffüz edin. "K" samitinin transkripsiyasına diqqət yetirin.

Şagirdlər tapşırıqda verilmiş sözləri ucadan səsləndirirlər. "K" samitinin tələffüzünə diqqət edirlər.

**İş dəftəri, səh. 38**

**a.** Aşağıdakı sözləri *k* hərfinin ifadə etdiyi səslərə görə qruplaşdır.

Bu tapşırıq əldə olunan bilikləri möhkəmləndirir. Tərkibində "k" hərfi işlənən sözlər verilib. Bu sözləri "k" hərfinin tələffüzünə uyğun qruplaşdırmaq tələb olunur.

Cavab:
[k] – kəmər, kibrit, şəkil, hərəkət, idrak, körpü
[k'] – qalstuk, konfet, hektar, direktor, obyekt
[g] – itki, sürüşkən, döyüşkən, təşkil
[x'] – ələk, xörək, öyrənmək, birlik

**Dərslik, səh. 65**

**Bunları bilməliyik. K – Y əvəzlənməsi.** Növbəti "Bunları bilməliyik" rubrikasında *k – y* əvəzlənməsi haqqında məlumat verilir. Şagirdlərə izah edilir ki, "k" ilə bitən bəzi sözlərə saitlə başlanan şəkilçi əlavə edildikdə "k" hərfi "y" ilə əvəz olunur. Bu dəyişiklik yazıda baş verir.

**Dərslik, səh. 65**

**c.** Soldakı nümunələrə əsasən sağ cədvəldəki sözlərin düzgün yazılışını müəyyən edin.

Bu tapşırıqda şagirdlər verilmiş sözlərdə "k" hərfinin düzgün yazılışını müəyyən edirlər.

Cavab:
bilmək
çimərliyin
əriklər
gözlüyüm
ördəklərimiz

Müəllim daha bir qaydanı şagirdlərin diqqətinə çatdırır. Bu qaydaya görə, *söz sonunda "k" samiti [k] və [k'] kimi tələffüz olunduqda k – y əvəzlənməsi baş vermir.*

**Dərslik, səh. 65**

**ç.** Hansı cümlələrdə fərqləndirilmiş sözlər səhv yazılıb?

Cavab:
2. Baba **inəki** tövləyə apardı.
4. Rasim kitablarını **yeşikə** qoydu.

**İş dəftəri, səh. 38**

**b.** Hansı sözlərdə *k – y* əvəzlənməsi olmalıdır? Həmin sözlərin altından xətt çək.

Cavab:
2. Mətbəxdən *yeməkin* ətri gəlirdi.
4. Bacım *çiyələki* çox sevir.

**c.** Hər sətirdə səhv yazılmış sözü müəyyən et və düzgün şəkildə yaz.

Tərkibində orfoqrafik səhvlər buraxılmış sözlər verilib. Şagirdlər səhvləri düzəldərək sözləri yenidən yazmalıdırlar. Bu tapşırıq vasitəsilə "k" hərfinin yazılışı və tələffüzü şagirdlərə mənimsədilir.

Cavab:
gülməy – gülmək
ləçəkə – ləçəyə
keşiy – keşik

**ç.** Səhvləri düzəltməklə cümlələri yenidən yaz.

Cavab:
1. *Qışda meşələrə **sakitlik** çökür.*
2. *Evimizin qarşısında geniş **çəmənlik** var.*
3. *Yazda qızılgüllər **çiçək** açacaq.*
4. *Hamı vətənimizin **gözəlliyinə** heyran qalır.*
5. *Çoban mənə **tütək** çalmağı öyrətdi.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 3-cü fəsil
# BALACA SƏFİLLƏR

## 1-ci DƏRS
## Qavroş

__Təlim nəticələri__:
- Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir (st. 3.1.1).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə.** Şagirdlər əvvəlki dərsdə müəllimin “Səfillər” romanı haqda verdiyi məlumatı və uşaq hüquqları haqqında bilgiləri xatırlayırlar. Müəllim şagirdlərin diqqətini "Qavroş" mətninin mövzusuna yönəldərək bildirir ki, bu mətn də hüquqları pozulmuş uşaqlar haqqındadır. O, şagirdlərə tövsiyə edir ki, mətni oxuduqca həmin məqamlara diqqət etsinlər. Bununla yanaşı, müəllim “səfil” sözünün izahını da şagirdlərin diqqətinə çatdırır.

**Dərslik, səh. 66**

**a.** Siz “Kozetta” mətnini dinləyərkən Tenardye obrazı ilə tanış oldunuz. İndi isə Qavroş haqqında mətni oxuyun. Hər iki mətn Viktor Hüqonun “Səfillər” romanındandır. Sizcə, əsər nə üçün belə adlanır?

__Cavab__: Yazıçı əsərdə yoxsul, evsiz-eşiksiz, ağır həyat keçirən adamlardan bəhs edir.

**Oxu**. **“Qavroş” mətni. Rollu oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində “Qavroş” mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin intonasiyadan, jest və mimikalardan düzgün istifadə etmələrinə, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirmələrinə diqqət edir.

> **Müəllimin nəzərinə!** Mətni oxuyarkən eyni sözün təkrarından düzələn mürəkkəb sözlərə diqqəti yönəltmək, bu barədə bilgiləri şagirdlərə xatırlatmaq tövsiyə olunur.

**Söz ehtiyatı**. Şagirdlər “Söz mücrüsü” rubrikasında verilmiş sözlərin mənasını mətnə əsasən izah edirlər. Müəllim sözü izah etməyin qaydalarını xatırladır: sözün aid olduğu ümumi mənanı müəyyən etmək və anlayışın əlamətlərini sadalamaq.

**Dərslik, səh. 68**

**b.** Fərqləndirilmiş sözləri “Söz mücrüsü”ndən uyğun gələn sözlərlə əvəz edin.

Bu tapşırıq yeni sözlərin mənimsədilməsinə xidmət edir. Cümlələrdə fərqləndirilmiş sözləri “Söz mücrüsü”ndəki uyğun gələn sözlərlə əvəz etmək lazımdır.

__Cavab__:
1. Ramil bacarıqlı ***bərbərdir***.
2. Axşam ***meh*** əsməyə başladı.
3. Uşaq küncə ***qısılıb*** ağlayırdı.
4. Adamlar güclü yağışdan ***sığınmağa*** yer axtarırdılar.

**c.** Kontekstdən çıxış edərək uyğunluğu müəyyənləşdirin.

Bu tapşırıqda bəzi sözlərin izahı verilib. Şagirdlər yeni tanış olduqları sözlərlə onların izahlarını uyğunlaşdırırlar. Onlar əvvəlcə sözləri kontekstə əsaslanaraq izah etməyə çalışır, daha sonra isə dərsliyin sonundakı lüğətlə dəqiqləşdirirlər. Tapşırığın əsas məqsədi odur ki şagirdlər öyrəndikləri yeni sözləri kontekstə uyğun olaraq işlətmək bacarığını inkişaf etdirsinlər.

__Cavab__: 1 – d; 2 – a; 3 – b; 4 – c; 5 – ç.

**ç.** Mətnin məzmunundan çıxış edərək “mışıl-mışıl yatmaq” ifadəsini izah edin.

Cavab: sakit, rahat, şirin yatmaq.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 69**

**d.** Mətnə əsasən suallara cavab verin.

Bu tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır, həm də onların şifahi nitqini inkişaf etdirir.

Cavab:

1. Hadisələr Paris şəhərində baş verir.
2. Uşaqların yaşadıqları evin qapısı bağlı idi. Onların anasını polislər aparmışdı.
3. Qavroş uşaqları Parisin baş meydanındakı fil heykəlinin yanına apardı.
4. Uşaqlar Qavroşun sığınacağında qaranlıqdan və siçovullardan qorxurdular.
5. Qavroş uşaqların əlindən tutub dedi ki, siçovullar bizim yanımıza gələ bilməzlər, mən burdayam.

**e.** Mətnə istinad edərək aşağıdakı fikirlərin doğru (D), yanlış (Y), ehtimal (E) olduğunu müəyyənləşdirin.

Şagirdlər bu tapşırıqda verilmiş fikirlərin doğru, yanlış, ehtimal olduğunu müəyyən edirlər. Mətndən uyğun cümlələri oxumaqla seçimlərini əsaslandırırlar. Bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Tapşırıq şagirdlərin mətnin məzmununu necə mənimsədiklərini yoxlamağa imkan yaradır.

Cavab: 1 – D; 2 – Y; 3 – D; 4 – E; 5 – Y; 6 – E.

**İş dəftəri, səh. 39**

**a.** “Qavroş” mətninə aid hekayə xəritəsini tamamla.

Bu tapşırıq dərslikdəki “d” və “e” tapşırıqlarının davamı kimi yerinə yetirilə bilər. Hekayə xəritəsinin bölmələrinə aid məlumatlar uyğun bölmələrə qeyd olunur. “Qavroş” mətnindən hekayə xəritəsinin bölmələrinə yazılacaq məlumatlar: *məkan – Paris; zaman – payız fəsli; baş qəhrəman – Qavroş; digər obrazlar – iki qardaş*. Daha sonra şagirdlər mətnin qısa məzmununu yazırlar. Beləliklə də, mətnə aid hekayə xəritəsi tamamlanır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq a (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq d, e (dərslik) |
| Mətnə əsasən hekayə xəritəsi tərtib edir. | Tapşırıq a (iş dəftəri) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq c, ç (dərslik) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tapşırıq b (dərslik) |

# 2-ci DƏRS
# Qavroş

**Təlim nəticələri:**
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə. Oxuyub-qavrama**

**Dərslik, səh. 69**

**a.** Mətnin 2-ci abzasında altından xətt çəkilmiş cümlələri bir daha oxuyun. Sizcə, uşaqlar bərbərə nə dedilər?

Cavab:
Uşaqlar bərbərdən kömək istədilər. Onların yeməyi, qalmağa yeri yox idi.

**b.** Təxəyyülünüzə və düşüncələrinizə əsasən cümlələri tamamlayın. Mətnə istinad etməklə fikirlərinizi əsaslandırın.

Cavab:
1. Bərbər Qavroşa tərs-tərs baxırdı, çünki *Qavroşdan şübhələnirdi.*
2. Bərbər uşaqları itələyib çölə çıxardı, çünki *onu narahat edirdilər*.
3. Qavroş uşaqlara kömək etmək istədi, çünki *onların vəziyyətini yaxşı başa düşürdü*.
4. Uşaqlar tanımadıqları Qavroşun təklifini qəbul etdilər, çünki *onlara heç kəs kömək etmirdi*.

**c.** Sizcə, Viktor Hüqo "Səfillər" romanında oxucuların diqqətini hansı problemə cəlb etmək istəyib? Mətnlərə istinad etməklə fikrinizi əsaslandırın.

Cavab: Yazıçı bu romanda kimsəsiz uşaqların ağır həyatını təsvir edib. O dövrdə belə uşaqlarla heç kəs maraqlanmırdı. Həm Kozetta, həm də Qavroş təhsil almır, onların öz evi, qayğısına qalan yoxdur, yarıac, yarıçılpaq yaşayırlar.

**ç.** Dərsliyin 58-ci səhifəsində verilmiş "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanunundan maddələri bir daha oxuyun. "Qavroş" mətninin qəhrəmanlarının hansı hüquqları pozulub? Onların hüquqlarını bərpa etmək üçün nə etmək lazımdır?

Şagirdlər "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa əsaslanaraq Qavroşun və balaca uşaqların hansı hüquqlarının pozulduğunu müəyyənləşdirirlər. Onlar 58-ci səhifədəki maddələri, habelə "Qavroş" mətnini bir daha nəzərdən keçirirlər. Mətndə deyilir ki, balaca qardaşlar valideynlərindən məhrum olublar. Mətndə Qavroşun da ailəsindən danışılmır. Deməli, "Qanun"un 17-ci maddəsi pozulub:

Maddə 17. *Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır.*

Qardaşların gecələməyə mənzilləri yoxdur. Bununla bağlı 20-ci maddəyə istinad edilməlidir:

Maddə 20. *Hər bir uşağın mənzil hüququ vardır.*

Qavroş və digər uşaqlar məktəbə getmirlər. Deməli, 22-ci maddəyə istinad etmək lazımdır:

Maddə 22. *Hər bir uşağın təhsil almaq hüququ vardır.*

Şagirdlər Qavroşun və uşaqların hüquqlarını müdafiə etmək üçün təkliflər irəli sürürlər.

Təxminən belə bir cavab da ola bilər: O dövrdə belə uşaqların həyatını yaxşılaşdırmaq üçün dövlət qanunlar qəbul etməli idi.

**İş dəftəri, səh. 40**

**a.** "Qavroş" mətnində Qavroşun hansı hüquqları pozulmuşdur? Dərsliyin 58-ci səhifəsində verilmiş "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununa istinad etməklə fikrini əsaslandırıb yaz.

Bu tapşırıq dərslikdəki "ç" tapşırığının davamı kimi qəbul edilə bilər. Şagirdlər Qavroşun pozulmuş

hüquqlarını “Qanun”a əsaslanaraq müəyyənləşdirirlər.

Cavab:

1. **Qavroş ata-ana qayğısından məhrum idi.**

*“Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu”nun* ***17-ci maddəsinə əsasən uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır.***

2. **Qavroşun evi yox idi.**

*“Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu”nun* ***20-ci maddəsinə əsasən hər bir uşağın mənzil hüququ vardır.***

3. **Qavroş məktəbə getmirdi.**

*“Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu”nun* ***22-ci maddəsinə əsasən hər bir uşağın təhsil almaq hüququ vardır.***

**Dərslik, səh. 70**

**d.** Qavroşun nitqinə əsasən onun xarakteri haqqında nə demək olar?

Müəllim şagirdlərin diqqətini “yumor” və “nəvaziş” sözlərinin izahına yönəldir.

Cavab:

Qavroş səmimi, qayğıkeş, məzəli, diribaş oğlandır. Verilmiş cümlələrdən onun yumor hissinə malik olması, uşaqlara nəvaziş göstərməsi də anlaşılır.

“Yadda saxla” rubrikasında obraz və onun xarakterik xüsusiyyətləri barədə qısa məlumat verilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumatı müəyyənləşdirir. | Tapşırıq a (dərslik) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tapşırıq c (dərslik) |
| Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir. | Tapşırıq ç (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq d (dərslik) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq a (iş dəftəri) |

# 3-cü DƏRS
# Şahzadə və dilənçi

**Təlim nəticələri:**

• Dinlədiyi sadə fikrin mahiyyətini müəyyən edir (st. 1.1.1).
• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Mətni dinləməzdən əvvəl müəllim şagirdlərə belə sual verə bilər:

– Bir şahzadə ilə dilənçinin dostluğunu necə düşünürsünüz?

Daha sonra müəllim şagirdlərin nəzərinə çatdırır ki, “Şahzadə və dilənçi” əsərinin müəllifi Mark Tvendir. Bu əsərində də yazıçı müxtəlif təbəqələrdən olan uşaqların həyatını qələmə alıb.

**Dərslik, səh. 70**

**a.** Qeydlər götürməklə "Şahzadə və dilənçi" mətnini dinləyin.

***Şahzadə və dilənçi***

*Bu əhvalat 400 il əvvəl baş verib. Payız günlərinin birində Londonun kasıblar yaşayan məhəlləsində, dilənçi ailəsində bir oğlan uşağı dünyaya gəldi. Onun adını Tom qoydular. Elə həmin gün İngiltərə kralının da oğlu oldu. O axşam kral sarayında böyük şadyanalıq var idi. Hamı şahzadə Eduardın anadan olmasına sevinirdi. Tomun anadan olması isə heç kimi maraqlandırmırdı.*

*Aradan illər keçdi. Tom artıq böyümüşdü. O, səhərdən axşama kimi küçələri acqarına dolaşır, dilənçilik edirdi. Əslində, Tomun dilənçilikdən zəhləsi gedirdi. Ancaq nə edə bilərdi?! Axı evə əliboş gələndə atası onu möhkəm əzişdirirdi.*

*Bir gün Tom Londonun küçələrini dolaşa-dolaşa kral sarayının yanına gəlib çıxdı. Darvazanın qarşısından keçəndə gözətçilər onu saxladılar. Əsgərlərdən biri Tomu kobudcasına itələyib yerə yıxdı. Bu vaxt şahzadə Eduard onlara yaxınlaşdı.*

*– Bu zavallı uşağı niyə incidirsiniz? – deyə şahzadə əsgərə acıqlandı.*

*Gözətçi əsgər özünü itirib qorxusundan tir-tir əsdi və şahzadənin qarşısında farağat dayandı.*

*Şahzadə Eduard Tomu özü ilə saraya apardı. Onlar bəzəkli bir otağa daxil oldular. Şahzadə Toma müxtəlif suallar verdi:*

*– Adın nədir? Nə işlə məşğul olursan?*

*– Adım Tomdur, əlahəzrət. Dilənçiyəm. Boş vaxtlarımda isə kitab oxuyuram, ya da uşaqlarla oynayıram.*

*Uşaqlarla oynamaq şahzadənin çoxdankı arzusu idi. O, təklikdən, saraydakı dəbdəbəli həyatdan bezmişdi. Başqa uşaqlar kimi küçələri dolaşmaq, qumluqda eşələnmək, palçıqda oğlanlarla süpürüşmək istəyirdi. İndi Tom bu haqda danışanda Eduardın gözləri parladı:*

*– Kaş mən də sənin kimi palçıqda oynaya biləydim...*

*– Eh... mən də bircə dəfə Sizin kimi geyinə bilsəydim! – deyə Tom bir ah çəkdi.*

*Beləliklə, Tom və Eduard paltarlarını dəyişdilər. Onlar güzgüyə baxanda heyrətdən donub-qaldılar: bir-birinə o qədər oxşayırdılar ki, elə bil əkiz qardaş idilər. Kənardan baxan onları çətin ayırd edə bilərdi.*

*Şahzadə otaqdan çıxıb sarayın həyətinə düşdü. Burada onu bayaqkı kobud əsgər gördü. Yaxınlaşıb şahzadənin peysərinə bir şapalaq ilişdirdi.*

*– Dilənçinin biri, dilənçi! Sənə görə şahzadə mənim üstümə qışqırdı.*

*Şahzadə Eduard hirsindən qıpqırmızı qızardı:*

*– Axmaq! Sən nə cürətlə mənə əl qaldırırsan?!*

*Gözətçi şahzadənin boynundan tutub var gücü ilə darvazadan çölə itələdi və dalınca qışqırdı:*

*– Rədd ol, avara! Bir də saraya yaxın gəlmə!*

*Şahzadə yolun kənarındakı palçığa yıxıldı. Artıq heç kim inanmazdı ki, palçığa bulaşmış cındır paltarlı bu oğlan İngiltərə şahzadəsidir.*

*Beləcə, şahzadə Eduardın dilənçilik həyatı başladı...*

**İş dəftəri, səh. 41**

**a.** Dinləmə mətnindən götürdüyün qeydləri aşağıdakı yaddaş xəritəsi üzrə qruplaşdır.

Məkan – İngiltərə; zaman – 400 il əvvəl; Tom – dilənçi; Eduard – şahzadə; ilk tanışlıq – kral sarayının qabağında; söhbət – bir-birinin kim olduğunu öyrənirlər; təəccüblü oxşarlıq – oğlanlar bir-birinə çox oxşayırdılar; keşikçinin qisası – keşikçi Eduardı tanımır, onu vurub saraydan qovur.

**Dərslik, səh. 70**

**b.** Mətnin məzmununa əsasən cümlələri tamamlayın.

1. Kral sarayında hamı şadlıq edirdi, çünki *kralın oğlu doğulmuşdu*.
2. Tom evə əliboş gəlməyə qorxurdu, çünki *atası onu döyürdü*.
3. Şahzadə uşaqlarla oynamağı arzulayırdı, çünki *təklikdən bezmişdi*.

**c.** Şəkillərə əsasən dinlədiyiniz mətnin qısa məzmununu yazın.

Şagirdlər şəkillər əsasında mətnin qısa məzmununu yazırlar.

**İş dəftəri, səh. 41**

**b.** Səncə, dinləmə mətnindən verilmiş parçalar hansı obrazların dilindən ola bilər?

Cavab: 1 – şahzadə Eduard; 2 – Tom; 3 – şahzadə Eduard; 4 – keşikçi; 5 – şahzadə Eduard.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi və bildiyi məlumatları müqayisə edib nəticə çıxarır. | Tapşırıq b (dərslik); tapşırıq a, b (iş dəftəri) |
| Oxuduğu, dinlədiyi mətnin qısa məzmununu yazır. | Tapşırıq c (dərslik) |

# 4-cü DƏRS
# Şahzadə və dilənçi

**Təlim nəticələri:**
- Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
- Dinlədiyi sadə fikrin mahiyyətini müəyyən edir (st. 1.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 71**

**a.** Sizcə, Tom və Eduardın aqibəti necə olacaq? Aşağıdakı şəkillərə və təxəyyülünüzə əsasən mətnin davamını nəql edin.

Şagirdlər şəkillərin altındakı yazılar əsasında mətni davam etdirirlər.

**Müəllimin nəzərinə!** Tapşırıq yerinə yetirilərkən şagirdlərin rabitəli mətn qurmalarına və cümlələrdə söz sırasına riayət etmələrinə diqqət yetirilməsi tövsiyə olunur.

Cavablar təxminən belə ola bilər:

Eduard dilənçilərin əhatəsində

*Tom və Eduard bir-birinin paltarını geyinir. Eduard sarayın həyətinə çıxır. Keşikçi onu tanımır, elə bilir ki, dilənçidir. O, uşağı qovur. Beləliklə, Eduardın yeni və çətin həyatı başlanır. O, Tomun məhəlləsinə, yaşadığı evə gedib çıxır. Heç kəs onun şahzadə olduğunu başa düşmür.*

Tomun İngiltərə kralı ilə görüşü

*Tom sarayda qalır. Amma necə davranmaq lazım olduğunu bilmir. Kralla görüşür.*

Eduard Tomun ailəsində

*Ana Eduardı oğlu bilib bağrına basır. Atası isə həmişəki kimi onunla pis rəftar edir.*

Eduardın saraya qayıdışı

*Nəhayət, Eduard yenidən saraya qayıdır. Amma keşikçilər onu içəri buraxmaq istəmirlər. Tom onu müdafiə edir. Məsələ aydınlaşır.*

**b.** Bu bölmədə verilən əsərləri müqayisə edin. Müqayisə apardığınız xüsusiyyətləri cədvəldəki əsərlərlə uyğunlaşdırın.

Şagirdlər müəllimin köməyi ilə bölmədə öyrəndikləri mətnləri: "Qaraca qız", "Tom özünü fəda edir", "Tom və Bekki mağarada", "Qavroş", "Şahzadə və dilənçi" mətnlərini bir daha xatırlayırlar. Mətnlərdəki hadisələri, obrazları müqayisə edirlər.

Həmin xüsusiyyətləri cədvəldə yerləşdirirlər.

| ***Müqayisə edilən xüsusiyyətlər*** | ***Əsərlər*** | | | | |
|---|---|---|---|---|---|
| | *Qaraca qız* | *Tom özünü fəda edir.* | *Tom və Bekki mağarada* | *Qavroş* | *Şahzadə və dilənçi* |
| Uşaq öz dostunu xilas edir. | + | + | | | |
| Uşaqlar dostlaşırlar. | | | | + | + |
| Uşaq həm özünü, həm də dostunu çətinlikdən çıxarır. | | | + | | |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq b (dərslik) |

# 5-ci DƏRS
# "Q" samitinin tələffüzü. Q – Ğ əvəzlənməsi

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə.** Dərsin ilk tapşırığı vasitəsilə şagirdləri mövzuya yönəltmək olar.

**Dərslik, səh. 72**

**a.** Hansı cümlədə fərqləndirilmiş söz səhv yazılıb?

Müəllim şagirdlərin diqqətini "q" samitinin yazılışına yönəldir.

Cavab: 1 – yumşaq.

**Bunları bilməliyik. "Q" samitinin tələffüzü**. Təqdim edilən dil qaydası "q" hərfinin işləndiyi sözlərin tələffüzü haqqındadır. "Q" samitinin həm yazıldığı kimi, həm [x], həm də [k'] kimi səslənməsi şagirdlərin nəzərinə çatdırılır.

Növbəti tapşırıqlar qazanılmış biliklərin tətbiqi və möhkəmləndirilməsi ilə bağlıdır. Məqsəd "q" hərfinin düzgün yazılışını öyrətməkdir.

**Dərslik, səh. 72**

**b.** Verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.

Bu tapşırıqda şagirdlər verilmiş sözlərdə "q" hərfinin yazılışı ilə tələffüzü arasındakı fərqi müəyyən edirlər.

Cavab: yarpaq, Oqtay, hüquq, balıq, doqquz.

**İş dəftəri, səh. 42**

**a.** Aşağıdakı sözləri *q* hərfinin ifadə etdiyi səslərə görə qruplaşdır.

Bu tapşırıq əldə olunan bilikləri möhkəmləndirir. Tərkibində "q" hərfi işlənən sözlər verilib. Bu sözləri "q" hərfinin tələffüzünə uyğun qruplaşdırmaq tələb olunur.

Cavab:

[q] – qəsəbə, maqnit, iqlim, qara, musiqi, qram.

[x] – soyuq, balıq, yarpaq, açmaq, zanbaq, çıraq.

[k'] – məşq, Oqtay, nöqsan, rəqs.

**Bunları bilməliyik. Q – Ğ əvəzlənməsi.** Növbəti "Bunları bilməliyik" rubrikasında q – ğ əvəzlənməsi haqqında məlumat verilir. Şagirdlərə izah edilir ki, "q" ilə bitən bəzi sözlərə saitlə başlanan şəkilçi əlavə edildikdə "q" hərfi "ğ" ilə əvəz olunur. Bu dəyişiklik yazıda baş verir.

**Dərslik, səh. 72**

**c.** Altından xətt çəkilmiş hansı sözdə *q* samiti *ğ* ilə əvəz olunmalıdır?

Bu tapşırıq qazanılmış biliyin tətbiqinə xidmət edir. Verilmiş cümlələrdə hansı sözdə q – ğ əvəzlənməsinin baş verdiyini müəyyən etmək lazımdır.

Cavab: a – bulağın.

**ç.** Hansı sözlərə saitlə başlanan şəkilçi artırıldıqda q – ğ əvəzlənməsi baş vermir?

Şagirdlərin nəzərinə çatdırılır ki, bəzi sözlərin sonunda "q" samiti işlənsə də, "ğ" ilə əvəz olunmur. Şagirdlər buna uyğun olaraq tapşırıqda həmin sözləri tapırlar.

Cavab: şəfəq, natiq, üfüq, xalq, vərəq.

**İş dəftəri, səh. 42**

**b.** Nöqtələrin yerinə uyğun gələn hərfləri yaz.

Bu tapşırıq da qazanılmış biliyin tətbiqinə xidmət edir. Nöqtələrin yerinə uyğun hərfi yazmaqla cümlələri tamamlamaq lazımdır.

Cavab:

1. *Qaranquşlar budaqdan budağa qonurdular.*
2. *Ana uşaqları yatırıb işığı söndürdü.*
3. *Dediklərimi bir vərəqə qeyd et.*
4. *Südün qaymağı çox dadlı idi.*
5. *Natiqin atası neftçidir.*

**c.** Hər sətirdə səhv yazılmış sözü müəyyən et və düzgün şəkildə yaz.

Tərkibində orfoqrafik səhvlər buraxılmış sözlər verilib. Şagirdlər səhvləri düzəldərək sözləri yenidən yazmalıdırlar. Bu tapşırıq vasitəsilə "q" hərfinin yazılışı və tələffüzü şagirdlərə mənimsədilir.

Cavab: yaylax – yaylaq; qabax – qabaq; oyux – oyuq.

**ç.** Səhvləri düzəltməklə cümlələri yenidən yaz.

1. *Azərbaycanda çoxlu müalicə **ocaqları** var.*
2. *Kitabı təmiz **saxlamaq** lazımdır.*
3. ***Dağlıq** ərazilərdə qar yağırdı.*
4. *Ölkəmizdə müxtəlif **xalqlar** yaşayır.*
5. ***Parlaq** günəş hər tərəfi işıqlandırdı.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Özünün və başqasının yazısında orfoqrafik normalara uyğun düzəlişlər edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

Dərslikdə verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 73**

**1.** Hansı sözlər səhv yazılmışdır? Həmin sözlərdə samitlərin düzgün yazılışını müəyyən edin.

Cavab: göstərmək, dirək, bitki, şəfəq, gülmək, müxtəlif, məqsəd.

**2.** Nöqtələrin yerinə uyğun gələn hərfləri yazmaqla sözləri köçürün.

Cavab: çələng, kənd, tac, cavab, armud, Sahib, tüfəng, turac.

**3.** Aşağıdakı cümlələrdə nöqtələrin yerinə uyğun hərfləri yazın.

Cavab:
1. *Uşaqlar maraqla ala-bəzək kəpənəyə baxırdılar.*
2. *Müəllim dərslikdə verilmiş tapşırıqları izah etdi.*
3. *Leyləyin qanadlarının uzunluğu iki metrə qədərdir.*
4. *Qardaşım sürücülük kursuna gedir.*
5. *Güclü küləkdən sonra hava sərinləşdi.*
6. *Cahan rəsm çəkməyi çox sevir.*

**4.** Verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.

Cavab:
sancaq
səkkiz
kəskin
pencək

**5.** Cədvəldəki nümunələrə əsasən verilmiş sözlərin düzgün yazılışını müəyyən edin.

Cavab:
şərq
taqqıltı
qısa
məqsəd

**6.** Hansı cümlələrdə q – ğ əvəzlənməsi olan söz vardır?

Cavab:
2. Uşaqlar Qavroşa *çatmağa* çalışırdılar.
4. Əsgərlər *torpağı* qazıb səngər düzəltdilər.
5. *Bayrağımıza* baxdıqca qürur duyuruq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

## Kiçik summativ qiymətləndirmə

İş dəftərinin 43-44-cü səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq 1, 2, 3 (iş dəftəri) |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tapşırıq 4, 5, 6, 7 (iş dəftəri) |

Bölmə 4

# TARİXİ ABİDƏLƏR

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Qalalar** | | | | | |
| 1 | Qala-şəhərlər | Oxu. Yazı | 76-77 | 45 | 101 |
| 2 | Şuşa qalası | Oxu | 78-79 | 46 | 103 |
| 3 | Azərbaycan qalaları | Oxu. Danışma (təqdimat) | 80-82 | 47 | 105 |
| 4 | Şirvanşahlar sarayı | Yazı. Danışma | 82 | – | 107 |
| 5 | Sözün quruluşca növləri | Yazı | 83 | 48 | 108 |
| 2-ci fəsil. **Tarixi körpülər** | | | | | |
| 6 | Körpülər | Oxu. Dinləmə | 84-85 | 49 | 110 |
| 7 | Xudafərin körpüləri | Oxu | 86-87 | 50 | 112 |
| 8 | Dünyanın ən məşhur körpüləri | Yazı | 88 | | 114 |
| 9 | Mürəkkəb sözlərin yazılışı | Yazı | 89 | 51 | 115 |
| 3-cü fəsil. **Məbədlər** | | | | | |
| 11 | Dini məbədlər | Oxu. Dinləmə | 90-91 | 52 | 117 |
| 12 | Atəşgah | Oxu | 92 | 53 | 119 |
| 13 | Qafqaz səfəri | Oxu | 93 | 54 | 121 |
| 14 | Tarixi abidələr | Danışma (təqdimat) | 93 | – | 123 |
| 15 | Sözün leksik və qrammatik mənası | Yazı | 94 | 55 | 124 |
| 16 | Ümumiləşdirici təkrar | | 95 | 56-57 | 126 |

# GİRİŞ DƏRSİ

**Təlim nəticələri:**
- Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 74**

**a.** Leyla səyahəti çox sevir. Səyahət etdiyi ölkələrə aid markaları toplayır. Sizcə, o hansı ölkələrə səyahət edib?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir. Tapşırıq həm də şagirdlərin dünyagörüşünün inkişafına xidmət edir.

Cavab: Rusiya, Türkiyə, İtaliya, Özbəkistan.

**Dərslik, səh. 74-75**

**b.** Müxtəlif ölkələrin rəmzi sayılan abidələr haqqında məlumat vərəqləri ilə tanış olun. Bu məlumatları rabitəli mətnə çevirib sinfə təqdim edin.

Cavab təxminən belə ola bilər:

***Qız qalası***

Qız qalası Azərbaycanın paytaxtı Bakı şəhərində yerləşir. XII əsrdə inşa edilmişdir. Onun hündürlüyü 28 metrdir. Bu tikili muzey kimi fəaliyyət göstərir. Tarix elmində Qız qalasının müdafiə qalası, yoxsa dini məbəd olması ilə bağlı mübahisəli fikirlər mövcuddur.

***Biq Ben***

Biq Ben İngiltərədə, London şəhərində yerləşir. 1858-1859-cu illərdə inşa edilmişdir. İngiltərənin simvoluna çevrilən bu qüllənin hündürlüyü 96 metrdir. Zəngli saat qülləsi kimi fəaliyyət göstərir. Qüllədə quraşdırılan saatın zəng çanağının çəkisi 13,7 tondur.

***Tac Mahal***

Tac Mahal Hindistanda yerləşir. 1632-1653-cü illərdə Aqra şəhərində inşa edilmişdir. Hündürlüyü 73 metrdir. Hal-hazırda muzey kimi fəaliyyət göstərir. Bu abidə 1983-cü ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına salınıb.

***Kolizey***

Kolizey İtaliyanın paytaxtı Roma şəhərində yerləşir. Eramızın 72-80-ci illərində tikilən bu binanın hündürlüyü 48 metrdir. Açıq səma altında muzey kimi fəaliyyət göstərir. Dünyada ən böyük və ən gözəl antik amfiteatr sayılır.

**Dərslik, səh. 75**

**c.** Sizcə, Azərbaycana gələn turistlər ölkəmiz haqqında hansı məlumatları bilməlidirlər? Ölkəmizi təqdim etmək üçün reklam vərəqi hazırlayın.

Əvvəlcə şagirdlər tapşırıqda verilmiş təlimatla tanış olurlar:

Təlimat:
- Azərbaycanın simvoluna çevrilmiş tarixi abidələr haqqında faktlar toplayın.
- Ölkəmizin özünəməxsus ünsiyyət etiketləri haqqında məlumat verin.
- Azərbaycan mətbəxi haqqında danışın.
- Fotoşəkillərdən istifadə edin.

Şagirdlər verilmiş müəyyən vaxt ərzində dəftərlərində Azərbaycanın simvoluna çevrilmiş tarixi abidələr, özünəməxsus ünsiyyət etiketləri, məsələn, qonaqpərvərliyi, mətbəxi haqqında qeydlər aparırlar. Daha sonra təqdimat edirlər.

Diferensial yanaşma. Tapşırığı qruplarla yerinə yetirmək tövsiyə edilir. Qruplar dil səviyyələri müxtəlif olan şagirdlərdən təşkil edilə bilər.

**Dərslik, səh. 75**

**ç.** Bir-birinizin yazısını yoxlayın və münasibət bildirin.

Qruplar hazırladıqları reklam vərəqini təqdim edir. Şagirdlər bir-birinin təqdimatına münasibət bildirir və təkmilləşdirmək üçün məsləhətlər verirlər. Bu fəaliyyət şagirdlərdə özünü və yoldaşını qiymətləndirmə bacarığını formalaşdırır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a (dərslik) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq b (dərslik) |
| Reklam vərəqi hazırlayır. | Tapşırıq c (dərslik) |
| Bir-birinin yazısına münasibət bildirir. | Tapşırıq ç (dərslik) |

# 1-ci fəsil
# QALALAR

## 1-ci DƏRS
## Qala-şəhərlər

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Oxu. Söz ehtiyatı**

**Dərslik, səh. 76**

**a.** Mətni oxuyun. Yeni sözlərdən istifadə edərək qala-şəhərlər haqqında danışın.

**Mətnlə iş.** "Qala-şəhərlər" mətni şagirdlər tərəfindən səssiz oxunur.

**Dərslik, səh. 76. "Söz mücrüsü" rubrikası**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər. Yeni sözlərdən istifadə edərək qala-şəhərlər haqqında danışırlar.

**Dərslik, səh. 77**

**b.** İzahları aid olduğu sözlə uyğunlaşdırın.

Cavab: 1 – c; 2 – a; 3 – b.

**Dərslik, səh. 77**

**c.** Mətnə istinad edərək doğru fikirləri seçin.

Tapşırıq faktoloji qavramanı yoxlamağa xidmət edir. Şagirdlər mətnə aid doğru fikirləri seçməklə mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

Cavab: 1, 3, 5.

Dərslikdəki "ç", "d" və "e" tapşırıqları şagirdlərin mətndə açıq şəkildə ifadə olunmayan informasiya haqqında fikir yürütmə bacarığının inkişafına imkan verir.

**Dərslik, səh. 77**

**ç.** Qalalar hansı məqsədlə tikilirdi?

Cavab: Qalalar müdafiə məqsədilə tikilirdi.

**Dərslik, səh. 77**

**d.** Qalada gizlənən insanlar uzun müddət necə ac-susuz qalıblar? Mətndə mavi rənglə fərqləndirilmiş cümləyə əsasən fikrinizi əsaslandırın.

Cavab: Yeraltı yollar gizli saxlanılıb. Yeraltı yollar vasitəsilə qalaya ərzaq çatdırılıb.

**Dərslik, səh. 77**

**e.** Nə üçün müasir dövrdə qalalar tikilmir? Cümlələrin ardıcıllığını müəyyən etməklə suala cavab verin və öz fikirlərinizlə genişləndirin.

Cavab: Əvvəllər şəhər əhalisini düşmən hücumlarından qorumaq üçün ətrafında müdafiə qalaları tikilirdi. Zaman keçdikcə texnikanın inkişafı ilə əlaqədar bu qalalar öz funksiyasını itirdi. Yəni dağıdıcı silahlar və təyyarələrin qarşısında qala divarları aciz qaldı.

**İş dəftəri, səh. 45**

**a.** Nöqtələrin yerinə uyğun sözü yazmaqla cümlələri tamamla.

Tapşırıq yeni söz ehtiyatının möhkəmləndirilməsinə yönəlib.
Cavab:
1. İçərişəhər möhkəm **qala** divarları ilə dövrələnmişdi.
2. Qalanın divarlarında dar **mazğallar** qoyulmuşdu.
3. Uzaqdan Bakı qalasının hündür **bürcləri** aydın görünürdü.

**İş dəftəri, səh. 45**

**b.** Mətndə İçərişəhər haqqında hansı suallara cavab yoxdur?

Cavab: 2, 4.

**İş dəftəri, səh. 45**

**c.** Məlumat vərəqinə əsasən Qəbələ şəhəri haqqında qeyri-bədii mətn yaz.

**Müəllimin nəzərinə!** Yazı fəaliyyətinə başlamadan əvvəl şagirdlərə mətnin strukturu haqqında xatırlatma etmək vacibdir:
– Mətnin neçə hissəsi var?
– Sizcə, mətnin giriş hissəsində hansı məlumatlar verilməlidir?
Suallarla beyin həmləsi etdikdən sonra dərslikdə İçərişəhər haqqında oxuduqları “Qala-şəhərlər” mətninin nümunəsində mətnin strukturu müzakirə edilir.

Şagirdlərin yazısı təxminən bu məzmunda ola bilər:

***Qəbələ qalası***

*Qəbələ Azərbaycanın ən qədim şəhərlərindən biridir. Ölkəmizin ən əhəmiyyətli qalalarından biri də qədim Qəbələ şəhərində yerləşir.*

*Arxeoloji qazıntılar nəticəsində məlum olub ki, bu yaşayış məntəqəsi miladdan əvvəl IV-III əsrlərdə yaranıb. Qazıntılar zamanı dulusçuluq, dəmirçilik, zərgərlik və s. əşyaları tapılıb. Bu tapıntılar sübut edir ki, Qəbələdə qədim dövrlərdən şəhər həyatı yaranıb. Burada sənətkarlıq və ticarət inkişaf edib.*

*Qəbələ qala divarlarının uzunluğu 35 metr, divarların qalınlığı isə 2,4 metrdir. Qala divarları üzərində müşahidə və müdafiə məqsədilə 4 ədəd bürc qurulmuşdur. Bu bürclərin hündürlüyü 10-14 m, diametri isə 6,8 metrdir.*

*Qəbələ qalası hal-hazırda qoruq kimi fəaliyyət göstərir.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətndəki sözlərin mənasını müəyyən edir. | Tapşırıq b (dərslik); tapşırıq a (iş dəftəri) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c, ç (dərslik); tapşırıq b (iş dəftəri) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq d, e (dərslik) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq c (iş dəftəri) |

# 2-ci DƏRS
# Şuşa qalası

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Dialoq zamanı fikirlərini rabitəli şəkildə çatdırır (st. 2.1.4).
- Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.5).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 78**

**a.** Qalalar haqqında nə bilirsiniz? Bəs daha nə bilmək istərdiniz?

**Müəllimin nəzərinə!** Şagirdləri danışmağa stimullaşdırmaq üçün yönəldici suallar vermək olar:
– Hansı qala-şəhərləri tanıyırsınız?
– Qalalar hansı məqsədlə tikilirdi?
– Nə üçün müasir dövrdə qalalar tikilmir?

**Mətnlə iş.** "Şuşa qalası" mətni şagirdlər tərəfindən səssiz oxunur.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətini mətnin yarımbaşlıqlarına yönəltmək tövsiyə edilir. Oxudan sonra bir çox tapşırıqlar məhz müvafiq yarımbaşlıqlara əsasən yerinə yetiriləcək.

**Dərslik, səh. 78. "Söz mücrüsü" rubrikası**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 79**

**b.** "Söz mücrüsü"ndən izahlara uyğun sözü seçin.

Cavab: 1 – mühasirə; 2 – zirvə; 3 – yadelli.

**Dərslik, səh. 79**

**c.** Şuşa qalası ilə bağlı suallara cavab verin.

Bu tapşırıq faktoloji qavramanı yoxlamağa xidmət edir. Şagirdlər mətnə aid sualları cavablandırmaqla mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

Cavab:
1. Qarabağ bölgəsində, Şuşa şəhərində yerləşir.
2. Pənahəli xan tərəfindən tikilib.
3. 1751-ci ildə tikilib.

**İş dəftəri, səh. 46**

**a.** "Şuşa qalası" mətninə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən et.

Şagirdlər mətnə aid fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən etməklə mətnin məzmununu mənimsədiklərini nümayiş etdirirlər. Yaxşı olardı ki, şagirdlər yanlış fikirləri mətnə istinad edərək düzəltsinlər.

Cavab: 1 – D; 2 – Y; 3 – D; 4 – D; 5– Y; 6 – Y.

**İş dəftəri, səh. 46**

**b.** Mətnlərə istinad etməklə cümlələri tamamla.

Cavab:
1. ..., çünki bura paytaxt üçün o qədər də əlverişli mövqedə deyildi.
2. ..., çünki bura Qarabağın ən hündür yerində, əlverişli mövqedə yerləşirdi.
3. ..., çünki şəhər Pənahəli xan tərəfindən salınmışdı.
4. ..., çünki qala bir tərəfi uçurum, digər tərəfi sıldırım qayalarla əhatə olunmuş ərazidə salınıb.

**Dərslik, səh. 79**

**ç.** Mətnə əsasən Şuşa qalasının yerləşdiyi ərazini və qalanın quruluşunu təsvir edin.

Faktoloji qavramanı yoxlamağa xidmət edən bu tapşırıq eyni zamanda danışma bacarığının da inkişafına yönəlmişdir.

Cavab: Şagirdlər mətnin "Quruluşu" adlı yarımbaşlığındakı məlumatlardan istifadə edirlər.

**Dərslik, səh. 79**

**d.** Mətndən Qarabağ xanlığı ilə bağlı faktları seçin.

Cavab: Şagirdlər mətnin "Tarixi" adlı yarımbaşlığındakı məlumatlardan istifadə edirlər.
Məsələn:

- Qarabağ xanlığı XVIII əsrin ortalarında yaranıb.
- Qarabağ xanlığının banisi Pənahəli xan olub.
- Qarabağ xanlığının ilk mərkəzi Bayat qalası olub.
- Daha sonra xanlığın mərkəzi Şahbulağa köçürülüb.
- 1751-ci ildən Qarabağ xanlığının paytaxtı Pənahabad şəhəri oldu.

**Dərslik, səh. 79**

**e.** Mətnə əsasən tarixi hadisələrin xronoloji ardıcıllığını müəyyən edin.

Şagirdlər mətnin "Tarixi" adlı yarımbaşlığındakı məlumatlara əsasən tarixi hadisələrin xronoloji ardıcıllığını müəyyən edirlər.

Cavab: 1 – c; 2– a; 3 – ç; 4 – b; 5 – d.

Müəllim "Yadda saxla" rubrikasında şagirdlərə "xronologiya" sözünün mənasını izah edir. Tarixi mövzuda yazılmış qeyri-bədii mətnlərdə hadisələr çox zaman xronoloji ardıcıllıqla təsvir edilir.

**Dərslik, səh. 79**

**ə.** "Şuşa qalası" mətni haqqında doğru fikirləri seçin. Mətnə istinad etməklə seçiminizi əsaslandırın.

Cavab: b. Qeyri-bədii mətndir.

Əsaslandırma: Mətn Şuşa qalasının yaranma tarixi haqqında məlumatlar verir. Mətndə Qarabağ xanlığının yaranması haqqında faktlar yer alıb.

**Dərslik, səh. 79**

**f.** Aşağıdakı fakt hansı yarımbaşlıqda verilmiş fikri əsaslandırır?

Tapşırıq şagirdlərdə faktlar və hadisələr arasındakı əlaqəni müəyyən etmək bacarığını formalaşdırır. Mətnin "Quruluşu" və " Azərbaycan tarixində yeri" adlı yarımbaşlığındakı məlumatlara əsasən tapşırıq yerinə yetirilir.

Cavab:

- Qala dəfələrlə düşmənlər tərəfindən mühasirəyə alınsa da, buranı işğal etmək mümkün olmurdu.
- Şuşa qalası alınmazlıq simvoludur. Çünki şəhəri əhatə edən qala divarları daim Şuşanı yadellilərdən qorumuşdur.

**İş dəftəri, səh. 46**

**c.** "Qarabağ xanlığı" haqqında məlumat vərəqini tamamla.

Şagirdlər artıq dərslikdə verilmiş "d" tapşırığında Qarabağ xanlığı haqqında faktları müzakirə etmişlər. Bu faktlara əsasən "Qarabağ xanlığı" haqqında məlumat vərəqini tamamlayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq a (dərslik) |

| | |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b, c (dərslik); tapşırıq a, b (iş dəftəri) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumatı müəyyənləşdirir. | Tapşırıq ç, d (dərslik) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tapşırıq e (dərslik) |
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tapşırıq ə, f (dərslik) |
| Məlumat vərəqi hazırlayır. | Tapşırıq c (iş dəftəri) |

# 3-cü DƏRS
# Azərbaycan qalaları

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 80**

**a.** Hansı qalaları tanıyırsınız? Bu qalaların nə üçün belə adlandırıldığını bilirsinizmi?

Şagirdlər keçən dərslərdə bir neçə qala haqqında məlumat alıblar. Bu məlumatlara və şəxsi biliklərinə əsaslanaraq qalaların adları haqqında danışırlar.

**Dərslik, səh. 80**

**b. Qruplarla oxu**. "Azərbaycan qalaları" mövzusunda mətnləri oxuyun və əldə etdiyiniz məlumatları sinfə təqdim edin.

**Dərslik, səh. 80-81. "Söz mücrüsü" rubrikası**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Mətnlə iş.** "Azərbaycan qalaları" mətni qruplarla oxunur. Şagirdlər üç qrupa ayrılır. Hər qrup bir mətni oxuyur. Mətndə adı çəkilən qalaya aid faktları dəftərlərinə qeyd edirlər. Bu məlumatları sinfə təqdim edirlər.

**Dərslik, səh. 81**

**c.** "Söz mücrüləri"ndən izahların aid olduğu sözləri müəyyən edin.

Cavab: 1 – saçmaq; 2 – oyuq; 3 – bala; 4 – tərk etmək.

Dərslikdə verilmiş "ç" və "d" tapşırıqları şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan yaradır.

**Dərslik, səh. 81**

**ç.** Mətnlərə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu qeyd edin.

Cavab: 1 – D; 2 – Y; 3 – D; 4– Y; 5 – D; 6 – Y.

**Dərslik, səh. 81**

**d.** Mətnlərə istinad etməklə cümlələri tamamlayın.

Cavab:
1. ..., çünki Şəki əhalisi onun əmrinə tabe olmaq istəmirdi.
2. ..., çünki xeyli vaxt mühasirədə saxlasa da, qalanı tuta bilmir.
3. ... ki, xalqı bəladan xilas etsin.
4. ..., çünki qeyri-adi memarlıq üslubuna malikdir.

**Dərslik, səh. 82**

**e.** "Qız qalası" mətnində hansı hadisə həqiqətə uyğun deyil?

Cavab: c. Alovun qıza çevrilməsi

Müəllim şagirdlərin diqqətini "Yadda saxla" rubrikasına yönəldir. Şagirdlərin bu dərsdə oxuduqları "Gələrsən-görərsən", "Qız qalası", "Pəri qalası" mətnlərinə istinad edərək əfsanə və rəvayətlərin fərqini izah edir.

**Dərslik, səh. 82**

**ə.** Mətnləri müqayisə edin. Oxuduğunuz mətnlərin rəvayət, yoxsa əfsanə olduğunu əsaslandırın.

Şagirdlər müəllimin əfsanə və rəvayət anlayışlarının izahına əsasən tapşırığı yerinə yetirirlər.

Cavab:
- "Qız qalası" mətnində fantastik hadisələr təsvir olunur.
- "Pəri qalası" mətnində qalanın adı ilə bağlı mülahizələr irəli sürülür.
- "Gələrsən-görərsən" mətnində tarixi yer və şəxsiyyətin adı çəkilir.

**İş dəftəri, səh. 47**

**a.** Oxuduğun mətnlərə əsasən məlumatları qeyd et.

Şagirdlər bu tapşırığı yerinə yetirməklə dərslikdə oxuduqları mətnin məzmununu necə qavradıqlarını nümayiş etdirirlər. Tapşırıq eyni zamanda əsas faktları seçə bilmək bacarığını formalaşdırır.

**İş dəftəri, səh. 47**

**b.** Verilmiş cümlələrin sıra nömrələrini cədvəl üzrə qruplaşdır.

Tapşırıq şagirdlərin bədii və qeyri-bədii mətnlər, əfsanə və rəvayət haqqında aldıqları bilikləri yoxlamağa imkan yaradır. Tapşırıq eyni zamanda şagirdlərdə mətnləri növünə, janrına görə müqayisə etmə bacarıqları formalaşdırır.

Cavab:

| Gələrsən-görərsən qalası | Qız qalası | Pəri qalası | Ortaq xüsusiyyətlər |
|---|---|---|---|
| 4; 5 | 3 | 4 | 1; 6 |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq c (dərslik) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq ç, e (dərslik) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tapşırıq d (dərslik) |
| Müxtəlif mətnləri mövzu, məzmun-struktur, ideya baxımından müqayisə edir. | Tapşırıq ə (dərslik); tapşırıq b (iş dəftəri) |

| | |
|---|---|
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq a (iş dəftəri) |

# 4-cü DƏRS
# Şirvanşahlar sarayı

**Təlim nəticələri:**
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).
- Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir (st. 4.1.3).

**Mövzuya yönəltmə. Danışma**

**Müəllimin nəzərinə!** İnternetdən istifadə etmək üçün imkanları olan siniflərdə şagirdlərə araşdırma üçün linklər təqdim edilə bilər. İnternetdən istifadə üçün imkanı olmayan siniflərə Şirvanşahlar sarayı haqqında məqalələr, qəzetlər, jurnallar, informativ mətnlər təqdim edilə bilər.

**Dərslik, səh. 82**

**a.** Şirvanşahlar sarayı haqqında araşdırma aparın. Əldə etdiyiniz faktlar əsasında bu abidə haqqında reklam vərəqi hazırlayın.

Diferensial təlim. Bu tapşırığın qruplarla icra edilməsi məsləhət görülür. Müəllim müxtəlif dil səviyyələri olan şagirdləri bir qrupda qruplaşdırır. Daha sonra vəzifə bölgüsü aparır. Azərbaycan dilini zəif səviyyədə bilən şagirdlərə tərtibat işləri həvalə edilə bilər. Şagirdlərin diqqəti tapşırıqda təqdim edilmiş plana yönəldilir. Şagirdlər planla tanış olurlar. Planın müzakirəsindən sonra fəaliyyətə başlayırlar.

**Dərslik, səh. 82**

**b.** Reklam vərəqini təqdim edin. Bir-birinizin təqdimatına münasibət bildirin.

Qruplar bir-bir hazırladıqları reklam vərəqini təqdim edirlər. Digər qrup üzvləri və müəllim aşağıdakı cədvələ əsasən reklam vərəqinə münasibət bildirirlər.

| Meyar | Tam | Orta | Zəif |
|---|---|---|---|
| Yerləşdiyi ölkə və şəhər qeyd edilib. | | | |
| Tikilmə tarixi, memarlıq xüsusiyyətləri haqqında məlumat verilib. | | | |
| Quruluşu təsvir edilib. | | | |
| Turistləri cəlb edən faktlar var. | | | |
| Qısa və konkret cümlələrdən istifadə edilib. | | | |
| Fotoşəkillər var. | | | |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq a (dərslik) |

| | |
|---|---|
| Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir. | Tapşırıq b (dərslik) |

# 5-ci DƏRS
# Sözün quruluşca növləri

**Təlim nəticələri:**
• Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 83**

**a.** Uyğunluğu müəyyən edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini sözün tərkibi və quruluşca növləri mövzusuna yönəldir. Şagirdlərin aşağı siniflərdən kök və şəkilçi haqqında bilgiləri vardır. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə əvvəlki biliklərini xatırladır. Tapşırıqdan əlavə daha bir neçə sözü tərkibinə görə təhlil etmək tövsiyə edilir.

Cavab: 1 – c; 2 – ç; 3 – b; 4 – a.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş sözün quruluşu haqqında verilmiş məlumatları izah edir.

**Dərslik, səh. 83**

**b.** Verilmiş sözlərin tərkibini və quruluşca növünü müəyyənləşdirin.

Cavab:
Sadə sözlər: danışmaq, aydın, portret.
Düzəltmə sözlər: narahatlıq, meydança, istedadlı, şəxsiyyət.
Mürəkkəb sözlər: ucaboy, güləruz.

**Dərslik, səh. 83**

**c.** Sözlərə uyğun leksik şəkilçiləri artırmaqla düzəltmə sözlər yaradın. Həmin sözlərin izahlarını yazın.

Tapşırıq şagirdlərin sözün quruluşu haqqında biliklərini möhkəmləndirir. Eyni zamanda söz ehtiyatının zənginləşdirilməsinə kömək edir.

Cavab:
*Bağ* – meyvə ağacları əkilmiş sahə
*Bağça* – kiçik bağ, həyət bağı
*Çox* – xeyli
*Çoxal(maq)* – artmaq
*Xeyir* – yaxşı iş
*Xeyirxah* – yaxşılığa çalışan
*İş* – fəaliyyət, əmək
*İşlə(mək)* – çalışmaq, iş görmək

**Dərslik, səh. 83**

**ç.** Cümlələrdə mürəkkəb sözləri seçin və onların tərkib hissələrini müəyyən edin.

Cavab:
1. Yad+elli

2. İçəri+şəhər, Şirvan+şah
3. Çalışmaq+vuruşmaq
4. Gəlmək+görmək, qeyri+adi
5. Hissə+hissə

**Dərslik, səh. 83**

**d.** Quruluşuna görə dördündən biri fərqlidir:

"Bunları bilməliyik" rubrikasının ikinci hissəsində müəllim şagirdlərə tapşırığı yerinə yetirməzdən əvvəl düzəltmə sözlə sözün kökü arasındakı məna əlaqəsi haqqında məlumat verir. Şagirdlər tapşırıqda "qırıq" sözünün "qırmaq" feilindən yarandığını, lakin "balıq", "qayıq", "qaşıq" sözlərinin sadə olduğunu müəyyən edəcəklər. Çünki "balıq" sözü "bal" sözündən, "qaşıq" sözü "qaş" sözündən yarana bilməz.

Cavab:
1. "Tez" sadə sözdür, digərləri isə mürəkkəbdir.
2. "Neft" sadə sözdür, digərləri isə düzəltmədir.
3. "Qırıq" düzəltmə sözdür, digərləri isə sadədir.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 48**

**a.** İzahlara uyğun olaraq söz köklərinə müvafiq şəkilçilər əlavə et.

Cavab: 1 – çalışqan; 2 – mərhəmətli; 3 – solğun; 4 – döyüş; 5 – sirdaş.

**İş dəftəri, səh. 48**

**b.** Hansı sözlərə "qara" sözünü artırmaqla mürəkkəb söz düzəltmək olur? Həmin sözləri cümlədə işlət.

Cavab: qaragöz, qarabəniz, qarasaç, qaraciyər, Qarabağ, qaraqaş.

**İş dəftəri, səh. 48**

**c.** Dördündən biri quruluşuna görə fərqlidir:

Cavab:
- "Susuz" düzəltmə , digərləri isə sadə sözdür.
- "Palıddan" sadə, digərləri isə düzəltmə sözdür.
- "İstiot" mürəkkəb, digərləri isə düzəltmə sözdür.
- "Pambıqçı" düzəltmə , digərləri isə mürəkkəb sözdür.

**İş dəftəri, səh. 48**

**ç.** Cədvəlin hər sütununa daha üç söz əlavə et.

Şagirdlərin cavabı müxtəlif ola bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas nitq hissələrinin morfoloji tərkibini müəyyən edir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

# 2-ci fəsil
# TARİXİ KÖRPÜLƏR

## 1-ci DƏRS
## Körpülər

**Təlim nəticələri:**

- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir (st. 1.1.2).
- Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir (st. 2.1.1).
- Verbal informasiyanı qeyri-verbal şəkildə (və ya əksinə) ifadə edir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 84**

**a.** Sözün izahını oxuyun və suallara cavab verin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir, onları mövzu ətrafında danışmaq üçün istiqamətləndirir.

Mətnlə iş. Körpülər haqqında mətn yarımbaşlıqlarla təqdim edilmişdir. Belə olduqda hissəli oxu üsulundan istifadə etmək məqsədəuyğundur. Hər bir yarımbaşlığa aid hissənin oxusundan sonra müəllim yönəldici suallarla şagirdlərin diqqətini həmin hissədə verilmiş vacib məqamlara yönəldir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 85**

**b.** Mətndə hansı suallara cavab axtarılır?

Şagirdlər tapşırığı yerinə yetirməklə mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

Cavab: Körpülər nə vaxt və necə yaradılıb?

**Dərslik, səh. 85**

**c.** Mətnə istinad etməklə aşağıdakı fikirləri əsaslandırın.

Tapşırıq həm şagirdlərin mətnin məzmununu necə qavradığını yoxlamağa imkan yaradır, həm də fikrini əsaslandıra bilmə bacarığını inkişaf etdirir.

Cavab:

1. Körpülər min illər boyu inkişaf yolu keçib. Qədim insanların körpü kimi istifadə etdikləri sadə ağac gövdələri sonralar mürəkkəb konstruksiyalı asma körpülərlə əvəz olundu.

2. Körpülər müxtəlif materiallardan hazırlanır.

Körpülər taxta, daş, polad və betondan hazırlanır.

3. Körpülərin müxtəlif formaları var.

Məsələn, tağlı körpülər yarımdairə formada hörülür.

**Dinləmə**

**Dərslik, səh. 85**

**ç.** “Körpüləri yandırmaq” mətnini dinləyin və suallara cavab verin.

Dinləmə mətni səsləndirilir.

***Körpüləri yandırmaq***

*İfadənin yaranması birbaşa müharibələrlə, hərb tarixi ilə bağlıdır. Belə ki, qətiyyətli sərkərdələr suda olan maneələri keçdikdən sonra öz gəmilərini, yaxud körpüləri yandırırdı. Bununla da öz döyüşçülərinə sanki geriyə yolun olmadığını bildirirdilər.*

*Müharibə tarixində körpülərin yandırılması ilə bağlı çoxlu nümunələr var. Məsələn, 1380-ci ildə Kulikovo çölündəki döyüş zamanı rus şahzadəsi Dmitri Donskoy Don çayını keçdikdən sonra bütün keçidləri və körpüləri dağıdır.*

*Lakin hərb tarixində elə nümunələr də var ki, hücum edən tərəf deyil, müdafiə olunan və ya döyüş meydanından qaçan tərəf körpüləri yandırıb. Burada məqsəd təqib edən düşməni ləngitmək, ondan uzaqlaşmaq olub.*

*Hazırda bir çox dillərdə işlənən "körpüləri yandırmaq" hansısa münasibətin qəti şəkildə pozulduğunu, yenidən bərpasının mümkünsüzlüyünü bildirir.*

*Hazırda bir çox dillərdə işlənən "körpüləri yandırmaq"la "gəmiləri yandırmaq" ifadələri heç də eyni mənanı vermir. "Körpüləri yandırmaq" hansısa münasibətin qəti şəkildə pozulduğunu, yenidən bərpasının mümkünsüzlüyünü bildirir. "Gəmiləri yandırmaq" isə yalnız irəli getməkdən və döyüşüb qələbə çalmaqdan başqa çıxış yolunun qalmadığını bildirir.*

**Dərslik, səh. 85**

**d.** Hansı şəkil mətnin məzmununa aiddir? Sizcə, digər şəkil hansı ifadəni təsvir edir? Bu ifadələri antonim hesab etmək olarmı? Fikrinizi əsaslandırın.

Cavab: İkinci şəkil mətnin məzmununa aiddir. Birinci şəkildə isə iki nəfər körpü salır.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə belə izahat verə bilər. Məsələn, "İki xalq arasında körpü saldı" cümləsində "körpü salmaq" münasibət yaratmaq, əlaqələri inkişaf etdirmək mənasında işlənir. Bu baxımdan "körpü salmaq" və "körpüləri yandırmaq" ifadələrini antonim hesab etmək olar, yəni münasibət yaratmaq və münasibətləri pozmaq.

**Dərslik, səh. 85**

**e.** "Körpüləri yandırmaq" mətnindən belə nəticəyə gəlmək olmur: ...

Cavab: b. Sərkərdələr əsgərləri ilə münasibətlərini korlamaq istəyirdilər.

**Dərslik, səh. 85**

**ə.** "Körpüləri yandırmaq" ifadəsinin işlənə biləcəyi situasiyalar düşünüb danışın.

Şagirdlərin danışdığı situasiyaya aid nümunə:

Rəsul bu hərəkəti ilə "bütün körpüləri yandırmışdı". Daha bundan sonra onunla barışacağıma, dostluq edəcəyimə inanmırdım.

**İş dəftəri, səh. 49**

**a.** Verilmiş qeydlərə əsasən körpülər haqqında yaddaş xəritəsi hazırla.

Bu tapşırığı yerinə yetirməklə şagirdlər körpülər haqqında mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər. Tapşırıq eyni zamanda şagirdlərin qeyri-bədii mətnlərdəki əsas faktları müəyyən etmə bacarığını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b (dərslik) |
| Verilmiş fikri arqumentlə əsaslandırır. | Tapşırıq c (dərslik) |
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tapşırıq ç, d, e (dərslik) |
| Yeni öyrəndiyi söz və ifadələri cümlələrdə kontekstə uyğun işlədir. | Tapşırıq ə (dərslik) |
| Yaddaş xəritəsi hazırlayır. | Tapşırıq a (iş dəftəri) |

# 2-ci DƏRS
# Xudafərin körpüləri

**Təlim nəticələri:**
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma.** Müəllim keçən dərsdə oxunmuş körpülər haqqında mətnə aid frontal sorğu keçirir. Yaxşı olardı ki, tağlı körpülər haqqında məlumata daha çox diqqət ayrılsın.

Frontal sorğu üçün sual nümunələri:

1. Sizcə, körpü salmaq ideyası haradan yaranıb?
2. İlk körpüləri necə düzəldirdilər?
3. Körpülərin inşasında hansı materiallardan istifadə olunur?
4. Tağlı körpülər hansı formada olur?
5. Asma körpülər digərlərindən nə ilə fərqlənir?

**Dərslik, səh. 86**

**a.** Mətni oxuyun və uyğun yarımbaşlıqlarla adlandırın.

Oxudan əvvəl müəllim şagirdlərə “mətnin yarımbaşlıqları” anlayışını xatırladır:

– Sizcə, mətnin yarımbaşlıqlara ayrılmasının oxucu üçün hansı faydası var?

**Mətnlə iş.** Oxudan sonra şagirdlər mətni yarımbaşlıqlara ayırmalıdırlar. Bu fəaliyyəti istiqamətləndirmək üçün mətnin hər abzasının oxusundan sonra müəllim şagirdlərə suallar verir:

– Bu abzasda nədən danışılır? Bu abzasa aid açar söz seçin.

– Bu abzası necə adlandırmaq olar?

Cavab:

Cavablar müxtəlif ola bilər. Yarımbaşlıqlara aid nümunə:

1-ci abzas. Yerləşdiyi yer.
2-ci abzas. Rəmzi abidə.
3-cü abzas. Quruluşu.
4-cü və 5-ci abzas. Tarixi.
6-cı abzas. Qələbə.

**Söz ehtiyatı**

**Dərslik, səh. 86**

**b.** Bəzi yazıçılar öz əsərlərində “Xudafərin körpüsü”nü “Həsrət körpüsü” adlandırırlar. Sizcə, nə üçün yazıçılar körpünü belə adlandırırdılar? “Həsrət” sözünün izahını oxuyun. Mətnə istinad etməklə yazıçılara haqq qazandırın.

Müəllim şagirdlərin diqqətini “Sözlərin izahı” rubrikasına yönəldir. “Həsrət” sözü izah edilir, şagirdlər bu sözü müxtəlif cümlələrdə işlətməklə mənasını anladıqlarını nümayiş etdirirlər. Tapşırıq söz ehtiyatını zənginləşdirməklə yanaşı əlaqələndirmə, nəticə çıxarma, əsaslandırma kimi vacib bacarıqları da inkişaf etdirir.

Şagirdlərin cavabları təxminən belə ola bilər:

1828-ci ildə Azərbaycan iki yerə bölündü. Azərbaycanın cənub torpaqları İranın, şimalda yerləşən torpaqları isə Rusiyanın tərkibinə keçdi. Araz çayı Cənubi Azərbaycan ilə Şimali Azərbaycanı ayıran sərhədə çevrildi. Bir-birindən ayrı düşən həmvətənlərimiz yalnız bir yerdə, “Xudafərin” körpüsündə görüşə bilirdilər. Bu səbəbdən bəzi yazıçılar öz əsərlərində “Xudafərin körpüsü”nü “Həsrət körpüsü” adlandırırlar.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 87**

**c.** Mətnlə bağlı suallara cavab verin.

Cavab: 1 – Cəbrayıl; 2 – həsrət; 3 – iki; 4 – on bir tağlı.

**İş dəftəri, səh. 50**

**a.** "Xudafərin körpüləri" mətninə əsasən cümlələri tamamla.

Cavab:
1. Xudafərin körpüləri **Cəbrayıl** rayonunun ərazisində yerləşir.
2. Körpülərdən biri "**Baş** Xudafərin körpüsü" adlanır.
3. Yerli əhali körpüyə ikinci bir ad – **Sınıq** körpü adını verir.

**Dərslik, səh. 87**

**ç.** Məlumat vərəqi ilə tanış olun. Bu məlumatla mətnin hansı abzaslarını genişləndirmək olar? Mətnə və məlumat vərəqinə əsasən Azərbaycanın iki yerə parçalanması haqqında danışın.

Tapşırıq təqdim edilmiş məlumatlarla mətnin müvafiq hissəsini genişləndirmək bacarığının inkişafına imkan yaradır.

Cavab: Məlumat vərəqi ilə mətnin dördüncü abzasını genişləndirmək olar.

**İş dəftəri, səh. 50**

**b.** 44 günlük Vətən müharibəsinin iştirakçısı çavuş Rasim Qasımovun xatirələrini oxu.

Bu tapşırıq oxu və yazı təlim xətlərinin inteqrasiyasını təmin edir. Eyni zamanda tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına yönəlmişdir.

Şagirdlər Rasim Qasımovun xatirələrindəki məlumatlara istinad edərək hekayə yazırlar.

Müəllim müvafiq suallarla beyin həmləsi edə bilər:

– Sizcə, yazacağınız mətn bədii mətndir, yoxsa qeyri-bədii mətn?

**Müəllimin nəzərinə!** Şagirdləri fəaliyyətə istiqamətləndirmək üçün məlumatlar vermək tövsiyə edilir. Bədii mətnləri yazarkən müəllifin məqsədi oxucunu hər hansı bir mənəvi dəyər haqqında düşündürməkdir. Bu hekayədə siz oxucunun diqqətini vətənpərvərlik mövzusuna cəlb edirsiniz. Bədii mətnlərdə bəzi hadisələr obrazlar arasındakı dialoqlar vasitəsilə təsvir edilir. Siz də yazacağınız hekayədə Rasim və onun komandiri, Rasim və onun döyüş yoldaşları arasında dialoqlar qura bilərsiniz.

Hekayə nümunəsi:

**Həsrət körpüsünə qovuşanda**

44 günlük Vətən müharibəsinin 22-ci günü idi. Cəbrayıl uğrunda qızğın döyüş gedirdi. Bir neçə saatdan sonra şəhər düşməndən azad edildi. Növbəti hədəf "Xudafərin" körpüsü idi.

Rasimgilin dəstəsi "Xudafərin" körpüsünə yaxınlaşırdı. Artıq körpünün bütün tağları aydın göründü. Rasim orta məktəbdə tarix kitabının üstündəki şəkli xatırlayıb gülümsədi. Sonra uşaq kimi tağları saymağa başladı: 1, 2, 3..., 11.

Komandirin səsi onu özünə gətirdi:

– Vətən oğulları, məni diqqətlə dinləyin. Biz hədəfə yaxınlaşırıq, nə olursa olsun bayrağımız "Həsrət körpüsü"ndə dalğalanmalıdır. Hətta yaralansam, şəhid olsam belə dayanmayın! İrəli gedin! Sona qədər döyüşün! Bayrağımızı "Xudafərin" körpüsünə sancın!

Komandirimizin bu sözləri bizi ruhlandırdı. "Vətən uğrunda!" deyib hücuma keçdik. Həmin döyüşdə komandirimiz yaralandı, lakin biz dayanmadıq. Onun tapşırığını şərəflə yerinə yetirdik. Verdiyimiz sözü tutduq!

Bizim bu döyüşlərdəki şücaətimiz çox yüksək qiymətləndirildi. Biz "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunduq. Qalib əsgər olmaq gözəl hiss idi. Amma yalnız kitablarda gördüyüm "Həsrət körpüsü"nə ayaq basmaq isə bizim üçün əvəzolunmaz idi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni yarımbaşlıqlara ayırır. | Tapşırıq a (dərslik) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tapşırıq b (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c (dərslik); tapşırıq a (iş dəftəri) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq ç (dərslik) |
| Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır. | Tapşırıq b (iş dəftəri) |

# 3-cü DƏRS
# Dünyanın ən məşhur körpüləri

**Təlim nəticələri:**

• Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma.** Şagirdlər aşağı siniflərdən bir çox mövzularda məlumat vərəqi hazırlamışlar. Müəllim istiqamətləndirici suallar vasitəsilə məlumat vərəqi haqqında bilgiləri xatırladır.

**Dərslik, səh. 88**

**a.** Məlumat vərəqləri ilə tanış olun. Dünyanın ən məşhur körpüləri haqqında qeyri-bədii mətn yazın.

Tapşırıq şagirdlərin yazı məzmun xətti üzrə bacarıqlarını inkişaf etdirir. Şagirdlər məlumat vərəqində verilmiş məlumatları rabitəli mətnə çevirirlər.

Diferensial təlim. Tapşırığı çətinliklə yerinə yetirən şagirdlərə kömək məqsədilə istiqamətləndirici suallar vermək olar:

• Danyanq-Kunşan Qrand körpüsü hansı xüsusiyyətinə görə məşhurdur?
• Bu körpü harada yerləşir?
• Bu körpü nə vaxt inşa edilib?
• Körpünün ölçüləri haqda hansı məlumatları vermək olar?
• Körpüdən hal-hazırda hansı məqsədlə istifadə edilir?

Şagirdlər bu suallara cavab verməklə yazacaqları mətnin məzmununu formalaşdırırlar.

Şagirdlərin yazıları təxminən bu məzmunda ola bilər:

***Danyanq-Kunşan Qrand***

*Dünyanın ən uzun körpüsü Danyanq-Kunşan Qrand Çində yerləşir. Körpünün inşasına 2006-cı ildə başlanılmışdır. Tikinti beş il davam etmiş, 2011-ci ildə yekunlaşmışdır. Körpünün uzunluğu 164,8 km, hündürlüyü isə 30 metrdir. Hal-hazırda Pekin ilə Şanxay arasında dəmiryol nəqliyyatı üçün istifadə edilir. 2011-ci ildə dünyanın ən uzun körpüsü kimi Ginnesin Rekordlar kitabına düşüb.*

***Akaşi Kaikyo***

*Akaşi Kaikyo – dünyanın ən hündür asma körpüsüdür. Bu körpü Yaponiyada yerləşir. Körpünün ən yüksək nöqtəsi 282,8 metr hündürlükdədir. Üç aşırımdan ibarət bu asma körpünün uzunluğu 4 kilometrə yaxındır. Körpü 10 il müddətində inşa edilmişdir. Belə ki körpünün inşasına 1988-ci ildə başlanılmış, 1998-ci ildə yekunlaşmışdır. Yaponiyada belə deyirlər ki, əgər Akaşi Kaikyo körpüsünü saxlayan polad telləri bir-birinə bağlasan, dünyanın ətrafına 7 dəfə dolanmaq olar.*

***Adana Daşkörpü***

*Adana Daşkörpü dünyanın ən qədim körpüsüdür. Türkiyənin Adana şəhərində yerləşir. 21 tağdan ibarət bu körpünün uzunluğu 310 metr, eni 11,4 metrdir. Adana Daşkörpünün tarixi çox qədimdir. Körpü eramızın II əsrində inşa edilmişdir. Türk səyyahı Övliya Çələbi öz əsərlərində Daşkörpünün adını çəkmişdir. Lakin buna baxmayaraq, hələ də bu körpüdən istifadə edilir. Daşkörpü dünyanın hələ də istifadə edilən ən qədim körpüsüdür.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Mürəkkəb sözlərin yazılışı

**Təlim nəticələri:**
- Sözlərin bitişik, ayrı və defislə yazılış qaydalarına riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə.** Dərslikdə verilmiş "a" tapşırığı motivasiya xarakterlidir və şagirdlərin diqqətini mövzuya yönəldir.

**Dərslik, səh. 89**

**a.** Mürəkkəb sözlərin tərkib hissələrinə diqqət edin. Uyğunluğu müəyyən edin.

Şagirdlər aşağı siniflərdə mürəkkəb sözlər, eləcə də yaxınmənalı, əksmənalı sözlər haqqında məlumat alıblar. Bu məlumatlara əsasən tapşırığı yerinə yetirirlər. Tapşırıq şagirdlərin diqqətini mürəkkəb sözlərin yazılış qaydalarına yönəldir.

Cavab: 1 – ç; 2 – c; 3 – b; 4 – a.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları şərh edir, mürəkkəb sözlərin yazılış qaydalarını nümunələrlə izah edir.

**Dərslik, səh. 89**

**b.** Verilmiş sözlərdən mürəkkəb sözlər düzəldib yazın.

Cavab: gül-çiçək; dost-tanış; mer-meyvə; qırxayaq; meşəbəyi; kəklikotu; qara-qura.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları şərh edir. Sözlərin təkrarından yaranan mürəkkəb sözlərin yazılışını nümunələrlə izah edir.

**Dərslik, səh. 89**

**c.** Nöqtələrin yerinə *a, ha, ba, bə* hissəcikləri yazmaqla cümlələri köçürün.

Cavab: 1 – taybatay; 2 – rəngbərəng; 3 – qaçaqaç; 4 – gəlhagəl, gethaget;

**Dərslik, səh. 89**

**ç.** Cümlələrdə səhv yazılmış mürəkkəb sözləri müəyyən edib düzgün yazın. Qaydalara istinad edərək seçiminizi əsaslandırın.

Cavab:
1. "Üzbəüz" sözü eyni sözün təkrarından yaranıb, "bə" hissəciyinin köməyi ilə bitişik yazılır.
2. "Bir-bir" eyni sözün təkrarından yaranıb, defislə yazılır.
3. "Aşsüzən" müxtəlifmənalı sözlərin köməyi ilə yaranıb, bitişik yazılır.
4. "Kələ-kötür" sözü defislə yazılır, çünki komponentlərindən biri ayrılıqda işlənə bilmir.

5. “Gediş-gəliş” sözü defislə yazılır, çünki əksmənalı sözlərin birləşməsindən yaranıb.
6. “Adət-ənənələri” sözü defislə yazılır, çünki yaxınmənalı sözlərin birləşməsindən yaranıb.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin mürəkkəb sözlərin yazılışı haqqında biliklərinin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 51**

**a.** Cümlələrdəki mürəkkəb sözləri seçib düzgün yazaraq cədvəl üzrə qruplaşdır.

Cavab:
*Bitişik yazılan mürəkkəb sözlər*: ikiüzlü, ağsaqqal, boşboğaz.
*Defislə yazılan mürəkkəb sözlər*: baş-başa, qova-qova, isti-isti.

**İş dəftəri, səh. 51**

**b.** Mürəkkəb sözləri uyğun sətirlərdə yaz.

Cavab:
*Müxtəlifmənalı sözlərin birləşməsi*: kinostudiya, , qızılquş.
*Yaxınmənalı sözlərin birləşməsi*: söz-söhbət, dava-dərman.
*Əksmənalı sözlərin birləşməsi*: dərə-təpə, ağ-qara.
*Eyni sözün təkrarı*: axşam-axşam, acı-acı.
*Təklikdə mənası olmayan sözün iştirakı*: taxta-tuxta, xırda-mırda.
*-ba, -bə, -ha, -a hissəciklərinin iştirakı*: başabaş, günbəgün.

**İş dəftəri, səh. 51**

**c.** Verilmiş sözlərdən mürəkkəb sözlər düzəldib uyğun xanalara yaz.

Cavab: birvariantlı, bir-bir, gülbəniz, gül-çiçək, əlbir, əl-ayaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözlərin tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək onların düzgün yazılışını müəyyən edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 3-cü fəsil
# MƏBƏDLƏR

## 1-ci DƏRS
## Dini məbədlər

**<u>Təlim nəticələri</u>:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə.**

**Dərslik, səh. 90**

**a.** Hansı dinləri tanıyırsınız? Bu haqda bildiklərinizi danışın.

Şagirdlər, çox güman ki, müxtəlif mənbələrdən: həyat bilgisi fənnindən, oxuduqları kitablardan, baxdıqları bədii və sənədli filmlərdən bu mövzu ilə bağlı müəyyən məlumatlar almışlar. Müəllim yönəldici suallarla onları bildiklərini xatırlamağa sövq edə bilər. Şagirdlər tapşırıqda qoyulmuş sual ətrafında bildiklərini danışır və bu mövzu haqqında bilgilərini nümayiş etdirirlər.

**Mətnlə iş**

**Dərslik, səh. 90**

**b.** Mətni oxuyun və tapşırıqları yerinə yetirin.

Şagirdlər mətni səssiz oxuyur, əsas məlumatları müəyyən edirlər.

**Söz ehtiyatı**. Mətn oxunduqdan sonra ilk növbədə söz ehtiyatı üzərində iş aparılır. “Söz mücrüsü”ndəki və şagirdlərin mənasını anlamadıqları digər sözlər izah edilir.

**Dərslik, səh. 91**

**c.** “Söz mücrüsü”ndən izahlara uyğun sözü seçin.

<u>Cavab</u>: 1 – ikona; 2 – təbliğ etmək; 3 – məbəd.

**Dərslik, səh. 91**

**ç.** “Tolerant” sözünün izahını oxuyun. Mətnə istinad etməklə Azərbaycanın tolerant ölkə olduğunu əsaslandırın.

Tapşırıq söz ehtiyatının zənginləşdirilməsi ilə bərabər, münasibət bildirmə, əsaslandırma kimi bacarıqların da inkişafına imkan yaradır.

**Faktoloji qavrama**

**Dərslik, səh. 91**

**d.** Mətnə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən edin.

1 – doğru; 2 – doğru; 3 – yanlış; 4 – yanlış; 5 – doğru.

Şagirdlər fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyənləşdirməklə yanaşı, mətnə istinad edərək seçimlərini əsaslandırmalıdırlar.

**Dərslik, səh. 91**

**e.** Sizcə, səyahət edəcəyiniz ölkə və tanış olacağınız xalqın adət-ənənəsi haqqında nələri bilmək vacibdir? Variantlarınızı müzakirə edin. Fikirlərinizi əsaslandırın.

Şagirdlərə düşünmək üçün vaxt verilir. Onlar səyahət etmək istədikləri ölkənin adını dəftərlərində qeyd edirlər. Bu ölkəyə səyahət etmək istədiklərinin səbəbini yazırlar. Daha sonra hər kəs öz variantını təqdim edir.

**Dərslik, səh. 91**

**ə.** "Səksən gün dünya ətrafında" əsərindən epizodu dinləyin. Suallara cavab verin.

**Dinləmə**

***Səksən gün dünya ətrafında***

*Mister Foq xidmətçisi Paspartu ilə dünya səyahətinə çıxmışdı. Əvvəlcə Fransaya, oradan Misirə səfər etdilər. Oradan isə Hindistana, Bombey şəhərinə üz tutdular.*

*Bombey zəngin kitabxanaları, səs-küylü bazarları ilə məşhur idi. Paspartu Mister Foqdan icazə alıb şəhəri gəzməyə çıxdı. Gəzə-gəzə gəlib möhtəşəm bir paqodanın qarşısına çıxdı. O bilirdi ki, paqoda müqəddəs yerdir, yerli camaat burada ibadət edir. Paspartu məbədə daxil olmaq istədi. Elə ayağını içəri qoymuşdu ki, bir neçə adam onu tutub məbəddən çıxardı. Neçə cüt qəzəbli göz Paspartuya dikildi. Ətrafdakılar əl-qol ilə Paspartuya nə isə izah etməyə çalışırdılar.*

*Bir saat sonra Paspartu Mister Foqun qarşısında dayanıb başını aşağı salmışdı. Mister Foq cərimə ödəyərək Paspartunu polis şöbəsindən çıxarmışdı. O, üzünü Paspartuya tutub dedi:*

*– Paspartu, paqodaya ayaqqabı ilə daxil olmaq qadağandır. Yadında saxla, hər bir ölkədə yerli xalqın adət-ənənəsinə hörmətlə yanaşmaq lazımdır.*

Mətn dinlənildikdən sonra "ə" tapşırığının yerinə yetirilməsi şagirdlərin mətnin məzmununu nə dərəcədə qavradıqlarını üzə çıxara bilər.

Cavab: 1. Mister Foq və Paspartu Fransa, Misir və Hindistana səyahət etmişdilər. 2. Paspartu paqodanı ziyarət etmək istədi. 3. Çünki Paspartu paqodaya ayaqqabı ilə girmək istəmişdi.

**Dərslik, səh. 91**

**f.** Paspartunun üzləşdiyi xoşagəlməz vəziyyətin səbəbləri haqqında danışın.

Cavablar təxminən belə ola bilər:

Paspartu hindlilərin adət-ənənəsini yaxşı bilmirdi. O, paqodaya ayaqqabı ilə daxil olmağın xalqın adət-ənənəsinə uyğun olmadığını bilmirdi. Bu səbəbdən camaat onu qəzəblə müqəddəs məbədlərindən qovdu.

**İş dəftəri, səh. 52**

**a.** "Dini məbədlər" mətninə aid açar sözlərdən ibarət krosvordu həll et.

Tapşırıq şagirdlərin mövzuya aid söz ehtiyatlarını zənginləşdirir.

Cavab:

*Yuxarıdan aşağı*: 1 – paqoda; 2 – ibadətgah; 3 – Tövrat; 5 – kilsə.

*Soldan sağa*: 2 – İncil; 4 – ikona; 6 – Quran; 7 – məscid; 8 – tolerant; 9 – sinaqoq.

**İş dəftəri, səh. 52**

**b.** "Dini məbədlər" mətninə aid 5 sual yaz.

Cavab:

Şagirdlər oxuduqları mətnin məzmununa aid suallar tərtib etməklə mətnin məzmununu qavradıqlarını, mövzuya aid əsas məlumatları mənimsədiklərini nümayiş etdirirlər.

**Dərslik, səh. 91**

**g.** Aşağıdakı fikirlərlə tanış olun. Bu fikirlərdən hansı nəticəni çıxarmaq olar? Dinləmə mətninə əsasən cavabınızı əsaslandırın.

Tapşırıqda sillogizm təqdim olunub. Şagirdlər onlara təqdim olunmuş hökmlərə əsasən nəticə çıxarır, sillogizmi tamamlayırlar. Bu tapşırıq şagirdlərin ümumiləşdirmə, hadisələri əlaqələndirmə, nəticə çıxarma kimi vacib bacarıqlarını inkişaf etdirir.

Cavab:
I fikir: Paqoda buddizm məbədidir.
II fikir: Hindistanda çoxlu paqodalar inşa edilib.
Nəticə: Hindistanda yerli camaatın çoxu buddizm dininə sitayiş edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, e (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq c (dərslik); tapşırıq a (iş dəftəri) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq d (dərslik); tapşırıq b (iş dəftəri) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ə (dərslik) |
| Verilmiş fikri arqumentlə əsaslandırır. | Tapşırıq ç, f (dərslik) |
| Mətndəki informasiyaları müəyyənləşdirir. | Tapşırıq g (dərslik) |

## 2-ci DƏRS
## Atəşgah

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Söz tərkibindəki morfemlərin (-gah, -pərəst) semantikasından çıxış edərək sözün mənasını müəyyən edir (st. 4.1.3).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 92**

**a.** Sizcə, nə üçün Azərbaycanı “Odlar yurdu” adlandırırlar? Bu haqda bildiklərinizi danışın.

Şagirdlər bu mövzuda bildiklərini danışırlar.

**Mətn üzrə iş. Söz ehtiyatı** Şagirdlər “Atəşgah” mətnini səssiz oxuyur, mənasını anlamadıqları sözləri dəftərlərində qeyd edirlər.

“Söz mücrüsü”ndəki və mənası anlaşılmayan digər sözlər üzərində iş aparılır.

**Dərslik, səh. 92**

**b.** Şəkilçinin sözə qatdığı mənanı nəzərə alaraq sözlərin mənasını izah edin.

Şagirdlər söz tərkibindəki *-gah* və *-pərəst* morfemlərinin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edirlər.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərin diqqətini *-gah* və *-pərəst* şəkilçisinin sözə qatdığı semantikaya yönəltmək tövsiyə edilir. Bir neçə sözün nümunəsində şagirdlərdə söz tərkibindəki şəkilçilərin sözün semantik mənasındakı dəyişikliyi müəyyən etmək bacarığı formalaşdırılır.

**İş dəftəri, səh. 53**

**a.** Sözləri aid olduğu ümumi məna qrupu ilə uyğunlaşdır.

Tapşırıq söz ehtiyatının zənginləşdirilməsinə yönəlib.
Cavab: 1 – c; 2 – a; 3 – b.
Bu ümumi məna qruplarına aid iki əlavə söz yaz.

Din: islam, yəhudi.
Ruhani: keşiş, molla.
Məbəd: məscid, sinaqoq.

**Dərslik, səh. 92**

**c.** Mətnə istinad etməklə aşağıdakı fikri əsaslandırın.

Tapşırıq şagirdlərdə mətndəki əsas faktları seçmək, əlaqələndirmək, ümumiləşdirmək kimi bacarıqları inkişaf etdirir.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Orta əsrlərdə Bakıya səyahət edən hind tacirləri çox idi. Suraxanı ərazisində yerdən çıxan alovlar hind atəşpərəstləri cəlb edirdi və onlar davamlı olaraq buranı ziyarət edirdilər.

**İş dəftəri, səh. 53**

**b.** "Atəşgah" mətninə istinad etməklə cədvəli tamamla.

Şagirdlər "Atəşgah" mətninin məzmununa əsasən cədvəli tamamlayırlar. Mətndə əks olunan hadisələri bir-biri ilə əlaqələndirir, hadisələrin səbəb-nəticəsini müəyyən edirlər. Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır. Eyni zamanda təhliletmə bacarığını inkişaf etdirir.

Cavab:

- Azərbaycan "Odlar diyarı" adlanır, çünki ərazisi neft və qazla zəngindir. Bəzi yerlərdə təbii qaz üzə çıxaraq yanmağa başlayır.
- Azərbaycanda olan bir çox atəşgahlar dağıldı, çünki Azərbaycan əhalisi islamı qəbul etdi.
- Bakıya səfər edən atəşpərəstlər Suraxanı ərazisindəki alovları davamlı olaraq ziyarət edirdilər, nəticədə XVII-XIX əsrlərdə Suraxanıda böyük atəşpərəst məbədi inşa edildi.

**İş dəftəri, səh. 53**

**c.** "Atəşgah" mətninə aid 5 sual yaz.

Şagirdlər suallar tərtib etməklə mətnin məzmununu anladıqlarını, əsas faktları müəyyənləşdirdiklərini nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Söz tərkibindəki *-gah, -pərəst* morfeminin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir. | Tapşırıq b (dərslik)<br>Tapşırıq a (iş dəftəri) |
| Verilmiş fikri arqumentlə əsaslandırır. | Tapşırıq c (dərslik) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tapşırıq b (iş dəftəri) |
| Oxuduğu mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tapşırıq c (iş dəftəri) |

# 3-cü DƏRS
# Qafqaz səfəri

**Təlim nəticələri:**
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma.** Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə "Atəşgah" mətninə aid məlumatları xatırladır.

**Dərslik, səh. 93**

**a.** Aleksandr Dümanın "Qafqaz səfəri" əsərindən verilmiş hissəni oxuyun. Atəşgah haqqında öyrəndiyiniz yeni məlumatları qeyd edin.

**Müəllimin nəzərinə!** Bu tapşırığı BİBÖ cədvəli vasitəsilə yerinə yetirmək daha məqsədəuyğundur. Şagirdlər dəftərlərində üçsütunlu cədvəl çəkirlər. Birinci sütunda Atəşgah haqqında bildiklərini, ikinci sütunda isə daha nə öyrənmək istədiklərini qeyd edirlər.

**Mətn üzrə iş. Söz ehtiyatı**. Şagirdlər "Qafqaz səfəri" mətnini səssiz oxuyur, mənasını anlamadıqları sözləri dəftərlərində qeyd edirlər.

"Söz mücrüsü"ndəki və mənası anlaşılmayan digər sözlər üzərində iş aparılır.

**Dərslik, səh. 93**

**b.** "Verst" sözünün izahını oxuyun. Atəşgah məbədinin Bakıdan neçə kilometr aralı yerləşdiyini hesablayın.

Şagirdlər "Sözlərin izahı" rubrikasında verilmiş məlumata əsasən tapşırığı yerinə yetirirlər. Tapşırıq söz ehtiyatını zənginləşdirmək ilə yanaşı, oxuyub-qavrama bacarığını da inkişaf etdirir.

Cavab: Mətndə qeyd olunub ki, Atəşgah məbədi Bakıdan iyirmi altı verstlik məsafədə yerləşir. "Sözün izahı" rubrikasında qeyd edilir ki, bir verst 1,06 km məsafəyə bərabərdir. Deməli, 26x1,06=27,56 km.

**Dərslik, səh. 93**

**c.** "Qafqaz səfəri" mətnində Atəşgah haqqında hansı faktlar öz əksini tapıb? "Atəşgah" və "Qafqaz səfəri" mətnlərindən uyğun fikirləri qarşılaşdıraraq fikrinizi əsaslandırın.

Tapşırıq şagirdlərdə bədii və qeyri-bədii mətnlərin məzmun və struktur baxımından müqayisə etmə bacarığını formalaşdırır.

Cavab:

- "Atəşgah" mətnində Atəşgahın Bakı ərazisində yerləşdiyi haqqında məlumat var. "Qafqaz səfəri" mətnində də bu haqda məlumat verilir.
- Atəşgah" mətnində Atəşgahın məbəd olduğu bildirilir. "Qafqaz səfəri" mətnində də bu məbəd ətraflı təsvir edilmişdir.
- "Atəşgah" mətnində deyilir ki, bir çox səyyahlar, yazıçılar, rəssamlar burada olmuş, bu möcüzəni öz əsərlərində təsvir etmişlər. "Qafqaz səfəri" əsərinin müəllifi Aleksandr Dümadır. Fransız yazıçısı XIX əsrin ortalarında Azərbaycana səfər etmiş, bu səfəri zamanı Bakıda Atəşgahda olmuş, bu məbədi öz əsərində təsvir etmişdi.

**İş dəftəri, səh. 54**

**a.** Aşağıdakı fikirlər hansı mətnə aiddir? Uyğun cavab variantını seç.

Cavab:

- Mətn Atəşgah məbədi haqqında məlumat verir – C.
- Mətn I şəxsin dilindən yazılıb – B.
- Mətndə dəqiq və konkret faktlara daha çox yer ayrılıb – A.

- Mətn III şəxsin dilindən yazılıb – A.
- Mətndə bənzətmə və məcazi mənalı sözlərdən istifadə edilib – B.
- Müəllifin xatirələrinə əsasən yazılıb – B.

**İş dəftəri, səh. 54**

**b.** Aleksandr Dümanın "Qafqaz səfəri" əsərindən dərslikdə verilmiş parçaya əsasən aşağıdakı fikri əsaslandır.

Tapşırıq faktları, hadisələri əlaqələndirmək, müqayisə etmək bacarığının inkişafına yönəlib.
Cavab: Fransız yazıçısı Qafqaza səyahəti zamanı Bakıda da qonaq olmuş, atəşgahlara ziyarət etmişdi. Düma atəşgahı "Qafqaz səfəri" əsərində təsvir etmişdi.

Şagirdlər əsərdən həmin hissəyə istinad etməklə fikirlərini əsaslandıra bilərlər. Məsələn, Düma yazır ki, dördbucaqşəkilli düzənlikdə alovlar havaya yüksəlirdi. Alovların ortasında böyük dördkünc bina görünürdü. Bina da alovla işıqlandırılmışdı. Binanın ortasında əbədi alov yanırdı. Məbədin kahinləri burada tanrıya sitayiş edirdilər. Onlar bizim hər birimizə kiçik bir şəkər parçası verdilər. Biz də bunun əvəzində onlara bir rubl pul verdik.

**İş dəftəri, səh. 54**

**c.** Nə üçün fərqli fikirlərə, inanclara, adət-ənənələrə hörmətlə yanaşmaq vacibdir? Azərbaycanda yerləşən məbədlər haqqında aldığın məlumatlara əsasən fikrini əsaslandır.

Şagirdlər bu fəsildə oxuduqları mətnlərə əsasən bu tapşırığı asanlıqla yerinə yetirə bilərlər. "Səksən gün dünya ətrafında" mətnində Paspartunun rastlaşdığı xoşagəlməz hadisə məhz onun səyahət etdiyi ölkədə əhalinin adət-ənənəsini bilməməsi ilə əlaqədar idi. "Qafqaz səfəri" mətnində yazıçının atəşgah məbədini təsvir etdiyi hissəyə nəzər salaq. Çox güman ki, yazıçı kahinlərin ziyarətçilərə payladığı şəkər parçasının əvəzinə onlara xırda pul verməyin ənənə olduğunu əvvəlcədən bilirdi.

**Müəllimin nəzərinə!** Şagirdlər dərslikdə və iş dəftərində yerinə yetirdikləri tapşırıqlardan sonra atəşgah haqqında ətraflı məlumatlar alıblar. Şagirdlərin diqqəti dərsin əvvəlində dəftərlərində çəkdikləri BİBÖ cədvəlinə yönəldilir. Şagirdlər aldıqları məlumatlara əsasən cədvəlin üçüncü sütununu işləyirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas faktları seçir. | Tapşırıq a (dərslik) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Bədii və qeyri-bədii mətnlərin məzmun və struktur baxımından fərqini izah edir. | Tapşırıq c (dərslik); tapşırıq a (iş dəftəri) |
| Verilmiş fikri arqumentlə əsaslandırır. | Tapşırıq b, c (iş dəftəri) |

# 4-cü DƏRS
# Tarixi abidələr

**Təlim nəticələri:**
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).
- Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Müəllimin nəzərinə!** İnternetdən istifadə etmək üçün imkanları olan siniflərdə şagirdlərə araşdırma üçün linklər təqdim edilə bilər. İnternetdən istifadə üçün imkanı olmayan siniflərdə şagirdlər bu bölmədə oxuduqları və dinlədikləri mətnlərdən istifadə edə bilərlər.

**Dərslik, səh. 93**

**a.** Oxuduğunuz məlumatlara və əlavə biliklərinizə əsasən aşağıdakı mövzularda təqdimat hazırlayın.

Diferensial təlim. Bu tapşırığın qruplarla icra edilməsi məsləhət görülür. Müəllim müxtəlif dil səviyyələri olan şagirdləri bir qrupda qruplaşdırır. Daha sonra vəzifə bölgüsü aparır. Azərbaycan dilini zəif səviyyədə bilən şagirdlərə tərtibat işləri həvalə edilə bilər.

**Müəllimin nəzərinə!** Fəaliyyətə istiqamət vermək üçün şagirdlərə təqdimatın planı təqdim edilə bilər. Şagirdlər planla tanış olurlar. Planın müzakirəsindən sonra fəaliyyətə başlayırlar.

Müəllimin şagirdlərə payladığı plan nümunələri:

Azərbaycan qalaları haqqında təqdimatın planı.
- Qalanın adı, yerləşdiyi ərazi haqqında məlumat
- Qalanın adının izahı
- Qalanın tarixi
- Qalanın strukturu

Dünyanın məşhur körpüləri haqqında təqdimatın planı.
- Körpünün adı, yerləşdiyi yer
- Məşhur olduğu xüsusiyyəti (ən hündür, ən qədim, ən uzun və s.)
- Körpünün tarixi
- Strukturu, ölçüləri

Azərbaycanın tarixi məbədləri haqqında təqdimatın planı.
- Məbədin adı, yerləşdiyi ərazi haqqında məlumat
- Məbədin funksiyası

Qruplar bir-bir hazırladıqları təqdimatı nümayiş etdirirlər. Digər qrup üzvləri və müəllim aşağıdakı təqdimata münasibət bildirirlər.

| Meyar | Tam | Orta | Zəif |
|---|---|---|---|
| Yerləşdiyi ölkə və şəhər qeyd edilib. | | | |
| Tikilmə tarixi, memarı haqqında məlumat verilib. | | | |
| Quruluşu təsvir edilib. | | | |
| Ölçüləri haqqında məlumat var. | | | |
| Qısa və konkret cümlələrdən istifadə edilib. | | | |
| Fotoşəkillər var. | | | |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq a (dərslik) |

# 5-ci DƏRS
# Sözün leksik və qrammatik mənası

**<u>Təlim nəticələri</u>:**
• Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik mənasını izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 94**

**a.** Cümlədəki hər bir sözün sualını müəyyən edin. Hansı sözlər ayrılıqda heç bir suala cavab vermir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir. Şagirdlər aşağı siniflərdə sözün leksik və qrammatik mənası haqqında məlumat alıblar. Müəllimin yönəldici sualları bu bilgiləri xatırlamağa və tapşırığı yerinə yetrməyə yardımçı ola bilər:

– Hansı söz heç bir suala cavab vermir?
– “Məlahət” və “Cəmilə” sözləri hansı suala cavab verir?
– Bəs “və” sözü suala cavab verirmi?

<u>Cavab</u>: və, deyəsən.

**Dərslik, səh. 94**

**b.** İzahlara uyğun sözü müəyyən edin.

Tapşırıq şagirdlərin diqqətini sözün leksik mənası anlayışına yönəldir.

<u>Cavab</u>:
1 – eksponat; 2 – cəsur; 3 – acılamaq; 4 – heyrətlə.

**Dərslik, səh. 94**

**c.** Sözləri qrammatik mənaları ilə uyğunlaşdırın.

<u>Cavab</u>:
1 – c; 2 – a; 3 – ç; 4 – d; 5 – b.

Müəllim “Bunları bilməliyik” rubrikasında verilmiş məlumatları şərh edir. Əsas və köməkçi nitq hissələrinə aid olan sözlərin fərqini nümunələrlə izah edir.

**Dərslik, səh. 94**

**ç.** Cümlələrdəki köməkçi nitq hissələrini müəyyən edin. Qaydalara istinad edərək fikrinizi əsaslandırın.

<u>Cavab</u>:
1 – axı, də; 2 – kimi, amma; 3 – ura, ilə.

*Əsaslandırma*: Çünki bu sözlər heç bir suala cavab vermir.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin sözün leksik və qrammatik mənası, əsas və köməkçi nitq hissələrinə aid aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlmişdir.

**İş dəftəri, səh. 55**

**a.** Verilmiş sözlərin mənalarını yaz.

Cavab:

***Məscid***

Leksik mənası: müsəlmanların ibadət evi.

Qrammatik mənası: varlığın adını bildirir, *hara?* sualına cavab verir.

***Amma***

Leksik mənası: leksik mənası yoxdur.

Qrammatik mənası: cümlələri, habelə cümlə üzvlərini (əsasən, həmcins üzvləri) birləşdirərək qarşılıq bildirir.

**İş dəftəri, səh. 55**

**b.** Yalnız qrammatik mənası olan sözləri seçib cümlədə işlət.

Cavab: amma, ki, ura, axı.

Şagirdlər müxtəlif məzmunlu cümlələr yaza bilərlər.

**İş dəftəri, səh. 55**

**c.** Əsas nitq hissələrini cədvəl üzrə qruplaşdır. Hər sütuna bir söz əlavə et.

Cavab: ikidə bir – say; həvəslə – zərf; alov – isim; qürurlu – sifət; kim – əvəzlik; soruşmaq – feil.

**İş dəftəri, səh. 55**

**ç.** Nöqtələrin yerinə uyğun köməkçi nitq hissələri yaz.

Cavab: 1 – və; 2 – amma, ancaq, lakin; 3 – təəssüf; 4 – qədər, kimi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin leksik və qrammatik mənasını fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# Ümumiləşdirici təkrar

**<u>Təlim nəticələri</u>:**

• Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

• Sözlərin bitişik, ayrı və defislə yazılış qaydalarına riayət edir (st. 4.1.2).

Dərslikdə verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 95**

**1.** Sözlərə leksik şəkilçilər əlavə edib yeni sözlər düzəldin.

<u>Cavab</u>: gənclik, qoruq, utancaq, güldan, başçı, qırıcı, zəhmətkeş, çürük, evdar.

**Dərslik, səh. 95**

**2.** Sözlərin quruluşca növünə görə ardıcıllığı davam etdirin.

<u>Cavab</u>:
*Düzəltmə sözlər*: kölgəlik, məsləhətçi, yanğın, işlə(mək), güləyən, səssiz, döyüşçü.
*Sadə sözlər*: saat, işğal, günah, qəhrəman, əmək, quru.
*Mürəkkəb sözlər*: uzaqgörən, qohum-qardaş, get-gəl, ağacdələn, ev-eşik, əlüzyuyan, baxa-baxa.

**Dərslik, səh. 95**

**3.** Mürəkkəb sözlər düzəldin. Onlar bitişik, yoxsa defislə yazılmalıdır? Fikrinizi əsaslandırın.

<u>Cavab</u>:

1. *Gözmuncuğu, ağbəniz, şirindil* bitişik yazılan mürəkkəb sözlərdir, çünki müxtəlif mənalı sözlərdən yaranıb.

2. *Göz-qaş, ağ-qara, şirin-şirin* defislə yazılır, çünki yaxınmənalı, əksmənalı və eyni sözün təkrarı ilə yaranıb.

**Dərslik, səh. 95**

**4.** Verilmiş sözlərə uyğun sözlər artırmaqla mürəkkəb sözlər düzəldib yazın.

<u>Cavab</u>:
• Əksmənalı sözlərin iştirakı ilə: *az, səhər, yuxarı, yaxın.*
*Az-çox, səhər-axşam, yuxarı-aşağı, yaxın-uzaq.*
• Eyni sözün təkrarı ilə: *tez, qaça, gəl, gün.*
*Tez-tez, qaça-qaça, gəlhagəl, günbəgün.*
• Biri təklikdə işlənə bilməyən sözün iştirakı ilə: *çöp, əyri, kağız, meyvə.*
*Çör-çöp, əyri-üyrü, kağız-kuğuz, mer-meyvə.*
• Yaxınmənalı sözlərin iştirakı ilə: *söz, adət, dəftər, gözəl.*
*Söz-söhbət, adət-ənənə, dəftər-kitab, gözəl-göyçək.*
• Müxtəlifmənalı sözlərin iştirakı ilə: *toz, sülh, qırx, gün.*
*Tozsoran, sülhsevər, qırxayaq, günorta.*

**Dərslik, səh. 95**

**5.** Nöqtələrin yerinə *-a, -ha, -ba, -bə* hissəciklərindən uyğun gələni yazmaqla mürəkkəb sözlər düzəldin. Bu sözlərin iştirakı ilə cümlə qurun.

<u>Cavab</u>: cürbəcür, vurhavur, gəlhagəl, basabas, ilbəil, taybatay.

**Dərslik, səh. 95**

**6.** Cümlələrdəki sözləri cədvəl üzrə qruplaşdırın.

<u>Cavab</u>:
*Həm leksik, həm də qrammatik mənası olan sözlər*: sən, mən, düşünmək, rəngli, boya, çəkmək.
*Yalnız qrammatik mənası olan sözlər*: deyəsən, də, kimi, bəs, ilə.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas nitq hissələrinin morfoloji tərkibini müəyyən edir. | Tapşırıq 1, 2 (dərslik) |
| Mürəkkəb sözlərin tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək onların düzgün yazılışını müəyyən edir. | Tapşırıq 3, 4, 5 (dərslik) |
| Sözlərin leksik və qrammatik mənasını fərqləndirir. | Tapşırıq 6 (dərslik) |

# Kiçik summativ qiymətləndirmə

İş dəftərinin 56-57-ci səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq 1, 2 (iş dəftəri) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumatı müəyyənləşdirir. | Tapşırıq 3 (iş dəftəri) |
| Eyni mövzuda olan qeyri-bədii mətnləri müəllif məqsədi və yanaşması baxımından müqayisə edir. | Tapşırıq 4 (iş dəftəri) |
| Əsas nitq hissələrinin morfoloji tərkibini müəyyən edir. | Tapşırıq 5, 6, 8 (iş dəftəri) |
| Mürəkkəb sözlərin tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək onların düzgün yazılışını müəyyən edir. | Tapşırıq 7 (iş dəftəri) |
| Sözlərin leksik və qrammatik mənasını fərqləndirir. | Tapşırıq 9, 10 (iş dəftəri) |

Bölmə **5** 

# SÜNİ İNTELLEKT VƏ ROBOTLAR

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Süni intellekt** | | | | | |
| 1 | İnsanın ağıllı köməkçiləri | Oxu | 98-99 | 58 | 130 |
| 2 | İnsanın ağıllı köməkçiləri | Oxu | 100 | – | 131 |
| 3 | Çatbot | Oxu | 101 | 59 | 132 |
| 4 | İsim. Toplu isimlər | Yazı (dil qaydaları) | 102 | 60 | 134 |
| 2-ci fəsil. **Robot texnikası** | | | | | |
| 5 | Robotlar | Danışma. Oxu | 103-106 | 61 | 136 |
| 6 | Robotlar | Danışma | 107 | – | 138 |
| 7 | Müasir dronlar | Dinləmə | 108 | 62 | 139 |
| 8 | İsmin hal şəkilçiləri | Yazı (dil qaydaları) | 109 | 63 | 141 |
| 3-cü fəsil. **Süni intellektlə gələcəyə doğru** | | | | | |
| 9 | Gələcəkdə süni intellekt | Oxu | 110-112 | 64 | 143 |
| 10 | Gələcəyin robotları: təhlükə varmı? | Oxu. Danışma | 113-114 | 65 | 145 |
| 11 | Uzaq planetin sirri | Dinləmə | 115 | 66 | 146 |
| 12 | Süni intellekt və gələcəyimiz | Yazı | 115 | – | 149 |
| 13 | İsmin mənsubiyyətə görə dəyişməsi | Yazı (dil qaydaları) | 116 | 67 | 150 |
| 14 | Ümumiləşdirici təkrar | | 117 | 68-69 | 152 |

# GİRİŞ DƏRSİ

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).

**Mövzuya yönəltmə. Danışma**

Fəndaxili inteqrasiya. Motivasiya yaratmaq üçün dərslikdəki şəkillərə müraciət edilə bilər. Həyat bilgisi fənnindən təbii və süni varlıqlarla bağlı məlumatlar xatırladılır. Müəllim mövzu ilə bağlı belə suallar verə bilər: 1-ci şəkildə hansı canlılar təsvir olunub? 2-ci şəkildə hansı əşyaları görürsünüz? Niyə 1-ci şəkildəkilər təbii, 2-ci şəkildəkilər süni hesab olunur? Şəkillər əsasında təbiət və heyvanlar aləmi, insan əli ilə yaradılan predmetlər arasında müqayisə aparılır və onların fərqləri müəyyənləşdirilir.

**Dərslik, səh. 96**

**a.** Şəkillərə əsasən "təbii" və "süni" sözlərini izah edin.

Məqsəd şagirdləri həyatda gördükləri canlı varlıqlar, müxtəlif əşyalar haqqında danışdırmaqla bölmənin mövzusuna maraq oyatmaqdır. Şagirdlər şəkillərə aid söz və ifadələri müəyyənləşdirərir, sonra şəkillər üzrə danışırlar. Bu vaxt onların fikirlərini əsaslandırmalarına diqqət yetirilməlidir.

**Dərslik, səh. 96**

**b.** Şəkillərə əsasən ipək parçanın alınma texnologiyasını izah edin. Aşağıdakı şəkillərdə hansı varlıqlar təbii, hansılar sünidir?

Şagirdləri danışma fəaliyyətinə həvəsləndirmək üçün yönəldici suallar verilir: – Hansı parça növlərini bilirsiniz? (İpək, yun, çit); – Parçalar nədən toxunur? (Sapdan). Şagirdlər tapşırıqdakı şəkillərə əsasən sualları belə cavablandırıra bilərlər: İpəkqurdu tut yarpağı ilə qidalanaraq barama hörür. Baramadan sap alınır. Sapdan ipək parça toxunur. İpəkqurdu və tut yarpağı təbiidir. Sap və parça sünidir.

**Dərslik, səh. 96**

**c.** Şəkillərə əsasən "intellekt" sözünü izah edin.

Şagirdlər "intellekt" anlayışını izah edən şəkilləri analiz edirlər. Müəyyənləşdirirlər ki, intellektin ilkin səviyyəsi oxuyub öyrənmək və anlamaq, daha sonra düşünmək və təhlil etmək, ən yüksək səviyyəsi isə tətbiq etməkdir.

**Dərslik, səh. 96**

**ç.** İndi isə kitabı tərsinə tutun və öz izahlarınızı aşağıdakı izahlarla müqayisə edin.

Tapşırıq oxuyub qavrama bacarıqlarını inkişaf etdirməyə imkan yaradır.

**Dərslik, səh. 97**

**d.** Cırcırama və dron haqqında verilmiş məlumatlara görə aşağıdakı sxemi şərh edin.

Bu sxem əsasında şagirdlərin qrafik informasiyanı şərh etmək bacarığı yoxlanılır.

Cavab: *Oxşar xüsusiyyətləri:* 1. Qanadları var, uça bilir. 5. Görmə qabiliyyətinə malikdir.

*Fərqli xüsusiyyətləri*:

***Cırcırama***
2. İstədiyi yerə uça bilir.
3. Canlıdır.

***Dron***
4. Hərəkəti pultla idarə olunur.
6. Texniki qurğudur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
| --- | --- |
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Dərslikdə təqdim edilmiş tapşırıqlar |

# 1-ci fəsil
# SÜNİ İNTELLEKT

## 1-ci DƏRS
## İnsanın ağıllı köməkçiləri

**Təlim nəticələri:**
- Sualı cavablandırarkən fikrini əsaslandırır (st. 2.2.3).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim şagirdləri mövzuya yönəltmək üçün belə suallar verə bilər:
– Ev işlərini görən hansı əşyaları tanıyırsınız?
– Həmin əşyalar insana necə kömək edir?

**Danışma**

**Dərslik, səh. 98**

**a.** Keçən dərsdə siz “süni” və “intellekt” sözlərinin mənalarını müəyyən etdiniz. Bəs, sizcə, “süni intellekt” dedikdə nə nəzərdə tutulur?
Süni intellekt haqqında:
- nə bilirsiniz?
- daha nələri bilmək istəyərdiniz?

Şagirdlər süni intellekt haqda eşitdiklərini, bildiklərini danışırlar. Daha sonra müəllim onlardan bu mövzu ilə bağlı hansı məlumatları öyrənmək istədiklərini soruşur.

**Dərslik, səh. 98**

**b.** Mətni oxuyun və yeni öyrəndiklərinizi qeyd edin.

Şagirdlər qeydlər aparmaqla mətni oxuyurlar.

**Oxu. Söz ehtiyatı**

**Dərslik, səh. 98**

**Mətnlə iş. Ziqzaq oxu.** “İnsanın ağıllı köməkçiləri” mətni üçün ziqzaq oxu üsulunu tətbiq etmək tövsiyə olunur. Müəllim mətni hissələrə bölüb nömrələyir. Şagirdlər qruplara bölünür, qruplar nömrələrlə işarələnir. Nömrələrlə işarələnmiş şagirdlər mətnin müvafiq hissəsini oxuyurlar. Müəllim şagirdlərin nitqinə diqqət edir, onlara məsləhətlər verir. O, şagirdlərin diqqətini haşiyədə verilmiş “IQ” və “süni intellekt” terminlərinin izahına cəlb edir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 99**

**c.** Nöqtələrin yerinə “Söz mücrüsü”ndən uyğun gələn sözləri yazmaqla cümlələri köçürün.

Cavab: 1. Kompüterə əlavə qurğular *quraşdırmaq* lazımdır.
2. Ay Yerin təbii *peykidir*.
3. *Şüurlu* oxu mətnin başa düşülməsinə kömək edir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 99**

**ç.** Süni intellekt haqqında bildiyiniz və yeni öyrəndiyiniz məlumatları aşağıdakı cədvəldə qeyd edin.

Bu tapşırıqda şagirdlərə cədvəl təqdim olunur. Şagirdlər süni intellekt haqqında məlumatları cədvələ köçürürlər. Onların cavabları təxminən belə ola bilər:

*Bilirdim – robotlarda süni intellekt olur.*
*Bilmək istəyirdim – süni intellekt necə işləyir?*
*Öyrəndim – süni intellekt hansı işləri görür?*

**Dərslik, səh. 99**

**d.** Mətndə hansı məlumatlar haşiyədə verilib? Sizcə, bunun səbəbi nədir?

Cavab: Haşiyədə "IQ" və "süni intellekt" terminləri barədə informasiya təqdim edilir. Bu informasiya mətndə verilənləri daha yaxşı qavramaq üçün verilir.

"Yadda saxla" rubrikasında şagirdlər haşiyə haqda məlumatla tanış olurlar.

**Yazı**

**İş dəftəri, səh. 58**

**a.** "İnsanın ağıllı köməkçiləri" mətninə əsasən yaddaş xəritəsini tamamla.

Bu tapşırıqda yaddaş xəritəsinin strukturu üzərində iş aparılır. Burada şagirdlər mətnlə bağlı qeydlərin müxtəlif başlıqlar altında qruplaşmasını görürlər. Bu cür qruplaşma mövzuya aid məlumatları ardıcıllıqla təqdim etməyə imkan verir. Tapşırığı yerinə yetirməklə şagirdlər yaddaş xəritəsini tərtib etmək bacarıqlarını nümayiş etdirirlər. Bu tapşırıq qazanılmış biliklərin möhkəmləndirilməsində, faktları qruplaşdırmaq bacarığının inkişafında əhəmiyyətlidir.

Cavab:

IQ – intellektin səviyyəsidir; xüsusi testlər vasitəsilə təyin edilir.

Süni intellekt – 1956; Con Makkarti; maşının insan kimi şüurlu hərəkətlər etmək və yaradıcı işləri yerinə yetirmək bacarığıdır.

**İş dəftəri, səh. 58**

**b.** Verilmiş nümunə əsasında aşağıdakı sxemlərə uyğun cümlələr qur.

Şagirdlər sxemlər əsasında cümlə qurmaq bacarıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sualı cavablandırarkən fikrini əsaslandırır. | Tapşırıq a (dərslik) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c (dərslik) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq ç (dərslik) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq d (dərslik) |

# 2-ci DƏRS
# İnsanın ağıllı köməkçiləri

**Təlim nəticələri:**
- Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir (st. 2.1.2).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərə aşağıdakı sualları verə bilər:
– Evdə ən çox hansı əşyaları işlədirik?
– Süni intellektə malik hansı əşyadan daha çox istifadə edirik?

**Danışma**

**Dərslik, səh. 100**

**a.** Aşağıdakı şəkilləri mətnin hansı abzasına əlavə edərdiniz? Şəkilləri şərh etməklə mətnin müvafiq hissəsini genişləndirib nəql edin.

Şagirdlər "İnsanın ağıllı köməkçiləri" mətnini bir də nəzərdən keçirib verilmiş şəkillər üçün uyğun hissəni müəyyənləşdirirlər. Həmin şəkilləri "Nəhayət, XX əsrdə ..." sözləri ilə başlayan abzasa əlavə etmək olar. Şagirdlər şəkilləri şərh edərək deyə bilərlər ki, vaxtilə adi tozsoranın ixtirası insanların işini çox yüngülləşdirmişdi. Amma müasir "ağıllı" tozsoranlar komanda əsasında işləyir, insanın əvəzinə hər işi görür, daha insanlar ev təmizliyinə vaxt sərf etmirlər.

Tapşırıq şagirdlərin yaradıcılıq və şifahi nitq bacarıqlarını inkişaf etdirir. Tapşırığın tələbinə əsasən şagirdlər bildikləri məlumatlardan istifadə etməklə mətni genişləndirib nəql etməlidirlər.

**Dərslik, səh. 100**

**b.** Aşağıdakı məlumatlara və əlavə biliklərinizə əsasən smart telefonun adi telefondan fərqini söyləyin. Bu telefonun süni intellekt imkanlarına malik olduğunu əsaslandırın.

Şagirdlər həyatımızda mühüm yer tutan telefon barədə öz fikirlərini bildirirlər. Onlar adi telefonun yalnız zəng etmək və zəngi qəbul etmək funksiyası daşıdığını qeyd edərək smart telefonun bir çox funksiyalar yerinə yetirdiyini, bəzən başqa əşyaları əvəz etdiyini (məsələn, televizor, radio, kalkulyator və s.) söyləyirlər. Smart telefonun yerinə yetirdiyi funksiyalara əsasən onun süni intellekt imkanlarına malik olduğunu demək olar. Tapşırıq təhliletmə, şifahi nitq bacarıqlarının inkişafına xidmət edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a (dərslik) |
| Əşya və hadisələrə öz münasibətini bildirir. | Tapşırıq b (dərslik) |

# 3-cü DƏRS
# Çatbot

**Təlim nəticələri:**

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
• Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir (st. 3.1.4).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini illüstrasiyaya yönəldir və soruşur:
– Sizcə, kompüterlə danışmaq mümkündürmü?

**Danışma. Oxu**

**Dərslik, səh. 101**

**a.** Mətnə çəkilmiş illüstrasiyaya diqqət edin. Sizcə, oğlan kimə müraciət edir? Onun sualına cavab verən kimdir?

Fəndaxili inteqrasiya. Şagirdlər bu dərsdə informatika fənnindən öyrəndiklərini tətbiq edə bilərlər. Mətnin oxusuna keçməzdən əvvəl şagirdlərin diqqəti mətnin adına yönəldilir: Mətn niyə belə adlanır? Çatbot haqda məlumatınız varmı? Müəllim şagirdlərin diqqətini illüstrasiyaya yönəldərək şagirdlərin hadisələri təxmin etməsinə kömək edə bilər. Sonra isə şagirdlər mətni səsli oxuyurlar.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 101**

**b.** Çatbotun süni intellekt proqramı olduğunu əsaslandırın.

Şagirdlər əldə etdikləri məlumatlar əsasında çatbotun süni intellekt proqramı olduğunu, onun vasitəsilə müxtəlif məlumatlar almağın mümkünlüyünü qeyd edirlər.

**Dərslik, səh. 101**

**c.** Çatbot istifadəçinin suallarına cavab vermək üçün məlumatları haradan alır?

Cavab: İnternet şəbəkəsindən.

**Dərslik, səh. 101**

**ç.** Sizcə, çatbot aşağıdakı suallardan hansına cavab verməkdə çətinlik çəkəcək? Cavabınızı əsaslandırın.

Cavab**:** c. Bizim məktəbdə neçə uşaq oxuyur? Əlbəttə, çatbot bu suala cavab verə bilməyəcək. Çünki sualda məktəb haqqında heç bir informasiya verilməyib.

**Dərslik, səh. 101**

**d.** İnformatika müəlliminizin köməyi ilə hər hansı çatbotla ünsiyyət qurun. Əvvəlcədən suallarınızı hazırlayın. Çatbotun cavablarını qeyd edin. Çatbotla söhbətiniz haqqında təqdimat hazırlayın.

Bu tapşırıq danışma və yazı məzmun xətlərinin inteqrasiyasıdır. Məqsəd şagirdlərdə informasiyanı qruplaşdırmaq, verbal və qeyri-verbal şəkildə təqdim etmək bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Əvvəlcə şagirdlər çatbotla ünsiyyət qurmaq üçün almaq istədikləri məlumatları qeyd edirlər və suallar hazırlayırlar. İnformatika müəlliminin köməyi ilə şagirdlər toplanmış məlumatlardan istifadə edərək təqdimat hazırlayırlar. Təqdimat zamanı şagirdlərin cümlələri düzgün qurmalarına və fikirlərini rabitəli şəkildə ötürmələrinə diqqət yetirmək tövsiyə edilir.

**Yazı**

**İş dəftəri, səh. 59**

**a.** İllüstrasiyadan çıxış edərək çatbot haqda suala cavab yaz.

Cavab təxminən belə ola bilər: Çatbot məlumatları sürətlə tapır, ötürür, hər zaman cavab verməyə hazırdır. Əlbəttə, istədiyin məlumatı kitablardan, ensiklopediyalardan da əldə etmək olar. Amma lazım olan kitabı tapmaq bəzən çətin olur. Həm də çatbotda bütün məlumatlar bir mənbədə toplanır.

**İş dəftəri, səh. 59**

**b.** Krosvordu tamamla.

Tapşırıq şagirdlərin mövzu ilə bağlı öyrəndikləri və bildikləri söz ehtiyatını yoxlamağa imkan yaradır. Şagirdlər krosvordu həll etməklə sahib olduqları söz ehtiyatını, öyrəndikləri yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

Cavab:
*Yuxarıdan aşağı*: 1 – çatbot; 2 – intellekt; 5 – süni.
*Soldan sağa*: 3 – təbii; 4 – kompüter; 6 – internet.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a (dərslik) |
| Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir. | Tapşırıq b, c, ç (dərslik) |

| | |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq d (dərslik) |
| Verilmiş şəklə uyğun söz və cümlələr yazır. | Tapşırıq a (iş dəftəri) |

# 4-cü DƏRS
# İsim. Toplu isimlər

**Təlim nəticələri:**
• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.3).
• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə.** Müəllim lövhədə *kim? nə? hara?* suallarını yazır. Şagirdlər hər suala cavab olan sözlər deyirlər. Müəllim bu sözlərin hansı anlayışa (ad, əlamət, say, hərəkət) aid olduğunu soruşur.

**Dərslik, səh. 102**

**a.** Hansı sözlər varlığın adını bildirir?

Tapşırıqlar şagirdlərin varlığın adını bildirən sözlər haqqında aşağı siniflərdə aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib.

Cavab: sinif, cücə, karandaş, meşə, fikir, Aysel, müəllim, Şuşa.

Müəllim "Bunları bilməliyik" rubrikasında isim haqqında məlumatları şərh edir. Şagirdlər aşağı siniflərdə ad bildirən sözlərlə tanış olmuşlar. Müəllim heyvan, quş və cansız varlıqların adını bildirən sözlərin *nə?* sualına cavab verdiyini şagirdlərin nəzərinə çatdırır.

**Dərslik, səh. 102**

**b.** Verilmiş sözləri insan, heyvan, bitki, yer anlayışı bildirən isimlər kimi qruplaşdırın.

Şagirdlər isim haqqında verilmiş cədvəli tamamlayırlar. Tapşırıqda verilmiş sözləri cədvəlin uyğun sütunlarına qeyd edirlər.

**İş dəftəri, səh. 60**

**a.** Verilmiş isimlərin qarşısında uyğun sualı yaz.

Cavab:
zabit, mühəndis, xala – *kim?*
göyərçin, radio, timsah – *nə?*
həyət, Ağdam, yeməkxana – *hara?*

**Dərslik, səh. 102**

**c.** Fərqləndirilmiş isimlərin düzgün yazılışını müəyyənləşdirərək cümlələri köçürün.

Şagirdlər artıq müəyyən şəkilçilərlə tanışdırlar. İndi isə deyilişi və yazılışı fərqlənən *-lar, -lər* şəkilçisinin düzgün yazılış qaydasını müəyyən edirlər. Müəllim qaydaları şərh edir. Şagirdlər verilmiş sözləri kök və şəkilçiyə ayırır, sonra səhv yazılmış şəkilçiləri tapırlar.

Cavab: 1 – günlər; 2 – qarpızlar; 3 – dəftərlər.

**İş dəftəri, səh. 60**

**b.** Cəmdə işlənən hansı isimlərin deyilişi ilə yazılışı fərqlənir?

Cavab: çəmənlər, bazarlar, gözlər, insanlar, quşlar, qatarlar.

**Dərslik, səh. 102**

**ç.** Cümlələri oxuyun. Nə üçün fərqləndirilmiş sözlər bəzən kiçik, bəzən də böyük hərflə yazılır?

Şagirdlərin aşağı siniflərdə şəxs və yer adları, heyvanlara verilən adlar haqqında aldıqları məlumat xatırladılır. Şagirdlər şəxs adlarının necə yaranması ilə bağlı fikirlərini bildirirlər. Xüsusi isimlərin (əsasən, şəxs adlarının) bəzən ümumi isimlərdən, bəzən isə sifətlərdən yarandığı diqqətə çatdırılır. Şagirdlər tapşırığı yerinə yetirməklə ümumi və xüsusi isimləri fərqləndirmək və düzgün yazmaq bacarıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 60**

**c.** Xüsusi isimləri seçib düzgün yaz.

Tapşırıq ümumi və xüsusi isimlər haqqında biliyin möhkəmləndirilməsinə yönəlib.
Cavab: Göygöl, Məstan, Kür, Şəki, Fəridə, Kəpəz.

**İş dəftəri, səh. 60**

**ç.** Fərqləndirilmiş sözləri cümlələrdə elə işlət ki, həmin sözlər kiçik hərflə yazılsın.

Şagirdlər xüsusi isim kimi işlənmiş “Əsgər”, “Qərənfil”, “Xatirə” sözlərini cümlədə ümumi isim kimi işlədirlər. Onlar ümumi və xüsusi isimlər haqqında bilikləri necə qavradıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 102**

“Bunları bilməliyik” rubrikasında şagirdlərin diqqətinə çatdırılır ki, isimlər cəm şəkilçisi qəbul etmədən də çoxluq ifadə edə bilir. Qeyd edilir ki, mübtədası toplu isimlə ifadə olunan cümlələrin xəbəri təkdə işlənir.

**d.** Nöqtələrin yerinə uyğun gələn sözü seçin. Hansı cümlədə səhvə yol verilib?

Cavab:
a. Yerli *əhali* qonaqları mehriban qarşıladı.
b. *Sürü* yaylağa qalxdı.
c. Sabahdan *ordu* təlimlərə başlayacaqlar.
3-cü cümlədə xəbər təkdə olmalıdır.

**İş dəftəri, səh. 60**

**d.** Fərqləndirilmiş sözlərdən biri səhv yazılıb. Səhvi düzəlt və cavabını əsaslandır.

Cavab: 2-ci cümlədə xəbər təkdə olmalıdır. Çünki “xalq” sözü toplu isimdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Tapşırıq a, b (dərslik); tapşırıq a (iş dəftəri) |
| Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır. | Tapşırıq c (dərslik); tapşırıq b (iş dəftəri) |
| Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir. | Tapşırıq ç (dərslik); tapşırıq c, ç (iş dəftəri) |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tapşırıq d (dərslik); tapşırıq d (iş dəftəri) |

# 2-ci fəsil
# ROBOT TEXNİKASI

## 1-ci DƏRS
## Robotlar

**<u>Təlim nəticələri</u>:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir (st. 3.1.3).
- Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.5).

**Mövzuya yönəltmə. Danışma.** Müəllim şagirdləri mövzuya yönəltmək üçün 1-ci fəsildə süni intellekt barədə məlumatları xatırladır. O, süni intellektə malik cihazlar, məişət əşyaları, habelə robotlar barədə suallar verə bilər.

**Dərslik, səh. 103**

**a.** Nağıllarda və fantastik əsərlərdə tanış olduğunuz hansı sehrli varlıqlar bu gün gerçəkliyə çevrilib? Bəs hansılar hələ nağıl olaraq qalır? Sizcə, onlar da yaxın gələcəkdə həqiqət ola bilərmi?

Bu suallara cavab vermək üçün şagirdlər oxuduqları nağılları, baxdıqları fantastik filmləri xatırlayırlar. Bildikləri sehrli, fantastik qüvvələr, varlıqlar barədə fikirlərini bölüşürlər. Müəllim şagirdlərə elmi-fantastik əsərlərin nağıl və əfsanələrdən fərqini də izah edə bilər.

**İş dəftəri, səh. 61**

**a.** Şəkillərdəki hansı vasitələr, epizodlar və sehrli varlıqlar həqiqətə çevrilib? Uyğunluğu müəyyən et və cavabını əsaslandır.

Bu tapşırıq dərslikdəki “a” tapşırığının davamı kimi yerinə yetirilə bilər.

<u>Cavab</u>: 1 – c; 2 – a; 3 – b.

Şagirdlər cavablarını təxminən belə əsaslandıra bilərlər:

Keçmişdə məlumatları, məktubları bir yerdən başqa yerə çatdırmaq üçün poçt göyərçinlərindən istifadə olunurdu. Buna çox vaxt sərf edilirdi. İndi isə internetlə elektron məktublar göndərilir və tez bir zamanda ünvana çatdırılır.

“Əlibaba və 40 quldur” nağılında quldurların başçısı sehrli sözlər dedikdən sonra gizləndikləri mağaraya yol açılır. İndi ağıllı ev texnikası ilə evdəki əşyaları uzaqdan idarə etmək olur.

“Sehrli xalat” filmində gələcəyin uşaqları kitabın səhifəsinə əllə toxunduqda orada yazılar görünür. Bu, smart telefonları və planşetləri xatırladır.

**Oxu**

**Dərslik, səh. 103**

**b. Qruplarla iş**. Mətnin hissələrini oxuyun və açar sözləri qeyd edin.
- Mətnin məzmununa dair üç sual hazırlayın.
- Qeydləriniz əsasında mətni nəql edin.
- Suallarınızı dinləyicilərə ünvanlayın və cavablara reaksiya verin.

<u>Növbəli oxu</u>. Müəllim şagirdləri qruplara ayırır. Şagirdlərə tapşırılır ki, mətnin əsas ideyasını əks etdirən məqamları qeyd etsinlər və açar sözləri çıxarsınlar. Bundan başqa, onlar mətnin məzmunu ilə bağlı üç sual hazırlayıb dinləyicilərə ünvanlayırlar. Şagirdlər verilən cavablara reaksiya verməyi bacarmalıdırlar.

*Açar sözlər təxminən bunlar ola bilər*: Çapekin əsəri, robot Erik, humanoid robot, robotların xüsusiyyətləri.

*Suallar*: 1. Çapek "süni insan"ları niyə robot adlandırmışdı? 2. Humanoid robot nədir? 3. Eriklə Sofiya arasında hansı fərqlər var?

**Dərslik, səh. 104**

**c.** Albert Eynşteynin epiqrafda verilmiş fikrini mətnin məzmunu ilə əlaqələndirin. Sizcə, Çapekin əsəri faktlar, yoxsa təxəyyül əsasında yazılmışdır?

Cavab: Çapekin əsəri təxəyyül əsasında yazılmışdır.

Müəllim "Yadda saxla" rubrikasında epiqraf və reportaj haqda verilən izahları şagirdlərin diqqətinə çatdırır.

**Dərslik, səh. 104**

**ç.** Nə üçün aparıcı Erikə yalnız sadə suallar verilməsini xahiş etdi?

Cavab: Çünki Erik ilk robot idi, çətin suallara cavab verə bilməzdi.

**İş dəftəri, səh. 61**

**b.** Mətnə istinad edərək aşağıdakı fikirlərin doğru (D), yanlış (Y), ehtimal (E) olduğunu müəyyənləşdir.

Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən edir.

Cavab: 1 – Y; 2 – D; 3 – E; 4 – D; 5 – E; 6 – Y.

**Dərslik, səh. 104**

**d.** Əlavə biliklərinizdən istifadə etməklə müasir robotları ilk robotla müqayisə edin.

Tapşırıq mətndə verilən məlumatların daha dərindən mənimsənilməsinə imkan yaradır.

Cavab: Müasir robotlar hərəkət edir, insanlarla danışır, müxtəlif işlər görür.

**Dərslik, səh. 105**

**e.** "Human" sözünün izahından çıxış edərək "humanist" və "humanizm" sözlərinin mənasını müəyyən edin.

Cavab: humanist – insanpərvər, insansevər; humanizm – insansevərlik, insana dəyər vermək.

**Dərslik, səh. 105**

**ə.** Mətnə əsasən "Humanoid robotlar digər robotlardan daha ağıllıdır" fikrini təkzib edin və fikrinizi əsaslandırın.

Cavab: Alimlər insana bənzəyən robotları ona görə humanoid adlandırdılar ki, onları digər ağıllı maşınlardan fərqləndirsinlər. Alimlər sadəcə olaraq bu robotları daha cəlbedici etmək istəyirdilər.

**Dərslik, səh. 106**

**f.** Sizcə, yeni ağıllı maşınlar əvvəlkilərdən nə ilə fərqlənir?

Tapşırıq təhliletmə, şifahi nitq bacarıqlarının inkişafına xidmət edir. Şagirdlər əldə etdikləri məlumatlar əsasında yeni ağıllı maşınların əvvəlkilərdən fərqini müəyyənləşdirirlər.

Cavab təxminən belə ola bilər: yeni ağıllı maşınlar daha çox və daha çətin işlər görür, çox şey bacarır, insana çox kömək edir.

**Dərslik, səh. 106**

**g.** Mətndə hansı məlumatı haşiyədə vermək olar?

Cavab: İnsana bənzəyən və şüuru olan varlıqlar elmdə humanoid adlanır. Bura nağıl və əfsanələrdə rast gəldiyimiz div, təpəgöz, elmi-fantastik əsərlərdə təsvir olunan yadplanetlilər və b. daxildir.

**Dərslik, səh. 106**

**ğ.** Aşağıdakı cümlələri "Robotlar" mətninin hansı hissələrinə əlavə etmək olar?

Tapşırığın məqsədi mətnə aid əsas faktları seçmə bacarığının yoxlanılmasına xidmət etməkdir.

Cavab:

1-ci hissə – 100 il əvvəl yaradılmış ilk robotlardan biri Mister Televoks adlanırdı.

2-ci hissə – "R.U.R." pyesi tamaşaya qoyulduqdan sonra alimlər robot ideyasını gerçəkləşdirməyə tələsdilər.

3-cü hissə – Qadın obrazında yaradılmış robotlara ginoid, kişi obrazında yaradılanlara isə android deyirlər.

4-cü hissə – Siz hər hansı bir robotla tanış olub "dostlaşa" bilərsiniz. Amma bilməlisiniz ki, bu "dostunuz" sizə qarşı doğmalıq hissindən uzaqdır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik); tapşırıq a (iş dəftəri) |
| Götürdüyü qeydlər və ya plan əsasında mətni nəql edir. | Tapşırıq b (dərslik) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq c, ç (dərslik); tapşırıq b (iş dəftəri) |
| Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir. | Tapşırıq d, ə, f (dərslik) |
| İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır. | Tapşırıq g, ğ (dərslik) |

# 2-ci DƏRS
# Robotlar

**Təlim nəticələri:**
- Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).

**Danışma**

**Dərslik, səh. 107**

a. Verilmiş şəkillərə baxın. Biliklərinizə və təxminlərinizə əsasən robotların faydası haqqında danışın.

Bu tapşırıqda şagirdlər müxtəlif sahələrdə robotlardan istifadə haqqında məlumat verirlər, bildikləri əlavə informasiyadan çıxış edərək robotların faydası haqqında danışırlar. Tapşırıq şagirdlərin nəticəçıxarma, əlaqələndirmə, şifahi nitq bacarıqlarının inkişafına xidmət edir.

Cavab təxminən belə ola bilər:

Cərrah-robotların köməyi ilə cərrahiyyə əməliyyatları aparılır. Robotlar sağlamlığımızın keşiyində durur.

Müəllim-robotlar dərs keçir.

Bağban-robotlar bitkilərə qulluq edir, onları sulayır.

Minaaxtaran-robotlar əraziləri minalardan təmizləyir.

Usta-robotlar böyük zavodlarda məhsullar hazırlayır.

Musiqiçi-robotlar müxtəlif alətlərdə çalır, rəqs edə bilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a (dərslik) |

# 3-cü DƏRS
# Müasir dronlar

**Təlim nəticələri:**
- Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. (st. 1.1.2).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.2).

**Mövzuya yönəltmə.** Müəllim şagirdləri mövzuya yönəltmək üçün belə suallar verə bilər:
– Dron nədir?
– Dronlardan harada və nə üçün istifadə olunur?

**Dinləmə**

**Dərslik, səh. 108**

**a.** Qeydlər götürməklə "Müasir dronlar" mətnini dinləyin. Qeydlərinizi aşağıdakı başlıqlar üzrə qruplaşdırın.

Tapşırıq oxuyub-qavrama, mətnin məzmunu, strukturu üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir. Eyni zamanda şagirdlərdə təhliletmə və qruplaşdırma bacarıqlarını inkişaf etdirir.

Şagirdlərə tapşırılır ki, mətndəki əsas məqamları qeyd etsinlər və başlıqların altında yazsınlar. Cavab təxminən belə ola bilər:

Dron ideyası – Nikola Tesla, 1898
Dron nədir? – pilotsuz uçuş aparatı
Dronların növləri – təyyarə tipli, vertolyot tipli, hərbi, uçuş
Drondan istifadə sahələri – müharibədə, mina axtaranda, kənd təsərrüfatında, müxtəlif çəkilişlərdə, idman yarışlarında, fəlakətlərin qarşısını almaq üçün və s.

***Müasir dronlar***

*"Dron" sözü ingilis dilində "arı vızıltısı" mənasını verən "drone" sözündən yaranıb.*

*Son zamanlar adını tez-tez eşitdiyimiz dronlar müasir texnologiyalardan biridir. Amma dron yaratmaq ideyası çox-çox əvvəllər meydana çıxıb. Radio dalğaları ilə idarə olunan gəmi ideyasını ilk dəfə Nikola Tesla irəli sürüb və 1898-ci ildə nümayiş etdirib.*

*Dron – bortunda ekipajı olmayan uçuş aparatıdır. Dronlar iki cür olur: təyyarə tipli və vertolyot tipli. Təyyarə tipli dronların düz qanadları, vertolyot tipli dronların isə pərləri vardır. Dronlar uzaqdan pultla idarə edilir və ya proqramlaşdırılır. Dronlardan müxtəlif məqsədlər üçün istifadə edilir.*

*Son illərdə müharibələrdə hərbi dronları – pilotsuz uçuş aparatlarını (PUA) görmək olar. Dronlar həm kəşfiyyatda, həm də döyüşdə istifadə edilir. 44 günlük II Qarabağ müharibəsi hərbi PUA-ların necə effektli olduğunu bütün dünyaya nümayiş etdirdi. Qarabağ müharibəsində PUA-lar hərb tarixində yeni səhifə açıldığını göstərdi.*

*Minaaxtaran dronlar əraziləri minalardan təmizləməklə insan itkisinin qarşısını alır. Bu robot təhlükəsiz zolaq açır, 500 kiloqrama qədər faydalı yük daşıyır və yaralıları təxliyə edə bilir.*

*Dronlardan kənd təsərrüfatında gübrə verilmə zamanı da istifadə edirlər. Bundan başqa, dronlar havadan müşahidə etməklə milli parkların, qoruqların qorunmasını təmin edir.*

*Dronlardan hava çəkilişləri üçün istifadə olunur. Onların vasitəsilə, əsasən, kliplər, şəhər görüntüləri, filmlər, videoreklamlar çəkilir çəkilir. Çətin və təhlükəli çəkilişlərdə dronlar jurnalistlərə kömək edir. Beynəlxalq idman yarışlarında, xüsusilə futbol matçlarında dronlar işlədilir.*

*Müasir dronlar müəyyən bir bölgəyə nəzarət edir, baş verə biləcək fəlakət barədə əvvəlcədən məlumat ötürür. Bu, meşə yanğınları, sel, zəlzələ və digər təbii fəlakətlər zamanı insanların təxliyəsində vacibdir.*

**İş dəftəri, səh. 62**

**a.** "Müasir dronlar" dinləmə mətni əsasında suallara cavab yaz.

Bu tapşırıq dinləmə və yazı məzmun xətlərinin inteqrasiyasıdır. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş suallara yönəldir. Şagirdlər dinləmə mətnindən cavab tapacaqları suallarla tanış olurlar. Onlar həmin sualları mətnin məzmununa əsasən cavablandırmaqla mətni diqqətlə dinlədiklərini nümayiş etdirirlər.

Cavab: 1. Dron ideyası Nikola Teslanın adı ilə bağlıdır.
2. Uçuş dronları təyyarə tipli və vertolyot tipli olur.
3. Yerinə yetirdiyi funksiyalara görə dronların növləri – hərbi və hərbi olmayan.

**İş dəftəri, səh. 62**

**b.** Dinləmə mətnində hansı məlumat yoxdur?

Cavab: 2. "Dron" ingilis sözüdür.

**Dərslik, səh. 108**

**b.** Sözlər və izahlar arasında uyğunluğu müəyyən edin.

Mətni dinlədikdən sonra şagirdlər bəzi tanış olmayan sözlərin mənasını müəyyən edirlər.
Cavab: 1 – b; 2 – d; 3 – a; 4 – c.

**Dərslik, səh. 108**

**c.** PUA abreviaturu hansı sözlərdən yaranmışdır?

Cavab: pilotsuz uçuş aparatı.
Müəllim "Yadda saxla" rubrikasında "abreviatur" sözünün izahını şagirdlərin nəzərinə çatdırır.

**Dərslik, səh. 108**

**ç.** Aşağıdakı şəkillər mətndəki hansı məlumatı təsdiqləyir?

Cavab: Şəkillərdə vertolyot tipli və təyyarə tipli dronlar göstərilir.

**Dərslik, səh. 108**

**d.** Mətnə əsasən doğru fikirləri müəyyən edin.

Şagirdlər verilmiş informasiyanın mətnə uyğun olub-olmadığını müəyyənləşdirməlidirlər. Bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

Cavab:
1. İstənilən pilotsuz vasitə – drondur.
3. Pilotsuz uçuş aparatı (PUA) – insansız (mütləq uçuş) aparatdır.
5. Bütün PUA-lar drondur, lakin uçmayan dronlar PUA deyildir.

**İş dəftəri, səh. 62**

**c.** Aşağıdakı məlumatların "Robotlar", yoxsa "Müasir dronlar" mətninə aid olduğunu müəyyən et.

Bu tapşırıq şagirdlərin müqayisəetmə bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda verilmiş fikirlərin oxuduqları "Robotlar", yoxsa dinlədikləri "Müasir dronlar" mətninə aid olmasını müəyyənləşdirməklə hər iki mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

Cavab:
A – "Robotlar"
B – "Müasir dronlar"

| | |
|---|---|
| • Onların vasitəsilə, əsasən, kliplər, şəhər görüntüləri, filmlər, reklam videoları və digər çəkilişlər edilir. | B – "Müasir dronlar" |
| • Onların duyğuları yoxdur. | A – "Robotlar" |
| • Onlar həm kəşfiyyat, həm də döyüş üçün lazımdır. | B – "Müasir dronlar" |
| • Onlar müəyyən sahə üzrə ixtisaslaşıb. | A – "Robotlar" |

**İş dəftəri, səh. 62**

**ç.** Uyğunluğu müəyyən et.

Cavab: 1 – c; 2 – a; 3 – b.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
| --- | --- |
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tapşırıq a (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç, d (dərslik); tapşırıq a, b (iş dəftəri) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq c (iş dəftəri) |
| Dinlədiyi mətndəki söz və ifadələrin mənasını müəyyənləşdirir. | Tapşırıq b, c (dərslik); tapşırıq ç (iş dəftəri) |

# 4-cü DƏRS
# İsmin hal şəkilçiləri

**Təlim nəticələri:**

• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 109**

**a.** Sual verməklə mötərizədəki sözləri uyğun şəkildə dəyişin.

Şagirdlərin "İsmin halları" mövzusu üzrə bilikləri xatırladılır. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş cümlələrə yönəldir. Şagirdlər mötərizədəki sözlərin cümlələrin mənasına uyğun necə dəyişəcəyinə diqqət edirlər. Sonra onlar dəyişən sözlərə müvafiq suallar verirlər. Müəllim sözləri lövhədə yazır. Sözlərdəki şəkilçilərin altından xətt çəkir. Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

Cavab:

Sərnişinlər *qatara* mindilər. (*nəyə?*)

*Yarışın* qalibi sabah bilinəcək. (*nəyin?*)

*Həyətdə* iri tut ağacları vardı. (*harada?*)

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları şagirdlərə izah edir. Sonra onlara tapşırır ki, rubrikadakı məlumatları səssiz formada oxusunlar.

**Dərslik, səh. 109**

**b.** Verilmiş cümlələrdəki "televizor" sözündə hal şəkilçilərini müəyyən edin.

Möhkəmləndirmə xarakterli bu tapşırıq şagirdlərə "Bunları bilməliyik" rubrikasından aldıqları bilikləri tətbiq etmək imkanı yaradır.

Cavab:

1. Televizorun ekranı çox böyükdür. (yiyəlik)
2. Televizora yaxından baxmaq olmaz. (yönlük)
3. Televizoru işə saldıq. (təsirlik)
4. Televizorda maraqlı film göstəriləcək. (yerlik)
5. Televizordan qələbə xəbərini eşitdik. (çıxışlıq)

**Dərslik, səh. 109**

**c.** Nöqtələrin yerinə mötərizədəki suallara uyğun gələn şəkilçiləri yazmaqla cümlələri köçürün.

Şagirdlər cümlələrin məzmununa müvafiq olaraq "Bakı" sözünü hallandırıb yazırlar. Müəllim şagirdlərə tapşırıqda verilmiş cümlələri oxumaq üçün vaxt verir. Şagirdlər cümlədəki suallara cavab olaraq "Bakı" sözünün müxtəlif cür şəkilçi ilə işləndiyinə diqqət edirlər. Sonra bir neçə şagird növbə ilə lövhədə müxtəlif şəkilçilər qəbul etmiş həmin sözü yazaraq tərkibindəki şəkilçini ayırırlar. Müəllim eyni sözün müxtəlif şəkilçilər qəbul edə bilməsini şagirdlərin diqqətinə çatdırır.

Cavab:

1. Bakıda (harada?) tez-tez külək əsir.
2. Bakını (haranı?) çox sevirəm.
3. Qatar Bakıdan (haradan?) axşam yola düşəcək.
4. Turistlər Bakının (haranın?) görməli yerlərini gəzəcəklər.
5. Bakıya (haraya?) çoxlu qonaqlar gəlir.

**İş dəftəri, səh. 63**

**a.** Hansı cümlələrdə fərqləndirilmiş sözlərdə hal şəkilçiləri var?

Cavab: 1 – b; 2 – b; 3 – b.

**İş dəftəri, səh. 63**

**b.** Mötərizədəki sözləri ismin uyğun halında işlədərək cümlələri tamamla. Həmin sözlərin halını və sualını da qeyd et.

Şagirdlər bu nümunə əsasında digər cümlələri də tamamlaya bilərlər:

1. Avtobus sonuncu *dayanacağa* çatdı. (yönlük hal; *haraya?*)

**İş dəftəri, səh. 63**

**c.** Göy rənglə verilmiş sözləri ismin uyğun halında işlətməklə cümlələri tamamla.

Şagirdlər mötərizədə verilmiş sözləri müvafiq hal şəkilçiləri ilə yazırlar. Tapşırıq şagirdlərin dil qaydaları üzrə yeni biliklərini, həmçinin cümlə qurmaq vərdişlərini möhkəmləndirir.

Cavab:

1. Sözün yaxşısı baldan dadlıdır.
2. Qonağı qarşılamağı mənə tapşırdılar.
3. Adamlar qayığa minib çayı keçdilər.
4. Ülviyyə bağda gülləri suladı.
5. Hər il ölkəmizə xaricdən çoxlu turist gəlir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Tapşırıq a, b, c (dərslik); tapşırıq a, b, c (iş dəftəri) |

# 3-cü fəsil
# SÜNİ İNTELLEKTLƏ GƏLƏCƏYƏ DOĞRU

## 1-ci DƏRS
## Gələcəkdə süni intellekt

**Təlim nəticələri:**
- Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.5).
- Mətnin tərkib hissələrini müəyyən edir (st. 3.1.5).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma.** Mətn dörd hissədən ibarətdir və hər hissəyə uyğun illüstrasiyalar verilmişdir. Şagirdlər, çox güman ki, həyat bilgisi, informatika fənlərindən, oxuduqları kitablardan, baxdıqları cizgi filmlərindən, bədii və sənədli filmlərdən mövzu ilə bağlı müəyyən məlumatlar almışlar. Müəllim yönəldici suallarla onları bildiklərini xatırlamağa sövq edə bilər.

**Dərslik, səh. 110**

**a.** Sizcə, gələcəkdə süni intellekt həyatımızı necə dəyişəcək?

Şagirdlərin cavabı təxminən belə ola bilər: gələcəkdə daha güclü və ağıllı kompüterlər yaradılacaq, robotların həyatımızda rolu artacaq, çətin işlərdə insanlara daha çox kömək edəcəklər.

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş. "Ziqzaq" oxu.** Tapşırığın qruplarla iş formasında aparılması şagirdlərin əməkdaşlıq şəraitində biliklərini tətbiq etmək, analiz etmək kimi mühüm bacarıqlarının inkişafına təkan verir. Mətn "Ziqzaq" metodu ilə oxunur. Şagirdlər qruplara bölünürlər. Qrup üzvləri mətnin müvafiq hissəsini oxuyurlar.

**Dərslik, səh. 112**

**Söz ehtiyatı**

**b.** "Söz mücrüsü"ndəki sözləri aşağıdakı izahlarla uyğunlaşdırın.

Bu tapşırıq yeni sözlərin mənimsədilməsinə xidmət edir. Şagirdlər yeni tanış olduqları sözlərlə onların izahlarını uyğunlaşdırırlar. Onlar əvvəlcə sözləri kontekstə əsaslanaraq izah etməyə çalışır, daha sonra isə dərsliyin sonundakı lüğətlə dəqiqləşdirirlər. Tapşırığın əsas məqsədi odur ki, şagirdlər öyrəndikləri yeni sözləri kontekstə uyğun olaraq işlətmək bacarığını inkişaf etdirsinlər.

Cavab:
1. Birgə işləmə – əməkdaşlıq.
2. Gerçəkləşmək – həyata keçmək
3. Çətin, bir neçə hissədən ibarət olan – mürəkkəb
4. Xəyal etmək, düşünmək – təsəvvür etmək

**Oxuyub-qavrama**

**Dərslik, səh. 112**

**c.** Aşağıdakı cümlələri mətnin hansı hissələrinə əlavə etmək olar?

Şagirdlər tapşırıqda verilmiş cümlələri mətnin uyğun hissələrinə əlavə etməlidirlər. Tapşırığın məqsədi mətnin məzmununu strukturlaşdırmaq bacarığını inkişaf etdirməkdir.

Cavab:

1. Hazırda süni intellekt yaradıcıları qarşısında duran əsas vəzifələrdən biri insanla robot arasındakı fərqin minimuma endirilməsidir. – II hissə (Süni intellekt özünü təkmilləşdirir)

2. Süni intellekti idarə edən proqramlar kompüter vasitəsilə yaradılır. – I hissə (Kompüter texnologiyaları və süni intellekt)

3. Süni intellekt həyatını asanlaşdıracaq, lakin bunun üçün onun dilini bilməli, ona tapşırıq verməyi bacarmalısan. – IV hissə (Süni intellektlə yaşamağa hazırsanmı?)

4. Bəzi Avropa ölkələrində robot müəllimlər işə başlayıb. – III hissə (Hər yerdə süni intellekt)

**Dərslik, səh. 112**

**ç.** Hansı məlumat mətnin məzmunu ilə bağlı deyil?

Tapşırıq şagirdlərin mətni oxuyub-qavramasını yoxlamaq məqsədi daşıyır. Mətnin məzmunu ilə bağlı olmayan fikirləri müəyyənləşdirməklə onlar mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

Cavab: 2. Aya ilk dəfə Amerika astronavtı Nil Armstronq səyahət etmişdir.

**Dərslik, səh. 112**

**d.** Hansı fikirlə razısınız? Seçiminizi əsaslandırın.

Verilmiş fikirlərə əsasən şagirdlər seçim edirlər, robotların faydalı və ya təhlükəli olması barədə mülahizələrini irəli sürürlər.

**Dərslik, səh. 112**

**e.** Bu fəsildə tanış olduğunuz məlumatların fakt, yoxsa təxəyyül olduğunu müəyyən edin.

Tapşırığın şərtinə görə şagirdlər mətndən verilən fikirlərin fakt, yoxsa təxəyyül olduğunu müəyyən edirlər.

Cavab: Bu məlumatların hamısı faktdır.

**İş dəftəri, səh. 64**

**a.** "Gələcəkdə süni intellekt" mətninin hər başlığına aid əsas fikri bir cümlə ilə ifadə et.

Cavab təxminən belə ola bilər:

1. Süni intellektin inkişafı kompüter texnologiyalarının inkişafına səbəb olur.
2. Süni intellekt iş görmək sürətinə görə insandan irəlidədir.
3. Gələcəkdə hər sahədə süni intellekt insanlara kömək edəcək.
4. Süni intellekt nə qədər faydalı, sürətli olsa da, onu yaradan insandır.

**İş dəftəri, səh. 64**

**b.** "Söz mücrüsü"ndəki sözlərdən istifadə edərək cümlələri tamamla.

Tapşırıq şagirdlərin yeni sözləri necə mənimsədiklərini yoxlamağa imkan yaradır.

Cavab:

1. Riyaziyyat dərsində müəllimimiz *mürəkkəb* məsələləri bizə izah etdi.
2. Ölkələr bir-biri ilə *əməkdaşlıq* edir.
3. Həyatımızı internetsiz *təsəvvür etmək* olmur.
4. İnanıram ki, arzularım *həyata keçəcək*.

**İş dəftəri, səh. 64**

**c.** "Gələcəkdə süni intellekt" mətninə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən et.

Şagirdlər bu tapşırıqda verilmiş fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən edirlər. Mətndən uyğun cümlələri oxumaqla seçimlərini əsaslandırırlar. Bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Tapşırıq şagirdlərin mətnin məzmununu necə mənimsədiklərini yoxlamağa imkan yaradır.

Cavab: 1 – Y; 2 – D; 3 – D; 4 – Y; 5 – D; 6 – Y.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq a, ç, d, e (dərslik); tapşırıq a, c (iş dəftəri) |

| | |
|---|---|
| İnformasiyanı mətnin tərkib hissələrinə uyğun qruplaşdırır. | Tapşırıq c (dərslik) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b (dərslik); tapşırıq b (iş dəftəri) |

# 2-ci DƏRS
# Gələcəyin robotları: təhlükə varmı?

**Təlim nəticələri:**

• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
• Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat və s.) yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**. Müəllim şagirdləri mövzuya yönəltmək üçün belə suallar verə bilər:
– Fantastik əsərləri, filmləri xoşlayırsınız?
– Hansı fantastik obrazları tanıyırsınız?

**Danışma. Oxu**

**Dərslik, səh. 113**

**a.** Yəqin ki, bədii əsərlərdə – filmlərdə və romanlarda süni intellekt daşıyıcısı olan fantastik obrazlara rast gəlmisiniz. Aşağıdakı nümunələr əsasında onların fakt deyil, təxəyyül olduğunu sübut edin.

Cavab:
Verilən nümunələr real həyatda yoxdur. Ona görə də bu obrazlar hələlik təxəyyüldür.

**Dərslik, səh. 114**

**b.** Albert Eynşteynin təxəyyül haqqında dediklərini xatırlayın. Sizcə, xəyal etdiyimiz varlıq və hadisələr reallığa çevrilə bilərmi? Elmi-fantastik əsərlərdən nümunələr gətirməklə fikirlərinizi əsaslandırın.

Cavab təxminən belə ola bilər: Dərin bilik və təxəyyül birləşdikdə xəyali varlıqlar, hadisələr müəyyən dövrdən sonra real ola bilər. Məsələn, “Kapitan Nemo” filmində sualtı qayıq (Jül Vernin əsəri əsasında) və s.

**Dərslik, səh. 114**

**c.** Humanoid, kiborq və transformerin oxşar və fərqli cəhətlərini müəyyənləşdirin.

Cavab:
*Oxşar:* Humanoid robotlar insana bənzəyən robotlardır. Kiborq gələcəyin mükəmməl robotudur. Transformerlər başqa planetlərdə yaşayan robotlardır.
*Fərqli:* Humanoid robot insana bənzəyir. Amma kiborq zahirən insana daha çox bənzəyir. Transformerlər lazım gəldikdə müxtəlif varlıqlara çevrilməyi bacarır.

**Dərslik, səh. 114**

**ç.** Mətnə əsasən sualları cavablandırın.

Cavab:
1. Gələcəkdə robotların insan üçün təhlükəli olub-olmayacağı barədə.
2. İnsanları robotların təhlükəsindən qorumaq.
3. Robotlar insanlara nə qədər kömək etsə də, zərər yetirməməlidir. Süni intellekti həmişə nəzarətdə saxlamaq lazımdır.

**Dərslik, səh. 114**

**d.** Siz robot düzəltsəydiniz, gələcək təhlükənin qarşısını almaq üçün onu necə proqramlaşdırardınız?

Şagirdlər oxuduqları, öyrəndikləri əsasında bu suala öz təxəyyüllərinə uyğun cavab verə bilərlər.

**Yazı**

**İş dəftəri, səh. 65**

**a.** Ayzek Azimovun müəllifi olduğu "Robot texnikasının 3 qanunu"nu şərh et.

1-ci qanuna görə, robotu proqramlaşdırarkən elə etmək lazımdır ki, insan onu idarə edə bilsin. İnsanla pis rəftar etməsin.

2-ci qanuna görə, robot insanlara tabe olmalıdır. İnsana zərər verən əmrlərə tabe olmamalıdır.

3-cü qanuna görə, robot özünü qorumalıdır. Amma əvvəlki iki qanunu poza bilməz.

Nəticə ("3 qanun"a münasibətim). Bu qanunlar robotların mütləq davranış qaydalarıdır. İnsanlar qanunlar əsasında hərəkət edirlərsə, robotlar da qanuna tabe olmalıdır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Fikrini əsaslandırmaqla münasibət bildirir. | Tapşırıq b, c (dərslik) |
| Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (açıqca, məktub, təəssürat) yazır. | Tapşırıq a (iş dəftəri) |

# 3-cü DƏRS
# Uzaq planetin sirri

**Təlim nəticələri:**
- Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir (st. 2.1.2).
- Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.2).
- Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir (st. 1.1.2).

**Mövzuya yönəltmə.** Müəllim şagirdləri mövzuya yönəltmək üçün belə suallar verə bilər:

– Uşaqlar, hansı planetləri tanıyırsınız?

– Yadplanetlilər barədə nə bilirsiniz?

**Dərslik, səh. 115**

**a.** Reyhan Yusifqızının "Uzaq planetin sirri" kitabının annotasiyası ilə tanış olun. Sizcə, burada hansı sirdən danışılır?

Şagirdlərin cavabı təxminən belə ola bilər: kitabda yadplanetlilərin yaşadığı hər hansı bir planet haqda danışılır. Orada sirli hadisələr baş verir.

**Dərslik, səh. 115**

**b.** Qeydlər götürməklə "Uzaq planetin sirri" əsərindən parçaları dinləyin.

Tapşırıq şagirdlərin qeydgötürmə üzrə bacarıqlarının möhkəmlənməsinə xidmət edir. Bu dəfə şagirdlər dinləmə mətni əsasında qeydlər götürürlər. Müəllim dinləmə mətnini səsləndirir. Şagirdlər müəllimin səsləndirdiyi dinləmə mətni əsasında qeydlər götürürlər. Mətni qeydlər götürməklə dinləmək diqqətli olmağı təmin edən vasitələrdəndir.

***Uzaq planetin sirri***

*...Elə təzəcə ağıllı evə çatmışdılar ki, birdən Lemi uşaqların yanında öz-özünə danışırmış kimi dilləndi:*

*– Otaqların vəziyyəti necədir?*

*Haradansa, sanki divarlardan cavab eşidildi:*

*– Normal. Otaqlar səliqəyə salınıb. Temperatur 27 dərəcə, rütubət 65%-dir.*

*– Çox yaxşı. Hər iki otağın hamamını hazırla.*

*Rüstəm ətrafa baxıb Lemidən soruşdu:*

*– Sən kiminlə danışırsan?*

*– Evi idarə edən süni intellektlə. O yalnız ev sahibinin səsini tanıyır və onun tapşırıqlarını yerinə yetirir.*

*...Qəflətən yuxarıdan tappıltı eşidildi. Kənanla Rüstəm təşvişə düşdü:*

*– Lemi, orada kimsə var!*

*– Qorxmayın, bu, Kibodur.*

*– Kibo?! – oğlanlar şübhə ilə soruşdular. – O kimdir?*

*– Bizim evin xidmətçisi. O da kiborqdur. Zahirən bizə bənzəyir. Bizim kimi intellekti var. Amma kiborqlar yemək yemir, yorulmurlar. Qorxu, sevinc kimi hissləri yoxdur.*

*Lemi Kibonu yanına çağırdı. Qısa qəhvəyi saçları olan mavigözlü oğlan onlara yaxınlaşıb bir neçə metr aralıda dayandı. Əvvəl Lemiyə baxdı. Sonra baxışlarını Rüstəmin üzərində saxladı. Lemi onun qonaqlara salam vermədiyinə təəccübləndi:*

*– Kibo, bunlar mənim qonaqlarımdır. Salamla onları.*

*– Lemi, burada təkcə sən varsan. Bir də stolun arxasında iki ədəd xalat görürəm. Onlar da sanki oturublar. Belə şey ilk dəfədir.*

*– Aydındır. O sizi görmür, uşaqlar.*

*– Necə yəni görmür?*

*– Siz başqa planetdənsiniz, bioloji fərqimiz var. Ona görə də kiborqların sensorları sizdən və əşyalarınızdan gələn siqnalları tuta bilmir. Odur ki sizi bir obyekt kimi tanımır, görmür.*

*– Bu ki əladır! – Rüstəm qışqırdı. – O bizi görmür, biz isə onu görürük!*

*... Lemi kompüterin qarşısına keçib bütün kosmik fəzaya həyəcan siqnalı göndərdi və kömək istədi. Bir müddətdən sonra monitor işıqlandı. Öz ağıllı evində gizlənmiş doktor Fobo göründü. Lemi onu dostlarına təqdim etdi:*

*– Doktor Fobo atamın dostudur. Onun 140 yaşı var.*

*Rüstəm və Kənan artıq heç nəyə təəccüblənmirdilər, ona görə də heç nə soruşmadılar.*

*Doktor Fobo dedi:*

*– Planetdəki bütün kiborqları ana kompüter idarə edir. Təəssüf ki, ona nəzarəti itirmişik. Mən ana kompüterin beynini dəyişməliyəm. Ancaq onun yerləşdiyi yerə getmək mümkün deyil. Əgər ağıllı evdən çıxsam, kiborqlar məni tutacaq.*

*Qəflətən Rüstəm sıçrayıb ayağa qalxdı:*

*– Mənim bir ideyam var! Bir neçə saatlıq elektrik enerjisini kəsək. Elektrik enerjisi olmasa, kiborqlar çox yaşaya bilməz! Bunu Kənan ilə mən edə bilərik. Kiborqlar bizi görmür.*

*Doktor Fobo Rüstəmin fikrini eşitcək sevincli halda dedi:*

*– Bu, dahi ideyadır! Elektrik enerjisi kəsilən kimi mən ağıllı evdən çıxıb ana kompüter olan yerə gedərəm.*

*Hər şey planlaşdırıldığı kimi oldu. Uşaqlar elektrik enerjisini kəsdilər. Hər tərəfə qaranlıq çökdü. Kiborqlar fəaliyyətlərini dayandırdılar. Bu zaman doktor Fobo sürücüsüz idarə olunan elektromobillə ana kompüterin yerləşdiyi ünvana yollandı. O, ana kompüteri əvvəlki vəziyyətinə qaytarmaq üçün onun beynini yenidən proqramlaşdırıb kiborqların idarəsini öz əlinə keçirdi...*

*Reyhan Yusifqızı*

Diferensial təlim. Müəllimin şagirdlərin səviyyəsindən asılı olaraq fəaliyyəti təşkil etməsi mümkündür. Daha fəal siniflərdə mətn tam səsləndirilə bilər. Çətinlik çəkən siniflərdə isə mətni abzas-abzas səsləndirə və şagirdlərin qeyd götürməsinə nəzarət edə bilər.

**Müəllimin nəzərinə!** Şagirdlərə mətni dinləyərkən diqqətli olmaq, lazımi qeydlər götürmək tövsiyə olunur. Onlara mətni nəql edəcəkləri xatırladılır.

**Dərslik, səh. 115**

**c.** Mətnin planını tərtib edin və plan əsasında mətni danışın.

Dinləmə başa çatdıqdan sonra şagirdlər öz qeydlərini səsləndirirlər. Onlar mətnə aid plan tərtib edirlər. Plan təxminən belə ola bilər: 1. Leminin "ağıllı ev"i. 2. Uşaqların kiborqla tanışlığı. 3. Doktor Fobonun məlumatı. 4. Rüstəmin ideyası.

Sonra isə bu plandan istifadə edərək mətni nəql edirlər. Bu tapşırıq şagirdlərdən mətni dinləyərkən diqqətli olmağı, mətndəki əsas hadisələri yadda saxlamağı tələb edir; dinlədiyi mətni nəql etmək bacarığını möhkəmləndirir.

**İş dəftəri, səh. 66**

**a.** Bu bölmədə süni intellekt haqqında öyrəndiklərinlə "Uzaq planetin sirri" əsərində təsvir olunanları müqayisə et.

Şagirdlər tapşırığın tələbinə əsasən əldə etdikləri məlumatları müqayisə edirlər.

Cavab:

| Bölmədən öyrəndiklərim | Əsərdə təsvir olunanlar |
|---|---|
| Süni intellekt də insanlar kimi görür, anlayır, danışır. | Lemi evindəki süni intellektdən otaqların vəziyyətini soruşur. |
| İntellektin əsas göstəriciləri informasiyanı mənimsəmək, təhlil etməkdir. | Süni intellekt yalnız ev sahibinin səsini tanıyır və onun tapşırıqlarını yerinə yetirir. |
| Kiborqlar danışır, yadda saxlayır, düşünüb qərar verir. | Kiborqlar zahirən insana bənzəyir, daxilən insan deyil. Onlar yemək yemir, yorulmurlar. Qorxu, sevinc kimi hissləri yoxdur. |
| Gələcəkdə robotlar daha faydalı ola bilər. | Kibo Leminin ən yaxın köməkçisidir. Gələcəkdə bütün insanların belə köməkçiləri ola bilər. |
| Robotlar elektrik enerjisi ilə işləyir. | Elektrik enerjisi kəsilən kimi kiborqlar fəaliyyətini dayandırırlar. |

**İş dəftəri, səh. 66**

**b.** Əsərdəki hansı məqamlar sənin süni intellekt haqqında təsəvvürlərini genişləndirdi?

Cavab təxminən belə ola bilər:
1. "Ağıllı ev"də baş verənlər
2. Kiborq-köməkçi
3. Təhlükə olsa, kiborqları necə dayandırmaq olar?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikrini əsaslandırmaqla münasibət bildirir. | Tapşırıq a, b, c (dərslik); tapşırıq a (iş dəftəri) |

| | |
|---|---|
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tapşırıq b (iş dəftəri) |

**Müəllimin nəzərinə!** Şagirdlər növbəti dərsdə "Süni intellekt və gələcəyimiz" adlı divar qəzeti hazırlayacaqlar. Bunun üçün əvvəlcədən vəzifə bölgüsü aparılmalıdır. Divar qəzeti üçün vatman kağızı, rəngli qələm, sulu boya, rəngli kağız, qayçı və s. lazım olacaq.

# 4-cü DƏRS
# Süni intellekt və gələcəyimiz

**Təlim nəticələri:**
- Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.1).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

Şagirdlərin diqqəti divar qəzetinə yönəldilir və "divar qəzeti" haqqında onların əvvəlki bilik və təcrübələri yoxlanılır. Onlar divar qəzetinin strukturu və hazırlanması işində vəzifə bölgüsü ilə tanış olurlar.

Diferensial təlim. Müəllim vəzifə bölgüsü zamanı şagirdlərin bilik və bacarıq səviyyəsini nəzərə almalıdır. Məsələn, redaktor ən fəal, savadlı şagird olmalıdır. Rəsm qabiliyyəti, hüsnxət bacarıqları daha yüksək olan şagirdlər rəssam və ya dizayner vəzifəsi üçün seçilə bilər. Müxbir vəzifəsi isə məlumat toplamaq və yaxşı yazı qabiliyyəti olan şagirdlərə tapşırılmalıdır. Nisbətən zəif şagirdlərə mövzu üzrə şəkil, kiçikhəcmli məlumat toplamaq tapşırıla bilər. Müəllim müxbirləri qruplara ayırır. Hər qrupa tapşırıqda verilmiş işlərdən birini tapşırır. Redaktor, rəssam və dizaynerlərə isə divar qəzeti nümunələri ilə tanış olmaq tapşırıla bilər.

**Dərslik, səh. 115**

**a.** Qruplarla işləyərək "Süni intellekt və gələcəyimiz" adlı divar qəzeti üçün materiallar hazırlayın.

Qruplarla iş. Əvvəlcə 1-ci qrupun üzvləri verilmiş təlimata əsasən reportaj hazırlayırlar. Müxbirlər mövzu haqqında topladıqları məlumatları müzakirə edirlər. Sonra mətn tərtib olunur. Rəssam və dizaynerlər vatman kağızı üzərində divar qəzetinin görünüşü barədə müzakirə aparırlar. Qəzetin adını iri şriftlərlə cəlbedici şəkildə yazırlar. Ada uyğun rəsm çəkirlər. Digər şagirdlər mövzu ilə bağlı topladıqları fotoşəkilləri müzakirə edərək qəzet üçün bir neçəsini seçirlər və həmin şəkillərə kiçik vərəqlərdə şərhlər yazırlar. Səsvermə əsasında daha yaxşı materiallar seçilir. Həmin materiallar redaktora təqdim edilir. Redaktor qəzet materiallarını yoxlayır, mətn üzərində düzəlişlər edir. Qəzet materiallarını uyğun rubrikalar üzrə qruplaşdırır. Dizaynerlər hər rubrikaya aid materialı uyğun ölçülü kiçik vərəqlərdə gözəl xətlə səliqəli şəkildə köçürürlər. Qəzet materialları hazır olduqda dizaynerlər vatman kağızı üzərində rubrikaların yerini müəyyən edib materialları yerləşdirirlər.

**Müəllimin nəzərinə!** Yaxşı olar ki, müəllim redaktor və dizaynerin işinə istiqamət versin, yaxından kömək etsin.

2-ci qrupdakı şagirdlərə ağıllı ev və ağıllı şəhər haqqında araşdırma aparmaq tapşırılır. Bu, şagirdlərin mövzu üzrə yaradıcı düşünməsinə kömək edir. Mətndə ağıllı evin nümunəsi ilə tanış olan şagirdlər öz təxəyyülləri əsasında başqa təkliflər də verə bilərlər. Araşdırmanın nəticəsini qeyri-bədii mətn şəklində təqdim etməlidirlər.

3-cü qrupun üzvlərindən tələb olunur ki, öz təxəyyüllərini işə salaraq kiborqla görüş barədə hekayə yazsınlar.

4-cü qrupdakı şagirdlər çatbotun köməyi ilə "Süni intellekt – insanlar üçün təhlükə" mövzusunda araşdırma aparmalı və təqdim etməlidirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tapşırıq a (dərslik) |
| Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır. | Tapşırıq a (dərslik) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq a (dərslik) |

# 5-ci DƏRS
# İsmin mənsubiyyətə görə dəyişməsi

**Təlim nəticələri:**

• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 116**

**a.** Nöqtələrin yerinə hansı sözləri yazmaq olar? Bunu cümlədəki hansı sözə görə müəyyən etmək olar?

Şagirdlərin diqqəti tapşırıqda verilmiş cümlələrə cəlb olunur. Şagirdlər cümlələrin məzmununa uyğun olaraq bəzi sözləri bərpa edirlər. Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

Cavab: 1. *Mənim* cavabım müəllimin xoşuna gəldi.

2. *Sənin* paltarın təzədir?

3. *Bizim* komandamız yarışa hazırlaşır.

4. *Onun* bacısı uşaq bağçasına gedir.

5. *Sizin* eviniz harada yerləşir?

6. *Onların* uğurları hamını sevindirdi.

Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir. Şagirdlərə mənsubiyyət şəkilçiləri haqqında nümunələrlə izahat verir.

**Dərslik, səh. 116**

**b.** Aşağıdakı cümlələrdə mənsubiyyət şəkilçili sözləri müəyyən edin.

Cavab: 1. Sabah məktəbin *həyatında* tədbir keçiriləcək.

2. *Dərsimi* oxuduqdan sonra sənə kömək edərəm.

3. Sizin *qələbəniz* hamını sevindirdi.

4. *Şəhərimiz* günü-gündən gözəlləşir.

5. Böyüklərin *məsləhətlərinə* qulaq asmaq lazımdır.

6. Sənin *qələmini* götürə bilərəm?

**Dərslik, səh. 116**

**c.** Hansı cümlələrdəki fərqləndirilmiş sözlərdə mənsubiyyət şəkilçiləri var?

Cavab: 1 – a; 2 – b; 3 – b.

**Dərslik, səh. 116**

**ç.** Mənsubiyyət şəkilçilərini tapıb hansı şəxsə aid olduğunu müəyyən edin.

Cavab: 1 – işimi (-*im* – I şəxsin təki)
2 – avtobusumuz (-*umuz* – I şəxsin cəmi)
3 – qardaşım (-*ım* – I şəxsin təki)

**İş dəftəri, səh. 67**

**a.** Uyğunluğu müəyyən et.

Cavab: 1 – d; 2 – e; 3 – b; 4 – f; 5 – c; 6 – a.

**İş dəftəri, səh. 67**

**b.** Sözlərdə mənsubiyyət şəkilçisini dairəyə al.

Tapşırığın tələbinə əsasən şagirdlər sözlərdə mənsubiyyət şəkilçilərini tapıb nümunədə olduğu kimi dairəyə almalıdırlar.

**İş dəftəri, səh. 67**

**c.** Mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərin altından xətt çək.

Cavab:
1. Çayın üstündə qədim körpü var idi.
2. Müsabiqə iştirakçılarına hədiyyə verildi.
3. Kəndin əhalisi çox qonaqpərvər idi.
4. Nəzrin təyyarədə pəncərənin yanında oturdu.
5. Planetimizin gözəlliyini qorumalıyıq.
6. Günəşin şüaları hər tərəfi işıqlandırdı.

**Müəllimin nəzərinə!** Tapşırıqlar yerinə yetirilərkən şagirdlərə mənsubiyyət şəkilçili sözlərin bitişdirici samit qəbul etməsini xatırlatmaq tövsiyə olunur.

**İş dəftəri, səh. 67**

**ç.** Nöqtələrin yerinə uyğun gələn mənsubiyyət şəkilçilərini yaz.

Cavab: sizin maşınınız; onun nənəsi; mənim gücüm; onların bağçası; sənin gülüşün; bizim məhəlləmiz.

**İş dəftəri, səh. 67**

**d.** Hansı atalar sözlərində mənsubiyyət şəkilçiləri işlənib?

Cavab: b – 1, 4.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.3).
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

Dərslikdə verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 117**

**1.** Hansı cümlələrdə altından xətt çəkilmiş sözlər düzgün yazılmışdır?

Cavab:
2. Adamlar yeni salınmış parkda dincəlirlər.
4. Güllərin ətri ətrafa yayılmışdı.

**Dərslik, səh. 117**

**2.** Hansı cümlələrdə səhvə yol verilib?

Cavab:
2. Camaat tarladan məhsulu toplayırlar.
4. Xor dəstəsi tədbirdə Azərbaycanın himnini oxuyacaqlar.

**Dərslik, səh. 117**

**3.** Hansı sözlər xüsusi isim kimi işlənə bilər?

Cavab: arif, vəfa, gözəl, malik, şirin, sahib, ədalət.

**Dərslik, səh. 117**

**4.** Aşağıdakı ümumi isimlərə aid olan xüsusi isimlər yazın.

Şagirdlər verilmiş nümunəyə uyğun xüsusi isimlər tapıb yazırlar.

**Dərslik, səh. 117**

**5.** Nöqtələrin yerinə uyğun gələn sözü yazıb cümlələri tamamlayın.

Cavab:
1. Qaranquş *eyvanda* təzə yuva qurmuşdu.
2. Parlaq günəş *torpağı* qızdırırdı.
3. Kəşfiyyatçılar paraşütlə *təyyarədən* tullandılar.
5. Uşaqlar *imtahana* hazırlaşırlar.
6. *Lampanın* işığı zəif idi.

**Dərslik, səh. 117**

**6.** Nöqtələrin yerinə uyğun gələn mənsubiyyət şəkilçilərini yazmaqla söz birləşmələrini köçürün.

Cavab:
- qardaşımın dostu
- həftənin günləri
- quşun qanadı
- sözün mənası
- bizim şəhərimiz
- sənin çantan

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

| | |
|---|---|
| Cəm şəkilçisini orfoqrafik normalara uyğun yazır. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |
| Xüsusi isimlərin böyük hərflə yazılış qaydalarına əməl edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

## Kiçik summativ qiymətləndirmə

İş dəftərinin 68-69-cu səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq 1, 2, 3, 4 (iş dəftəri) |
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Tapşırıq 5, 6 (iş dəftəri) |
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Tapşırıq 7, 8, 9 (iş dəftəri) |

Bölmə **6**

# AÇILMAMIŞ SİRLƏR

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Nəhənglərin sirri** | | | | | |
| 1 | Dinozavrlar | Oxu. Oxuyub-qavrama | 120-123 | 70 | 157 |
| 2 | Dinozavrlar niyə məhv oldu? | Oxu. Yazı | 123-124 | 71 | 159 |
| 3 | Nəsli kəsilmiş və ya kəsilmək təhlükəsi yaşayan heyvanlar | Yazı | 124 | – | 161 |
| 4 | Söz birləşməsi | Yazı | 125 | 72 | 163 |
| 2-ci fəsil. **Qədim dövrün abidələri** | | | | | |
| 5 | Misir ehramları | Oxu. Oxuyub-qavrama | 126-128 | 73 | 165 |
| 6 | Piramidanın labirintlərində | Oxu | 128-131 | 74 | 167 |
| 7 | Ebru sənəti | Dinləmə | 131-132 | – | 168 |
| 8 | Artemis məbədi | Yazı | 132 | – | 171 |
| 9 | Cümlə üzvləri | Yazı | 133 | 75 | 172 |
| 3-cü fəsil. **Yadplanetlilər** | | | | | |
| 10 | Yaşılgözlü qız | Oxu. Oxuyub-qavrama | 134-137 | 76 | 175 |
| 11 | Yaşılgözlü qız | Dinləmə | 137 | – | 177 |
| 12 | Yadplanetli ilə görüş | Yazı | 137 | – | 178 |
| 13 | Cümlədə söz sırası. Cümlənin məqsəd və intonasiyaya görə növləri | Yazı | 138 | 77 | 180 |
| 14 | Ümumiləşdirici təkrar | | 139 | 78-79 | 182 |

# GİRİŞ DƏRSİ

**Təlim nəticələri:**
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
• Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin titul səhifəsindəki şəkillərə, bölmənin adına yönəldir.

**Dərslik, səh. 118**

**a.** *Sirr, möcüzə* dedikdə nə başa düşürsünüz? İndiyə kimi izah edilməyən hansı varlıq və hadisələri tanıyırsınız?

**Dərslik, səh. 118**

**b.** Aşağıdakı şəkillər və suallar əsasında bildiklərinizi danışın. Hər mövzuya aid üç sual tərtib edin və birlikdə müzakirə edin.

Motivasiya xarakterli "a" və "b" tapşırıqları şagirdlərin diqqətini mövzuya yönəldir. Şagirdlər indiyə qədər oxuduqları bədii və qeyri-bədii mətnlərə, həyatda gördüklərinə istinad edərək bu mövzu haqqında danışırlar.

Şagirdlərin "b" tapşırığında quracağı sualların məzmunu onların bu mövzudakı biliklərindən və dünyagörüşündən asılıdır. Həyat bilgisi fənnindən aldıqları biliklər də bu mövzuda sual qurmağa kömək edəcək. Şagirdlər təxminən aşağıdakı sualları qura bilərlər:

• **Dinozavrlar**
1. Dinozavrlar nə vaxt yaşayıb?
2. Ən böyük dinozavr hansı ölçüdə olub?
3. Dinozavrlar nə ilə qidalanıb?

• **Piramidalar**
1. Piramidalar harada yerləşir?
2. Piramidalar nə vaxt tikilib?
3. Piramidaların hündürlüyü nə qədərdir?

• **Yad planetlər**
1. Hansı planetlər var?
2. Yer planetindən başqa daha hansı planetdə həyat var?
3. Yadplanetlilər varmı?

• **İlk insan**
1. İlk insanlar nə ilə qidalanıb?
2. İlk insanlar harada yaşayıb?
3. İlk insanlar nə üçün dəstə ilə yaşayıb?

**Dərslik, səh. 118**

**c.** Sözlərin izahlarını oxuyun.

Tapşırıq söz ehtiyatının zənginləşdirilməsinə və oxuyub-qavrama bacarığının inkişafına yönəlib.

**Dərslik, səh. 119**

**ç.** Kitabların üz qabığına baxın, annotasiyalarını oxuyun. Kitabları müqayisə edin.

Şagirdlər eyni mövzuda olan bədii və qeyri-bədii mətnləri müəllif məqsədi və yanaşması baxımından müqayisə edirlər. Daha sonra kitablardan birini seçərkən nəyə diqqət etdiklərini, nə üçün məhz bu kitabı seçmələrinin səbəbini arqumentlər gətirməklə izah edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a, b (dərslik) |
| Kontekstdən çıxış edərək tanış olmadığı söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq c (dərslik) |
| Eyni mövzuda olan qeyri-bədii mətnləri müəllif məqsədi və yanaşması baxımından müqayisə edir. | Tapşırıq ç (dərslik) |

# 1-ci fəsil
# NƏHƏNGLƏRİN SİRRİ

## 1-ci DƏRS
## Dinozavrlar

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Verbal informasiyanı qeyri-verbal şəkildə (və ya əksinə) ifadə edir (st. 4.1.1).

**Danışma**

**Dərslik, səh. 120**

**a.** Nəsli kəsilmiş və ya kəsilməkdə olan hansı heyvanları tanıyırsınız? Aşağıdakı məlumatlara və biliklərinizə əsasən bu haqda danışın.

Müəllim şagirdlərin diqqətini dərslikdəki birinci tapşırığa yönəldir. Şagirdlər dərslikdə verilmiş məlumatlara və bu mövzudakı biliklərinə əsasən tüklü mamont, dodo, koala və pinqvin haqqında danışırlar. Həyat bilgisi fənnindən nəsli kəsilmiş və ya kəsilməkdə olan heyvanlar haqqında aldıqları biliklər də bu mövzuda danışmağa kömək edəcək.

**Dərslik, səh. 120**

**b.** Heyvanların nəslinin kəsilməsinə gətirib çıxaran səbəbləri sadalayın. Sizcə, bunun qarşısını almaq üçün nə etmək lazımdır?

Şagirdlər "a" tapşırığında verilmiş məlumatlara əsasən bəzi heyvanların nəslinin kəsilməsi səbəbləri haqqında danışa bilərlər.

Şagirdlərin cavabları təxminən belə ola bilər:
- iqlim dəyişikliyi
- həddən artıq çox ovlanma
- kütləvi ovlanma, meşə yanğınları, yaşayış mühitinin pisləşməsi
- qida zəncirinin pozulması, iqlim dəyişikliyi və xəstəliklər

Səbəblər müəyyənləşdirildikdən sonra şagirdlər problemin qarşısını almaq üçün təkliflərini irəli sürürlər. Təkliflər müzakirə edilir.

**Dərslik, səh. 121**

**c.** Dinozavrlar haqqında nə bilirsiniz? Bəs daha nə öyrənmək istəyərdiniz? Mətni oxuyun və yeni öyrəndiklərinizi qeyd edin.

Oxudan əvvəl şagirdlər dəftərlərinə BİBÖ cədvəli çəkirlər. Cədvəlin birinci sütununda dinozavrlar haqqında bildikləri məlumatları qeyd edirlər. Cədvəlin ikinci sütununda dinozavrlar haqqında daha nə öyrənmək istədiklərini sual şəklində qeyd edirlər.

**Mətnlə iş.** "Dinozavrlar" mətni şagirdlər tərəfindən səssiz oxunur. Mənasını anlamadıqları sözləri "Azleks" onlayn lüğəti və yaxud hər hansı bir lüğət vasitəsilə araşdırırlar.

**Dərslik, səh. 122.**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər. Yeni sözlərdən istifadə edərək dinozavrlar haqqında danışırlar.

**Dərslik, səh. 122**

**ç.** Sözün izahına əsasən dinozavrların məməli heyvan olmadığını əsaslandırın.

Tapşırıq söz ehtiyatını zənginləşdirməklə yanaşı, oxuyub-qavrama bacarığını da inkişaf etdirir.

Şagirdlər mətnin son abzaslarında verilmiş məlumatlara əsasən tapşırıqda qoyulmuş sualı cavablandırırlar.

Cavab: Planetin müxtəlif yerlərində dinozavrlara məxsus yumurtalar bu heyvanların məməli olmadığını göstərdi.

**Dərslik, səh. 122**

**d.** Fərqləndirilmiş sözləri "Söz mücrüsü"ndəki uyğun sözlərlə əvəz edin.

Cavab: 1 – məxsus; 2 – nəvazişlə; 3 – təyin edildi.

**Oxuyub-qavrama**

**İş dəftəri, səh. 70**

**a.** "Dinozavrlar" mətninə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən et.

Tapşırıq mətn haqqında faktoloji qavramanı yoxlamağa kömək edir.

Cavab: 1 – Y; 2 – Y; 3 – D; 4 – D; 5 – Y; 6 – D.

Şagirdlər mətnə istinad edərək yanlış fikirləri düzəldirlər. Belə olduqda mətndəki əsas məqamları bir daha oxuyurlar.

**Dərslik, səh. 123**

**e.** Mətnə istinad etməklə aşağıdakı fikirləri əsaslandırın.

Tapşırıq şagirdlərin ümumiləşdirmə, nəticəçıxarma və əsaslandırma bacarığını inkişaf etdirir.

Cavab:

Dinozavrlar:

• iki qrupa ayrılırlar – ətyeyənlər və otyeyənlər.

Mətndə qeyd edilir ki, saltop kiçik ölçülü olmasına baxmayaraq yırtıcı idi. Onlar kərtənkələ və həşəratla qidalanırdı. Ən nəhəng dinozavrlar olan zauropodlar isə bitki yeyirdilər.

• yumurta qoyaraq çoxalırdılar.

Planetin müxtəlif yerlərində dinozavrlara məxsus yumurtalar tapıblar. Məsələn, 1859-cu ildə Fransa ərazisində, 1995-ci ildə isə Çində dinozavr yumurtalarının kütləvi şəkildə basdırıldığı yer aşkarlanıb.

• müxtəlif ölçülərdə olublar.

Məsələn, saltop adlanan dinozavrın gövdəsi 60 sm uzunluğunda idi. Zauropodların boyu dördmərtəbəli ev hündürlüyündə idi.

• bütün qitələrdə yaşamışlar.

Dinozavrlar yarananda planetdə yalnız bir qitə var idi. Müxtəlif qitələr bir böyük quru ərazinin hissələri idi.

**İş dəftəri, səh. 70**

**b.** Dinozavrlar mətninə aid xüsusiyyətləri seç.

Tapşırıq şagirdlərin bədii və qeyri-bədii mətnlər haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib.

Cavab:

• Mətn dinozavrlar haqqında məlumat verir.

• Mətndə məlumatlar sistemli şəkildə təqdim edilib.

• Mətndə dəqiq və konkret faktlara daha çox yer ayrılıb.

**Yazı**

**İş dəftəri, səh. 70**

**c.** Mətnə əsasən şəkli verilmiş dinozavrlar haqqında məlumat vərəqi tərtib et.

**Müəllimin nəzərinə!** Müəllimə istiqamətləndirici suallar verməklə şagirdlərin diqqətini mətnin müvafiq abzaslarına yönəltmək tövsiyə edilir:

– Mətndə hansı dinozavrlar haqqında məlumatlar verilib?

– Bu dinozavrlar haqqında hansı məlumatlar verilir?

Şagirdlər müəllimin yönəldici suallarına əsasən dinozavrlar haqqında məlumat vərəqində qeyd edəcəkləri əsas faktları müəyyənləşdirir, daha sonra məlumat vərəqi hazırlayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Hadisələrin səbəbini müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Mətn haqqında fikirlərini mətndəki fakt və hadisələrlə əsaslandırır. | Tapşırıq ç, e (dərslik); tapşırıq b (iş dəftəri) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tapşırıq d (dərslik) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq a (iş dəftəri) |
| Məlumat vərəqi hazırlayır. | Tapşırıq c (iş dəftəri) |

# 2-ci DƏRS
# Dinozavrlar niyə məhv oldu?

**Təlim nəticələri:**
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 123**

**a.** Aşağıda verilmiş yarımbaşlıqların mətnin hansı hissələrinə aid olduğunu müəyyən edin. Fikrinizi əsaslandırın.

Tapşırıq şagirdlərin diqqətini keçən dərsdə oxuduqları “Dinozavrlar” mətninin məzmununa yönəldir.

Cavab: 1 – b; 2 – c; 3 – ç; 4 – a.

**Dərslik, səh. 123**

**b.** Mətnə daha hansı yarımbaşlıq əlavə etmək istərdiniz?

Şagirdlərin cavabları müxtəlif ola bilər.

**Dərslik, səh. 123**

**c.** Dinozavrların nəslinin kəsilməsi səbəbləri ilə bağlı təxminlərinizi söyləyin. Sonra isə fikirlərinizi aşağıdakı mətndə verilmiş məlumatlarla müqayisə edin.

Oxudan əvvəl şagirdlər dəftərlərində ikisütunlu cədvəl çəkirlər. Cədvəlin birinci sütununda dinozavrların nəslinin kəsilməsi səbəbləri ilə bağlı təxminlərini qeyd edirlər.

**Mətnlə iş.** “Dinozavrlar niyə məhv oldu?” mətni şagirdlər tərəfindən səssiz oxunur.

Mətnin oxusundan sonra cədvəlin ikinci sütununa aid məlumatlar qeyd olunur. Şagirdlərin təxminləri ilə mətndəki məlumatlar müqayisə edilir.

**Dərslik, səh. 124**

**ç.** Dinozavrlar haqqında mətnləri müqayisə edin. Hansı mətndə:
- ümumi məlumat verilir?
- qoyulmuş suala cavab axtarılır?

Tapşırıq vasitəsilə qeyri-bədii mətnlərin müxtəlif məqsədlərlə yazıldığı diqqətə çatdırılır.

Cavab:

"Dinozavrlar" mətnində dinozavrlar haqqında ümumi məlumat verilir. "Dinozavrlar niyə məhv oldu?" mətnində dinozavrlar haqqında qoyulmuş suala cavab axtarılır.

**İş dəftəri, səh. 71**

**a.** Aşağıdakı fikirlər hansı mətnə aiddir? Uyğun cavab variantını seç.

Cavab:

- Dinozavrlar haqqında qeyri-bədii mətndir – C (Hər ikisi).
- Dinozavrlar haqqında sistemli məlumat verilib – A (Dinozavrlar).
- Dinozavrlar haqqında konkret bir suala cavab axtarılır – B (Dinozavrlar niyə məhv oldu?).
- Dinozavrlar haqqında faktlar verilib – C (Hər ikisi).
- Müəllif fikrini əsaslandırmaq üçün arqumentlərdən istifadə edir – B (Dinozavrlar niyə məhv oldu?).

**İş dəftəri, səh. 71**

**b.** Mətndə dinozavrların məhv olmağı ilə bağlı belə bir səbəb göstərilmir:

Cavab: d – kütləvi xəstəlik.

**Dərslik, səh. 124**

**d.** "Dinozavrlar niyə məhv oldu?" mətnində qoyulmuş sualla bağlı hansı versiyalar irəli sürülür? Müəllif bu versiyaları təsdiq və ya təkzib etmək üçün hansı arqument və əks-arqumentlərdən istifadə edir?

Müəllim "Yadda saxla" rubrikasında verilmiş sözlərin mənasını şagirdlərə izah edir.

Tapşırığı yerinə yetirmək üçün şagirdlər bu terminlərin izahını bilməlidirlər. Eyni zamanda müəllim "təkzib etmək" sözünün mənasını (doğru olmadığını bildirmək) izah edir.

Tapşırıq oxu və yazı məzmun xətləri arasında inteqrasiya yaradır. Şagirdlər hər hansı bir məsələni aydınlaşdırmaq məqsədilə yazılan qeyri-bədii mətnlərdə fərziyyələrin arqument və əks-arqument vasitəsilə əsaslandırıldığını öyrənirlər.

| Versiyalar | Arqument və əks-arqumentlər |
|---|---|
| Yumurtaların məhv edilməsi | Çox güman ki, nəhəngliyi ilə hamını təşvişə salan heyvanın yuvasına yaxınlaşmaq o qədər də asan olmazdı. Həm də müxtəlif növ dinozavrların eyni zamanda eyni problemlə qarşılaşması inandırıcı deyil. |
| İqlim dəyişikliyi | İqlim dəyişikliyi çox yavaş prosesdir. Bu dövrdə dinozavrlar daha isti yerlərə köçə bilərdilər. Həm də dinozavrların yaşadığı müddətdə planetdə buzlaşmanın baş verdiyinə dair heç bir sübut yoxdur. |
| Vulkan püskürməsi | Dinozavrlarla bərabər digər heyvanlar da mövcud idi. Bəs nə üçün vulkan püskürməsi məhz dinozavrların məhvinə səbəb oldu? |

**İş dəftəri, səh. 71**

**c.** Təsəvvür et ki, dinozavrlar haqqında araşdırma aparan alimlə söhbət edirsən. Alimə dinozavrlar haqqında vermək istədiyin 3 sual yaz.

Tapşırıq şagirdləri mövzu haqqında düşünməyə sövq edir. Şagirdlərin cavabları müxtəlif ola bilər.

**Yazı**

**İş dəftəri, səh. 71**

**ç.** "Dinozavrlar" ensiklopedik kitabı haqqında elə annotasiya yaz ki, dostlarında bu kitabı oxumaq həvəsi yaransın.

Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlər “ensiklopediya” sözünün mənasını izah edirlər. “Ensiklopedik kitablar necə olur?” sualına cavab axtarırlar. Ensiklopediyalar qeyri-bədii əsərdir, biliyin bütün, yaxud ayrı-ayrı sahələrinə dair lüğət şəklində sistemə salınmış məlumatlar toplusudur.

Şagirdlərə qeyri-bədii mətnlər toplusu olan bir kitaba annotasiya yazacaqları vurğulanır.

Şagirdlər təxminən bu məzmunda annotasiya yaza bilərlər:

Müasir dövrdə dinozavrlar uşaqların sevimli film qəhrəmanlarından biridir. Bu heyvanlar cizgi filmlərində xeyirxah, sevimli qəhrəman kimi təsvir edilir. Balacalar onları nəvazişlə “Dino” adlandırırlar. Lakin milyon illər əvvələ qayıtsaq, yəqin ki, heç kim bu qorxunc canlı ilə üz-üzə gəlmək istəməzdi. "Dinozavrlar” kitabında dinozavrların həyat tərzi və məhv olma səbəblərinə dair fakt və məlumatlar əks olunub. Müasir dövrdə niyə dinozavrlar yoxdur? Dinozavrlar nə üçün məhv olub?

Zəngin məlumatlar və illüstrasiyaların daxil olduğu bu kitabın köməyilə dinozavrlar haqqında ətraflı məlumat ala bilərsən!

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tapşırıq a (dərslik) |
| Mətn haqqında fikirlərini mətndəki fakt və hadisələrlə əsaslandırır. | Tapşırıq b, c (dərslik) |
| Bədii və qeyri-bədii mətnlərin məzmun və struktur baxımından fərqini izah edir. | Tapşırıq ç (dərslik); tapşırıq a (iş dəftəri) |
| Mətndəki faktları aid olduğu fikirlər üzrə qruplaşdırır. | Tapşırıq d (dərslik) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq b, c (iş dəftəri) |
| Annotasiya yazır. | Tapşırıq ç (iş dəftəri) |

# 3-cü DƏRS
# Nəsli kəsilmiş və ya kəsilmək təhlükəsi yaşayan heyvanlar

**Təlim nəticələri:**
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).
- Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir (st. 4.1.3).

**Mövzuya yönəltmə. Danışma.** Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə keçən dərslərdə oxuduqları mətnlərin məzmununu xatırladır.

Müəllimin yönəldici suallarına nümunələr:

– Nə üçün müasir dövrdə dinozavrlar yaşamır?

– Alimlər bu canlıların məhv olma səbəblərini necə izah edirlər?

Daha sonra şagirdlərin diqqəti fəslin giriş dərsinə (səh. 120) cəlb edilir. Şagirdlər keçən dərslərdə nəsli kəsilmiş və ya kəsilmək təhlükəsi yaşayan heyvanlar haqqında məlumat alıblar. Bu məlumatlara və şəxsi biliklərinə əsaslanaraq mövzu haqqında müzakirə aparırlar.

**Dərslik, səh. 124**

a. Oxuduğunuz məlumatlara və əlavə biliklərinizə əsasən aşağıdakı mövzularda təqdimat hazırlayın:
• Nəsli kəsilmiş heyvanlar
• Nəsli kəsilmək təhlükəsi yaşayan heyvanlar

**Müəllimin nəzərinə!**

• İnternetdən istifadə etmək imkanları olan siniflərdə şagirdlərə araşdırma üçün linklər təqdim edilə bilər. İnternetdən istifadə imkanı olmayan siniflərdə nəsli kəsilmiş və ya kəsilmək təhlükəsi yaşayan heyvanlar haqqında ensiklopediyalar və yaxud məqalələr, qəzetlər, jurnallar, informativ mətnlər təqdim edilə bilər.

• Müəllimə təqdimat hazırlamaq üçün şagirdlərə təlimat vermək tövsiyə olunur.

Təlimat:
• Canlının adı, növü, ölçüsü, qidalanması, yaşadığı mühit haqqında məlumat verilməlidir.
• Canlının nəslinin kəsilməsi səbəbləri göstərilməlidir.
• Canlıya aid fotoşəkillərdən istifadə olunmalıdır.
• Yazıda fonetik, leksik və qrammatik normalar gözlənilməlidir.

Diferensial təlim. Bu tapşırığın qruplarla icra edilməsi məsləhət görülür. Müəllim müxtəlif dil səviyyələri olan şagirdləri bir qrupda qruplaşdırır. Daha sonra vəzifə bölgüsü aparır.

Qruplar bir-bir hazırladıqları materialı təqdim edirlər. Digər qrup üzvləri və müəllim aşağıdakı cədvələ əsasən təqdimata münasibət bildirirlər.

| Meyar | Bəli | Xeyr | Bəzən |
|---|---|---|---|
| Canlı haqqında aydın təsəvvür yaradılıb. | | | |
| Yaşadığı mühit haqqında məlumat verilib. | | | |
| Nəsli kəsilməsinin səbəbləri göstərilib. | | | |
| Fotoşəkillər var. | | | |
| Fonetik, leksik, qrammatik normalar gözlənilib. | | | |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Söz birləşməsi

**Təlim nəticələri:**
• Sintaktik vahidlərin (söz birləşməsi, cümlə) konstruksiyasını və semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 125**

a. Sözləri, söz birləşmələrini və cümlələri seçib cədvəl üzrə qruplaşdırın.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir. Şagirdlər aşağı siniflərdən

söz, söz birləşməsi və cümlə haqqında bilgilərinə əsasən tapşırığı yerinə yetirirlər.

Cavab:

| Söz | Söz birləşməsi | Cümlə |
|---|---|---|
| alim | dinozavrların həyatı | İnandırıcı deyil. |
| qitələr | iqlim dəyişikliyi | İqlim dəyişdi. |
| nəhəng | vulkan püskürməsi | Alimlər araşdırır. |
| | buz dövrü | |
| | sirr açılanda | |
| | müxtəlif fərziyyələr | |

Müəllim “Bunları bilməliyik” rubrikasında söz birləşməsi haqqında verilmiş məlumatları şərh edir.

**Dərslik, səh. 125**

**b.** Verilmiş sözlərdən söz birləşməsi yaradın.

Cavab: dinozavr yuvası; muzeyə getmək; səhər məktəbə gedəndə; qapının açarı; qələmin rəngi.

Müəllim “Bunları bilməliyik” rubrikasında söz birləşməsinin asılı və əsas tərəfləri haqqında verilmiş məlumatları şərh edir.

**Dərslik, səh. 125**

**c.** Söz birləşmələrinin əsas və asılı tərəfini müəyyən edin. Asılı tərəfini dəyişməklə yeni söz birləşmələri yaradın.

Söz birləşmələrinin asılı və əsas tərəfi müəyyənləşdirilir. Söz birləşmələrinin asılı tərəfini təxminən aşağıdakı kimi dəyişdirirlər:

2. **Hekayəni** oxumaq
3. **Yumru** akvarium
4. **Voleybol** topu
5. **Rəy** yazanda
6. **İkinci** sıra
7. **Qozlu** qoğal
8. **Uşağın** davranışı
9. **Tərəvəzlə** qidalanmaq

**Dərslik, səh. 125**

**ç.** Söz birləşmələrinin tərəfləri arasına söz artırıb yazın.

Tapşırıqda söz birləşmələrini genişləndirməklə mənanın daha da konkretləşdiyi diqqətə çatdırılır. Şagirdlər söz birləşmələrini təxminən belə genişləndirə bilərlər: mənim sevimli müəllimim, parkda dostlarımla gəzmək, ağacların yenicə açmış çiçəkləri, mətnin əsas hissəsi, Azərbaycanın üçrəngli bayrağı, dəftərin səliqəli üzü, sinifdə öndə əyləşmək, şeiri yaxşı əzbərləmək.

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 72**

**a.** Nöqtələrin yerinə uyğun sözü seçib yazmaqla söz birləşməsi düzəlt.

Cavab: 1 – evin qapısı; 2 – kitabın cildi; 3 – işdən qayıtmış; 4 – alma ağacı.

**İş dəftəri, səh. 72**

**b.** Verilmiş ifadələri cədvəl üzrə qruplaşdır. Hər sütuna daha bir nümunə əlavə et.

Cavab:

| Söz | Söz birləşməsi | Cümlə |
|---|---|---|
| keçmək | yolu keçəndə | Arxaya keçdim. |
| diqqətli | diqqətlə yazmaq | Diqqətli uşaqdır. |

| | | |
|---|---|---|
| fikir | sənin fikrin | Fikrini söylə. |
| bağ | bağa köçəndə | |
| | bağ evi | |

İş dəftəri, səh. 72

**c.** Verilmiş sözləri söz birləşməsinin əsas və asılı tərəfi kimi işlət.

Cavab:

| Əsas tərəf kimi | Asılı tərəf kimi |
|---|---|
| enli yol | yolun kənarı |
| dostlarla görüş | görüş keçirmək |
| kitab oxumaq | oxumağın faydası |
| dərsə gedən | gedən uşaqlar |

İş dəftəri, səh. 72

**ç.** Uyğun sözlər əlavə etməklə söz birləşmələrini genişləndir.

Şagirdlərin cavabı müxtəlif ola bilər:
Otağın enli qapısı
Tamaşada oynayan aktyorlar
Mətni diqqətlə oxuyanda
Bağçanın qırmızı gülləri
İşə qayıdan həkim
Dənizdə yaşayan canlılar
Körpənin toppuş əlləri
Misalı asanlıqla həll etmək

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşməsini söz və cümlədən fərqləndirir. | Tapşırıq a, b (dərslik); tapşırıq a, b (iş dəftəri) |
| Söz birləşməsinin asılı və əsas tərəfini müəyyənləşdirir. | Tapşırıq c (dərslik); tapşırıq c (iş dəftəri) |
| Söz birləşməsini genişləndirməklə onun mənasını daha da konkretləşdirir. | Tapşırıq ç (dərslik); tapşırıq ç (iş dəftəri) |

# 2-ci fəsil
# QƏDİM DÖVRÜN ABİDƏLƏRİ

## 1-ci DƏRS
## Misir ehramları

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 126**

**a.** Qədim Misir piramidaları haqqında nə bilirsiniz? Daha nəyi bilmək istəyərdiniz?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir, onları mövzu ətrafında danışmaq üçün istiqamətləndirir.

**Mətnlə iş.** "Misir ehramları" mətni şagirdlər tərəfindən səssiz oxunur. Şagirdlər mənasını anlamadıqları sözləri "Azleks" onlayn lüğəti və yaxud hər hansı bir lüğət vasitəsilə araşdırırlar.

**Dərslik, səh. 127**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 126**

**b.** "Söz mücrüsü"ndən izahlara uyğun sözləri seçin.

Cavab: 1 – firon; 2 – ehram; 3 – mumiyalamaq; 4 – qəsəbə.

**Dərslik, səh. 127**

**c.** Şəkilləri "Söz mücrüsü"ndəki müvafiq sözlərlə uyğunlaşdırın.

Cavab: arxeoloq, labirint, yadplanetli.

**Dərslik, səh. 128**

**ç.** Mətnin məzmununa əsasən suallara cavab verin.

Şagirdlər tapşırığı yerinə yetirməklə mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

Cavab:

1. Qədim Misirdə dövləti fironlar idarə edirdilər. 2. Ehramlar fironları dəfn etmək məqsədilə tikilirdi. 3. Misirin ən böyük ehramı Xeops ehramıdır.

**İş dəftəri, səh. 73**

**a.** "Misir ehramları" mətnində hansı məlumatlar yoxdur?

Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan yaradır.

Cavab:

3. İlk ehramın memarı kim olub? 4. Cizə yaxınlığında arxeoloji qazıntılar nə vaxt aparılıb?

**İş dəftəri, səh. 73**

**b.** Mətnə istinad etməklə cədvəli tamamla.

Tapşırıq şagirdlərin mətndəki faktlar və hadisələr arasındakı əlaqəni müəyyən etmə bacarığını inkişaf etdirir.

Cavab:

1. Qədim Misirdə ehramlar tikilirdi, *çünki vəfat edən fironu qiymətli əşyaları ilə birlikdə ehramın içindəki salonlardan birində saxlayırdılar.*

2. Fironların bədəni xüsusi maddə ilə mumiyalanırdı, *ona görə də dəri mikroblardan qorunur, cəsəd çürümürdü.*

3. Bir çoxları fironların qiymətli əşyalarını əldə etməyə çalışırdılar, *nəticədə ehramın içindəki labirintdən çıxa bilməyib acından ölürdülər.*

**Dərslik, səh. 128**

**d.** Mətnə istinad edərək aşağıdakı fikirləri əsaslandırın və "Misir ehramları" mətninin qeyri-bədii mətn olduğunu sübut edin.

Şagirdlər əvvəlki bölmələrdə bədii və qeyri-bədii mətnlər haqqında məlumat almışlar. Bu məlumatlara əsasən tapşırığı yerinə yetirirlər. Eyni zamanda tapşırıq şagirdlərdə fikrini əsaslandırmaq kimi vacib bacarığı formalaşdırmağa kömək edir.

Cavab:

*Qeyri-bədii mətndə*:

• Müəllifin əsas məqsədi hər hansı bir varlıq haqqında məlumat verməkdir.

*Əsaslandırma*: Mətndə Misir ehramlarının yerləşdiyi ərazi, quruluşu, ölçüləri, tikilmə səbəbi haqqında məlumat verilib.

• Mətndə fərziyyə və arqumentdən istifadə edilib.

*Əsaslandırma*: Mətndə çox qədim dövrlərdə nəhəng ölçülü daşların hansı vasitə ilə qaldırılması, piramidaların tikilməsi haqqında müxtəlif fərziyyələr verilib.

• Mətndə faktlar verilib.

*Əsaslandırma*: Mətndə piramidaların ölçüləri haqqında dəqiq faktlar var.

• Faktların həqiqiliyini internet, ensiklopediya və s. vasitəsilə yoxlamaq olar.

*Əsaslandırma*: Müxtəlif mənbələrdə ən böyük piramida haqqında eyni məlumat verilib.

**İş dəftəri, səh. 73**

**c.** Səncə, nə üçün Misirə səyahət edən turistlər mütləq piramidaları gəzməlidir? Üç səbəb yaz.

Bu tapşırığı yerinə yetirməklə şagirdlər piramidalar haqqında məlumatlı olduqlarını nümayiş etdirirlər. Tapşırıq eyni zamanda şagirdlərin qeyri-bədii mətnlərdəki əsas faktları müəyyən etmə bacarığını inkişaf etdirir. Şagirdlər qeyri-bədii mətnlərin müxtəlif məqsədlərlə yazıldığını artıq bilirlər. "Misir ehramları" mətninin məqsədi oxucuya bu varlıq haqqında dəqiq, sistemli məlumat verməkdir. Lakin reklam vərəqində dəqiq faktlarla yanaşı cəlbedici məlumatlar da yer almalıdır ki, turistləri maraqlandırsın.

Şagirdlər təxminən aşağıdakı səbəbləri yaza bilərlər:

1. Qədim dövrün sirlərini özündə gizlədən tarixi abidələrdən biri də Misir ehramlarıdır.
2. Yəqin ki, ehramın labirintşəkilli dəhlizlər və salonlarında gəzmək həyəcanını yaşamaq istəyərsiniz.
3. Qədim dünyanın ən böyük tikilisi sayılan Xeopsa səyahət unudulmaz olacaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq b, c (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç (dərslik); tapşırıq a (iş dəftəri) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tapşırıq b (iş dəftəri) |
| Bədii və qeyri-bədii mətnlərin məzmun və struktur baxımından fərqini izah edir. | Tapşırıq d (dərslik); tapşırıq c (iş dəftəri) |

# 2-ci DƏRS
# Piramidanın labirintlərində

**Təlim nəticələri:**
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 128**

**a.** Sözləri verilmiş izahlarla uyğunlaşdırın.

Tapşırıqda növbəti mətni oxuyub anlamaq üçün açar sözlər təqdim edilib. Tapşırıq söz ehtiyatını zənginləşdirməklə yanaşı şagirdlərin fikrini mövzuya cəlb edir.

Cavab: 1 – b; 2 – c; 3 – a.

**Dərslik, səh. 128**

**b.** Mətni oxuyun. Suallara cavab verin.

Tapşırıqda XVII əsrdə yaşamış səyyah, tarixçi və yazıçı Övliya Çələbi haqqında məlumat verilmişdir. Övliya Çələbi ilə tanış olan şagirdlər bu dərsdə onun “Səyahətnamə” əsərinin uşaqlar üçün adaptasiya edilmiş variantından bir hissəni oxuyacaqlar.

Cavab:

1. Övliya Çələbi səyyah, tarixçi və yazıçı idi. 2. O, Avropanın, Qafqazın, Afrikanın bir çox ölkələrinə səyahət etmişdir. 3. Çələbi "Səyahətnamə" əsərinin müəllifidir.

Mətnlə iş. Şagirdlər “Piramidanın labirintlərində” mətnini oxuyurlar. Mənasını anlamadıqları sözləri araşdırırlar.

**Dərslik, səh. 129**

Daha sonra müəllim “Söz mücrüsü”ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 131**

**c.** Nöqtələrin yerinə “Söz mücrüsü”ndən müvafiq sözləri artırmaqla cümlələri tamamlayın.

Cavab:

1. Zəhmətim hədər getdiyinə görə mən çox **heyifsilənirdim**. 2. Qar elə parıldayırdı ki, gözlərimi **qamaşdırırdı**. 3. Cavabıma əmin olmadığıma görə **çəkinə-çəkinə** danışırdım. 4. Gecə olmasına baxmayaraq, ayın işığı ətrafı **aydınladırdı**.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 131**

**ç.** Mətnə əsasən suallara cavab verin.

Tapşırıq faktoloji qavramanı yoxlayır. Şagirdlər sualları cavablandırmaqla mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

Cavab:

1. Xəzinə tapmaq istəyirdi.

2. Çələbi piramidaya şimal qapısından girsə idi, xəzinəyə daha tez çatacaqdı.

3. Qapı bağlanır, içəri zülmət qaranlıq olur, hərəkət edə bilmir, xəritəyə baxa bilmir, suala cavab verə bilməzsə, digər otağa keçə bilməzdi. Timsahla dolu çayın üzərindəki ensiz körpünü keçməli idi.

4. Suya rəsm çəkilərmi? Göy üzündə nə qədər ulduz var?

**İş dəftəri, səh. 74**

**a.** “Piramidanın labirintlərində” mətninə əsasən cədvəli tamamla.

<u>Cavab</u>: Çələbi ehrama şimal qapısından girmək qərarına gəldi, *çünki xəzinəyə gedən ən yaxın yol bu qapıdan idi.*

Çələbi suallara vaxtında cavab verə bilməyəcəyindən narahat idi, *çünki cavab verə bilməsə idi, nəinki xəzinəyə çata, heç geri dönə bilməyəcəkdi.*

Çələbi ləl-cəvahirat dolu sandığı tapsa da, onlara sahib ola bilmədi, *çünki sandığın içindəkilər quyuya tökülürmüş kimi aşağı axdı.*

**İş dəftəri, səh. 74**

**b.** "Piramidanın labirintlərində" mətnində səyyaha aid xüsusiyyətləri müəyyənləşdir və obraz xəritəsini tamamla.

Tapşırıq şagirdlərdə tənqidi təfəkkürün inkişafına yönəlmişdir. Şagirdlər mətndəki əsas obrazın xarakterini müəyyənləşdirir. Bu isə öz növbəsində mətnin ideyasının açılmasında şagirdə istiqamət verir. Tapşırıq eyni zamanda əsaslandırma, münasibət bildirmə kimi vacib bacarıqları da inkişaf etdirir.

<u>Cavab</u>:

Obrazın təqdimatı: Çələbi gənc səyyah idi.

Xüsusiyyətləri:

• Dərrakəli, məntiqli idi. O, gözlənilməz suallara anında cavab tapırdı.
• Cəsarətli idi. Qarşısına çıxan çətinliklər onu qorxutmurdu.

Şagirdlərin obraza münasibəti müxtəlif ola bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq a (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b, ç (dərslik) |
| Cümlədə buraxılmış sözü müəyyən edir. | Tapşırıq c (dərslik) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tapşırıq a (iş dəftəri) |
| Obraz xəritəsi tərtib edir. | Tapşırıq b (iş dəftəri) |

# 3-cü DƏRS
# Ebru sənəti

**<u>Təlim nəticələri</u>:**

• Nitqində yeni öyrəndiyi söz və söz birləşmələrindən istifadə edir (st. 2.1.1).
• Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
• Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 131**

**a.** Mətnin planının düzgün ardıcıllığını müəyyən edin. Mətni plan əsasında nəql edin.

Tapşırıq vasitəsilə şagirdlərə keçən dərs oxuduqları "Piramida labirintlərində" mətninin məzmunu xatırladılır. Tapşırıq eyni zamanda danışma bacarığının inkişafına yönəlib.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərin nitqində yeni sözlərdən istifadəni izlətmək tövsiyə edilir.

**Dərslik, səh. 131**

**b.** Verilmiş şəkli oxuduğunuz mətnin müvafiq epizodu ilə əlaqələndirin. Həmin epizodda ebru sənəti haqqında hansı məlumat verilir? Bu sənət növü haqqında bildiklərinizi danışın.

Şagirdlər mətnin tərkib hissələrindən birini, illüstrasiyanı onun məzmunu ilə əlaqələndirərək mətni diqqətlə oxuduqlarını, məzmununu anladıqlarını nümayiş etdirirlər.

Cavab: Mətnin illüstrasiyaya uyğun epizodu:

Elə bir neçə addım atmışdım ki, səs eşidildi:

– Bu otaqdan keçə bilmək üçün bir suala cavab verməlisən.

Mən ayaq saxladım. Səs davam etdi:

– Suya rəsm çəkilərmi?

Bir xeyli düşündüm. Vaxt gedirdi. Cavab verə bilməsəm, nəinki xəzinəyə çata, heç geri dönə bilməzdim.

– Son beş saniyən qaldı. Cavab ver, yoxsa... – ... – Son bir saniyən.

Tez həyəcanla dedim:

– Çəkilə bilər.

– Necə?

– Ebru ilə çəkilər.

– Bildin. İndi o biri otağa keçə bilərsən.

**Dinləmə**

Müəllim dinləmə mətnini səsləndirir.

***Ebru sənəti***

*Ebru Şərq ölkələrinə məxsus sənət növüdür. Bu sənətdə maye üzərində naxışlar çəkilir, daha sonra həmin naxışlar kağıza köçürülür. Ebru sənəti ilə məşğul olan sənətkarlara ebruzən deyirlər.*

*Bir çox alimlərin fikrincə, ebru sənəti XIII əsrdə Səmərqənddə yaranmışdır. Qədim türk dilində bu sənətə “əbrə”, demişlər. Bu söz “dalğavari” mənasını verir. Lakin bəzi alimlər ebrunun daha qədimdə Yaponiyada yarandığını, sonra isə Çində və Türküstanda geniş yayıldığını bildirirlər. Günümüzə çatan ən qədim ebru nümunəsi 1447-ci ildə hazırlanmışdır. Hazırda o, İstanbulda Topqapı sarayında saxlanılır.*

*Ebru rəsmlərini çəkmək üçün xüsusi boya və bizdən istifadə edilir. Əvvəlcə su səthinə boyalar səpilir. Sonra bizlə onları qarışdırmaqla naxışlar salınır. Bu zaman təbii materiallardan istifadə edilir. Boyalar əsasən torpaqdan hazırlanır. Torpağı mərmər üstündə əzərək narın hala salır, sonra içinə öküz ödü qatırlar. Ebru üçün hazırlanmış boyalar suyun üzərində qalır, ona qarışmır. Su üzərində boyalar göy qurşağının rəngləri kimi bir-birinə qarışmır. Onların yapışqanlıq xüsusiyyəti naxışı kağız üzərinə köçürməyə imkan verir.*

*20-ci əsrin əvvəllərində bu sənət artıq unudulmaq üzrə idi. Lakin türkiyəli sənətçi Nəcməddin Okyay bu sənəti inkişaf etdirərək onun yox olmasına imkan vermədi. 2014-cü ildən ebru sənəti UNESCO tərəfindən qorunmağa başlayıb.*

*Ebru sənətinin yaradılmasına bir çox xalqlar iddia etdələr də, hazırda bu sənət türk, eləcə də Azərbaycan ebruzənləri tərəfindən yaşadılır.*

**Dərslik, səh. 131**

**c.** “Ebru sənəti” mətnini dinləyin. Aldığınız məlumatlara əsasən cədvəli tamamlayın.

Şagirdlər oxuduqları “Piramida labirintlərində” və dinləmə mətnində ebru sənəti haqqında məlumat alıblar. Bu tapşırıq şagirdlərdə müxtəlif mətnləri mövzu, məzmun baxımından müqayisə etmə bacarığı formalaşdırır.

Cavab: Oxu mətnindən aldığım məlumat çox qısadır: Ebru ilə suya rəsm çəkilə bilər. Lakin necə, nə vasitəsilə çəkilə biləcəyi haqqında məlumat yoxdur.

Dinləmə mətnində ebru sənəti haqqında ətraflı məlumat verilib. İş prosesi addım-addım izah edilib: Ebru naxışların su üzərinə köçürülməsi ilə hazırlanan sənətdir. Bunun üçün xüsusi boya və bizdən istifadə edilir. Əvvəlcə su səthinə boyalar səpilir. Sonra bizlə onlara forma verilir. Alınan formalar kağıza köçürülür.

**Dərslik, səh. 132**

**ç.** Mətndən müvafiq epizodları danışmaqla baş qəhrəmanın keçirdiyi hissləri təsvir edin.

Şagirdlər obrazın keçirdiyi hiss-həyəcanın əks olunduğu epizodları danışmaqla mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər. Bu tapşırıq eyni zamanda danışma bacarığının inkişafına da yönəlib. Yaxşı olardı ki, şagirdlər nitqlərində yeni öyrəndiyi sözlərdən istifadə etsinlər.

Cavab:

*Qorxu*. Çələbi piramidaya daxil olanda içəri çox qaranlıq idi. O, çəkinə-çəkinə içəri girdi.

*Narahatlıq, həyəcan.* Çələbi bir otaqdan digərinə keçə bilmək üçün bir suala cavab verməli idi. Xeyli düşündü. Vaxt gedirdi. Cavab verə bilməsəydi, nəinki xəzinəyə çata, heç geri dönə bilməyəcəkdi.

*Təəssüf.* Çələbi sandığı tapır, lakin sandığın qapağı açılan kimi içindəkilər sanki quyuya tökülürmüş kimi aşağı axır. O özünü toplayıb əlini uzadınca sandıqda heç nə qalmamışdı. Çələbi çox təəssüflənir.

**Dərslik, səh. 132**

**d.** Mətnə istinad etməklə aşağıdakı fikirləri əsaslandırın və "Piramidaların labirintlərində" mətninin bədii mətn olduğunu sübut edin.

Cavab:

• Müəllifin əsas məqsədi oxucunu müəyyən mənəvi dəyər haqqında düşündürməkdir.

"Piramidaların labirintlərində" mətnindən belə nəticə çıxarmaq olur ki, insanın biliyini heç kim əlindən ala bilməz, lakin var-dövləti hər an itirə bilər. Bilik isə uğurun açarıdır.

• Müəllif hadisələri təxəyyülünə əsasən təsvir edib.

Bu mətndə internet və yaxud başqa mənbələrə əsasən dəqiqləşdirilən faktlar verilməyib.

• Mətndə dialoqlara, obrazın düşüncələrinə yer verilib.

Mətndə Çələbi ilə gözə görünməyən bir səs arasında sual-cavab, dialoqlar yer alıb.

• Mətndə fotoşəkillərdən deyil, rəssamın çəkdiyi illüstrasiyalardan istifadə edilib.

Mətnin müvafiq epizodlarına uyğun illüstrasiyalar çəkilib.

**Dərslik, səh. 132**

**e.** "Misir ehramları" mətnindən verilmiş faktlara bir daha nəzər salın. "Piramidaların labirintlərində" mətnində bu faktların əks olunduğu hissələri oxuyun.

Müəllim şagirdlərin diqqətini dərsliyin 126-cı səhifəsində verilmiş "Misir ehramlarında" mətninə yönəldir.

Cavab:

| Misir ehramları | Piramidaların labirintlərində |
|---|---|
| Bir çoxları fironun qızıl əşyalarını oğurlamaq üçün onun saxlanıldığı otağı tapmağa çalışırdı. Lakin bu heç də asan deyildi. Çünki ehramın içində labirintşəkilli dəhlizlər və salonlar var idi. Otağın yerini dəqiq bilməyən hər kəs labirintə düşürdü. Həftələrlə, aylarla labirintdən çıxa bilməyib acından ölürdü. | Çələbi bir otaqdan digərinə keçmək üçün suallara cavab verir. Bir çox çətin sınaqdan keçir. Sonuncu otaqda ləl-cəvahiratla dolu sandığı tapır. |

| | |
|---|---|
| Misirin ən böyük ehramı Xeops ehramıdır. Bu ehram e.ə. XXVI əsrdə firon Xeopsun şərəfinə tikilmişdir. Piramidanın hündürlüyü 140 metr, hər tərəfinin uzunluğu isə 230 metrdir. | Ehram o qədər böyük idi ki, yanında mən qarışqa boyda olardım. |
| Buraya ehramın şimal tərəfində yerləşən girişdən daxil olmaq mümkün idi. | Xəritədə piramidanın dörd qapısı təsvir olunmuşdu. Gördüm ki, şimal qapısından girsəm, xəzinəyə daha tez çataram. |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn nəql edir. | Tapşırıq a (dərslik) |
| Mətnə çəkilmiş illüstrasiyanı onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq b (dərslik) |
| Müxtəlif mətnləri mövzu, məzmun-struktur, ideya baxımından müqayisə edir. | Tapşırıq c (dərslik) |
| Obrazların keçirdiyi hisslərin səbəbini onların düşdüyü situasiya ilə izah edir. | Tapşırıq ç (dərslik) |
| Bədii və qeyri-bədii mətnlərin məzmun və struktur baxımından fərqini izah edir. | Tapşırıq d, e (dərslik) |

# 4-cü DƏRS
# Artemis məbədi

**Təlim nəticələri:**
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).
- Söz birləşmələri və cümlələrin yazılışında sadə qrammatik normalara əməl edir (st. 4.1.3).

**Mövzuya yönəltmə. Danışma**

**Dərslik, səh. 132**

**a.** Artemis məbədi haqqında araşdırma aparın. Əldə etdiyiniz faktlara və məlumat vərəqinə əsasən Artemis məbədi haqqında qeyri-bədii mətn yazın.

Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlər araşdırmaya cəlb edilirlər. İnternet bağlantısı olan məktəblərdə müəllim bu mövzuda araşdırma aparmaq üçün şagirdlərə linklər təqdim edir. İnternet bağlantısı olmayan məktəblərdə kitablar, jurnallar, məqalələrdən istifadə edilə bilər.

Tapşırığın əvvəlcə şifahi şəkildə yerinə yetirilməsi tövsiyə olunur. Qrup üzvləri Artemis məbədi haqqında məlumat vərəqindəki məlumatları rabitəli cümlələrə çevirərək şifahi danışırlar. Sonra yazı işinə başlayırlar. Əvvəlcə mətn üçün giriş cümlələr yazırlar, mövzunu təqdim edirlər. Daha sonra məlumat vərəqindəki əsas məlumatları sadalayırlar. Əsas hissəyə aid məlumatları yarımbaşlıqlar altında qruplaşdırırlar.

Mətn aşağıdakı məzmunda ola bilər:

***Artemis məbədi***

*Artemis antik dünyanın ən qədim məbədlərindən biridir. Bu məbəd dünyanın yeddi*

*möcüzəsindən biri sayılır.*

*Yerləşdiyi ərazi. Artemis məbədi Türkiyənin Efes şəhərində yerləşir. Efes tarixi yunan şəhəridir. Artemis məbədi Efes şəhərini qoruyan ilahə Artemisin şərəfinə tikilmişdir.*

*İnşa tarixi. Məbəd e. ə. V əsrdə məşhur memar Xarsifronun təklifi ilə tikilmişdir. Məbədin tikintisi bir əsrdən çox – 120 il davam etmişdir.*

*Memarlıq özəllikləri. Ölçüsü: Məbədin uzunluğu 110 metrə, eni isə 55 metrə çatırdı. Məbəd o zamana qədər tikilən yunan məbədləri arasında ən böyük tikili idi. Onun ətrafında 18 metr hündürlüyündə iki cərgə daş sütun ucalırdı. Məbəd daxildən mərmər plitələrlə üzlənmişdi. Əsas zalda Artemisin 15 metr hündürlüyündə, başdan-başa qızıl və daş-qaşla örtülmüş heykəli qoyulmuşdu.*

*Dağılması. Eramızdan əvvəl 356-cı ildə dəhşətli hadisə baş verdi: Artemis məbədi Herostrat adlı şəxs tərəfindən yandırıldı.*

*Bərpası. Eramızdan əvvəl III minilliyin əvvəlində məbəd tamamilə bərpa edilərək əvvəlki görkəminə qaytarıldı. Deyilənə görə, məbədin tikintisi üçün vəsaiti Makedoniyalı İsgəndər ayırmışdı. Artemis məbədi 263-cü ildə qotlar tərəfindən talan edildi, sonradan isə dağıdıldı.*

*Hal-hazırda Artemis məbədinin sınmış sütunlarından biri bərpa edilərək məbədin yerində ucalır. Hər il minlərlə turist məbədin xarabalığını görmək üçün bura gəlir.*

**Dərslik, səh. 132**

**b.** Bir-birinizin yazısını aşağıdakı meyarlara əsasən yoxlayın.

Şagirdlər onlara təqdim edilmiş meyarlar əsasında bir-birilərinin yazısını yoxlayır, düzəlişlər edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq a (dərslik) |
| Özünün və başqasının yazısını ədəbi dilin normalarına uyğun təkmilləşdirir. | Tapşırıq b (dərslik) |

# 5-ci DƏRS
# Cümlə üzvləri

**Təlim nəticələri:**

• Sintaktik vahidlərin (söz birləşməsi, cümlə) konstruksiyasını və semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Dərslikdə verilmiş "a" tapşırığı motivasiya xarakterlidir və şagirdlərin diqqətini mövzuya yönəldir.

**Dərslik, səh. 133**

**a.** Sizcə, aşağıdakı suallar hansı cümlədəki söz sırasına uyğundur?

Şagirdlər cümlədəki sözlərin sualını müəyyənləşdirməklə anlayırlar ki, cümlədəki hər bir söz və ya söz birləşməsi (yaxud ifadə) cümlənin bir üzvüdür və cümlədə iştirak edən hər bir üzv müəyyən bir informasiya ifadə edir.

Cavab: c. Zaur (kim?) məktəb kitabxanasından (haradan?) iki (neçə?) kitab (nə?) götürdü (nə etdi?).

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları şərh edir, cümlə üzvləri haqqında

qaydaları şərh edir.

**Dərslik, səh. 133**

**b.** Cümlələrdə altından xətt çəkilmiş söz və söz birləşmələrinin sualını müəyyən edin.

Tapşırıq şagirdlərin cümlə üzvləri haqqında aldıqları məlumatların möhkəmləndirilməsinə yönəlib. Məqsəd şagirdlərin cümlənin qrammatik əsasını müəyyənləşdirmə bacarığını inkişaf etdirməkdir.

Cavab: 1. Nə?, nə etdi?; 2. Kim?, nə etmişdi?; 3. Hara?, necədir?; 4. Nə?, nə edirdi?

**Dərslik, səh. 133**

**c.** Cümlələrin qrammatik əsasını müəyyən edib yazın.

Cavab: 1. Uşaqlar söhbət edirdilər.
2. Qapı açıldı.
3. Arzu qızdır.
4. Sabir çıxdı.
5. Uşaq təkrar edirdi.

**Dərslik, səh. 133**

**ç.** Uyğun sözlər artırmaqla cümlələri tamamlayın. Əlavə etdiyiniz sözün hansı cümlə üzvü olduğunu müəyyən edin.

Şagirdlər uyğun sözlər və ifadələr əlavə etməklə cümlələri tamamlayır, bununla da sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər. Eyni zamanda mövzu üzrə biliklərini daha dərindən mənimsəyirlər.

Cavab:
1. Sürücü maşını asta-asta ***saxladı***.
2. ***Müəllim*** sevimli şagirdindən belə cavab gözləmirdi.
3. ***Həkim*** xəstəni müayinə edib resept yazdı.
4. Mən kitabxanadan yeni kitab ***götürdüm***.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin cümlə üzvləri haqqında biliklərinin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 75**

**a.** Suallara cavab verən cümlə üzvlərini seçib yaz.

Cavab:
Nələr? – Qaranquşlar.
Nə edirlər? – Uçurlar.
Nə vaxt? – Payızda.
Haraya? – Ölkələrə.
Necə? – İsti.

**İş dəftəri, səh. 75**

**b.** Mübtədası söz birləşməsi ilə ifadə olunmuş cümləni seç.

Bu tapşırığı yerinə yetirməklə şagirdlər söz və söz birləşməsini fərqləndirdiklərini, cümlə üzvləri haqqında aldıqları məlumatları mənimsədiklərini nümayiş etdirirlər.

Cavab: c. Mənim qardaşım cüdo üzrə yarışda iştirak edəcək.

**İş dəftəri, səh. 75**

**c.** Hansı cümlənin xəbəri söz birləşməsi ilə ifadə olunub?

Cavab: c. Yarışda qalib gələn oğlan İradənin qardaşıdır.

**İş dəftəri, səh. 75**

**ç.** Hansı cümlə yalnız baş üzvlərdən ibarətdir?

Cavab: b. Məktəbimizin şagirdləri qalib gəldilər.

**İş dəftəri, səh. 75**

**d.** Verilmiş söz və söz birləşmələrini cümlədə mübtəda vəzifəsində işlət.

Cümlə nümunələri:

1. Uğur qazanmaq hamının arzusudur.
2. Şagird kitablarını kitabxanaya qaytardı.
1. Uşaqlardan ən kiçiyi yavaş-yavaş ayağa qalxdı.
2. Çalışmaq uğura gedən yoldur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlənin qrammatik əsasını müəyyən edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# 3-cü fəsil
# YADPLANETLİLƏR

## 1-ci DƏRS
## Yaşılgözlü qız

**Təlim nəticələri:**
• Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır (st. 2.1.2).
• Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
•Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma**
**Dərslik, səh. 134**

**a.** Günəş sistemində Yerdən başqa hansı planetlər var? Bu planetlər haqqında bildiklərinizi danışın.

Şagirdlər, çox güman ki, müxtəlif mənbələrdən: Həyat bilgisi fənnindən, oxuduqları kitablardan bu mövzu ilə bağlı müəyyən məlumatlar almışlar. Müəllim yönəldici suallarla onları bildiklərini xatırlamağa sövq edə bilər. Şagirdlər tapşırıqda qoyulmuş sual ətrafında bildiklərini danışır və bu mövzu haqqında bilgilərini nümayiş etdirirlər.

Cavab: Günəş sistemində Yerdən başqa Merkuri, Venera, Mars, Yupiter, Saturn, Uran və Neptun kimi planetlər də var.

**Mətn üzrə iş. Oxu. Danışma**
**Dərslik, səh. 134**

**b.** Mətnin hissələrini oxuyun və məzmununa uyğun yarımbaşlıqla adlandırın.

Oxudan əvvəl müəllim şagirdlərə yarımbaşlıqlar haqqında aldıqları məlumatları xatırladır. Mətn böyük olduğu üçün qruplarla oxu təşkil edilir. Müəllim şagirdləri qruplara ayırır. Mətnin hissələrini qruplar arasında bölüşdürür.

Qruplar mətnin müəyyən bir hissəsini oxuyub mətnin bitkin hissələrini uyğun yarımbaşlıqlarla adlandırırlar. Yarımbaşlıqlar təxminən belə ola bilər:

I hissə: Qəza.
II hissə: Lemi ilə tanışlıq.
III hissə: Lemi məktəbdə.

**Söz ehtiyatı**. Mətn oxunduqdan sonra ilk növbədə söz ehtiyatı üzərində iş aparılır. “Söz mücrüsü”ndəki və şagirdlərin mənasını anlamadıqları digər sözlər izah edilir.

Sonda qruplar mətnin hissələrini ardıcıl olaraq nəql edirlər. Bununla da şagirdlərdə mətnin bütün hissələri üzrə tam təsəvvür formalaşır.

**Müəllimin nəzərinə!** Mətn nəql olunan zaman şagirdlərin obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirmələrinə diqqət edilməsi tövsiyə olunur.

**Faktoloji qavrama**
**Dərslik, səh. 137**

**c.** Mətnə əsasən aşağıdakı sualları cavablandırın.

Şagirdlər tapşırıqdakı suallara cavab verməklə mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

Cavab:

1. Lemi tələsib paraşüt-şarın düyməsini basdı və paraşüt açılıb onu Yerə endirdi.
2. Lemi Aysellə məktəbin həyətində tanış oldu.

3. Lemi indiyə qədər heç telefon görməmişdi.
4. Leminin planetində insanlar bir-biri ilə saatla əlaqə saxlayırdılar.
5. Uşaqlar Leminin qonşuları Aidə xalanın yanında qalmasına qərar verdilər.

**İş dəftəri, səh. 76**

**a.** Epizodları "Yaşılgözlü qız" mətnindəki hadisələrin ardıcıllığına uyğun sırala.

Şagirdlər mətndəki hadisələrin ardıcıllığını müəyyən etməklə mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

Cavab: 1. Planetlərə səyahət; 2. Gözlənilməz qəza; 3. Yerə eniş; 4. Yeni tanışlar; 5. Ana ilə söhbət; 6. İlk dəfə sinifdə.

**İş dəftəri, səh. 76**

**b.** Kan və Leminin rastlaşdıqları planetlərin adını yaz. Mətnə və şəxsi biliklərinə əsasən bu planetləri təsvir et.

Şagirdlər bu tapşırığı yerinə yetirməklə həm mətndən, həm də həyat bilgisindən bu mövzu haqqında bildiklərini nümayiş etdirirlər. Şagirdlər təxminən bu cavabları verə bilərlər:

| Planetin adı | Əlamətləri |
|---|---|
| Neptun | açıq-mavi rəngli planet |
| Uran | yaşılımtıl-mavi rəngli planet |
| Yer | sarımtıl-mavi rəngli planet |

**İş dəftəri, səh. 76**

**c.** Mətnə istinad etməklə cədvəli tamamla.

Şagirdlər tapşırıqda verilmiş hadisələr arasında səbəb və nəticə əlaqəsini müəyyənləşdirib cədvəli tamamlayırlar.

Cavab:

Lemi xilasedici paraşüt-şarla Yerə endi, *çünki səyahətə çıxdığı kosmik gəmi qəzaya uğramışdı.*

Aysel və Kənan Leminin yadplanetli olmasını gizli saxladılar, *çünki böyüklərin onlara inanacağını düşünmürdülər.*

Leminin qurduğu məsələlər uşaqları güldürdü, *çünki istifadə etdiyi rəqəmlər məntiqə sığmayan dərəcədə yüksək idi.*

**Dərslik, səh. 137**

**ç.** Sizcə, nə üçün uşaqlar Leminin yadplanetli olduğunu gizli saxladılar?

Cavab: Uşaqlar böyüklərin Leminin yadplanetli olmasına inanmayacaqlarını düşündülər.

**Dərslik, səh. 137**

**d.** Leminin qurduğu riyazi məsələlərə əsasən onun yaşadığı planet haqqında hansı məlumatları almaq olur?

Tapşırıq şagirdlərin ehtimal irəli sürmək bacarıqlarının formalaşdırılmasına kömək edir. Şagirdlər təxminən bu ehtimalları söyləyə bilərlər:

• Yəqin, Leminin yaşadığı planetdə texnologiya çox inkişaf edib. Orada daha sürətli avtomobillərdən istifadə olunur.

• Leminin planetində insanlar daha çox yaşayırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Mətnin tərkib hissələrini yarımbaşlıqlarla adlandırır. | Tapşırıq b (dərslik) |

| | |
|---|---|
| Mətn üzrə faktoloji sualları cavablandırır. | Tapşırıq c (dərslik); tapşırıq b (iş dəftəri) |
| Mətndəki hadisələrin ardıcıllığını müəyyən edir. | Tapşırıq a (iş dəftəri) |
| Mətndəki hadisələr arasındakı səbəb-nəticə əlaqəsini müəyyən edir. | Tapşırıq c (iş dəftəri) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tapşırıq ç, d (dərslik) |

# 2-ci DƏRS
# Yaşılgözlü qız

**Təlim nəticələri:**
- Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir (st. 3.1.4).
- Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).
- Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).

**Mövzuya yönəltmə.** Müəllim "Yaşılgözlü qız" əsərini xatırlatmaq məqsədilə şagirdlərə suallar verir:
- Yaşılgözlü qız kim idi?
- Lemi Yer planetinə nə üçün gəlmişdi?
- O, Yer planetində kimlərlə qarşılaşdı?
- Başına hansı hadisələr gəldi?

**Dərslik, səh. 137**

**a.** Sizcə, Leminin Yer planetində sərgüzəştləri nə ilə bitəcək? Hadisələrin davamını təxmin edin.

Müəllim şagirdləri fəaliyyətə cəlb etmək üçün istiqamətləndirici suallar verir:

• Dərslikdə Leminin Yer planetindəki macəralarına dair bir hissə təqdim olunmuşdur. Sizcə, Leminin taleyi necə olacaq? O öz planetinə qayıdacaqmı?

Şagirdlərin hadisələrin davamı ilə bağlı fikirləri dinlənilir.

**Dinləmə**

**Dərslik, səh. 137**

**b.** "Yaşılgözlü qız" mətninin ardını dinləyin və öz variantınızla müqayisə edin.

Müəllim "Yaşılgözlü qız" əsərinin sonluq hissəsini səsləndirir. Şagirdlər mətni dinləyir və öz variantları ilə müqayisə edirlər.

**Dinləmə mətni**

***Leminin öz planetinə qayıdışı***

*Kənan internetdə araşdırma etdi. Öyrəndi ki, yadplanetlilərlə nə vaxtsa ünsiyyətdə olanların öz saytı var. Onlar bir-biri ilə əlaqə saxlayırlar. Kənan da o sayta üzv olub yadplanetli yaşılgözlü bir qızla tanış olduğunu yazdı. Buna qarşılıq olaraq Kənana məktub gəldi. Məktubda yazılmışdı:*

*– Yadplanetli yaşılgözlü qızla maraqlanıram. Lütfən, imeylimə cavab yazmağınızı istərdim: 1667663.*

*Kənan məktubu Lemiyə göstərdi. Lemi "Bu, Kanın imeyl ünvanıdır! – deyə həyəcanla qışqırdı. Uşaqlar məsləhətləşib Kana cavab yazdılar. Beləcə, Lemi və dostları Kanla əlaqə yaratmağa nail oldular. Məsləhətləşib görüşmək üçün vaxt və məkanı qərarlaşdırdılar.*

*Kənan hər şeyi atasına danışdı. Atası ona inanmasa da, razılaşdı:*

*– Yaxşı, de görüm, məndən nə kömək istəyirsən?*

*– Ata, bu gün Lemi öz planetinə qayıtmalıdır. Kosmik gəmidə onun dalınca gələnlər axşam saat səkkizdə şəhər kənarında onu gözləyəcəklər. Vaxtımız çox azdır, biz onu yola salmalıyıq. Bizi maşınla apararsan?*

*Atası fikrə getdi. Kənan intizarla onun üzünə baxırdı.*

*– Hə, Kənan! Bütün bunların uydurma olduğunu sənə sübut etmək üçün başqa yol yoxdur! Gedək, görək!*

*Nəhayət, maşın həyətdən çıxdı. Uşaqlar rahat nəfəs aldılar. Həyəcanını gizlədə bilməyən Leminin gözü qolundakı iri saatda idi. O, Kandan siqnal gözləyirdi. Maşın boz torpaqlı bir ərazidə dayandı.*

*– Buradır, – Lemi əli ilə göstərdi, – mən paraşütlə buraya düşmüşdüm!*

*Uşaqlar maşından çıxdılar. Birdən Leminin qolundakı saatın işıqları yanıb-sönməyə başladı. Bu, siqnal idi. Hamı sevinclə qışqırdı:*

*– Ura!!!*

*Göyün bir hissəsi işıqlanmağa başladı. Kosmik gəmi yavaş-yavaş Yerə enərək onlardan bir qədər aralıda dayandı. Aysel Lemiyə tərəf döndü. Qızlar qucaqlaşdılar, göz yaşları bir-birinə qarışdı. Kənanın atası heyrət içində donub qalmışdı. Lemi ona baxıb gülümsədi.*

*– Yalan söylədiyimizə görə bizi bağışlayın.*

*– Bilmirəm nə deyim, bəlkə də, düz eləmisiniz, – söyləyən ata Lemi ilə sağollaşdı.*

*Lemi saatını qolundan açıb uşaqlara hədiyyə etdi və sağollaşaraq onu gözləyən gəmiyə tərəf getdi. Avtomatik açılan qapıdan içəri daxil olub gözdən itdi.*

**Dərslik, səh. 137**

**c.** Suallara əsasən “Yaşılgözlü qız” mətninin məzmununu nəql edin.

Mətn dinlənildikdən sonra “c” tapşırığının yerinə yetirilməsi şagirdlərin mətnin məzmununu nə dərəcədə qavradıqlarını yoxlayır.

Cavab:

1. Kənan Kan ilə internet vasitəsilə əlaqə yaratdı.
2. Kənan atasından kömək istədi.
3. Leminin qolundakı saatın işıqları yanıb-sönməyə başladı və o, kosmik gəminin yaxınlaşdığını anladı.
4. Lemi vidalaşanda uşaqlara saatını hədiyyə etdi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni təxəyyülünə uyğun davam etdirir. | Tapşırıq a (dərslik) |
| Müxtəlif mətnləri mövzu, məzmun-struktur, ideya baxımından müqayisə edir. | Tapşırıq b (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c (dərslik) |

# 3-cü DƏRS
# Yadplanetli ilə görüş

**Təlim nəticələri:**

• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə. Danışma.** Müəllim aşağıdakı suallar vasitəsilə şagirdləri mövzu ətrafında danışmağa cəlb edir:

• Nə üçün yadplanetlilərin mövcudluğuna inam var?
• Yadplanetlilərin mövcudluğu sübut olunubmu?

**Yazı**

**Dərslik, səh. 137**

**a.** Təsəvvür edin ki, yadplanetli ilə qarşılaşmısınız. Bu haqda hekayə yazın.

Tapşırıq şagirdlərin hekayə yazmaq bacarıqlarını nümayiş etdirməsinə imkan yaradır. Əvvəlcə mövzu ətrafında müzakirə aparılır. Müəllim aşağıdakı sual ilə beyin həmləsi edə bilər:

– Yadplanetlilər texnoloji cəhətdən bizdən üstündürlər. Bu üstünlük insanlar üçün təhlükəlidirmi?

Kollektiv müzakirə zamanı şagirdlərin yadplanetlilər haqqında fikirləri dinlənilir. Şagirdlər tapşırıqda verilmiş situasiya ətrafında hekayə yazarkən əvvəlcə onlara qarşı hansı fikirdə olduqlarını müəyyənləşdirirlər.

Yadplanetlilər Yer planetinə hansı məqsədlərlə gəlirlər? Onlar mərhəmətli, xeyirxahdır, yoxsa Yer planetini ələ keçirmək məqsədilə buraya gəliblər? Daha sonra şagirdlər yazacaqları hekayənin planını tərtib edirlər.

Diferensial təlim. Müəllim şagirdlərin səviyyəsini nəzərə alaraq kömək məqsədilə plan nümunəsi təqdim edə bilər.

Hekayənin planına nümunə:

1. Uçan boşqabın gəlişi
2. Yadplanetlinin təsviri
3. Yadplanetli ilə söhbət

**Müəllimin nəzərinə!** Müəllimin şagirdlərə hekayə yazmaq üçün tövsiyələr verməsi vacibdir. Şagirdlər əvvəlki bölmələrdə hər iki mətn tipi (bədii və qeyri-bədii), onların məzmun və struktur xüsusiyyətləri haqqında məlumatlara yiyələniblər. Mətnin hissələri xatırlanır:

– Çox zaman bədii mətnin giriş hissəsində hadisələrin baş verdiyi məkan, zaman və baş qəhrəman təsvir edilir.

– Əsas hissə çox zaman qəhrəmanın rastlaşdığı problemlə başlanır. Baş qəhrəmanın başına gələn hadisələr, problemlərin həlli təsvir edilir.

– Mətnin sonluğunda hadisələrin nəticəsi təsvir edilir.

Şagirdlərin özünü qiymətləndirməsi məqsədilə onlara meyarlar təqdim edilə bilər.

| Meyarlar | Bəli | Xeyr | Qismən | Qeydlər |
|---|---|---|---|---|
| Mətnin giriş hissəsində hadisələrin baş verdiyi məkan təsvir edilmişdir. | | | | |
| Mətnin giriş hissəsində hadisələrin baş verdiyi zaman haqqında məlumat var. | | | | |
| Mətnin giriş hissəsində baş qəhrəman təsvir edilmişdir. | | | | |
| Əsas hissədə baş qəhrəmanın başına gələn hadisələr, problemlərin həlli təsvir edilmişdir. | | | | |
| Mətnin sonluq hissəsi yazılmışdır. | | | | |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Cümlədə söz sırası. Cümlənin məqsəd və intonasiyaya görə növləri

**Təlim nəticələri:**
• Yazarkən cümlədə söz sırasına əməl edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 138**

**a.** Hansı cümlədə xəbər cümlənin ortasında işlənib?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir. Şagirdlər əvvəlki fəsildə cümlə üzvləri haqqında aldıqları məlumatlara istinad edərək cümlələrin xəbərini müəyyənləşdirirlər.

Cavab: 3. Yolunuz ***düşdümü*** bizim Şirvana? (Səməd Vurğun)

Müəllim "Bunları bilməliyik" rubrikasındakı məlumatları şərh edərək şagirdlərə cümlədə söz sırası haqqında qaydaları şərh edir. Qayda izah edilərkən Azərbaycan dilində xəbərin cümlənin sonunda gəldiyi vurğulanır.

**Dərslik, səh. 138**

**b.** Şeirin hansı misralarında söz sırası pozulub? Həmin cümlələri düzgün söz sırası ilə yazın.

Cavab: Şeirin 3-cü və 4-cü misralarında söz sırası pozulub.
Çiçəklər, güllər açdı.
Bülbüllər dilə gəldi.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları şərh edir. Cümlənin məqsəd və intonasiyasına görə növlərini nümunələrlə izah edir.

**Dərslik, səh. 138**

**c.** Cümlələrin növünü müəyyən edin. Sonunda uyğun durğu işarələri qoymaqla cümlələri köçürün.

Cavab:
1. Gülnar yavaş-yavaş ceyrana yaxınlaşdı. (nəqli cümlə)
2. Bəh-bəh, çox dadlıdır! (nida cümləsi)
3. Nə üçün məhz bu kitabı seçdin? (sual cümləsi)
4. Otağını səliqəli saxla. (əmr cümləsi)

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin cümlədə söz sırası və cümlənin məqsəd və intonasiyasına görə növləri haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlmişdir.

**İş dəftəri, səh. 77**

**a.** Hansı cümlədə mübtəda ortada gəlir?

Cavab: a. Rəsm sərgisində maraqlı **əsərlər** nümayiş etdirildi.

**İş dəftəri, səh. 77**

**b.** Söz sırasını bərpa edərək cümlələri köçür.

Cavab:
1. Dostun üzünə qapını bağlama.
2. Adil ol, bütün ömrünü şad yaşa.
3. Ədalət hər zaman məsləhətə möhtacdır.

**İş dəftəri, səh. 77**

**c.** Hansı cümlənin sonunda mütləq sual işarəsi qoyulmalıdır?

Cavab: b. Sən hansı ölkəyə aid reklam vərəqi hazırlayacaqsan?

**İş dəftəri, səh. 77**

**ç.** Əmr cümləsini göstər. (Cümlələrin sonunda durğu işarələri buraxılıb)

Cavab: c. Xahiş edirəm, paltolarınızı asılqandan asın.

**İş dəftəri, səh. 77**

**d.** Verilmiş söz və söz birləşmələrindən istifadə etməklə cümlələr qur.

Cavab:
1. Nəqli cümlə: Şəhərdə musiqi festivalı keçirildi.
2. Sual cümləsi: Musiqi festivalı harada keçirildi?
3. Əmr cümləsi: Şəhərdə musiqi festivalı keçirin.
4. Nida cümləsi: Ura, şəhərdə musiqi festivalı keçirilir!

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yazarkən cümlədə söz sırasına əməl edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

# Ümumiləşdirici təkrar

**<u>Təlim nəticələri</u>:**
• Sintaktik vahidlərin (söz birləşməsi, cümlə) konstruksiyasını və semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).
• Söz birləşmələri və cümlələrin yazılışında sadə qrammatik normalara əməl edir (st. 4.1.3).

**Dərslik, səh. 139**

**1.** Söz birləşmələrini seçib oxuyun.

Şagirdlər bu tapşırığı yerinə yetirməklə söz, söz birləşməsi və cümləni fərqləndirdiklərini nümayiş etdirirlər.

<u>Cavab</u>: idman malları mağazası, yamyaşıl ot, Adilgilin həyəti.

**Dərslik, səh. 139**

**2.** Söz birləşmələrinin əsas və asılı tərəfini müəyyən edin. Asılı tərəfini dəyişməklə yeni söz birləşmələri yaradın.

<u>Cavab</u>: 1 – salat hazırlamaq; 2 – qırmızı karandaş; 3 – müəllimin məsləhəti; 4 – şahinin iti gözləri; 5 – evdə oturanda; 6 – Gəncə şəhəri; 7 – balaca otaq; 8 – sözün kökü; 9 – sürətlə getmək.

**Dərslik, səh. 139**

**3.** Hansı cümlədə mübtəda söz birləşməsi ilə ifadə olunub?

<u>Cavab</u>: c. *Atasının sözləri* ona təsir etmişdi.

**Dərslik, səh. 139**

**4.** Cümlələrin qrammatik əsasını müəyyənləşdirin.

<u>Cavab</u>:
1. Rəhman müəllim qarşılaşdı.
2. Heyvanlar təsvir olunub.
3. Günəşin zəif şüaları düşürdü.
4. Aqil çıxdı.

**Dərslik, səh. 139**

**5.** Misralarda söz sırasını bərpa etməklə cümlələri köçürün.

<u>Cavab</u>: Qışın ayazı getdi. İlin yazı parladı. Dağlarda qar əridi. Bulanıq sellər axar. Yaz xoş xəbərlə gəlmiş. Hər yanda iş canlanır. Traktorlar səslənir. Qoyun-quzu bəslənir.

**Dərslik, səh. 139**

**6.** Verilmiş cümlələri qruplaşdırın.

<u>Cavab</u>:

*Nəqli cümlələr:*
• Məktəbin iclas zalında idik.
• Xalqımızın ən əziz bayramlarından biri Novruzdur.
• Külək bala sərçəni yuvasından yerə salmışdı.

*Əmr cümləsi:*
• Gəlin birlikdə teatra gedək.
• Çürümüş meyvələri seçib bu qutuya yığın.

*Sual cümləsi:*
• Kim bizimlə gedəcək?
• İşlərini nə vaxt bitirəcəksən?

*Nida cümləsi:*
• Ura, tapdıq!

- Kömək edin!
- Yaşasın Azərbaycan Ordusu!

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşməsini söz və cümlədən fərqləndirir. | Tapşırıq 1 (dərslik) |
| Söz birləşməsinin asılı və əsas tərəfini müəyyənləşdirir. | Tapşırıq 2 (dərslik) |
| Cümlənin qrammatik əsasını müəyyənləşdirir. | Tapşırıq 3, 4 (dərslik) |
| Yazarkən cümlədə söz sırasına əməl edir. | Tapşırıq 5 (dərslik) |
| Cümlələri məqsəd və intonasiyasına görə fərqləndirir. | Tapşırıq 6 (dərslik) |

## Kiçik summativ qiymətləndirmə

İş dəftərinin 78-79-cu səhifələrindəki materiallar KSQ-yə hazırlıq məqsədilə verilmişdir. Qiymətləndirmə oxu və yazı məzmun xətlərini əhatə edən aşağıdakı meyarlar üzrə aparılır.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq 1 (iş dəftəri) |
| Mətndəki faktların fikri necə dəstəklədiyini müəyyənləşdirir. | Tapşırıq 2 (iş dəftəri) |
| Bədii və qeyri-bədii mətnlərin məzmun və struktur baxımından fərqini izah edir. | Tapşırıq 3 (iş dəftəri) |
| Söz birləşməsini söz və cümlədən fərqləndirir. | Tapşırıq 4 (iş dəftəri) |
| Söz birləşməsinin asılı və əsas tərəfini müəyyənləşdirir. | Tapşırıq 5 (iş dəftəri) |
| Cümlənin qrammatik əsasını müəyyənləşdirir. | Tapşırıq 6, 7 (iş dəftəri) |
| Yazarkən cümlədə söz sırasına əməl edir. | Tapşırıq 8 (iş dəftəri) |
| Cümlələri məqsəd və intonasiyasına görə fərqləndirir. | Tapşırıq 9 (iş dəftəri) |

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 5-ci sinifləri üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2024-07)*
***metodik vəsaiti***

**Tərtibçi heyət:**

Müəlliflər: **Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Reyhan Həbibli**

Dil-üslub redaktoru: D**ilrüba Cəfərova**
Texniki redaktor: **Rəşad Nəbiyev**
Dizayner: **Nərmin Həsənova**
Korrektor: **İradə Musalı**

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8402-5-4

Hesab-nəşriyyat həcmi: 11,5. Fiziki çap vərəqi: 13,5.
Səhifə sayı: 184. Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Calibri 11.3 pt. Ofset kağızı. Ofset çapı.
Bakı – 2024.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 09.02.2024

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).